# Həzrəti İsa (ə.s)-ın gəliş əlamətləri

Şübhəsiz ki, Qiyamət saatı yaxınlaşaraq gəlir; bunda heç şübhə yoxdur. Lakin insanların əksəriyyəti iman gətirmir. (Mümin surəsi, 59)

Şübhəsiz ki, o (İsa) Qiyamət saatı üçün bir elmdir (əlamətdir)... (Zuxruf surəsi, 61)

## Harun Yəhya

## (Adnan Oktar)

# İçindəkilər

*Giriş*

*Allahın vədi: hz. İsa (ə.s) yer üzünə qayıdacaq*

*Quranda hz. İsa (ə.s)-ın Allah qatına qaldırılması*

*Hz. İsa (ə.s)-ın dünyaya ikinci dəfə gəlişi*

*Qurandan dəlillər*

*Hədislərdən dəlillər*

*Hz. İsa (ə.s)-ın qayıtmasının xəbərçiləri*

*Qiyamət əlamətləri*

*Bir-birləriylə dəstəklənən elçilər*

*Hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) bu əsrdə gələcək*

*Elçilərə qarşı çıxanlar*

*İncildəki açıqlamalar*

*Hz. İsa (ə.s)-ın yer üzünə gəliş əlamətləri*

*İslami mənbələrdə qeyd olunan əlamətlər*

*1) Ayın yarılması*

*2) İran-İraq müharibəsi*

*3) Fərat və Dəclə arasındakı böyük müharibə*

*4) Əfqanistanın işğalı*

*5) Fəratın suyunun kəsilməsi*

*6) Ramazan ayında Ay və Günəş tutulmaları*

*7) Quyruqlu ulduzun çıxması*

*8) Buynuzu xatırladan ikibaşlı ulduzun çıxması*

*9) Kəbə basqını və Kəbədə qan axıdılması*

*10) Şərq tərəfdən bir odun görünməsi*

*11) Böyük bir hadisənin meydana gəlməsi*

*12) 1979-cu ildə İstanbulda baş verən güclü gəmi partlayışı*

*13) Günəşdə bir əlamətin meydana çıxması*

*14) Günəş tutulması*

*15) Sistemlərin dəyişməsi*

*16) Tozlu dumanlı fitnə*

*17) Geniş yayılmış qətliamların baş verməsi*

*18) Şam və Misir məliklərinin öldürülməsi*

*19) Keçmiş İordaniya kralı Abdullahın öldürülməsi*

*20) Misirlilərin əsir alınması*

*21) Şəhərlərin yox olması*

*22) Viran qalmış ərazilərin abadlaşdırılması*

*23) Dördüncü Sülh və Ərəb-İsrail müharibəsi*

*24) Bir ordunun itməsi*

*25) İraqlıların pulu qalmayacaq*

*26) Bağdadın alovlarla yox edilməsi*

*27) İsrail-Fələstin sülh danışıqları*

*28) İraq və Şama embarqo*

*29) İraqın yenidən qurulması*

*30) İraq xalqı Şama, şimala qaçar*

*31) Şamda fitnələr*

*32) Şam, İraq, Ərəbistanda qarğaşalıq*

*33) İraqın üç hissəyə bölünməsi*

*34) Böyük iqtisadi böhran yaşanması*

*35) Məhəlləarası döyüşlərin baş verməsi*

*36) 20-ci əsrin əvvəlində baş verən Ərəb-İsrail müharibələri*

*37) Günahsız uşaqların öldürülməsi*

*38) Fitnələrin çoxalması*

*39) Hər yerə çatan bir fitnə*

*40) Haramların halal sayılması*

*41) Allahın açıqca inkar edilməsi*

*42) Allahdan başqa ilahlar qəbul edilməsi*

*43) Materialist fəlsəfənin yayılmasına işarələr*

*44) Anarxiya və qarğaşalıq günləri*

*45) Sülhün aradan qalxması*

*46) Qiyamların olması*

*47) İnsanların bir-birindən qaçması*

*48) Dünyanı qarışıqlıq və qarğaşalıqların bürüməsi*

*49) Böyük hadisələrin və heyrətləndirici şeylərin meydana gəlməsi*

*50) Kosmosda insan əli formasında bir təsvir yaranması*

*51) Bəzi müsəlmanların vəziyyəti*

*52) İslam aləminin mövcud mövqeyi*

*53) Müsəlmanların bir-birləri ilə vuruşması*

*54) Müsəlmanların məruz qaldığı şiddətli bəlalar*

*55) Günahsız insanların öldürülməsi*

*56) İnsanların səbəbsiz yerə öldürülməsi*

*57) Hər yerdə qarğaşalığa səbəb olan fitnələr*

*58) Hz. Mehdi (ə.s)-ın çıxışından ümid kəsilməsi*

*59) Kasıblıq və aclıq*

*60) Quraqlıq*

*61) Müəyyən illərdə pozulan iqtisadiyyat*

*62) Ticarət və yolların kəsilməsi*

*63) Qazancın azalması*

*64) Milli sərvətin zənginlər arasında bölüşdürülməsi*

*65) Zəlzələlərin çoxalması*

*66) Torpaq çökmələri*

*67) Evlərin məzar olması*

*68) Külək və qasırğalar*

*69) Şiddətli yağışın yağması*

*70) İldırımların çoxalması*

*71) Haqq dinin və Quran əxlaqının tərk edilməsi*

*72) Quranın lazımınca düşünülməməsi*

*73) Müsəlmanların qeyri-müsəlmanlara qibtə etməsi*

*74) Qurandan uzaqlaşdıran fitnələr*

*75) İslam əxlaqından uzaqlaşdıran təbliğatlar*

*76) İkiüzlü və saxtakar din xadimləri*

*77) Siyasət adamlarındakı degenerasiya*

*78) "Yaxşı əməlləri əmr etmək, pis əməlləri qadağan etmək" ibadətinin tərk edilməsi*

*79) Maruf (yaxşı əməllər, doğruluq) ilə münkərin (pis əməllərin) bir-biriylə qarışdırılması*

*80) Yaxınlarının insanı pis əməllərə təşviq etməsi*

*81) Həqiqi möminlərin sayca çox az olması*

*82) Came və məscidlərin fərqli məqsədlərlə istifadə edilməsi*

*83) Quranı mənfəət naminə oxuyanların çıxması*

*84) Ulduz falına inanılması və taleyin inkar edilməsi*

*85) Həccin Allah rizası üçün deyil, başqa məqsədlər üçün yerinə yetirilməsi*

*86) İnsanların nəfsani ehtiraslarına önəm vermələri*

*87) İctimai pozulma*

*88) Xainlərə etimad edilməsi, dürüstlərin xain sayılması*

*89) Etibarlı insanların azalması*

*90) Əmanət əhli insanların azalması*

*91) Zəkatın tərk edilməsi*

*92) Namaz ibadətinin tərk edilməsi*

*93) Yalançı şahidlik və iftiranın yayılması*

*94) Bələd olmayan insanlara məsuliyyət verilməsi*

*95) Üstünlüyün təqvada deyil, zənginlikdə axtarılması*

*96) İnsani münasibətlərin pozulması*

*97) Heyvanlara insanlardan çox dəyər verən insanlar*

*98) Ailəvi münasibətlərin pozulması*

*99) İnsanlar arasında sevgi və hörmətin azalması*

*100) Ailə qurumunun zəifləməsi*

*101) Dünya ehtirasının çoxalması*

*102) Riyakarlıq və göstərişin hakim olması*

*103) Kobud söz və söyüşlərin yayılması*

*104) Saxtakarlıq və rüşvətin çoxalması*

*105) Dedi-qodu və lağlağanın çoxalması*

*106) Bəzi gənclərin din əxlaqından uzaqlaşması*

*107) Əxlaqi tənəzzül*

*108) Zinanın çoxalması*

*109) Homoseksuallığın qəbul edilməsi*

*110) Epidemik xəstəliklər*

*111) Quş qripi və donuz qripi*

*112) Ani ölümlərin çoxalması*

*113) Cinayətlərin çoxalması*

*114) İntihar hadisələrinin çoxalması*

*115) Vətəndaş müharibələri-ixtilaflar*

*116) Savadlıların çoxalması*

*117) Zamanın qısalması*

*118) Şəhərləşmənin sürətlənməsi*

*119) Hündür binaların inşa edilməsi*

*120) Bazarların yaxınlaşması*

*121) İnsanın qamçısının ucuyla danışması*

*122) İnsana öz səsinin danışması*

*123) Məhsul artımı*

*124) Səhraların yaşıllaşdırılması*

*125) Ömürlərin uzanması*

*126) Saxta məsihlərin ortaya çıxması hz. İsa (ə.s)-ın gəlişinin xəbərçisidir*

## *İncildə Məsihin qayıdış əlamətləri*

*127) Saxta məsihlərin çıxması*

*128) Bəzi insanların Məsihin gəlişindən ümid kəsməsi*

*129) Zəlzələlərin çoxalması*

*130) Qıtlığın olması*

*131) Böyük müharibələrin yaşanması*

*132) Sevginin azalması, kin və qəzəbin artması*

*133) İnsanların din əxlaqından uzaqlaşması*

*134) İnsanlara dəhşət verən fəlakətlərin yaşanması*

*135) Epidemik xəstəliklərin yayılması*

*136) Dini mənfəətlərinə alət edən insanların ortaya çıxması*

*137) Göy üzündə fövqəladə hadisələrin yaşanması*

*138) Əxlaqi pozulma*

*139) Səmimi iman gətirənlərin təzyiqə məruz qalması*

*140) İman gətirənlərin çəkinməli olduqları fitnələrin ortaya çıxması*

*141) İnsanlara əzab və sıxıntı verən hadisələrin yaşanması*

*142) Dəccalın çıxması*

*Hz. İsa (ə.s) bu əsrdə gələcək*

*Nəticə: hz. İsa (ə.s)-ın mübarək dövrü*

*Əlavə hissə: təkamül yanılması*

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Giriş

Dinclik və təhlükəsizliyin hakim olacağı, yoxsulluğun yerini bolluğun, zülmün yerini ədalətin, qarşıdurma və gərginliklərin yerini sülhün əvəz edəcəyi bir dünya, bütün insanların həsrətində olduğu arzudur. Xüsusilə ötən iki əsrdə yaşanan böyük ağrılar və çətinliklər ilə indiki vaxtda da dünyanın hər tərəfində davam edən problemlər, insanların bu həsrətlərini daha da artırmışdır. İnsanların mühüm hissəsi, özlərinə uzanacaq kömək əli gözləyir, onları içində olduqları vəziyyətdən çıxardacaq bir xilaskarın gəlməsinə ümid edirlər. Bu xilaskar, mövcud sistemin mənfiliklərini aradan qaldıracaq, ədaləti, sülhü, təhlükəsizliyi və dincliyi təmin edəcək; insanları doğruya və yaxşılığa nail edəcək.

Özlərinə kömək əli uzadılmasını gözləyən yoxluq içindəki insanların, varlıq içində olsalar belə yaşadıqları mənəvi sıxıntılara görə əzab çəkənlərin, ədalətin, dincliyin, nizamın və gözəl əxlaqın həsrətini çəkənlərin gözlədikləri qurtuluş Allahın icazəsi ilə çox yaxın ola bilər. Yaşanan bir çox hadisə, bu qurtuluşun yaxınlaşdığının əlamətidir.

İnsanların qurtuluşuna vasitəçi olacaq bu böyük hadisə, hz. İsa (ə.s)-ın ikinci dəfə yer üzünə gəlişidir. Hz. İsa (ə.s)-ın təkrar dünyaya gəlişi ilə, dünyadakı bütün zülm və haqsızlıqlar bitəcək, yer üzü sülh, bərəkət və ədalətlə dolacaq.

Qurana görə bundan təxminən 2000 il əvvəl, Allah, inkar edənlərin hz. İsa (ə.s)-ı öldürmək məqsədiylə qurduqları tələni pozaraq hz. İsa (ə.s)-ı Öz qatına qaldırmışdır. Quranda və hədislərdə bildirildiyinə görə, hz. İsa (ə.s) qiyamətdən əvvəlki dövrdə yenidən dünyaya gələcək. Həm xristian, həm də müsəlman aləmi tərəfindən inanılan və gözlənilən bu böyük möcüzə ilə, dünyadakı bütün zülm və haqsızlıqlar bitəcək, yer üzü sülh, bərəkət və ədalətlə dolacaq.

Bu kitabda hz. İsa (ə.s)-ın yer üzünə yenidən gəlişi ilə əlaqədar İslami mənbələrdə qeyd edilən əlamətləri və bunların necə bir-bir reallaşdıqlarını araşdıracağıq. Bu əlamətlərə şahidlik edən insanlar, Allahın icazəsi ilə, hz. İsa (ə.s)-ın gəlişinin yaxınlaşdığına ümid edə bilərlər.

Lakin bundan əvvəl, dünyanın belə böyük bir hadisəyə sosioloji səviyyədə də hazırlandığına işarə etmək lazımdır. Əvvəldə də ifadə etdiyimiz kimi, son iki əsrdə bəşəriyyətin üst-üstə yaşadığı hadisələr zənciri, bütün dünyada, insanların şüur altında və ya bəzən daha da aydın şəkildə, bir "xilaskar" gözləməsini artırmışdır. Materialist fəlsəfəyə əsaslanan ideologiyaların və həyat tərzlərinin insanları qurtara bilmədiyi, əksinə fəlakətlərə və mənasızlığa sürüklədiyi görülmüşdür və din əxlaqına yönəliş sürətlə artır.

Bu hadisələri analiz edən bəzi sekulyar tədqiqatçılar, mütəfəkkirlər və ya tarixçilər də dünyanın Məsih axtarışı içində olduğunu və bu axtarışın konkret nəticələri olacağını düşünürlər. Məsələn, yazdıqları *"Müqəddəs qan", "Müqəddəs kasa"* adlı kitabla bütün dünyada böyük əks-səda oyandıran ingilis tədqiqatçılar Maykl Beycent (Michael Baigent), Riçard Li (Richard Leigh) və Henri Linkoln (Henry Lincoln), hz. İsa (ə.s) və Məsih gözləntisi

mövzusu üzərində cəmləşən *"The Messianic legacy" ("Məsihi Miras")* adlı kitablarında bu şərhi verirlər:

Müasir dünyamız iki min il əvvəlki dünyadan çox fərqli olsa da, İsa və onunla eyni əsrdə yaşayanların Son Zamanlar kimi qəbul etdikləri şeylə bizim dövrümüzün nə qədər çox ortaq istiqamət daşıdıqları olduqca təəccüblüdür. Bu gün, texnoloji cəhətdən daha qabaqcıl və daha çox məlumatla təmin olunmuş ola bilərik. Lakin, çox təəssüf ki, o zamankindən daha şüurlu və ya ağıllı görünmürük... Bir daha çox ciddi məna böhranı yaşayırıq, məqsədlərimiz və yolumuz naməlumdur. Bundan bir əsrdən daha az müddət əvvəl çox şey vəd edən kimi görünən müxtəlif sistemlər, proqramlar və ideologiyalar boş çıxmış vəziyyətdədir. Eynilə İsanın dövründə olduğu kimi, müəyyən şeylərin çox dəhşətamiz şəkildə səhv olduğuna dair geniş yayılmış bir qənaət var. Hər yeni terrorist hərəkat, hər yeni təbii fəlakət bir təşviş dalğası meydana gətirir. Mədəniyyətimizdəki əsaslı və sürətli dəyişikliklər, idarəetmə sistemimizdən duyduğumuz narazılıq, hədəfsiz cinayətlərin və terrorun siyasi etiraz üsulları olaraq getdikcə daha da çox istifadə edilməsi - bütün bunlar ümumi çöküş hissi, ümumi bir dəyərlərin parçalanması hissi yaradır. Cəmiyyət özünü "girov götürülmüş" kimi hiss edir... Materializmin problemi həll etməkdəki uğursuzluğundan usanmış vəziyyətdə, eynilə İsanın dövründəki kimi, cavabı başqa ölçüdə axtarırıq, ruhi bir ölçüdə.(1)

Müəlliflər əlavə edirlər:

Eynilə İsanın dövründəki kimi, çox nəzərəçarpacq şəkildə, getdikcə yaxınlaşan qiyaməti bir hadisənin kölgəsində yaşayırıq... Nəzarət etməyimizin qeyri-mümkün olduğu bir həqiqətə təslim olmuş vəziyyətdəyik... Və bu ümumi sinir pozuntusunun, bu dəli edən zəiflik hissinin, qeyri-kafi və ya məsuliyyətsiz siyasətçilərin yaratdığı məyusluğun altında, həqiqi bir ruhi liderə istiqamətli çox güclü həsrət var: Hər şeyi bilən, hər zaman mülayim bir portret; anlayacaq, məsuliyyəti daşıyacaq və (təbbi ki, əldə edilmiş demokratik azadlıqları ortadan qaldırmadan) rəhbərlik rolunu boynuna götürəcək, getdikcə mənasızlaşmış həyatlara yenidən məna qazandıracaq bir lider.(2)

Bu mühüm ictimai analizi edən müəlliflərin kitablarının sonunda 21-ci əsr üçün gəldikləri nəticə isə, hz. İsa (ə.s)-ın gəlişinin eyni zamanda sosioloji cəhətdən də hazırlandığını göstərir:

Və dövrümüz, məna hissinə qovuşa bilmək üçün, bu və ya digər şəkildə bir Məsih inancını mənimsəməkdə qətiyyətli görünür.(3)

Bu sosioloji infrastrukturun, hz. İsa (ə.s)-ın dönüş əlamətlərinin bir-bir gerçəkləşdiyi bir dövrlə üst-üstə düşməsi isə, şübhəsiz ki, çox mənalıdır. Bu əlamətlərin nələr olduğu, hədislərdə təfsilatlı şəkildə bildirilir. Həmçinin İncildə bəhs edilən hz. İsa (ə.s)-ın gəlişinin əlamətləri də hədislərdə bildirilən xəbərlərə bənzərlik göstərir. Hz. İsa (ə.s)-ın gəlişinin xəbərçisi olan bu əlamətlərin böyük hissəsi dövrümüzdə gerçəkləşib. Üstəlik, arxa-arxaya, eyni dövr içərisində. Bu qədər çox əlamətin, arxa-arxaya, müəyyən dövr içərisində gerçəkləşməsi, şübhəsiz ki, hz. İsa (ə.s)-ın gəlişinin xeyli yaxınlaşmış

olmasının mühüm göstəricisidir. Bu kitabı oxuyarkən siz də bu həqiqətə şahidlik edəcəksiniz.

Unutmamaq lazımdır ki, bu kitabda araşdırdığımız hər bir əlamət bizə çox mübarək bir dövrdə yaşadığımızın xatırladıcısıdır. Əsrlərdir ki, gözlənilən bu tarixi müjdə (Allahın icazəsi ilə) gerçəkləşmək üzrədir. Hz. İsa (ə.s), yer üzünə qayıdacaq, xristianlığı yol verdiyi bütün səhvlərdən xilas edəcək, hz. Məhəmməd (s.ə.v)-in yoluna tabe olacaq və bütün insanların İslam əxlaqına yönəlməsinə vəsilə olacaq. Həmçinin bu vəziyyət, səmimi iman gətirən bütün insanlar üçün böyük şövq və həyəcan mənbəyidir.

Allahın səmimi iman gətirənlərə olan vədi; **onları da özlərindən əvvəlkilər kimi "yer üzündə güc və iqtidar sahibi" etməsidir**. Bu vəd, Nur surəsinin 55-ci ayəsində belə xəbər verilir:

**Allah aranızdan iman gətirənlərə və saleh əməllər işləyənlərə vəd etmişdir: şübhəsiz ki, özlərindən əvvəlkiləri necə "güc və iqtidar sahibi" etdisə, onları da yer üzündə "güc və iqtidar sahibi" edəcək, özləri üçün seçib bəyəndiyi dinlərini özlərində hakim edib möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcək. Onlar yalnız Mənə ibadət edər və heç nəyi Mənə şərik qoşmazlar. Kim bundan sonra inkar etsə – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

Rəbbimizin istəməsiylə, hz. İsa (ə.s)-ın gəlişi, həqiqi din əxlaqının bütün dünyaya yayılmasına, səmimi iman gətirənlərin əmin-amanlığa qovuşmasına vəsilə olacaq. Bütün iman gətirənlər kimi bizim də arzumuz, Rəbbimizin bizi hz. İsa (ə.s)-la qarşılaşma şərəfinə nail etməsi və onun gəlişindən əvvəlki bu dövrdə, mübarək qonağımızı qarşılamaq üçün ən gözəl hazırlığı görməyimizi bizə nəsib etməsidir.

## Allahın vədi: hz. İsa (ə.s) yer üzünə qayıdacaq

Aləmlər üzərinə seçilib, nümunə edilən elçilərin həyatlarında, yaşadıqları hadisələrdə, qarşılaşdıqları çətinliklərdə və girişdikləri böyük mübarizələrdə bütün insanlar üçün mühüm mesajlar və dərslər var. Allahın Quranda, həyatı, mübarizəsi və əxlaqı ilə insanlara nümunə göstərdiyi peyğəmbərlərdən biri də hz. İsa (ə.s)-dır.

Hz. İsa (ə.s)-ın doğumu, həyatı və Allah qatına alınması, Rəbbimizin təqdiri ilə, həmişə möcüzəvi şəkillərdə reallaşmış, bu mübarək peyğəmbərin möcüzəvi həyatı Quranda təfsilatlı şəkildə xəbər verilmişdir. Allah Quranda bir çox peyğəmbərin hekayələrini bizə bildirir. Lakin hz. İsa (ə.s) müxtəlif yönləri ilə digər peyğəmbərlərdən fərqli mövqeyə malikdir. Allahın üstün elmlərlə dəstəklədiyi bu dəyərli qulu, Allahın lütfü ilə, hələ beşikdə ikən danışmış və yenə Allahın lütfü ilə, dünyada qaldığı müddətdə ətrafındakı insanlara böyük möcüzələr göstərmişdir. Onun bu xüsusi vəziyyətinin digər bir dəlili də, Allah qatına qaldırılması və təkrar dünyaya göndəriləcəyinin Quranda bildirilmiş olmasıdır.

Quranda inkar edənlərin hz. İsa (ə.s)-ı öldürmək məqsədiylə bir tələ qurduqları xəbər verilir. Rəvayətlərə görə hz. İsa (ə.s)-ın yanındakılardan birinin xəyanət etməsi vəsiləsi ilə, Allahın elçisini ələ keçirib, romalılara təslim etmək istəyiblər. Bu tələnin aqibəti isə Quranda belə bildirilmişdir:

**Onlar (iman gətirməyənlər) tələ qurdular. Allah da (buna qarşılıq) tələ qurdu. Allah, tələ quranların ən yaxşısıdır. (Ali İmran surəsi, 54)**

Ayədə də bildirildiyi kimi, hz. İsa (ə.s)-ı öldürmək üçün hərəkətə keçilmiş, tələ qurulmuşdur. Lakin onlar hz. İsa (ə.s)-ı öldürməyi bacara bilməmiş, onun bənzərini, hz. İsa (ə.s) zənn edərək öldürmüşlər. Allah, hz. İsa (ə.s)-ı diri şəkildə Öz qatına qaldıraraq, qurulan tələni puç etmişdir:

**Və: "Biz, Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük" demələrindən ötrü (onlara belə cəza verdik). Halbuki onu öldürmədilər və onu asmadılar. Lakin onlara (onun) bənzəri göstərildi. Həqiqətən onun barəsində ixtilafa düşənlər, qəti şübhə içindədirlər. Onların zənnə uymaqdan başqa buna dair heç bir məlumatları yoxdur. Onu qətiyyən öldürmədilər. Xeyr; Allah onu Özünə tərəf qaldırdı. Allah üstün və güclüdür, hökm və hikmət sahibidir. (Nisa surəsi, 157-158)**

Romalıların hz. İsa (ə.s)-ı çarmıxa çəkərək öldürdükləri yanılması xristianlar arasında yayılmışdır. Bu yanlış məlumata görə, hz. İsa (ə.s)-ı ələ keçirən romalılar onu çarmıxa çəkərək öldürmüşlər. Tarixdə bəzi xristian məzhəbləri (məsələn, doketizm - docetism-) bunu rədd etsə də, dövrümüzdə xristian aləminin demək olar ki, hamısı

hadisəni bu cür qəbul edir, lakin hz. İsa (ə.s)-ın öldükdən sonra dirilərək göyə yüksəldiyinə inanır. Lakin Quran ayələrində, hz. İsa (ə.s)-ın ölmədiyi və öldürülmədiyi, insanlara onun bənzərinin göstərildiyi, hz. İsa (ə.s)-ın diri şəkildə Allah qatına qaldırıldığı bildirilir:

**Və: "Biz, Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük" (katelna) deməl期indən ötrü (onlara belə cəza verdik). Halbuki onu öldürmədilər (ma katelehu) və onu asmadılar (ma salebuhu). Lakin onlara (onun) bənzəri göstərildi (şubbihe). Həqiqətən onun barəsində ixtilafa düşənlər, qəti şübhə içindədirlər. Onların zənnə uymaqdan başqa buna dair heç bir məlumatları yoxdur. Onu qətiyyən öldürmədilər (ma katelehu). (Nisa surəsi, 157)**

Eyni ayənin davamında hz. İsa (əs)-ın ölmədiyi belə bildirilir:

**Xeyr; Allah onu Özünə tərəf qaldırdı (refea). Allah üstün və güclüdür, hökm və hikmət sahibidir. (Nisa surəsi, 158)**

Ayədə bildirilən həqiqət aydındır. Hz. İsa (ə.s)-ı öz aləmlərində öldürməyə cəhd edən romalılar, bunda müvəffəqiyyət qazana bilməyiblər. Ayədə işlənən; **"...lakin onlara (onun) bənzəri göstərildi..."** ifadəsi bu vəziyyəti açıq şəkildə xəbər verir.

Allah insanlara hz. İsa (ə.s)-ın bənzərini göstərmiş və hz. İsa (ə.s)-ı inkarçıların qurduğu tələdən qoruyaraq Öz qatına qaldırmışdır. Həmçinin Rəbbimiz, bu iddianı edənlərin həqiqətə dair məlumatları olmadığını da bildirmişdir.

## Quranda hz. İsa (ə.s)-ın Allah qatına qaldırılması

Peyğəmbərlərin ölümlərinin nəql olunduğu hekayələrdə işlənən sözlərlə, hz. İsa (ə.s)-ın Allah qatına qaldırılmasından bəhs edilən ayələrin araşdırılması, hz. İsa (ə.s)-ın vəziyyətiylə əlaqədar mühüm həqiqəti ortaya çıxardır: Hz. İsa (ə.s) digər peyğəmbərlər kimi vəfat etməyib və ya inkar edənlər tərəfindən öldürülməyib, Rəbbimiz onu Öz qatına qaldırmışdır. Bu hissədə hz. İsa (ə.s)-ın və digər peyğəmbərlərin ölümlərini ifadə edən sözlərin ərəbcə variantlarını və Quran ayələrində nə cür istifadə olunduqlarını araşdıracağıq.

Quranda peyğəmbərlərin ölməsi və ya öldürülməsiylə əlaqədar işlədilən sözlər irəlidə daha ətraflı görəcəyimiz kimi, "katele (öldürmək), mate (ölmək), haleke (həlak olmaq), salebe (asmaq)" və ya bir neçə xüsusi sözdür. Halbuki, hz. İsa (ə.s) üçün, Quranda çox açıq şəkildə; **"onu öldürmədilər (ma katelehu) və asmadılar (ma salebuhu)"**

ifadəsi işlədilərək heç bir öldürmə formasıyla öldürülmədiyi bildirilmişdir. Allah ayələrdə insanlara hz. İsa (ə.s)-ın bənzərinin göstərildiyini və onun Öz qatına qaldırıldığını bildirir. Bu həqiqət Ali İmran surəsində belə xəbər verilir:

**Bir zaman Allah İsaya demişdi ki; "Ey İsa! Doğrusu səni Mən vəfat etdirəcəyəm (müteveffiyke), səni Özümə tərəf qaldıracağam (rafiuke), səni inkar edənlərdən təmizləyəcəyəm və sənə tabe olanları Qiyamət gününə qədər inkarçılardan üstün edəcəyəm... (Ali İmran surəsi, 55)**

Quranda ölüm mənası daşıyan sözlərin və Ali İmran surəsində işlənən "vəfat etdirmə" sözünün istifadə formaları belədir:

## 1) Vefea: Vəfat ettirmə

Ayədə işlənən "vəfat" sözü Azərbaycan dilində işlədilən ölmək mənasından fərqli mənalar verir. Ayələrin ərəbcə qarşılıqlarının araşdırılması, hz. İsa (ə.s)-ın bildiyimiz mənada ölmədiyini açıqca göstərir. Maidə surəsinin 117-ci ayəsində ölüm hadisəsindən belə bəhs edilir:

**Mən onlara ancaq Sənin mənə əmr etdiyini: "Mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha ibadət edin!" demişəm. Nə qədər ki, onların arasındayam, mən onlara şahidəm. Məni vəfat etdirdikdə (teveffeyteni) isə, onlara şahidlik edən Özün oldun. Sən hər şeyə Şahidsən. (Maidə surəsi, 117)**

Bu ayələrdə işlənən və azərbacan dilindəki tərcümələrdə **öldürmə** və ya **vəfat etdirmə** kimi, tərcümə edilən söz (teveffeyteni) ərəbcədə "vefea" kökündən törəmişdir və bu fel ölüm mənasını deyil, "canın alınması" mənasını verir. Necə ki, ərəbcə təfsirlərdə də ölüm mənasında işlədilmir. İslam alimi Qurtubinin təfsiri bunun nümunələrindən biridir. Qurtubinin təfsirində həmin bu söz üçün; "nəfslərin alınması" ifadəsi işlədilmişdir. Necə ki, insanın canının alınmasının həmişə ölüm mənasını vermədiyi yenə Quranda bizə bildirilir. Məsələn, "vefea" sözünün işləndiyi bir ayədə insanın ölməsindən deyil, yuxudakı vəziyyətindən bəhs edilir:

**Sizi gecələr vəfat etdirən (yeteveffakum) və gündüzlər "nə etdiklərinizi" bilən, sonra müəyyən olunmuş əcəl çatana qədər onda sizi diriləndən Odur... (Ənam surəsi, 60)**

Bu ayədə "vəfat etdirmə" kimi tərcümə edilən sözlə, Ali İmran surəsinin 55-ci ayəsində işlədilən söz eynidir, yəni hər iki ayədə də "vefea" sözü işlənilir. İnsanın, gecələr

içində olduğu vəziyyət ölüm olmadığına görə yuxarıdakı ayədə işlədilən "yeteveffakum" sözünün ölümü nəzərdə tutmadığı, düzgün tərcümənin "gecə canlarınızı alan" kimi olmalı olduğu aydındır. Aşağıdakı ayədə isə, eyni sözdən bu cür istifadə edilir:

**Allah, öləcəkləri (mevt) zaman canlarını alar (yeteveffa); ölməyənin də yuxusunda (canını alar) (lem temut). Beləliklə də, barəsində ölüm qərarı (el mevte) veriləni tutar, o birisini isə müəyyən olunmuş əcəli çatana qədər sərbəst buraxar... (Zumər surəsi, 42)**

Bu ayədən də aydın olacağı kimi, Allah yatan insanın canını alır, lakin barəsində ölüm qərarı verilməyəni əcəli çatana qədər təkrar sərbəst buraxır. Buna görə də, insan bildiyimiz mənada ölmüş olmaz. Təkcə müvəqqəti olaraq ruhu bədənini tərk edər və fərqli bir aləmə daxil olar. Allah oyanacağı vaxt, insanın ruhunu bədəninə qaytarar.

Yuxunun bir növ vəfat kimi qiymətləndirildiyini, lakin bununla bioloji ölümün nəzərdə tutulmadığını göstərən nümunələrdən biri də Peyğəmbərimiz (s.ə.v)-in yuxusundan oyandığı zaman: "Bizi öldürdükdən sonra dirildən Allaha həmd olsun" *(Buhari, Kitabu'd Deavat 6312; İbni Sinni, Fi Amelli'l Yevm ve'l Leyle, no. 647, 856, 857, 885; Muhammed Halil Herras; Hz. İsa (as) Gelecek mi?, Isparta 2002, səh. 9)* dediyini bildirən hədisdir. Şübhəsiz ki, hz. Məhəmməd (s.ə.v) bu hikmətli sözüylə, yatılan vaxt bioloji mənada ölüm baş verdiyinə deyil, yatan insanın bizim anladığımızdan fərqli mənada "canının alındığına" diqqət çəkmişdir. Tanınmış İslam alimi və təfsirçi İbn Kəsir də, Ali İmran surəsini təfsir edərkən, digər bir çox dəlillə birlikdə həmin bu hədisdən istifadə etmişdir. İbn Kəsirin təfsirində, "vefea" sözünün yuxuya işarə etdiyi, eyni sözün digər ayələrdə nə cür qeyd olunduğu göstərilərək izah olunur. İbn Kəsir, bu izahlardan sonra, İbn Əbu Hatimdən rəvayət edilən bir hədisdən də istifadə edərək qənaətini belə ifadə edir:

İbn Əbu Hatim belə deyir: "Atam bizə... Həsəndən belə rəvayət etdi: "Səni vəfat etdirəcəyəm..." ayəsi barəsində bu açıqlamanı vermişdir: Burada, "Səni yuxu kimi ölüm ilə öldürəcəyəm, yəni yatırdacağam" mənasındadır ki, Allah hz. İsa (ə.s)-ı yuxuda olarkən göyə qaldırmışdır... Bu mütləq həqiqətdir ki, Allah, hz. İsa (ə.s)-ı, yuxu ilə vəfat etdirdikdən sonra göyə qaldırmış və həmin dövrdə özünə əziyyət verən yəhudilərin əziyyətlərindən xilas etmişdir".(4)

## 2) Katele: Öldürmək

Quranda ölüm mövzusundan bəhs edilərkən, əsasən ərəbcədə "öldürmək" mənasını verən "katele" sözündən istifadə edilir. Mümin surəsində "katele" sözündən bu cür istifadə edilir:

**Firon dedi: "Buraxın məni, Musanı öldürüm (aktul) ki, (gedib) Rəbbinə yalvarsın... (Mümin surəsi, 26)**

Ayədə işlənən "Musanı öldürüm" ifadəsinin ərəbcəsi "aktul Musa" kimidir. Bu söz katele felindən törəmişdir. Digər bir ayədə isə, eyni sözdən, bu cür istifadə edilir:

**...Peyğəmbərləri haqsız yerə öldürmələrinə görə idi (yaktulune)... (Bəqərə surəsi, 61)**

Ayədə işlənən "öldürmələrinə görə idi" sözünün ərəbcəsi "yaktulune" kimidir və yenə eynilə katele sözündən törəmişdir. Həmçinin tərcümədə də açıqca ifadə edildiyi kimi, "öldürmək" mənasını verir. Aşağıda peyğəmbərlərin ölümündən bəhs edən bəzi ayələrdə "katele" felinin nə cür işlədildiyi bildirilir. Mötərizə daxilində mənaları bildirilən bütün sözlərin kökləri KATELE feilidir:

**...Onların bu sözlərini və peyğəmbərləri haqsız yerə öldürmələrini (katlehum) yazacağıq... (Ali İmran surəsi, 181)**

**...De: "Əgər inanırdınızsa, daha əvvəl nə üçün Allahın peyğəmbərlərini öldürürdünüz? (taktulune)". (Bəqərə surəsi, 91)**

**Allahın ayələrini inkar edənlər, peyğəmbərləri haqsız yerə öldürənlər (yaktulune) və insanlardan ədaləti əmr edənləri öldürənlər (yaktulune); ... (Ali İmran surəsi, 21)**

**Öldürün (uktulu) Yusifi və ya onu bir yerə atıb tərk edin... (Yusif surəsi, 9)**

**"Ey Musa! Qabaqcıllar səni öldürmək (li yaktulu) barəsində məşvərət edirlər..." (Qəsas surəsi, 20)**

**Qövmünün (İbrahimə) cavabı isə ancaq: "Ya onu öldürün (uktuluhu), ya da yandırın!" demələri oldu... (Ənkəbut surəsi, 24)**

## 3) Haleke: Ölmək

Quranda öldürmək feli üçün işlədilən digər bir söz də, "haleke" felidir. Haleke sözü ayələrdə "həlak olmaq, ölmək" mənalarında işlədilir. Məsələn, Mümin surəsinin 34-cü ayəsində belə işlənir:

**...Nəhayət, o, vəfat etdikdə (haleke) dediniz: “Allah ondan sonra elçi göndərməyəcəkdir!”... (Mümin surəsi, 34)**

Ayədə, azərbaycan dilinə "vəfat etdikdə" kimi tərcümə edilən sözün ərəbcəsi "iza heleke" kimidir və bu sözün mənası da ölmək deməkdir.

## 4) El-mevte - Ölüm

Quranda peyğəmbərlərin ölümü ilə əlaqədar işlədilən digər bir söz isə "el mevte" sözüdür. Mate sözü ayələrdə "ölmək" mənasında işlədilir. Bunlardan biri Səba surəsində hz. Süleymanla əlaqədar bildirilir:

**Onun (Süleymanın) ölümünə (el mevte) hökm verdiyimiz zaman onun öldüyünü (mevtihi), onlara ancaq əsasını yeyən bir ağac qurdu xəbər verdi... (Səba surəsi, 14)**

Eyni kökdən gələn digər bir söz isə, hz. Yəhya barəsində işlədilir:

**...Doğulduğu gün də, öləcəyi gün (yemutu) də, yenidən dirildiləcəyi gün də ona salam olsun! (Məryəm surəsi, 15)**

Bu ayədə "öləcəyi" kimi tərcümə edilən sözün ərəbcəsi "yemutu" sözüdür. Eyni söz hz. Yaqubun ölümü ilə əlaqədar ayələrdə də işlədilir:

**Yoxsa siz Yaqubun ölüm anında (el mevte) onun yanında idiniz? (Bəqərə surəsi, 133)**

Bu ayədə işlənən "el mevte" sözü də yenə eyni kökdən gəlir və ölüm mənası daşıyır.

Hz. Məhəmməd (s.ə.v) ilə əlaqədar bir ayədə isə, "katele" və "mate" felləri eyni anda işlədilir:

**Məhəmməd ancaq bir elçidir. Ondan əvvəl də elçilər gəlib getmişlər. Məgər o ölərsə (mate) və ya öldürülərsə (kutile) siz gerimi dönəcəksiniz?... (Ali İmran surəsi, 144)**

Mate (ölmək) kökündən gələn mevt sözü, yenə peyğəmbərlərin ölümlərindən bəhs edilən başqa ayələrdə də işlənilir:

**...O dedi: "Kaş bundan əvvəl öləydim (mittu) və bir dəfəlik unudulaydım!" (Məryəm surəsi, 23)**

**Səndən əvvəl də heç bir bəşərə ölümsüzlük (el hulde) nəsib etmədik. Məgər sən öləcəksən (mitte), onlar həmişəlik qalacaqlar?! (Ənbiya surəsi, 34)**

**O Rəbb ki, məni öldürəcək (yumituni), sonra dirildəcəkdir. (Şuəra surəsi, 81)**

## 5) Halid: Ölümsüz

Ayələrdə işlənib, bilavasitə ölmək və ya öldürmək felini deyil, təkcə ölümsüzlüyü ifadə edən digər bir söz də, "halid" sözüdür. Halid sözünün mənası daimi olmaq, ölməzliyi davam etmək kimidir. Ənbiya surəsində "halid" sözündən bu cür istifadə edilmişdir:

**Biz onları yemək yeməyən bir vücud etmədik. Onlar əbədi (halidiyne) də deyillər. (Ənbiya surəsi, 8)**

## 6) Salebe: Asmaq

Quranda peyğəmbərlərin ölümlərindən bəhs edilərkən işlədilən sözlərdən biri də salebe (asmaq) felidir. Salebe feli "asmaq, çarmıxa çəkmək və edam etmək" kimi mənalara gəlir. Bu fel ayələrdə bu cür işlədilir:

**...Halbuki onu öldürmədilər və onu asmadılar (ma salebu)... (Nisa surəsi, 157)**

**...Sizdən biriniz öz ağasına şərab içirdəcək, digəriniz isə asılacaq (yuslebi)... (Yusif surəsi, 41)**

**...Ancaq öldürülmələri və ya asılmaları (yusallebu)... (Maidə surəsi, 33)**

**Mütləq əllərinizi və ayaqlarınızı çarpaz kəsəcək, sonra da hamınızı edam edəcəyəm (usallibennekum). (Əraf surəsi, 124)**

Ayələrdən də göründüyü kimi, hz. İsa (ə.s)-ın vəfatı ilə digər peyğəmbərlərin ölümlərinin çatdırıldığı ayələr bir-birindən çox fərqli sözlərlə ifadə edilir. Allah Quran ayələrində hz. İsa (ə.s)-ın öldürülmədiyini, asılmadığını, insanlara onun bir bənzərinin göstərildiyini, onu vəfat etdirdiyini (yəni yuxu vəziyyətindəki kimi canını aldığını) və Öz qatına yüksəltdiyini bildirmişdir. Hz. İsa (ə.s) üçün "canını almaq" mənasını verən "vefea" feli işlədildiyi halda, digər peyğəmbərlər üçün normal ölümü ifadə edən "katele" və ya "mevt" kimi fellər işlədilir. Bu məlumatlar isə bizə, hz. İsa (ə.s)-ın Allah qatında diri olduğunu və yer üzünə yenidən gələcəyini bir daha göstərir.

## Hz. İsa (ə.s)-ın dünyaya ikinci dəfə gəlişi

Hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gələcəyi mövzusu Quranda və Peyğəmbərimiz (s.ə.v)-in hədislərində çox açıq şəkildə bildirilmişdir. Bir çox ayədə və hədisdə bu mövzu ilə əlaqədar qəti ifadələr var.

## Qurandan dəlillər

### 1-ci dəlil

### "...Sənə tabe olanları Qiyamət gününə qədər inkarçılardan üstün edəcəyəm..."

Hz. İsa (ə.s)-ın ikinci dəfə yer üzünə gələcəyinə dair işarələr daşıyan ayələrdən ilki Ali İmran surəsinin 55-ci ayəsidir:

**Bir zaman Allah İsaya demişdi ki; "Ey İsa! Doğrusu səni Mən vəfat etdirəcəyəm (müteveffiyke), səni Özümə tərəf qaldıracağam (rafiuke), səni inkar edənlərdən təmizləyəcəyəm və sənə tabe olanları Qiyamət gününə qədər inkarçılardan üstün edəcəyəm. Sonra sizin dönüşünüz yalnız Mənədir, ixtilafa düşdüyünüz şey barəsində aranızda Mən hökm verəcəyəm. (Ali İmran surəsi, 55)**

Allah qiyamətə qədər inkar edənlərə üstün gələn və hz. İsa (ə.s)-a həqiqətən tabe olan bir qrupun varlığından bəhs edir. Hz. İsa həyatda olarkən ona tabe olanların sayı çox azdı. Həmçinin onun Allah qatına qaldırılmasından sonra da dində sürətlə degenerasiya başladı. Sonrakı iki əsr boyunca da, hz. İsa (ə.s)-a iman gətirənlər (isəvilər) şiddətli təzyiqlərə məruz qaldılar. Üstəlik, isəvilərin heç bir siyasi gücü də yox idi. Belə olan halda, keçmişdə yaşayan xristianların, inkar edənlərə üstün gəldiklərini və bu ayənin onları işarə etdiyini söyləyə bilmərik.

Dövrümüzdə isə xristianlığın əslindən uzaqlaşdığını, hz. İsa (ə.s)-ın təbliğ etdiyi haqq dindən fərqli dinə çevrildiyini görürük. Xristianların əksəriyyəti arasında hz. İsa (ə.s)-ın Allahın oğlu olduğu şəklindəki (Allahı tənzih edirik) azğın inanc mənimsənilmiş və təslis inancı (üçlük; Ata, Oğul, Müqəddəs Ruh) əsrlər əvvəl qəbul edilmişdir. Belə olan halda, dinin əslindən tamamilə uzaqlaşmış olan dövrümüzün xristianlarını da hz. İsa (ə.s)-a tabe olanlar kimi qəbul edə bilmərik, çünki Allah, Quranın bir çox ayəsində "üçlüyə" inananların inkar içərisində olduqlarını bildirmişdir:

**And olsun, "Allah üçlüyün üçüncüsüdür" deyənlər küfr edənlərdən olmuşdur. Halbuki tək bir ilahdan başqa heç bir ilah yoxdur... (Maidə surəsi, 73)**

Belə olan halda; **"sənin tabe olanları Qiyamət gününə qədər inkar edənlərdən üstün edəcəyəm"** ifadəsində açıq bir işarə var. Hz. İsa (ə.s)-a tabe olan və qiyamətə qədər yaşayacaq olan bir qrup olmalıdır. Belə bir qrup, şübhəsiz ki, hz. İsa (ə.s)-ın yer üzünə təkrar gəlişi ilə ortaya çıxacaq. Həmçinin təkrar dünyaya gəlişi əsnasında bu mübarək insana tabe olanlar, qiyamətə qədər inkar edənlərdən üstün ediləcək.

Həmçinin ayənin sonunda bəhs edilən **"...sonra dönüşünüz Mənədir..."** ifadəsi də diqqətçəkəndir. Allah hz. İsa (ə.s)-a tabe olanları Qiyamət gününə qədər inkar edənlərdən üstün edəcəyini xəbər verdikdən sonra, hz. İsa (ə.s) da daxil olmaqla, hamısının özünə qayıdacağını bildirir. "Allaha qayıtmaları" ölmələri kimi başa düşülür. Bu da, hz. İsa (ə.s)-ın da qiyamətə yaxın dövrdə yer üzünə təkrar gəldikdən sonra öləcəyinə işarədir.

**2-ci dəlil**

**"...Ölmədən əvvəl ona iman gətirməyəcək heç kəs yoxdur..."**

Nisa surəsinin 156-158-ci ayələrinin ardınca Allah, 159-cu ayədə belə buyurur:

**And olsun, Kitab əhlindən, ölmədən əvvəl ona iman gətirməyəcək heç kəs yoxdur. Qiyamət günü, o da onların əleyhinə şahid olacaq. (Nisa surəsi, 159)**

Yuxarıdakı ayədə qeyd olunan; **"ölmədən əvvəl ona iman gətirməyəcək heç kəs yoxdur"** ifadəsi olduqca diqqətçəkəndir. Bu cümlənin ərəb dilində qarşılığı belədir: **"...ve in min ehlil kitabi illa leyüminenne bihi kable mevtihi".**

Burada bəzi təfsirçilər "o" əvəzliyinin hz. İsa (ə.s) yerinə Qurana işarə etdiyini düşünür və ayəyə Kitab əhlinin ölmədən Qurana iman gətirəcəyi şəklində bir şərh verirlər. Halbuki bu ayənin əvvəlindəki iki ayədə də "o" əvəzliyi mübahisəsiz şəkildə hz. İsa (ə.s) üçün işlədilmişdir:

Nisa surəsi, 157-ci ayə:

**Və: "Biz, Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük" deməlerindən ötrü (onlara belə cəza verdik). Halbuki onu öldürmədilər və onu asmadılar. Lakin onlara (onun) bənzəri göstərildi. Həqiqətən onun barəsində ixtilafa düşənlər, qəti şübhə içindədirlər. Onların zənnə uymaqdan başqa buna dair heç bir məlumatları yoxdur. Onu qətiyyən öldürmədilər.**

Nisa surəsi, 158-ci ayə:

**Xeyr; Allah onu Özünə tərəf qaldırdı. Allah üstün və güclüdür, hökm və hikmət sahibidir.**

Bu ayələrdən dərhal sonra gələn ayədə işlədən "o" əvəzliyinin hz. İsa (ə.s)-dan başqa bir varlığı nəzərdə tutduğunun heç bir dəlili yoxdur.

Nisa surəsi, 159-cu ayə:

**And olsun, Kitab əhlindən, ölmədən əvvəl ona iman gətirməyəcək heç kəs yoxdur. Qiyamət günü, o da onların əleyhinə şahid olacaq.**

Digər tərəfdən ayənin ikinci cümləsində qeyd olunan; **"Qiyamət günü, o da onların əleyhinə şahid olacaq"** ifadəsi də olduqca əhəmiyyətlidir. Quranda qiyamət günü insanın dilinin, əllərinin və ayaqlarının (Nur surəsi, 24, Yasin surəsi, 65), eşitmə, görmə orqanlarının və dərilərinin (Fussilət surəsi, 20-23) öz əleyhlərinə şahidlik edəcəkləri bildirilir. Quranın şahidliyi ilə əlaqədar isə heç bir ayə yoxdur. İlk cümlənin *(cümlə quruluşu etibarilə və ya ayələrin ardıcıl gəlməsi baxımından hər hansı bir dəlil olmamasına baxmayaraq)* "Quran"ı ifadə etdiyi qəbul edilsə, ikinci cümlədə qeyd edilən "o" əvəzliyinin də Qurana işarə etdiyi iddia edilmiş olar. Halbuki Allah Quranda bizə bu mövzuyla əlaqədar hər hansı məlumat verməyib.

Bununla yanaşı, əvvəlki ayədə bildirilən; **"...Allah onu Öz qatına qaldırdı"** ifadəsi də, bu ayədə işarə edilənin Quran olmadığını bir daha göstərir. Quran 1400 ildir ki, iman gətirənlərə hidayət rəhbəridir və Allah qatına qaldırılmamışdır. Allah qatına qaldırılan hz. İsa (ə.s)-dır. Bu da ayədə xəbər verilən şahidliyin, hz. İsa (ə.s)-ın Kitab əhli üçün edəcəyi şahidlik olduğunu, ayədə "o" əvəzliyi ilə Qurana işarə edilmədiyini göstərən digər bir dəlildir.

Quran ayələrinə baxdığımız zaman, eyni əvəzliyin, Qurana işarə etdiyi hallarda, (Tariq surəsi, 13, Təkvir surəsi, 19, Nəml surəsi, 77 və Şuəra surəsi, 192-196-cı ayələrdə də olduğu kimi) ayənin əvvəlində və ya sonrasında mütləq Qurandan bəhs edildiyini görərik. Ayənin əvvəlində, sonrasında və ya ayənin daxilində Qurandan bəhs edilmirsə, bu ayənin Quranı təsvir etdiyini söyləmək yanlış ola bilər. Ayə çox açıq şəkildə hz. İsa (ə.s)-a iman gətirilməsindən və onun iman gətirənlərə şahid olmasından bəhs edir.

Ayənin mənası barəsində ifadə edəcəyimiz ikinci xüsus isə; "ölümündən əvvəl" ifadəsinin şərhi ilə əlaqədardır. Bəziləri bu ifadənin "Kitab əhlinin öz ölümlərindən əvvəl" iman gətirməsi mənasında olduğunu düşünürlər. Bu şərhə görə Kitab əhlindən olan hər bir şəxs özünə ölüm gəlmədən hz. İsa (ə.s)-a mütləq iman gətirəcək. Halbuki ərəb qrammatikası, bu iddianın doğru olmadığını göstərir.

Quranda Kitab əhli ilə əlaqədar bütün ayələrdə, cəm formanı ifadə edən "hum" şəkilçisindən istifadə edilmişdir. (Beyyinə surəsi, 1 və 6; Hədid surəsi, 29; Həşr surəsi 2-də olduğu kimi.) Bu ayədə isə tək formanı ifadə edən "h" şəkilçisindən istifadə edilmişdir. Belə olan halda, ayədə xəbər verilən, hz. İsa (ə.s)-ın ölümündən (yəni yer üzünə ikinci dəfə gəlib bioloji cəhətdən ölümündən) əvvəl Kitab əhlinin özünə iman gətirəcəyidir (doğrusunu Allah bilər).

Həmçinin hz. İsa (ə.s) dövründə Kitab əhli adlandırılan yəhudilər ona iman gətirməyiblər. Eyni vəziyyət bugünkü yəhudilər üçün də etibarlıdır, çünki onlar hz. İsa (ə.s)-ı peyğəmbər kimi qəbul etmirlər. Bu günə qədər hz. İsa (ə.s)-a iman gətirməmiş milyonlarla Kitab əhlindən olan yəhudi yaşamış və hz. İsa (ə.s)-a iman gətirmədən ölmüşdür. Dolayısilə ayədə Kitab əhlinin deyil, hz. İsa (ə.s)-ın ölümündən bəhs edilir. Nəticə etibarilə, ayələrin bizə göstərdiyi həqiqət isə budur: **"hz. İsa (ə.s) ölmədən əvvəl bütün Kitab əhli ona iman gətirəcək".**

Ayə əsil mənasıyla ələ alındıqda isə, çox açıq həqiqətlərlə qarşılaşarıq.

Birincisi, ayədə gələcəkdən bəhs edildiyi aydındır, çünki hz. İsa (ə.s)-ın ölümündən bəhs edilir. Halbuki o ölməmiş Allah qatına yüksəlmişdir. Hz. İsa (ə.s) dünyaya yenidən gələcək və hər insan kimi yaşayıb öləcək. İkincisi hz. İsa (ə.s)-a bütün Kitab əhlinin iman gətirməsindən bəhs edilir. Bu da hələ ki, reallaşmamış ancaq qətiyyən reallaşacağı bildirilən bir hadisədir. Dolayısilə buradakı "ölümündən əvvəl" ifadəsinin işarə etdiyi insan hz. İsa (ə.s)-dır. Kitab əhli onu görüb tanıyacaq, ona yaşayarkən, irəliləyən sətirlərdə təfsilatlı şəkildə bəhs ediləcəyi kimi, müsəlman olaraq itaət edəcək və hz. İsa (ə.s) da onların vəziyyətləriylə əlaqədar axirətdə şahidlik edəcək.

**3-cü dəlil**

**"Şübhəsiz ki, O, Qiyamət saatı üçün bir (elmdir) əlamətdir..."**

Hz. İsa (ə.s)-ın yenidən yer üzünə qayıdacağı ilə əlaqədar digər bir ayə də Zuxruf surəsinin 61-ci ayəsidir. Bu surənin 57-ci ayəsindən etibarən hz. İsa (ə.s)-dan bəhs edilir:

**Məryəm oğlu (İsa) nümunə kimi verildikdə, sənin qövmün dərhal ondan (həzz alaraq bəhs edib) qəhqəhə ilə gülürlər. Dedilər: "Bizim ilahlarımız yaxşıdır, yoxsa o?" Bunu yalnız bir mübahisə olsun deyə (nümunə) verdilər. Xeyr, onlar "mübahisəkar və düşmən" qövmdür. O, yalnız bir quldur; özünə nemət verdik və onu İsrail oğulları üçün bir nümunə etdik. Əgər Biz istəsəydik, əlbəttə, sizi mələk olaraq yaradardıq; yer üzündə (sizə) xələf (yerinizə keçənlər) olardılar. (Zuxruf surəsi, 57-60)**

Bu ayələrdən dərhal sonra gələn 61-ci ayədə hz. İsa (ə.s)-ın qiyamət saatı üçün bir elm olduğu bildirilir:

**Şübhəsiz ki, o Qiyamət saatı üçün bir elmdir (əlamətdir). Elə isə onun barəsində heç bir şübhəyə qapılmayın və Mənə tabe olun. Dosdoğru yol budur. (Zuxruf surəsi, 61)**

Bu ayənin hz. İsa (ə.s)-ın Axırzamanda yer üzünə qayıdacağına açıq işarə etdiyini söyləyə bilərik. Çünki hz. İsa (ə.s), Quranın endirilməsindən təxminən altı əsr əvvəl yaşamışdır. Dolayısilə bu ilk həyatını **"qiyamət saatı üçün bir məlumat",** yəni bir qiyamət əlaməti kimi başa düşə bilmərik. Ayənin işarə etdiyi məna, hz. İsa (ə.s)-ın, Axırzamanda, yəni qiyamətdən əvvəlki son zamanda yenidən yer üzünə qayıdacağı və bunun da bir qiyamət əlaməti olacağıdır.

Bu ayədə işlənən; **"O, qiyamət saatı üçün bir elmdir (əlamətdir)"** ifadəsinin ərəbcə qarşılığı belədir: **"İnnehu le ilmun lissaati".**

Bu ifadədə yer alan "hu" əvəzliyinin "Quran"a işarə etdiyini söyləyənlər var. Lakin yuxarıda da bildirildiyi kimi, Quran üçün "hu", yəni "o" əvəzliyi işlədildiyi zaman, mütləq ayənin əvvəlində və ya sonrasında və ya ayənin daxilində Qurandan bəhs edən başqa ifadələr də olar. Başqa bir mövzu daxilində "hu" əvəzliyi ilə Qurandan bəhs edilməz. Həmçinin bu ayənin əvvəlindəki ayəyə baxıldığı zaman, orada da açıq şəkildə hz. İsa (ə.s) nəzərdə tutularaq o əvəzliyindən istifadə olunduğu görüləcək:

**"O, yalnız bir quldur; özünə nemət verdik və onu İsrail oğulları üçün bir nümunə etdik". (Zuxruf surəsi, 59)**

Bu əvəzliyin Qurana işarə etdiyini söyləyənlər isə ayənin davamında bəhs edilən; **"Ondan şübhə etməyin, mənə tabe olun!"** ifadəsini dəlil kimi göstərirlər. Lakin bu ifadədən əvvəlki ayələr tamamilə hz. İsa (ə.s)-dan bəhs edir. Buna görə də, "hu" əvəzliyinin əvvəlki ayələrlə əlaqəli olması və hz. İsa (ə.s)-dan bəhs etməsi daha uyğundur. Necə ki, böyük İslam alimləri də bu əvəzliyi istər ayələrə, istərsə də səhih hədislərə əsaslanaraq, hz. İsa (ə.s) kimi açıqlayırlar. Elmalılı Həmdi Yazırın təfsirində bu mövzu belə açıqlanır:

"Şübhəsiz ki, o saat üçün bir elmdir də -saatın gələcəyini ölülərin dirilərək qiyam edəcəyini bildirən bir dəlil və əlamətdir. Çünki İsa istər zühuru, istər əmvati əhya (ölüləri diriltmə) möcüzəsi, istərsə də əmvatın qiyamını (ölülərin qalxmasını) xəbər verməsi etibarilə qiyamətin baş verəcəyinə bir dəlil olduğu kimi hədisdə varid olduğuna görə əşrəti saatdandır (qiyamət əlamətidir)".(5)

<u>4-cü dəlil</u>

<u>"...Ona Kitabı, hikməti, Tövratı və İncili öyrədəcək..."</u>

Hz. İsa (ə.s)-ın ikinci gəlişini xəbər verən başqa ayələr də belədir:

**Bir zaman mələklər dedilər: "Məryəm! Doğrusu, Allah Öz tərəfindən bir kəlməni sənə müjdələyir. Onun adı Məryəm oğlu İsa Məsihdir. O, dünyada və axirətdə "seçilən, şərəfli və hörmətlidir" və (Allaha) yaxınlaşdırılanlardandır. O Beşikdə də, yetkinliyində də insanlarla danışacaq. Həmçinin o salehlərdəndir. "Rəbbim, mənə bir insan toxunmadığı halda necə övladım ola bilər?" dedi. "(Lakin) Allah nə istəsə yaradar. Bir işin olmasına qərar versə, yalnız ona "ol!" deyər, o da dərhal olar. Ona Kitabı, hikməti, Tövratı və İncili öyrədəcək. (Ali İmran surəsi, 45-48)**

Ayədə, Allahın hz. İsa (ə.s)-a Tövratı, İncili və bir də "Kitabı" öyrədəcəyi xəbər verilir. Bu kitabın hansı kitab olduğu, şübhəsiz ki, əhəmiyyətlidir. Eyni ifadə Maidə surəsinin 110-cu ayəsində də işlədilir:

**Allah belə deyəcək: "Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! Mən səni Ruhul-Qüds ilə dəstəklədim, həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışırdın. Sənə Kitabı, hikməti, Tövratı və İncili öyrətdim..." (Maidə surəsi, 110)**

Hər iki ayədə də işlənən "Kitab" ifadəsini araşdırdığımız zaman, bunun Qurana işarə etdiyini görərik. Ayələrdə Tövrat və İncildən başqa göndərilən son haqq kitabın Quran olduğu bildirilir. (Hz. Davud (ə.s)-a verilən Zəbur da da Əhdi-Ətiqin içindədir) Bununla yanaşı, Quranın başqa ayələrində, "Kitab" sözü, İncil və Tövratın yanında Quranı ifadə etmək üçün işlədilmişdir:

**Allah... Ondan başqa İlah yoxdur. Diridir, Qaimdir. O, sənə Kitabı Haqq və özündən əvvəlkiləri təsdiqləyici olaraq endirdi. O, Tövrat və İncili də endirmişdi. (Ali İmran surəsi, 2-3)**

Kitab sözünün Qurana işarə etdiyi başqa ayələr isə belədir:

**Allah qatından yanlarında olanı (Tövratı) təsdiqləyən bir Kitab gəldiyi zaman, (belə ki, bundan əvvəl inkar edənlərə qarşı qələbə istəyirdilər) məhz bildikləri gəldikdə, onu inkar etdilər. Artıq Allahın lənəti kafirlərin üzərinədir. (Bəqərə surəsi, 89)**

**Belə ki, sizə, aranızdan ayələrimizi oxuyacaq, sizi təmizləyəcək, sizə Kitabı və hikməti öyrədəcək və bilmədiklərinizi xəbər verəcək bir elçi göndərdik. (Bəqərə surəsi, 151)**

Belə olan halda, hz. İsa (ə.s)-a öyrədiləcək üçüncü "Kitab"ın Quran olduğu və bunun da təkcə hz. İsa (ə.s)-ın Axırzamanda dünyaya qayıtdığı zaman mümkün ola biləcəyi açıqca görünür. Çünki hz. İsa (ə.s) Quranın endirilməsindən təxminən 600 il əvvəl yaşamışdı. İrəliləyən hissələrdə təfsilatlı şəkildə görəcəyimiz kimi, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. İsa (ə.s)-ın dünyaya ikinci dəfə gəlişində İncillə deyil, Quranla hökm edəcəyi bildirilir. Bu da ayədəki mənaya tam uyğun gəlir.

### 5-ci dəlil

### "Şübhəsiz ki, Allah qatında İsanın vəziyyəti Adəmin vəziyyəti kimidir..."

**"Şübhəsiz ki, Allah qatında İsanın vəziyyəti Adəmin vəziyyəti kimidir..."** (Ali İmran surəsi, 59) ayəsi də hz. İsa (ə.s)-ın qayıdışına işarə edə bilər. Təfsir alimləri ümumiyyətlə bu ayənin hər iki peyğəmbərin də atasız olma xüsusiyyətinə, hz. Adəm (ə.s)-ın Allahın "ol" əmri ilə torpaqdan yaradılması ilə hz. İsa (ə.s)-ın yenə "ol" əmri ilə atasız doğulmasına işarə etdiyinə diqqət çəkiblər. Lakin ayənin ikinci bir işarəsi daha ola bilər. Hz. Adəm (ə.s) cənnətdən yer üzünə necə endirildisə, hz. İsa (ə.s) da Axırzamanda Allah qatından yer üzünə endirilə bilər.

Göründüyü kimi, hz. İsa (ə.s)-ın yer üzünə qayıdacağına dair Quranda işlənən ayələr çox aydındır. Quranda digər peyğəmbərlər üçün bunlara bənzər ifadələr işlədilməyib. Lakin bütün bu ifadələr, hz. İsa (ə.s) üçün işlədilib. Bunun mənası isə olduqca aydındır.

## 6-cı dəlil

## "...Doğulduğum gün, öləcəyim gün və diri olaraq yenidən qaldırılacağım gün..."

Quranda hz. İsa (ə.s)-ın ölümünü ifadə edən digər bir ayə isə Məryəm surəsində belə xəbər verilir:

**"Salam mənədir; doğulduğum gün, öləcəyim gün və diri olaraq yenidən qaldırılacağım gün də". (Məryəm surəsi, 33)**

Bu ayə Ali İmran surəsinin 55-ci ayəsi ilə birlikdə araşdırıldığı zaman çox mühüm bir həqiqətə işarə edir. Ali İmran surəsindəki ayədə hz. İsa (ə.s)-ın Allah qatına qaldırıldığı bildirilir. Bu ayədə ölmək və ya öldürülmək ilə əlaqədar məlumat verilmir. Lakin Məryəm surəsinin 33-cü ayəsində hz. İsa (ə.s)-ın öləcəyi gündən bəhs edilir. Bu ikinci ölüm isə, təkcə hz. İsa (ə.s)-ın ikinci dəfə dünyaya gəlməsi və bir müddət yaşadıqdan sonra vəfat etməsi ilə mümkün ola bilər.

## 7-ci dəlil

## "...həm beşikdə ikən, həm də yetkin (kehlen) çağında insanlarla danışırdın..."

Hz. İsa (ə.s)-ın dünyaya gələcəyi ilə əlaqədar digər dəlil də, Maidə surəsinin 110-cu ayəsində və Ali İmran surəsinin 46-cı ayəsində işlənən **"kehlen"** sözüdür. Ayələrdə belə buyrulur:

**Allah belə deyəcək: "Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! Mən səni Ruhul-Qüds ilə dəstəklədim, həm beşikdə ikən, həm də yetkin (kehlen) çağında insanlarla danışırdın..." (Maidə surəsi, 110)**

**"Beşikdə də, yetkinliyində (kehlen) də insanlarla danışacaq. Həmçinin o salehlərdəndir". (Ali İmran surəsi, 46)**

Bu söz Quranda yalnız yuxarıdakı iki ayədə və yalnız hz. İsa (ə.s) üçün işlədilir. Hz. İsa (ə.s)-ın yetkin halını ifadə etmək üçün, işlədilən "kehlen" sözünün mənası *"otuz ilə əlli yaşları arasında, gənclik dövrünü başa vurub qocalığa ayaq basan, kamillik yaşına çatmış kimsə"* şəklindədir. Bu söz İslam alimləri arasında ittifaqla *"35 yaşdan sonrakı dövrə işarə edir"* şəklində tərcümə edilir.

Hz. İsa (ə.s)-ın gənc yaş dövrü olan otuz yaşın əvvəlində Allah qatına yüksəldiyini, yer üzünə endikdən sonra qırx il qalacağını bildirən və İbn Abbasdan rəvayət edilən hədisə əsaslanan İslam alimləri, hz. İsa (ə.s)-ın yaşlılıq dövrünün, dünyaya gəlişindən sonra olacağını, dolayısilə bu ayənin, hz. İsa (ə.s)-ın nüzuluna dair bir dəlil olduğunu söyləyirlər.[6]

İslam alimlərinin bu şərhinin doğru olduğu, bəhs edilən ayələr diqqətlə araşdırıldığı zaman asanlıqla başa düşülür. Quran ayələrinə baxıldığı zaman bu ifadənin, yalnız hz. İsa (ə.s) üçün işlədildiyini görərik. Bütün peyğəmbərlər insanlarla danışıb, onları dinə dəvət ediblər. Hamısı da yetkin yaşlarında təbliğ vəzifəsini yerinə yetiriblər. Lakin Quranda heç bir peyğəmbər üçün belə bir ifadə işlədilmir. Bu ifadə yalnız hz. İsa (ə.s) üçün və möcüzəvi bir vəziyyəti ifadə etmək məqsədiylə işlədilmişdir. Çünki ayələrdə bir-birinin ardınca gələn "beşikdə" və "yetkin çağında" sözləri iki böyük möcüzəvi zamana diqqət çəkirlər.

Necə ki, İmam Təbəri, *"Təbəri təfsiri"* adlı əsərində bu ayələrdə işlənən ifadələri belə açıqlayır:

"Bu ifadələr (Maidə surəsi, 110), hz. İsa (ə.s)-ın ömrünü tamamlayıb yaşlılıq dövründə insanlarla danışa bilməsi üçün, göydən enəcəyinə işarə edir. Çünki o, gənc yaşda olarkən göyə qaldırılmışdı...

Bu ayədə (Ali İmran surəsi, 46), hz. İsa (ə.s)-ın həyatda olduğuna dəlil var və əhli-sünnə də bu fikirdədir. Çünki ayədə, onun yaşlandığı zamanda da insanlarla danışacağı ifadə edilir. Yaşlanması da təkcə, səmadan yer üzünə enəcəyi zamanda mümkün olacaq".[7]

"Kehlen" sözünün izahları da, Quranda bəhs edilən digər məlumatlar kimi, hz. İsa (ə.s)-ın təkrar yer üzünə gəlişinə işarə edir. Bütün bu izah edilənlər hz. İsa (ə.s)-ın Axırzaman adlandırılan dövrdə yer üzünə gələcəyini və insanları haqq din olan İslama

yönəldəcəyini göstərir. Şübhəsiz ki, bu, Allahın iman gətirənlərə böyük müjdəsi, rəhməti və nemətidir. İman gətirənlərin məsuliyyəti isə, hz. İsa (ə.s)-ı ən gözəl şəkildə müdafiə edərək dəstəkləmək və onun insanları dəvət etdiyi Quran əxlaqını ən doğru şəkildə yaşamaqdır.

## Hədislərdən dəlillər

Hədislərdə, hz. İsa (ə.s)-ın yer üzünə qayıtması, qayıtmadan əvvəl və qayıtdıqdan sonra baş vercək müxtəlif hadisələr barəsində Peyğəmbərimiz (s.ə.v) çox mühüm məlumatlar vermişdir. Peyğəmbərimiz (s.ə.v)-in gələcək barəsində verdiyi məlumatlar "qeyb" xəbərlərindəndir. Allah ayələrdə istədiyi elçilərinə qeyb məlumatlarını verəcəyini bildirmişdir:

**O, qeybi Biləndir. Öz qeybini (görünməz məlumat xəzinəsini) heç kimə açıq saxlamaz (ona agah etməz). Lakin elçiləri (peyğəmbərləri) arasında razı olduğu (seçdikləri kəslər) istisnadır. Çünki O, bunun önündə və arxasında izləyicilər (gözətçilər) qoyar. (Cin surəsi, 26-27)**

Rəbbimiz Fəth surəsində də Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-ə yuxular vasitəsi ilə məlumat verdiyini xəbər vermişdir:

**And olsun, Allah elçisinin gördüyü yuxunun haqq olduğunu təsdiqlədi. Əgər Allah istəsə, siz mütləq Məscidül-Hərama güvən içində, saçlarınızı qırxdırmış, (bəziləriniz də) qısaltmış vəziyyətdə (və) qorxusuzca girəcəksiniz. Lakin Allah sizin bilmədiyinizi bildi və beləliklə bundan əvvəl sizə yaxın bir qələbə (nəsib) etdi. (Fəth surəsi, 27)**

Ayədə göründüyü kimi, Rəbbimiz, Peyğəmbərimiz (s.ə.v)-ə müxtəlif qeyb xəbərləri vermişdir. Bu xəbərlər, Peyğəmbərimiz (s.ə.v)-ə və onunla birlikdə olan saleh möminlərə Allahın böyük dəstəyidir, yardımıdır.

Peyğəmbərimiz (s.ə.v) Allahın bildirməsi ilə, qiyamət əlamətləri ilə əlaqədar də bir çox xəbər vermişdir. Hz. İsa (ə.s)-ın Axırzamanda yer üzünə ikinci dəfə gəlişi Peyğəmbərimiz (s.ə.v)-in gələcəklə əlaqədar verdiyi xəbərlər arasında mühüm yerə malikdir. Axırzamanla əlaqədar rəvayətlər səhih hədis mənbəyi olan *kütübi-sittənin* bütününə və sonra da *İmam Malikin "müvəttəsi", İbn Huzeymə ilə İbn Hibbanın "səhihləri", İbn Hənbəl və Tayalisinin "müsnədləri"* kimi ən mötəbər hədis mənbələrinə daxil olmuşdur. Bu mənbələrdən öyrəndiyimizə görə Peyğəmbərimiz (s.ə.v), hz. İsa (ə.s) ilə əlaqədar çox xüsusi açıqlamalar vermişdir. Hz. İsa (ə.s)-ın ikinci gəlişi mövzusu,

"təvatür" *(güclü xəbər)* dərəcəsində bilinən bir mövzu olaraq hədis elmində yerini almışdır.

Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) hədislərində, Axırzamanda din əxlaqının bütün dünyada hakim olacağını, yer üzünə sülh, ədalət və rifahın hakim olacağını bildirir. Peyğəmbərimiz (s.ə.v) bu hakimiyyəti, xristian aləmi ilə İslam aləmini birləşdirəcək olan hz. İsa (ə.s)-ın, hz. Mehdi (ə.s) ilə birlikdə reallaşdıracağını bizə müjdələyir. Hazırda yer üzündə mövcud olan din əleyhdarı fəlsəfələrin tətbiqləri nəticəsində cəmiyyətlərin içinə sürükləndiyi vəziyyət ortadadır. Əxlaqsızlıq, narkotik, terror, qıtlıq və digər bir çox problem xristian və islam aləminin bunlarla fikri mübarizə aparması üçün birləşməsini tələb edir. Dünyanın hazırkı ictimai quruluşu xristian-islam ittifaqını sanki zəruri hala gətirmişdir. Xristianlığın dünyadakı inkişaf etmiş ölkələrdə, liderlər səviyyəsindəki təsiri də nəzərə alınsa, gələcək illərdə yarana biləcək İslam-Xristian ittifaqının nə qədər təsirli ola biləcəyi açıq şəkildə görünür.

## Hz. İsa (ə.s) barəsindəki hədislər təvatür dərəcəsindədir

Hz. İsa (ə.s)-ın gəlişi mövzusunda nəql edilən hədislər təvatür dərəcəsindədir. Bir çox tədqiqatçı da alimlərimizin düşüncələrinin bu yöndə olduğunu çatdırır. Təvatürə *"Büyük Lugat"* da belə tərif verilir:

Təvatür: güclü xəbər, içində yalan ehtimalı olmayan və bir camaata əsaslanan güclü xəbərdir.(8)

İslam alimi Seyyid Şərif Cürcani, təvatür hədis anlayışını belə açıqlayır:

Xəbər-i mütəvatir (doğru xəbər), raviləri çoxluğu ilə o dərəcəyə çatan bir xəbərdir ki, adətə görə, bu qədər çox rəvayətçinin yalan uydurmaq üçün birləşmələri qeyri-mümkün olar. Belə olan halda, rəvayət edilən xəbər barəsində ləfz (söz) və məna tutursa buna, "mütəvatir-i ləfzi (sözləri eyni olan doğru rəvayət)" deyilər. Əgər hamısının arasında müştərək mənada ittifaq olmaqla birılikdə ləfzlər (sözlər) arasında ixtilaf vardırsa buna, "mütəvatir-i mənəvi (mənası eyni olan doğru rəvayət)" deyilər.(9)

Hz. İsa (ə.s)-ın gəlişinin təvatür dərəcəsində hədislərlə bildirildiyinə dair xüsusi olaraq bir əsər qələmə alan böyük hədis alimi Şeyx Məhəmməd Ənvər əl-Kəşmiri *"Et Tasrih bi-ma tevatera fi nuzuli'l Mesih"* adlı əsərində 75 hədisə və 25 səhabəyə və səhabələri görənlərə aid əsərə yer vermişdir.

Hz. İsa (ə.s)-ın gələcəyini nəql edən alimlərin başında məzhəb imamımız İmami-Əzəm Əbu Hənifə gəlir. Əbu Hənifə, *"əl-Fiqhul Əkbər"* adlı əsərinin son hissəsində bunları bildirir:

Dəccalın, Yəcuc və Məcucun çıxması, Günəşin qərbdən doğması, İsa (ə.s)-ın göydən enməsi və digər qiyamət əlamətləri, səhih xəbərlərdə varid olduğu vəchlə, haqqdır, olacaqdır.(10)

Hz. İsa (ə.s)-ın yer üzünə gəlişi mövzusu qiyamətin on böyük əlamətindən biridir və bir çox İslam alimi əsərlərində bu mövzunu təfsilatlı şəkildə ələ alıb. Bu mövzudakı izahlar bütünlüklə qiymətləndirildiyi zaman, hz. İsa (ə.s)-ın ikinci gəlişi barəsində İslam alimləri arasında müəyyən söz birliyi olduğu açıq şəkildə görünür. Məsələn, əs-Səffarini, *"Ləvami"* adlı əsərində, İslam alimlərinin bu mövzuda ittifaq halında olduqlarını belə ifadə edir:

Bütün ümmət, Məryəm oğlu İsanın enəcəyi xüsusunda ittifaq edib. **Şəriət əhlindən heç kim bu barədə müxalif olmayıb.**(11)

Böyük İslam alimi Seyyid Əlusi də, *"Ruhul-Məani"* təfsirində, (digər İslam alimlərinin fikirlərindən nümunələr verərək) hz. İsa (ə.s)-ın enişi mövzusunda camaatın eyni fikirdə olduğunu, bu mövzuda xəbərlərin mənəvi təvatür dərəcəsinə çatacaq qədər geniş yayılmış olduğunu, hz. İsa (ə.s)-ın gəlişinə iman gətirməyin vacib olduğunu açıqlayıb.(12)

İmam Kövsəri də hz. İsa (ə.s)-ın enişi ilə əlaqədar fikirlərini belə bildirib:

Hz. İsa (ə.s)-ın enişi ilə əlaqədar hədislərdəki təvatür, "təvatür-i mənəvidir". Səhih (möhkəm) və həsən (gözəl) hədislərin hər biri, fərqli mənalara dəlalət etməklə yanaşı, hamısı hz. İsa (ə.s)-ın enəcəyi barəsində həmfikirdirlər ki, bu, hədis elminin qoxusunu iyləyən bir kimsə üçün inkarı mümkün olmayan bir həqiqətdir... Mehdi ilə, Dəccalın çıxacağı ilə hz. İsa (ə.s)-ın enəcəyi xüsusundakı hədislərin təvatür dərəcələrinə çatmış olmaları, **hədis elmi əhlinə görə qətiyyən şübhə ediləcək bir xüsus deyil**. Elmi-kəlam əhlindən (inanc elmi ilə məşğul olanlardan) bəzilərinin qiyamət əlamətləri ilə əlaqədar hədislərə inanmağın vacib olduğunu qəbul etmələri ilə bərabər, bu hədislərdən bir hissəsinin mütəvatir olub-olmadığı xüsusundakı şübhələri isə, hədis elmi ilə əlaqədar məlumatlarının azlığından qaynaqlanır.(13)

Alim İbn Kəsirin açıqlamalarında və Sünəni Əbu Davudun "Əvnül-məbud şərhu" adlı kitabında, mövzuyla əlaqədar olaraq belə bildirilir:

Məhz bunlar Rəsulullah (s.ə.v)-dən mütəvatir olaraq rəvayət edilmişdir və bu hədislərdə, hz. İsa (ə.s)-ın necə və hara enəcəyi xüsusu bildirilmişdir... Hz. İsa (ə.s)-ın cəsədi-şərifi (bədəni) ilə dünyaya enəcəyi barəsində zikr edilən səhih və mütəvatir hədislər, təvilə (başqa şəkildə şərh edilməyə) əlverişli deyil. Dolayısilə, zərrə qədər imanı və insafı olan hər kəsin, hz. İsa (ə.s)-ın yer üzünə enəcəyinə inanması lazımdır ki, bunu təkcə şəriətə zidd, Allahın Kitabına, Rəsulunun sünnəsinə və əhli-sünnənin ittifaqına müxalif olan kəslər inkar edə bilər.(14)

Hədislərin təvatür olduğu mövzusunda verilən digər bir açıqlama isə belədir:

Şəvkani də İsa (ə.s)-ın enəcəyinə dair hədislərin sayının 29-a çatdığını söyləyərək, bunları bir-bir nəql etmiş və sonunda: "Bizim nəql etdiyimiz hədislər göründüyü kimi, təvatür həddinə çatdı. Bu bəyanımızla bu nəticəyə gəlinir ki, gözlənilən Mehdi barəsindəki hədislər, Dəccal barəsində hədislər və İsa (ə.s)-ın enməsinə dair hədislər mütəvatirdir" deyib.(15)

Tirmizi, Əbu Davud, Bəzzaz, İbni Macə, Hakim, Təbərani və Əbu Yəla Mosuli bu mövzu barəsində müxtəlif səhabələrdən rəvayətlər nəql ediblər; Əli, İbn Abbas, İbn Ömər, Təlhə, İbn Məsud Əbu Hüreyrə, Ənəs, Əbu Səid Xudri, Ümmü Həbibə, Ümmü Sələmə, Səvban, Kürrə ibn İyas, Əli Hilal və Abdullah ibn Həris ibn Cüzə bəzi sənədlərlə istinad ediblər.(16) Bunlarla yanaşı İbn Həcər Heysəmi *"əs-səvaiqul-muhriqə"* kitabında, Şəblənci *"Nurul-Əbsar"* kitabında, İbn Səbbağ *"əl-füsulul-mühimmə"*, Məhəmməd əs-Səbban *"İsafur-rağibin"*, Gənci-i Şafi *"əl-Bəyan"* kitabında, Şeyx Mənsur Əli *"Ğayətul-Məmul"* kitabında və nəhayət Suveydi *"Səbaik-uz Zəhəb"* adlı kitabda hz. İsa (ə.s)-ın gəlişi ilə əlaqədar hədislərin mütəvatir olduğunu yazıblar.(17)

Bu hədisləri əhli-sünnə mühəddis (hədis alimi) və alimləri öz kitablarında yazıblar. Məsələn; Əbu Davud, Əhməd Tirmizi, İbn Macə, Hakim, Nəsai, Təbərani, Rəvyani, Əbu Nuaym əl-İsfahani, Deyləmi, Beyhəqi, Sələbi, Həməvəyni, əl-Mənavi, İbn Məğazili, İbn Cəvzi, Muhammed-us Sabban, Mavərdi, Genci-i Şafii, Səmani, Xarəzmi, Şərani, Dərəqutni, İbn Səbbağ Maliki, Şəblənci, Muhibbuddin Təbəri, İbn Həcər Heysəmi, Şeyx Mənsur Əli Nasif, Məhəmməd ibn Təlhə, Cəlaləddin Süyuti, Şeyx Süleyman Hənəfi, Qurtubi, Bağavi və digər alimlər bu mövzuya əsərlərində yer veriblər.

Şeyx Əbdulfəttah əbu Quddə də, hz. İsa (ə.s)-ın yer üzünə enib Dəccalı öldürəcəyinə dair rəvayətlərin təvatür dərəcəsinə çatdığını bilirir.(18) Hədis alimi Kətaninin də *"Nəzmül-Mütənasir"* adlı əsərində(19) "hz. İsa (ə.s)-ın enişinin kitab, sünnə və icmai-ümmət ilə sabit olduğunu, bu xüsusdakı hədislərin, həmçinin Dəccal və Mehdi barəsindəki hədislərin də mütəvatir olduğunu" müdafiə etdiyi görülür. Təfsir alimi İbni Atiyyə əl-Qırnadi əl-Əndülüsinin *"əl-Bəhrul Muhit"* adlı təfsirində, "hz. İsa (ə.s)-ın sağ olduğu, Axırzamanda enəcəyi barəsində ümmətin həmfikir olduğu və bu mövzudakı hədislərin mütəvatir olduğu" ifadə edilir.

Mövzu barəsində əsərləri olan müəlliflərin nəql etdiklərindən də aydın olur ki, hədis mənbələri çox zəngindir. Üstəlik, hz. İsa (ə.s)-ın gəlişinin Axırzamanda baş verəcək qiyamət əlamətlərindən olduğunu bildirən hədislər də Buxari, Müslim kimi əsas hədis mənbələrində mövcuddur. Bu hədislərdən bəziləri belədir:

Siz on əlaməti görmədikcə heç vaxt Qiyamət qopmaz... **Biri də İsa (ə.s)-ın enməsidir...** *(Müslim, Kitabü-l Fiten: 39)*

Vallah **Məryəm oğlu** (hz. İsa əleyhissalam), Fəccur-Ravha nam mövqedə, həcc etmək və ya ümrə etmək yaxud hər iki ibadət üçün razılıq alacaq. *(Müslim, Hacc: 216, 1252)*

Qiyamət on əlamət görünmədikcə qopmaz: Duman, Dəccal, Dəbbətül-ərz, Günəşin qərbdən doğması, **İsanın yer üzünə enməsi...** *(Rudani, Büyük Hadis Külliyatı, 5-ci cild, səh. 362)*

Nəfsim qüdrət əlində olan Allaha and içirəm ki, Məryəm oğlu İsanın ədalət sahibi olaraq enməsi yaxındır... *[Buhari, Kitabü'l-Büyu': 102, Mezalim: 31, Enbiya 49; Müslim, İman: 242 (155); Ebu Davud, Melahim: 14 (4324); Tirmizi, Fiten: 54 (2234)]*

**İsa enəcək**; əmirləri: “dur gəl, bizə namaz qıldır!” deyəcək. Buna cavab olaraq: "Bəziləriniz digərlərinizin əmiridir. Bu, Allahın bu ümmətə bir lütfüdür, kərəmidir” deyəcək. *(Rudani, Büyük Hadis Külliyatı, 5-ci cild, səh. 380)*

Vallah mütləq və mütləq **Məryəm oğlu İsa enəcək**, həmçinin ədalətli bir hakim, ədalətli bir hökmdar kimi enəcək... *(Sahih-i Müslim bi Şerhin-Nevevi, 2-ci cild, səh. 192; Kenzul Ummal, Kitabul-İman, Bab-ı Nüzul-i İsa İbn-i Meryem, 14/332)*

İmamınız özünüzdən olduğu halda, **Məryəm oğlu** aranıza **endiyi zaman** siz necə olarsınız?" *(Buhari, Enbiya 50, 3265, 3/1272; Müslim, İman: 71,155,1/136; Beyhaki, Esma ve Sıfat: 3265, 2/166)*

## İslam alimləri hz. İsa (ə.s)-ın gəlişini, əqayid (inanılan və etiqad edilən əsas) mövzusu kimi qiymətləndirirlər

Əhli-sünnənin etiqad məsələlərini açıqlayan demək olar ki, bütün əsərlərdə, hz. İsa (ə.s)-ın qiyamətdən əvvəl yer üzünə gələcəyi, Dəccal ilə mübarizə aparıb onu fikrən yox edəcəyi, hz. Mehdi (ə.s) ilə birlikdə həqiqi din əxlaqını dünyaya hakim edəcəyindən bəhs edilir. İslam alimləri, Qurani Kərimdə yer alan dəlilləri və hədislərdə bildirilən xəbərləri bir yerdə qiymətləndirərək, hz. İsa (ə.s)-ın qayıdışına inanmağı mühüm bir inanc əsası kimi qəbul ediblər. Həmçinin mövzunu belə açıqlayırlar:

1) Nisa surəsinin 157-ci ayəsində Allah; **"...halbuki onu öldürmədilər və onu asmadılar. Lakin onlara (onun) bənzəri göstərildi..."** deyə bildirmişdir. Bu ayə ilə birlikdə Quranın digər bir çox ayəsində hz. İsa (ə.s)-ın Allah qatında diri olduğu bildirilir və yer üzünə ikinci dəfə gələcəyinə işarə edilir. İslam alimləri bu mövzuda ittifaqla, bunun əksini müdafiə etməyin qətiyyən mümkün olmadığını söyləyirlər. Məsələn, İbn Həzm bu ayəni təfsir edərkən; "hz. İsa (ə.s)-ın öldürüldüyünü söyləyən bir kimsənin mürtəd (İslam dinindən dönən) və ya kafir olacağını" vurğulamışdır.(20)

2) Hz. İsa (ə.s)-ın gəlişi ilə əlaqədar hədislərin, təvatür dərəcəsində və bu mövzuda heç bir şübhəyə yer verməyəcək şəkildə açıq olmaları müsəlmanlar üçün çox mühüm dəlildir. Üstəlik, bu mövzudakı hədislərə qarşı irəli sürülə biləcək, (yəni hz. İsa (ə.s)-ın yenidən gəlməyəcəyini bildirən) tək bir fərqli hədis belə yoxdur.

3) Cabir İbn Abdullahdan rəvayət edilən; **"Mehdinin zühurunu inkar edən, mütləq Məhəmməd (s.ə.v)-ə nazil olanı inkar etmişdir. Məryəm oğlu İsanın enişini inkar edən də mütləq kafir olmuşdur. Dəccalın çıxacağını qəbul etməyən də mütləq kafirdir"** hədisi də İslam alimləri tərəfindən istifadə edilən digər bir dəlildir. Bu hədis, Şeyx Xacə Məhəmməd Parsayinin *“Fəslül-Xitab”*, Şeyx Əbu Bəkir əl-Kəlabazinin *“Məanil Əxbar”*, İmam Süheylinin

*"ər-Rəvzül-unuf"*, İmam Süyutinin *"əl-Arful Verdi fi Ahbaril Mehdi"* kimi tanınmış İslami mənbələrdə qeyd olunur. Həmçinin Şeyx Əbu Bəkir, bu hədisin sənətini də açıqlamışdır: "Bizə Məhəmməd İbn əl-Hasən, ona Əbu Abdullah əl-Hüseyn İbn Məhəmməd, ona İsmayıl İbn Üveys, ona Malik İbn Əbəs, ona Məhəmməd İbn Münkə, ona da Cabir İbn Abdullah həzrətləri beləcə bildiriblər".(21)

4) Hz. İsa (ə.s)-ın gəlişi ilə əlaqədar hədisləri nəql edən ravilərin çoxluğu və etibarlılıqları də İslam alimlərinin diqqət çəkdikləri digər xüsusdur. Bu ravilərdən bəziləri bunlardır: Əbul Əşas əs-Sənani, Əbu Rafi, Əbul Aliyə, Əbu Ümamə əl-Bahili, Əbud Dərda, Əbu Hüreyrə, Əbu Malik əl-Xudri, Cabir ibn Abdullah, Hüzeyfə İbn Ədis, Səfinə, Qatadə, Osman ibn əl-As, Nafi İbn Keysan, Vəlid İbn Müslim, Əmmar İbn Yasir, Abdullah İbn Abbas...

Bütün bu məlumatlar nəticəsində İslam alimləri hz. İsa (ə.s)-ın enişinə və həqiqi din əxlaqını dünyaya hakim edəcəyinə iman gətirməyi, mühüm inanc əsaslarından biri kimi qiymətləndiriblər.

# Hz. İsa (ə.s)-ın qayıtmasının xəbərçiləri

Həzrəti İsa (ə.s)-ın yer üzünə qayıdışının yaxınlaşdığını göstərən çox sayda əlamət var. Bu əlamətlər bizə Quranda, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində, müxtəlif İslam alimlərinin açıqlamalarında bildirilib. Bunlarla yanaşı İncildə də qiyamətdən əvvəlki dövr və hz. İsa (ə.s)-ın yer üzünə qayıdış vaxtı barəsində bildirilən müxtəlif hadisələr mövcuddur. Bütün bu mənbələrdə bildirilən hadisələr bizim üçün hz. İsa (ə.s)-ın yer üzünə qayıtmasının yaxınlaşdığını bildirən bir xəbərdir.

## Qiyamət əlamətləri

**Artıq onlar, qiyamət saatının onlara qəflətən gəlməsindən başqa şeymi gözləyirlər? Məhz onun işarələri gəlmişdir. Lakin özlərinə gəldikdən sonra öyüd alıb düşünmələri onlar üçün nə təmin edər?... (Məhəmməd surəsi, 18)**

Yuxarıdakı ayədə görüldüyü kimi, Allah qiyamət əlamətlərinin bəzilərini Quranda bizə bildirmişdir. Allah Zuxruf surəsinin 61-ci ayəsində hz. İsa (ə.s) üçün; **"şübhəsiz ki, o, qiyamət saatı üçün bir elmdir (əlamətdir)..."** deyə buyurur. Peyğəmbərimiz (s.ə.v) də bir hədisində belə buyurmuşdur:

***İsa ibn Məryəm*** *ədalətli bir hakim və ədalətli bir imam olaraq* ***enmədikcə qiyamət qopmayacaq...*** *(Sünen-i İbni Mace, 10/340)*

Quranda və hədislərdə göründüyü kimi, hz. İsa (ə.s)-ın yer üzünə qayıtması qiyamətin yaxınlaşdığının əlamətlərindəndir. O zaman qiyamətin digər əlamətləri də hz. İsa (ə.s)-ın gəlişinin yaxınlaşdığını göstərən əlamətlər kimi qiymətləndirilməlidir.

Buna görə də, irəliləyən səhifələrdə istər Quranda, istərsə də Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bildirilən qiyamət əlamətlərinə hz. İsa (ə.s)-ın gəlişinin əlamətləri kimi yer veriləcək. Bu əlamətlər araşdırıldığı zaman, bir çoxunun ardıcıl şəkildə müəyyən dövr ərzində gerçəklkəşdiyi açıqca görüləcək, hz. İsa (ə.s)-ın gəlişinin yaxınlaşdığı dəqiq aydınlaşacaq.

### Bir-birləriylə dəstəklənən elçilər

Keçmiş peyğəmbərlərlə əlaqədar Quranda verilən xəbərlərə baxdığımızda, Allahın bir çox peyğəmbəri başqa bir peyğəmbər və ya elm sahibi qul ilə dəstəklədiyini görərik.

**(Allah) dedi: "Biz səni qardaşınla qüvvətləndirəcək, ikinizə də elə "güc və səlahiyyət" verəcəyik ki, ayələrimiz sayəsində sizə çata bilməyəcəklər. Siz və sizə tabe olanlar qalib gələcək kimsələrsiniz". (Qəsas surəsi, 35)**

Hz. Musa (ə.s)-ın həyatına baxdığımız zaman, Allahın onu başqa qulları ilə də dəstəklədiyini görərik. Bu mövzudakı ayələrdən bəziləri belədir:

**Bir zaman Musa gənc köməkçisinə demişdi: "İki dənizin qovuşduğu yerə çatana qədər gedəcəyəm və ya uzun illər sərf edəcəyəm". (Kəhf surəsi, 60)**

**Tam o əsnada, tərəfimizdən özünə rəhmət bəxş etdiyimiz və tərəfimizdən özünə elm öyrətdiyimiz qullarımızdan birinə rast gəldilər. Musa ona dedi: "Doğru yol olaraq sənə öyrədiləndən mənə öyrətməyin üçün sənə tabe ola bilərəmmi?" (Kəhf surəsi, 65-66)**

Allahın başqa peyğəmbəriylə dəstəklədiyi qullarından biri də hz. İbrahim (ə.s)-dır. Hz. İbrahim (ə.s)-ın təbliğindən sonra hz. Lut (ə.s)-ın iman gətirdiyini Allah Quranda belə xəbər vermişdir:

**(İbrahim) dedi: "Siz Allahı tərk edib dünya həyatında aranızda sevgi bağı olaraq bütləri (ilahlar) qəbul etdiniz. Sonra qiyamət günü biriniz digərinizi inkar edəcək və biriniz digərinizə lənət oxuyacaq. Sizin sığınacaq yeriniz oddur və heç bir köməkçiniz yoxdur". Bundan sonra Lut ona iman gətirdi və dedi: "Həqiqətən mən Rəbbimə hicrət edəcəyəm. Çünki, şübhəsiz ki, O, güclü və üstün olandır, hökm və hikmət sahibidir". (Ənkəbut surəsi, 25-26)**

Bu mövzuda bir nümunəni Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in həyatında da görərik:

**Siz Ona (Peyğəmbərə) kömək etməsəniz, Allah ona kömək etmişdir. Bir zaman kafirlər iki nəfərdən biri olaraq Onu (Məkkədən) çıxartmışdılar; ikisi mağarada olduqları zaman öz dostuna belə deyirdi: "Qəm yemə, əlbəttə, Allah bizimlədir!". Beləliklə də, Allah Ona "rahatlıq və əmin-amanlıq duyğusunu" nazil etmişdi, Onu sizin görmədiyiniz ordularla dəstəkləmiş və inkar edənlərin də sözünü (inkar çağırışlarını) alçaltmışdı... (Tövbə surəsi, 40)**

Allahın digər bir qulu ilə dəstəklədiyi peyğəmbərlərindən biri də hz. Davud (ə.s)-dır. Hz. Davud (ə.s) və Allahın məlik olaraq göndərdiyini bildirdiyi Talut ilə əlaqədar Quranda verilən bəzi məlumatlar belədir:

**Peyğəmbərləri onlara dedi: "Allah sizə Talutu (məlik olaraq) göndərdi". Onlar: "Biz hökmdarlığa ona görə daha layiq ikən və ona mal (sərvət) bolluğu verilmədiyi halda, necə bizi (idarə etmək üçün) hökmdarlıq (mülk) onun ola bilər?" dedilər. O (belə) demişdi: "Doğrusu, Allah sizə onu seçdi və onun bilik və bədən gücünü artırdı. Allah Öz mülkünü istədiyinə verər; Allah (rəhməti və gücü) geniş olandır, biləndir". (Bəqərə surəsi, 247)**

**Talut orduyla birlikdə ayrıldığı zaman dedi: "Şübhəsiz ki, Allah sizi bir çayla imtahan edəcək. Kim ondan içsə, o məndən deyil və kim də (əli ilə bir ovuc götürənlər istisna olmaqla) onu dadmasa məndəndir. Kiçik bir qismi istisna olmaqla (hamısı sudan) içdi. O, özüylə birlikdə iman gətirənlərlə (çayı) keçdikdən sonra (geridə qalanlar): "Bu gün bizim Caluta və ordusuna qarşı (müqavimət göstərəcək) gücümüz yoxdur" dedilər. (Həmin vaxt) mütləq Allaha qovuşacaqlarına ümid edənlər (belə) dedilər: "Neçə-neçə az saylı dəstələr, çox saylı dəstələrə Allahın icazəsi ilə qalib gəliblər; Allah səbr edənlərlədir".**

**Onlar Calut və ordusuna qarşı meydana (döyüşə) çıxdıqları zaman dedilər: "Ey Rəbbimiz! Bizə səbir ver, addımlarımızı sabit et (sürüşdürmə) və kafirlər dəstəsinə qarşı bizə kömək et".**

**Beləliklə də, Allahın icazəsi ilə onları məğlub etdilər. Davud Calutu öldürdü. Allah da ona mülk və hikmət verdi; ona istədiyini öyrətdi... (Bəqərə surəsi, 249-251)**

Başqa ayələrdə də Rəbbimiz hz. Davud (ə.s) və hz. Süleyman (ə.s)-a elm verdiyini, hz. Süleyman (ə.s)-ın hz. Davud (ə.s)-a varis edildiyini xəbər vermişdir:

**And olsun, Davud və Süleymana elm verdik. Onlar: "Bizi iman gətirmiş bəndələrinin bir çoxundan üstün edən Allaha həmd olsun" dedilər. Süleyman Davuda varis oldu və dedi: "Ey insanlar! Bizə quşların danışıq dili öyrədildi və bizə hər şeydən (bol nemət) verildi. Həqiqətən bu, açıq-aydın üstünlükdür!". (Nəml surəsi, 15-16)**

Buraya qədər bəhs etdiyimiz ayə və hekayələrdə görüldüyü kimi, Allah elçilərini bəzən bir-birləriylə dəstəkləmişdir. Rəbbimiz hz. İsa (ə.s)-ı da mübarək bir şəxslə dəstəkləyəcək. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bildirdiyi bu şəxs hz. Mehdi (ə.s)-dır.

"Mehdi" sözü "doğruya aparan" mənasını daşıyır. Peyğəmbərimiz (s.ə.v), Allahın, Axırzamanda baş verəcək qarğaşalığın qarşısını alacaq, insanları qurtuluşa nail edəcək bir qulunu göndərəcəyini bizə bildirmişdir. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində, çıxış yeri, zamanı, görəcəyi işlər, xüsusiyyətləri ilə əlaqədar təfsilatlı məlumat verilən hz. Mehdi (ə.s)-ın bir xüsusiyyəti də hz. İsa (ə.s)-ın, bu mübarək şəxsin arxasında namaz qılacağı və İslam əxlaqını yer üzünə birlikdə hakim edəcəkləridir. Peyğəmbərimiz (s.ə.v)-in bu mövzuda bir çox hədisi var, bunlardan bir neçəsi belədir:

*Qiyamətə (Dəccal ilə döyüşə) qədər mənim ümmətimdən bir qrup haqq üzrə qalib olaraq mübarizə aparacaq. Həmçinin **İsa ibn Məryəm göydən nüzul etdiyi zaman onların əmiri (Mehdi) özünə**; "gəl bizə namaz qıldır" deyəcək. Lakin O: "bu ümmətə Allahın bir lütfü olaraq sizin biriniz, digərləriniz üçün əmirdir" cavabını verəcək. (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 80)*

***"İmamınız özünüzdən olduğu halda Məryəm oğlu (İsa əleyhissalam) aranıza endiyi** (imamınıza iqtida etdiyi-tabe olduğu-) zaman görəsən necə olarsınız?" deyə buyurdu. (Sahih-i Müslim, 1-ci cild, səh. 208)*

***"Məryəm oğlu (İsa əleyhissalam) aranıza endiyi və sizdən (birini) imam etdiyi zaman** halınız necə olacaq?" deyə buyurdu. (Sahih-i Müslim, 1-ci cild, səh. 208)*

*Ümmətimdən bir qrup qiyamət gününə qədər haqq üzərində mübarizə apararaq qalib gəlməkdə davam edəcək. "Nəhayət **Məryəm oğlu İsa enər** və müsəlmanların əmiri ona: "gəl, bizə namaz qıldır" deyər. Bundan sonra İsa: "Xeyr, Allahın bu ümmətə bir lütfü olaraq sizin bir hissəniz digər bir hissə üzərində əmirsiniz" deyər. (Sahih-i Müslim, 1-ci cild, səh. 209)*

Bəzi İslam alimləri də Mehdi və hz. İsa (ə.s)-ın birlikdə olacaqlarını təfsilatlı şəkildə açıqlamışdır. Bu açıqlamalardan bir neçəsi belədir:

*Məhəmməd ibn Rəsul Bərzənci:*

Hz. Mehdi (ə.s)-ın varlığı və Axırzamanda zühur edəcəyi, Peyğəmbər ailəsindən və Fatimə oğullarından olması, təvatür ölçüsünə çatan hədislərlə açıqlanmışdır və bu hədisləri inkar etməyin heç bir mənası yoxdur*... (Kıyamet Alametleri, səh. 192)*

...Bu da bir həqiqətdir ki, hz. İsa (ə.s), hz. Mehdi (ə.s)-dan hakimiyyəti almayacaq; çünki liderlər Qureyşdəndir. Madam ki, insanlar arasında bu ikisi mövcud olacaq, elə isə hz. İsa (ə.s) onun əmiri deyil, vəziri olacaq. Buna görədir ki, hz. Mehdi (ə.s)-ın arxasında namaz qılacaq və ona tabe olacaq... *" (Kıyamet Alametleri, səh. 185)*

*İmam Rəbbani:*

Digər bir hədisdə isə, Rəsulullah (s.ə.v) belə buyurdu:

"Əshabi-Kəhf, hz. İsa (ə.s)-ın köməkçiləri olacaq". Hz. İsa (ə.s), hz. Mehdi (ə.s) dövründə yerə enəcək. Hz. Mehdi (ə.s), dəccalın yox edilməsində hz. İsa (ə.s)-a razılıq verər. Onun səltənəti dövründə, Ramazan ayının on dördündə Günəş tutulacaq; həmin ayın ilkində isə Ay qaralacaq. Bunların olması, adətin və münəccimlərin hesabı xilafına (təxmin edilməyən, gözlənilməz şəkildə) olacaq. *(İmam Rabbani, Mektubat, 2-ci cild, 380-ci məktub, səh. 1162-1163)*

**"Aradan min il keçdikdən sonra, hz. Mehdi (ə.s)-ın** gəlişi də bunun üçündür. Onun mübarək gəlişini, hatəmür-rəsul Rəsulullah (s.ə.v) müjdələmişdir. **Hz. İsa (ə.s) belə aradan min il keçdikdən sonra, nüzul edəcək (enəcək)...**" *(İmam Rabbani, Mektubat, 1-ci cild, 209-cu məktub, səh. 440)*

Hz. Mehdi (ə.s), hz. İsa (ə.s)-dan bir müddət əvvəl zühur edəcək və ilk öncə İslam aləmində fikri mübarizə aparacaq. İslamın əslindən qopmuş müsəlmanları həqiqi imana və əxlaqa qaytaracaq, bütün İslam aləmini birləşdirəcək. Darvinizmə və materializmə qarşı çox güclü fikri mübarizə aparacaq, bu iki din əxlaqına zidd ideologiyanı tam mənasıyla məğlubiyyətə uğradacaq. Hədislərdə bildirildiyinə görə, hz. Mehdi (ə.s)-la eyni dövrdə dünyaya qayıdacaq hz. İsa (ə.s) isə, xüsusilə xristian və yəhudi aləminə xitab edəcək, onları düşdükləri xurafatlardan xilas olub Qurana görə yaşamağa dəvət edəcək. Xristianların hz. İsa (ə.s)-a tabe olmasıyla birlikdə, İslam və Xristian aləmləri tək bir inancda birləşəcək və dünya "Qızıl dövr" adlanan böyük sülh, əmin-amanlıq, xoşbəxtlik və rifah dövrü yaşayacaq.

Hz. Mehdi (ə.s)-ın hz. İsa (ə.s)-dan qısa müddət əvvəl gələcəyi Axırzamanla əlaqədar digər mühüm bir mənbədə belə bildirilir:

Hz. Mehdi (ə.s), bu ümmətin ortası, hz. İsa (ə.s) da axırı olacaq. Ortası dedikdə nəzərdə tutulan şey, **hz. Mehdi (ə.s)-ın hz. İsa (ə.s)-dan çox az müddət əvvəl gələcəyini** ifadə etmək üçündür. Hz. İsa (ə.s) da, ondan dərhal sonra gəldiyi üçün axır kimi xarakterizə edilib. *(El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 24)*

O zaman bütün bunlar bizə göstərir ki, hz. Mehdi (ə.s)-ın çıxış əlamətləri eyni zamanda hz. İsa (ə.s)-ın da çıxış əlamətidir. İrəliləyən hissələrdə Allahın mübarək peyğəmbəri hz. İsa (ə.s)-n yer üzünə gəlişinin yaxınlaşdığını müjdələyərkən, hz. Mehdi (ə.s)-ın çıxış əlamətlərini də ayrı-ayrılıqda qeyd edəcəyik.

## Hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) bu əsrdə gələcək

Hər yüz ildən bir din əxlaqını bidətlərdən qurtarmaq və yeniləmək üçün Allah tərəfindən bir şəxsin göndərildiyi, böyük və mötəbər əhli-sünnə alimlərinin "Sünəni-Əbu Davud", "Məktubatı-Rəbbani" kimi əsərlərində açıqca bildirilmişdir:

Əbu Hüreyrənin rəvayətinə görə; Rəsulullah (s.ə.v) belə buyurub: Həqiqətən Əziz və Cəlil olan Allah **hər əsrin əvvəlində** bu ümmətin dinini bidətdən (dinə sonradan qarışmış

batil tətbiqlərdən) təmizləyəcək, yeniləyəcək (elm sahibi) bir şəxsi göndərər. *(Sünen-i Ebu Davud, 5/100)*

Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən hədislərdə Axırzamanda zühur edəcəyi müjdələnən hz. Mehdi (ə.s)-ın çıxış zamanı olaraq isə, hicri 1400-ci il verilmişdir:

**"İnsanlar 1400-cü ildə hz. Mehdi (ə.s)-ın yanında toplanacaq"**. *(Risaletül Huruc-ül Mehdi, səh. 108)*

Bu 100 illik müddətdə İslam əxlaqı müəyyən müddət ərzində bütün dünyaya hakim olacaq, din əxlaqına qarşı mübarizə aparan dəccaliyyət sistemi isə tamamilə ortadan qalxacaq. Lakin təxminən 100 il qədər davam edəcək bu yüksəliş dövründən sonra, yəni hicri 1500-cü illərlə birlikdə dünya yenidən bir pozulma prosesinə daxil olacaq. Əhli-sünnənin böyük hədis və fiqh alimlərindən biri olan İmam Əhməd İbn Hənbəl kimi bir çox alimin bir-birlərindən nəql etdikləri bir hədisdə Peyğəmbərimiz (s.ə.v) özünə qədər dünyada keçən zamanın 5600 il olduğunu bildirərək bəşəriyyət tarixinin başlanğıcı barəsində mühüm məlumat vermişdir:

Əhməd İbn Hənbəl əsasında nəql etdi. İsmail ibn Əbdülkərim, Əbdüssaməddən O da Vəhbdən rəvayət etdi: **DÜNYADAN BEŞ MİN ALTI YÜZ İL KEÇMİŞDİR.** *(Ali B. Hüsameddin el-Muttaki, Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir zaman, səh. 89)*

Digər tərəfdən başqa bir çox hədisdə isə dünyanın ömrünün 7000 il olduğuna dair açıq izahlar var:

Ənəs Malikdən təxric etdi (çıxarış etdi). O dedi ki, Rəsulullah (s.ə.v) buyurdu: **DÜNYANIN ÖMRÜ, AXİRƏT GÜNLƏRİNDƏN YEDDİ GÜNDÜR.** Allah buyurdu: **RƏBBİN QATINDA BİR GÜN SİZİN SAYDIQLARINIZDAN MİN İL KİMİDİR.** Kim bir din qardaşının Allah yolunda bir ehtiyacını ödəsə, Allah onun üçün gündüzlərini orucla, gecələrini də ibadətlə keçirmiş kimi, **BU DÜNYANIN YEDDİ MİN İLLİK ÖMRÜ QƏDƏR SAVAB YAZAR.** *(Ali B. Hüsameddin el-Muttaki, Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 88)*

Dakka ibn Zeyd əl-Cühənidən rəvayət etdilər. O dedi ki; mən gördüyüm bir yuxunu Rəsulullah (s.ə.v)-ə danışdım. Bu yuxuda Peyğəmbər (s.ə.v) yeddi pilləli bir minbərin ən üst pilləsində idi. O buyurdu ki; **GÖRDÜYÜN BU YEDDİ PİLLƏLİ MİNBƏR DÜNYANIN ÖMRÜ OLAN YEDDİ MİN İLDİR.** *(Ali B. Hüsameddin el-Muttaki, Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, 89)*

Hicri 1300-cü illərin və son min ilin ən böyük mücəddidi olan Ustad Səid Nursi həzrətləri isə, İslam əxlaqının hakimiyyət müddəti üçün, hicri 1500-cü illəri vermişdir. Ustad bu tarixlərə qədər ki, dövrün, müsəlmanların açıq və aşkar qalibiyyət dövrləri olacağını ifadə etmişdir. Bundan sonrakı illərdə isə İslam əxlaqının dünyadakı yüksəliş dövrünün bitəcəyi və kafirlər üçün qiyamət qopmasının hicri 1545-ci ildən başlayacağını söyləmişdir (doğrusunu Allah bilər).

"Ümmətimdən bir taifə (qrup) Allahın əmri gələnə qədər (qiyamətə qədər) haqq üzərində olacaq".

**"Ümmətimdən bir taifə..."** fıqrasının (bəndinin) məqam-ı cifrisi (cifr hesabına görə olan nəticəsi, ədədi qiyməti), **1542 (2117) edərək nəhayət-i davamına (varlığının sonuna) eyham edər. "Haqq üzərində olacaq" (şəddə sayılır) fıqrası (bəndi) belə; məqam-ı cifrisi (cifr hesabına görə olan nəticəsi, ədədi qiyməti) 1506 (2082) edib, bu tarixə qədər zahir və aşkaranə (açıq və ortada), bəlkə qalibanə**; sonra ta 1542-yə (2117), gizli və məğlubiyyət içində vəzifə-i tənviriyəsinə (aydınlaşdırma vəzifəsinə) davam edəcəyinə rəmzə (işarəyə) yaxın eyham edər. **"Allahın əmri gəlincəyə qədər" (şəddə sayılır) fıqrası (bəndi) belə; məqamı-ı cifrisi (cifr hesabına görə olan nəticəsi, ədədi qiyməti) 1545 (2120) olub, kafirin başında QİYAMƏT QOPMASINA** eyham edər. *(Kastamonu Lahikası, səh. 33)*

Böyük əhli-sünnə alimi Bərzənci həzrətləri də dünyanın ömrünün hicri 1600-cü illərə çatmayacağını, yəni hicri 1500-cü illər içində qiyamətin qopmasının Allahın icazəsi ilə gözlənildiyini ifadə edir (doğrusunu Allah bilər).

**BU ÜMMƏTİN ÖMRÜ MİN İLİ KEÇƏCƏK, LAKİN MİN BEŞ YÜZ İLİ AŞMAYACAQ**... *(Kıyamet Alametleri, Medineli Allame Muhammed b. Resul el-Hüseyni el-Berzenci, Pamuk nəşriyyatı, İstanbul, 2002, səh. 299)*

Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən hədisə əsaslanaraq Süyuti həzrətləri isə verdiyi açıqlamada belə bildirir:

**"MƏNİM ÜMMƏTİMİN ÖMRÜ 1500 İLİ ÇOX KEÇMƏYƏCƏK".** *(Suyuti, el-Keşfu an Mücavezeti Hazihil Ümmeti el-Elfu, el-havi lil Fetavi, Suyuti. 2/248, tefsiri Ruhul Beyan. Bursevi. (Arapça) 4/262, Ahmed bin Hanbel, Kitâbu'l-İlel, səh. 89)*

Peyğəmbərimiz (s.ə.v)-in hədislərindən və böyük İslam alimlərinin açıqlamalarında da açıqca aydın olduğu kimi, yaşadığımız hicri 1400-cü illər hz. Mehdi (ə.s)-ın zühur dövrüdür. Bu əsrdə hz. İsa (ə.s) yer üzünə gələcək, hz. Mehdi (ə.s) zühur edəcək və İslam əxlaqı yer üzünə hakim olacaq.

## Elçilərə qarşı çıxanlar

Allah bir ayədə; **"məhz belə, Biz hər peyğəmbər üçün günahkarlardan bir düşmən yaratdıq"** (Furqan surəsi, 31) deyə buyurmuşdur. Ayədə açıqca bildirildiyi kimi, hər dövrdə Allahın elçilərinə düşmən olan, onlara maneə törətməyə çalışan insanlar olmuşdur. Hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gəlişində də özünə düşmən olanlar, qarşı çıxanlar olacaq. Əlbəttə ki, bu düşmənlərin başında olan, inkarçıların liderliyini edən, bir ayədə diqqət çəkildiyi kimi; **"pisliyi təşkil edən"** bir şəxs də olacaq.

Məhz bu şəxs, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində dəccal kimi tanıdılır. Dəccal ərəb mənşəli bir sözdür, "dəcl" kökündən gəlir. Lüğətlərdə verilən mənaya görə dəccal; "yalançı, hiyləgər, zehinləri, könülləri, yaxşı ilə pisi, haqq ilə batili qarışdıran, bir şeyi

bəzəyib həqiqi üzünü gizlədən, bucaq-bucaq hər yeri dolaşan müfsid (nifaq salan, pozan, pisləşdirən) və məlun (lənətlənmiş, qovulmuş) bir insandır". Dəccal Axırzamanda (dünyanın son dövrlərində) ortaya çıxacaq ən böyük mənfi gücün adıdır. Hədislərdə ümumiyyətlə bir şəxs kimi təsvir edilir, lakin bu bir insan ola biləcəyi kimi, zorakılığa və vəhşiliyə meylli, şeytani xüsusiyyətlərə sahib və insanlara zülm edən bir ideologiya da ola bilər.

Axırzaman kimi fövqəladə hadisələrin baş verdiyi bir dövrdə Allahın elçisinə düşmənçilik edərək şeytanın sistemini hakim etməyə çalışacaq olan Dəccal, tarixin bəlkə də, ən şiddətli inkarçılarından biri olacaq. Necə ki, Peyğəmbərimiz (s.ə.v) Dəccalın fitnəsinin böyüklüyünü belə təsvir edib:

*Adəmin yaradılışından qiyamətə qədər keçən zaman müddətində Dəccaldan daha böyük hadisə yoxdur. (Tirmizi, səh. 82; Müslim, Fiten: 126)*

Hz. Məhəmməd (s.ə.v)-in başqa hədislərində Dəccal, qiyamətin mühüm əlamətlərindən biri kimi xəbər verilir:

*Qiyamət on əlamət görünmədikcə qopmaz: Duman, Dəccal, Dəbbətül-ərz, Günəşin qərbdən doğması, İsanın yer üzünə enməsi... (Büyük Hadis Külliyatı, 5-ci cild, səh. 362)*

Böyük İslam alimləri də Dəccalın qiyamətdən əvvəl yer üzünə gələcəyini qəti məlumat kimi çatdırıblar. Məsələn, Əbu Hənifə bu mövzu barəsində bunları bildirir:

Dəccalın, Yəcuc və Məcucun çıxması, Günəşin qərbdən doğması, İsa (ə.s)-ın göydən enməsi və digər qiyamət əlamətləri, səhih xəbərlərdə varid olduğu vəchlə, haqqdır, olacaqdır. *(Ebu Hanife, Nu'man b. Sabit (150/767), Fıkh-ı Ekber, tərcüməçi: H. Basri Çantay, Ankara, 1982)*

Hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) ilə eyni dövrdə, yəni Axırzamanda yer üzünə gələcək olan Dəccalın məğlub olması üçün, Allah hz. İsa (ə.s)-ı vəsilə edəcək. Peyğəmbərimiz (s.ə.v)-in bildirdiyi kimi, hz. İsa (ə.s), Dəccalı mənəvi cəhətdən yox edəcək və yer üzündə İslam əxlaqının tam hakim olduğu, mübarək bir dövrün başlamasını təmin edəcək. Hz. İsa (ə.s)-ın Dəccalı yox etməsiylə əlaqədar bir hədis belədir:

*Dəccal, hz. İsa (ə.s)-ı gördükdə suyun içində duzun əriməsi kimi əriyər və qaçıb gedər. **Həzrəti İsa (ə.s)** (Dəccalın arxasınca): "Mənim sənə endirəcəyəm bir zərbə var, sən bu zərbədən heç cür xilas ola bilməzsən", deyər və ona (Fələstindəki bab-ü Lüdd (Lut qapısı) adlanan mövqedə yəni) bab-ü Lüddün (Lut qapısının) şərq tərəfindəki bab-ü Rəmlə (Rəml qapısı; rəml, Filistində bir qəsəbənin adıdır) yanında yetişərək **Dəccalı yox edər**. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 496)*

Böyük İslam alimi Bədiüzzaman da əsərlərində, Axırzaman və hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gəlişi mövzularına çox geniş yer vermişdir. Xüsusi olaraq vurğuladığı mövzuların başında isə, hz. İsa (əs)-ın yer üzünə gəldiyi əsnada dünyadakı dinsizliyi təmsil edən Dəccal ilə çox böyük mübarizə aparıb, onu məğlub edəcəyidir. Bədiüzzamanın bu mövzudakı bəzi açıqlamaları belədir:

Həmçinin aləm-i insaniyyətdə (bəşəriyyət aləmində) inkar-ı üluhiyyət (Allahın kainatdakı hakimiyyətini inkaretmə) niyyətiylə mədəniyyət və müqəddəsat-ı bəşəriyəyi (insanların müqəddəs dəyərlərini) zir-ü zəbər edən (qarmaqarışıq edən) Dəccal komitəsini, həzrəti İsa əleyhissalamın din-i həqiqisini (həqiqi dinini) İslamiyyətin həqiqətiylə birləşdirməyə çalışan hamiyətkar (həmiyyətli) və fədakar bir İsəvi camaatı namı (adı) altında və "müsəlman İsəviləri" ünvanına layiq bir cəmiyyət, o Dəccal komitəsini, həzrəti İsa əleyhissalamın rəyasəti (başçılığı) altında öldürəcək və dağıdacaq, bəşəri inkar-ı üluhiyyətdən (Allahın varlığını inkar etməkdən) qurtaracaq. *(Bediüzzaman Said Nursi, Mektubat, 29-cu məktub, səh. 441)*

..."O qədər güclüdür və davam edər; təkcə həzrəti İsa (ə.s) onu (Dəccalı) yox edə bilər, başqa çarə ola bilməz" deyə rəvayət edilib. Yəni, onun peşəsini və yırtıcı rejimini pozacaq, məhv edəcək, lakin səmavi və ülvi xalis bir din İsəvilərdə zühur edəcək və həqiqəti-Quraniyəyə (Quran həqiqətlərinə) iqtida (tabe olan) və ittihad edən (birləşən) bu İsəvi dinidir ki, həzrəti İsa əleyhissalamın nüzulu (enişi) ilə o dinsiz peşə məhv olar, yox olar. Yoxsa onun şəxsi bir mikrob, bir zökəmlə öldürülə bilər. *(Bediüzzaman Said Nursi, Şualar, 5-ci şua, səh. 581)*

Ustadın bu açıqlamasında həqiqi isəvilik kimi adlandırdığı din İslamdır. Ustadın digər açıqlamaları da nəzərə alındığı zaman bu vəziyyət açıqca görülür. Necə ki, hədislərdə də hz. İsa (ə.s)-ın Quran ilə hökm edəcəyi, xristianlığın batil inanclarını ortadan qaldıraraq, insanları tək bir din altında, (yəni İslam əxlaqında) toplayacağı bildirilir.

Bütün bu açıqlamalardan aydın olduğu kimi, hz. İsa və Dəccal eyni dövrdə yer üzündə olacaqlar. Dolayısilə eynilə qiyamət əlamətləri və hz. Mehdi (ə.s)-ın çıxış əlamətləri kimi, Dəccalın əlamətləri də, hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gəlişinin bir xəbərçisidir. Yenə irəliləyən hissələrdə Dəccalın çıxış əlamətlərinə təfsilatlı şəkildə toxunulacaq və hz. İsa (ə.s)-ın gəlişinin yaxın olduğu bu vəsilə ilə bir daha vurğulanacaq.

## İncildəki açıqlamalar

Buraya qədər hz. İsa (ə.s)-ın gəlişinin xəbərçiləri olaraq həmişə İslami mənbələrdən bəhs etdik. Bunlardan aydın olduğu kimi, Axırzaman ilə əlaqədar əlimizdə İslami mənbələrə aid çox sayda məlumat var. Lakin hər nə qədər təhrif edilmiş olsa da, İncildə də hz. İsa (ə.s)-ın təkrar yer üzünə gəlişini müjdələyən müxtəlif xəbərlər var. Bu xəbərlərin doğruluğundan qəti əmin ola bilməsək də, Quran və Peyğəmbərimiz (s.ə.v)-in səhih hədisləri ilə uyğun açıqlamaları nəzərə almaqda fayda var. Çünki İslami mənbələrlə uyğun olan bu açıqlamaların orjinallığını qorumuş olma ehtimalı güclüdür.

İncildə xüsusilə də hz. İsa (ə.s)-ın ikinci gəlişi, bunun işarələri və son zamanlar barəsində çox sayda açıqlamaya rast gəlmək mümkündür. Bu açıqlamalarda hz. İsa (ə.s)-

ın gəlişindən əvvəl və sonra meydana çıxacaq təbiət hadisələri, ictimai hadisələrdən bəhs edilir. Dövrümüzdə, Peyğəmbərimiz (s.ə.v)-in də hədislərində təfsilatlı şəkildə bildirdiyi bu əlamətlərin əksəriyyətinin əvvəlki zamanlarla müqayisədə diqqətçəkən tərzdə ortaya çıxdığına şahid oluruq. Önəmli olan bu işarələrin biri və ya ikisinin deyil, demək olar ki, hamısının bir-birinin ardınca yaşadığımız dövrdə ortaya çıxmasıdır. Beləliklə də, yaşadığımız zamanın Axırzaman olduğunu, başda İslami mənbələrə görə, həm də İncilə əsaslanaraq söyləmək mümkündür.

İrəliləyən hissələrdə Axırzaman və hz. İsa (ə.s)-ın yer üzünə qayıtmasına işarə edən İncildəki açıqlamalara da yer veriləcək.

## Hz. İsa (ə.s)-ın yer üzünə gəliş əlamətləri

*Şübhəsiz ki, hz. İsa əleyhissalam, yer üzünə enəcək. Əlbəttə ki,* ***onun zühuruna yaxın, əlamətlər və fitnələr olacaq..."*** *(Ukayli "En-Necmu's-sakıb fi Beyanı Enne'l Mehdi min Evladı Ali b. Ebi Talib Ale't-Temam ve'l kamal"; Beklenen Mehdi, 3-cü nəşr, səh. 151)*

Yuxarıdakı hədisdə göründüyü kimi, Peyğəmbərimiz (s.ə.v) Axırzamanda hz. İsa (ə.s)-ın yer üzünə qayıtmasından əvvəl müxtəlif əlamətlərin görüləcəyini xəbər vermişdir. Bu hissədə bu xəbər əsasında, hz. İsa (ə.s)-ın yer üzünə ikinci gəlişinin yaxınlaşdığını müjdələyən əlamətlərə yer verəcəyik. Əvvəlki hissələrdə qeyd etdiyimiz kimi, Axırzaman və qiyamət əlamətləri, hz. Mehdi (ə.s)-ın çıxış əlamətləri, Dəccalın fitnəsinin yaxınlaşdığını göstərən əlamətlər, hz. İsa (ə.s)-ın gəlişinin də xəbərçisidir. Quranda, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində və İslam alimlərinin kitablarında yer verilən izahlar bu mövzulardakı əsas mənbələrdir. Bunlarla yanaşı, İncil açıqlamalarından Axırzaman və hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gəlişi mövzusunda Quran və Peyğəmbərimiz (s.ə.v)-in sözləri ilə uyğun olanları da bizə əhəmiyyətli məlumatlar verir.

Lakin bütün bunlara baxmayaraq, bəzi insanlar bu xəbərlərin dövrümüzə işarə etdiyi mövzusunda bəzi şübhələrə qapıla bilərlər. Bu xüsusda xatırlatmaq lazımdır ki, irəliləyən səhifələrdə bəhs ediləcək əlamətlər heç bir şübhəyə yer verməyəcək qədər açıq və aydındır. Lakin ən əhəmiyyətlisi bu xəbərlərin hamısının dövrümüzdə bir-birinin ardınca gerçəkləşdiyi və hələ də gerçəkləşməsidir. Əlbəttə ki, bu işarələrin bir hissəsi 1400 illik İslam tarixinin hər hansı bir dövründə, dünyanın müəyyən bir bölgəsində, müəyyən nisbətdə görülmüş ola bilər. Belə bir vəziyyət həmin dövrün Axırzaman olduğunu, hz. İsa (ə.s)-ın və hz. Mehdi (ə.s)-ın gəlişinin çox yaxın olduğunu göstərməz. Çünki bir dövrün Allahın müjdələdiyi son dövr kimi xarakterizə edilməsi üçün təfsilatlı şəkildə izah edəcəyimiz bütün əlamətlər eyni dövrdə, bir-birinin ardınca gerçəkləşməlidir. Bu vəziyyət hədislərdə belə ifadə edilib:

***"Qiyamət əlamətləri bir-birinin ardınca gerçəkləşər. Bir sıradakı muncuqların bir-birinin ardınca qopması kimi".*** *(Ramuz-El Ehadis, 277/6; Suyuti, Camiü's-Sagir, 3/167)*

*Ümmət bunları etdiyi zaman,* ***əlamətlər bir-birini, toru qopardılıb qaçan balıqların bir-birini qovaladığı kimi qovalayar.*** *(Ölüm, Kıyamet ve Diriliş, İmam Şarani, səh. 478)*

Hədislər olduqca aydındır. Axırzaman əlamətləri bir-birinin ardınca eyni dövrdə gerçəkləşəcək. Burada bu xüsusa toxunmaqda fayda var: İrəliləyən səhifələrdə yer verəcəyimiz hadisələrdən bəziləri, dövrümüz üçün adi hadisələr kimi qarşılana bilər. Bəziləri burada bəhs edilən əlamətlərin, yaşadığımız dövrün şərtlərinin gərəyi olaraq, təbii olaraq meydana gəldiyini irəli sürə bilərlər. Əlbəttə ki, bu hadisələrin bir hissəsi dövrümüzdə müxtəlif təsirlərlə təbii olaraq meydana gəlir. Lakin bütün bunların 1400 il əvvəl əskiksiz şəkildə tam bu günün ictimai nizamını tərif edəcək şəkildə təsvir edilmiş olması və bir qədər əvvəl də ifadə etdiyimiz kimi eyni dövrdə, bir-birinin ardınca gerçəkləməsi olduqca mühüm məsələdir. Bu vəziyyət, 14 əsr əvvəl Axırzamanda

yaranacaq mühiti təfsilatlı təsvir edərkən Peyğəmbərimiz (s.ə.v)-in bu dövrə diqqət çəkdiyini başa düşməyimiz üçün qəti dəlildir.

Yuxarıdakı məlumatlar əsasında istər İslami mənbələri, istərsə də İncilin açıqlamalarını araşdırdığımız zaman, heyrətamiz bir nəticə ilə qarşılaşırıq. Axırzamana dair işarələr yer üzünün demək olar ki, hər küncündə, bir-birinin ardınca və tam mənasıyla ifadə edildiyi şəkildə, yaşadığımız dövrdə yaşanır. Axırzamanla bağlı xəbərlər sanki zamanımızın əskiksiz bir portretini çəkir. Əlbəttə ki, bu, dərin düşünülməsi lazım olan olduqca möcüzəvi bir hadisədir.

## İslami mənbələrdə qeyd olunan əlamətlər

### 1) Ayın yarılması

Quranın 54-cü surəsinin adı olan "Qamər"in dilimizdə tərcüməsi "Ay"dır. Bu surənin böyük hissəsində, özlərinə göndərilən peyğəmbərlərin "xəbərdarlıqlarını görməzlikdən gələn" Nuh, Ad, Səmud və Lut xalqının, Firon və ətrafının başlarına gələn fəlakətlərdən bəhs edilir. Eyni zamanda birinci ayədə qiyamət vaxtı ilə əlaqədar çox mühüm bir mesaj verilir:

**Saat (qiyamət saatı) yaxınlaşdı və Ay yarıldı. (Qamər surəsi, 1)**

Ayədə işlədilən "yarmaq" felinin ərəb dilində qarşılığı "şakka"dır. Bu sözün ərəb dilində fərqli mənaları var. Bəzi Quran təfsirlərində "ikiyə yarılmaq" mənasından istifadə olunur. Bununla yanaşı, "şakka" sözü ərəb dilində "torpağı şumlamaq, torpağı qazmaq" mənalarında işlədilir.

İkinci mənasına nümunə olaraq, Əbəsə surəsinin 26-cı ayəsində işlədilən mənasını nümunə verə bilərik:

**Şübhəsiz ki, Biz suyu axıtdıqca axıtdıq. Sonra yeri yardıqca yardıq. Beləliklə onda dənələr yetişdirdik, üzümlər, yoncalar, zeytunlar, xurmalar. (Əbəsə surəsi, 25-29)**

Açıqca göründüyü kimi, bu ayədəki "şakka" ifadəsi "yerin ikiyə yarılması" mənasında deyil, "müxtəlif bitkilərin yetişməsi üçün torpağın şumlanaraq yarılması" mənasında işlədilmişdir.

Məhz tam bu nöqtədə, Quranın çox böyük bir möcüzəsi ilə qarşılaşırıq. Qamər surəsində on dörd əsr əvvəldən bildirilən ayə, 20 iyul 1969-cu ildə Ay səthində aparılan işlərlə gerçəkləmişdir. Amerikalı astronavtların Aya ayaq basaraq, Ay torpağı üzərində elmi tədqiqatlar aparmaları, daş və torpaq nümunələri götürmələri, ayın yarılması ayəsindəki ifadələrə tam uyğun gəlir.

Ayın kəşfi; "bir insan üçün kiçik bir addım, bəşəriyyət üçün böyük bir sıçrayış" şüarı ilə eyniləşdirilmişdir. Bu tarixi səfər kosmik tədqiqatlarda bir dönüş nöqtəsidir; kameralar vasitəsilə sənədləşdirilmiş və o tarixdən indiyədək yaşayan insanların seyr etdikləri bir hadisə olmuşdur. Qamər surəsinin ilk ayəsində Allahın bildirdiyi kimi, bu böyük hadisə eyni zamanda bir qiyamət əlamətidir; dünyanın qiyamətdən əvvəl son zaman kəsiyində olduğunun bir əlamətidir (doğrusunu Allah bilər).

Necə ki, bu mövzuda çox mühüm bir işarə daha var. Qamər surəsində keçən bu ayənin bəzi sözlərinin əbcəd dəyəri bizə Aya ayaq basma ili olan 1969 tarixini verir (əbcəd hesabı mövzusunda ətraflı məlumat almaq üçün baxın: *"Hz. İsa (ə.s)-ın çıxış zamanı"* hissəsi).

***...Saat yaxınlaşdı və Ay yarıldı...***

HİCRİ: 1390 MİLADİ: 1969

Lakin bunu da ifadə etməliyik: Əlbəttə ki, Ayın yarılması hadisəsi, Allahın Peyğəmbərimiz (s.ə.v)-ə verdiyi möcüzələrdən biridir. Bir hədisdə bu möcüzə belə bildirilmişdir:

*...Səid ibn Əbu Ərubə, Qatadədən; o da Ənəs ibn Malik (r.ə)-dən rəvayət etdi: Məkkə əhalisi Rəsulullahdan özlərinə bir ayə (möcüzə) göstərməsini istədilər. O da onlara ayı iki bölük göstərdi, hətta Məkkəlilər Hira dağını o iki bölük arasında gördülər. (Sahih-i Buhari ve Tercemesi, 8-ci cild, no.88)*

Yuxarıda qeyd edilən möcüzə, ayədə xəbər verilən Ayın yarılması hadisəsidir. Lakin Quran hər dövrə işarə edən bir kitab olduğu üçün, bu ayə ilə dövrümüzdə Ayın kəşfi mövzusuna da diqqət çəkildiyi düşünülə bilər (doğrusunu Allah bilər).

## 2) İran-İraq müharibəsi

Axırzamanda baş verəcək mühüm bir müharibə hədisdə belə xəbər verilir:

***Şəvval ayında qiyam, zilqədədə hərbi danışıqlar, zilhiccədə isə müharibə baş tutacaq. (Kıyamet Alametleri, səh. 166)***

Hədisdə bildirilən şəvval, zilqədə və zilhiccə ayları İran-İraq müharibəsinin yaranma mərhələləriylə eyni tarixlərə təsadüf edir:

***Şəvval ayında qiyam...***

İran şahına qarşı ilk qiyam məlum olduğu kimi, hədisdə ifadə edilən 5 şəvval 1398-ci ildə (8 sentyabr 1976-cı ildə) ildə baş vermişdir.

***Zilqədədə hərbi danışıqlar və zilhiccədə isə müharibə baş tutacaq...***

Hicri 1400-cü ilin zilhiccə (1980-ci ilin oktyabr) ayında İran-İraq arasındakı müharibə tam mənasıyla başlamışdı.

Digər bir hədisdə isə, bu müharibənin təfsilatları belə təsvir edilir:

*Faris istiqamətindən gələcək olan bir qövmdür ki, belə deyəcək: "Ey ərəblər! Siz çox mövhumatçılığa getdiniz! Siz bunlara lazımınca haqq tanımasanız, heç kim sizinlə ittifaq etməyəcək... Bir gün, onlara və bir gün də sizə verilsin və sözlərə qarşılıqlı əməl edilsin... "Onlar Mutıka çıxacaqlar, müsəlmanlar oradan aşağıya, yazıya enəcəklər... Müşriklər o biri tərəfdəki (Rakabe) adlı qapqara bir çayın kənarında dayanacaqlar... Aralarında döyüş olacaq: Allah hər iki ordudan zəfəri qaldıracaq... (Kıyamet Alametleri, səh. 179)*

| | |
|---|---|
| - **Faris istiqamətindən gələcək olan:** | İran istiqamətindən gələcək olan |
| - **Faris**: | İran - İranlı |
| - **Yazıya enəcəklər**: | Düzənliyə enəcəklər (İraq düzənliyi) |
| - **Mutık:** | Bölgədəki bir dağın adıdır |
| - **Rakabe:** | Neft quyularının çox olduğu bölgədir |

***"Ey ərəblər! Siz çox mövhumatçılığa getdiniz! Siz bunlara lazımınca haqq tanımasanız, heç kim sizinlə ittifaq etməyəcək...***

Hədisin bu hissəsində iki tərəf arasında, irqçilikdən qaynaqlanan bir anlaşmazlığın olacağına diqqət çəkilə bilər. Bu anlaşmazlıqdan ötrü, "Yazı"ya (yəni İraq düzənliyinə) eniləcəyi və müharibənin başlayacağı aydın olur.

***Allah, hər iki ordudan zəfəri qaldıracaq...***

Bu hədisin də işarə etdiyi kimi, İran-İraq müharibəsi 8 il davam etmiş və minlərlə itki verilməsinə baxmayaraq, bir nəticə alına bilməmişdir. İki tərəf də qəti üstünlük təmin edə bilməmişdir.

## 3) Fərat və Dəclə arasındakı böyük müharibə

***"Fərat və Dəclə arasında Zəvra (Bağdad) adlı bir şəhər olacaq. Orada böyük bir müharibə olacaq. Qadınlar əsir götürüləcək, kişilər isə qoyun kəsilən kimi boğazlanacaq". (Kenzul Ummal, Kitab-ul kıyame kısm-ul efal, 5-ci cild, səh. 38, El Muttaki)***

Hədisdə keçən "Fərat və Dəclə arasında yaşanacaq bu böyük müharibə ilə" də yaxın keçmişdə baş verən İran-İraq müharibəsinə diqqət çəkilmiş ola bilər. Əvvəlki səhifələrdə də gördüyümüz kimi, iki müsəlman ölkə arasında yaşanan bu böyük müharibədə, hədisdə diqqət çəkilən torpaqlarda böyük qarşıdurmalar yaşanmış, kəndlər, qəsəbələr, şəhərlər ağır bombardman altında yerlə-yeksan olmuşdur. Qadın, uşaq, yaşlı ayrı-seçkiliyi edilmədən bir çox insan müharibədə həyatını itirmişdir. İrəliləyən tarixlərdə ortaya çıxan kütləvi məzarlar, müharibə əsnasında həyatını itirən insan sayının təxmin ediləndən çox olduğunu göstərir.

## 4) Əfqanistanın işğalı

***Talikana (Əfqanistana) yazıq oldu. Şübhəsiz ki, Allahın orada qızıl və gümüş olmayan xəzinələri var. (Kitab-ul Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 59)***

Hədisdə Əfqanistanın Axırzamanda işğal ediləcəyinə işarə var. Həqiqətən də rusların Əfqanistanı işğal etməsi olan 1979-cu il, hicri 1400-cü ilə, digər bir sözlə, hicri 14-cü əsrin əvvəlinə təsadüf edir.

***Orada qızıl və gümüş olmayan xəzinələri var...***

Rəvayətin bu hissəsində də Əfqanistanın maddi zənginliklərinə diqqət çəkilir. Bu gün Əfqanistanda müxtəlif səbəblərlə işlədilməyən böyük neft yataqları, dəmir yataqları və kömür mədənləri müəyyənləşdirilmişdir.

## 5) Fəratın suyunun kəsilməsi

Fərat çayının suyunun kəsilib dayandırılması da hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın çıxış əlamətlərindəndir:

***Fərat çayının suyu quruyaraq qızıl xəzinəsini meydana çıxartma vaxtı yaxınlaşır. Hər kim, o zaman orada olsa o xəzinədən bir şey götürməsin. (Riyazü's Salihin, 3/332)***

Digər hədislərdə bu hadisənin təfsilatlarıyla əlaqədar mühüm məlumatlar verilir:

*Rəsulullah (s.ə.v): "Fərat çayı qızıl bir dağ üzərindən açılmayana qədər qiyamət qopmayacaq. İnsanlar bunun üçün müharibə edəcək və hər yüz insandan doxsan doqquzu öldürüləcək, onlardan hər insan, kaş ki, xilas olan mən olsaydım, deyəcək" deyə buyurub. (Sahih-i Müslim, 11/320)*

*Rəsulullah (s.ə.v) belə buyurdu: "Yaxında Fərat çayı qızıl xəzinəsini ortaya çıxardar, kim buna hazır olsa, ondan bir şey almasın. (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 28)*

*(Rəsulullah (s.ə.v):) "Fərat çayı bir qızıl dağını ortaya çıxardar" dedi. (Sünen-i Ebu Davud, 5/116)*

Göründüyü kimi, hz. İsa (ə.s)-ın yenidən gəlişinin mühüm bir əlaməti olan Fərat çayının suyunun dayandırılması və qızıl dəyərində bir xəzinənin ortaya çıxması bir çox böyük hədis kitabında qeyd olunur.

İndi yuxarıda yer verdiyimiz hədislərdə keçən bu mövzuyla əlaqədar mühüm ifadələri ayrı-ayrılıqda nəzərdən keçirək:

*Rəsulullah buyurdu: (1) Fərat çayının suyu çəkilib (2) qızıldan bir dağ meydana çıxmadıqca qiyamət qopmaz... (Riyazü's Salihin, 3/332)*

*(1) Fərat çayının suyunun çəkilməsi...*

Süyutinin kitabında bu hədis "suyun dayandırılması" kimi qeyd olunur. Həqiqətən də Keban su anbarı, Fərat çayının suyunu dayandıraraq kəsmişdir.

*(2) "Qızıl"dan bir dağ meydana çıxmadıqca...*

İnşa edilən su anbarı sayəsində; elektrikin istehsal olunması, toplanan suyun ərazidə istifadə edilərək torpağın səmərəsinin artması və nəqliyyatın asanlığının təmin edilməsi kimi səbəblərlə, buradakı torpaqlar "qızıl" kimi qiymətli hala gəlmişdir.

Keban su anbarı və Fərat çayı üzərinə sonradan inşa edilən digər su anbarları, betondan nəhəng bir dağı xatırladırlar. Bu su anbarlarından (hədisdəki bənzətməyə görə dağdan) qızıl dəyərində sərvət tökülür. Dolayısilə su anbarları "qızıl dağ" xüsusiyyəti qazanır (doğrusunu Allah bilər).

## 6) Ramazan ayında Ay və Günəş tutulmaları

***Hz. Mehdi (ə.s) üçün 2 əlamət vardır ki... Bunun birincisi, Ramazanın birinci gecəsi Ayın, ikincisi də, ortasında Günəşin tutulmasıdır. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 47)***

*Ramazanın birinci gecəsi Ay, ortasında Günəş tutulacaq. (Kıyamet Alametleri, səh. 199)*

*Onun səltənəti dövründə, Ramazan ayının on dördündə Günəş tutulacaq, o ayın ilkində isə Ay qaralacaq... (Mektubat-ı Rabbani, 380-ci məktub, 2/1163)*

*Mehdinin zühurundan əvvəl bir Ramazan ayında Günəş iki dəfə tutulacaq. (Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, səh. 440)*

*...Günəşin orucluq ayının ortasında, Ayın isə sonunda tutulması... (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 37)*

*Ramazanda iki dəfə Ay tutulacaq. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 53)*

*Hz. Mehdi (ə.s)-ın gəlişi Razaman ayında Ayın iki dəfə tutulmasına səbəb olacaq. (Kıyamet Alametleri, səh. 200)*

Yuxarıdakı rəvayətlərdə diqqəti çəkən ən mühüm xüsuslar Ramazan ayının ortasında həm Günəş tutulması, həm də bir ay içində Ayın və Günəşin iki dəfə tutulmasıdır.

Əgər bu hədislərdə təsvir edilən hadisələr diqqətlə araşdırılsa, rəvayətlər arasında müxtəlif fərqlər olduğu nəzərə çarpar. Yuxarıdakı 1, 2 və 3-cü rəvayətlərdə Ay, Ramazanın birinci günü, 4-cü rəvayətdə isə sonuncu günü tutulacaq. Belə olan halda, ediləcək ən doğru şey, eyni hadisəyə işarə edən fərqli rəvayətlərin ortaq cəhətlərini müəyyənləşdirmək olacaq. Buna görə də, yuxarıdakı bütün hədis rəvayətlərindən çıxan ortaq nəticələr bunlardır:

1) Ramazan ayında Ay və Günəş tutulmaları olacaq.
2) Bu tutulmalar orta hesabla 14-15 gün fasilə ilə olacaq.
3) Bu tutulmalar iki dəfə təkrarlanacaq.

Bu təsbitlərə uyğun olaraq, 1981-ci ildə (hicri 1401-ci ildə) Ramazan ayının 15-ci günü Ay, 29-cu günü də Günəş tutulmuşdur. Yenə "ikinci olaraq", 1982-ci ildə (hicri 1402-ci ildə) Ramazan ayının 14-cü günü Ay, 28-ci günü də Günəş tutulmuşdur.

Həmçinin bu hadisədə Ayın Ramazanın tam ortasında BÜTÖV AY halında tutulması və diqqətləri çəkəcək bir əlamət kimi meydana çıxması da olduqca mənalıdır.

Bu hadisələrin hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın digər çıxış əlamətləriylə eyni dövrdə baş vermsəi və hicri 14-cü əsrin əvvəllərində, üst-üstə iki il (1401-1402) möcüzəvi tərzdə təkrarlanması rəvayətlərin işarəsinin bu hadisələr ola biləcəyini gücləndirir.

Üstəlik, heyrət oyandıracaq şəkildə bənzər tutulma hadisəsi 2002-ci və 2003-cü illərdə də baş vermişdir.

| GERÇƏKLƏŞƏN TUTULMA | TARİX |
|---|---|
| Ay tutulması | |
| Hicri 1423-cü ildə Ramazan ayının ortasında | 20 noyabr 2002-ci il |
| 15 gün sonra | |
| Günəş tutulması | |
| Hicri 1423-cü ildə Ramazan ayının sonunda | 4 dekabr 2002-ci il |
| Ay tutulması | |
| Hicri 1424-cü ildə Ramazan ayının ortasında | 9 noyabr 2003-cü il |
| 15 gün sonra | |
| Günəş tutulması | |
| Hicri 1424-cü ildə Ramazan ayının sonunda | 23 noyabr 2003-cü il |

## 7) Quyruqlu ulduzun çıxması

***Hz. Mehdi (ə.s)-ın zühurundan əvvəl, (hər tərəfi) işıqlandıran quyruqlu bir ulduz çıxacaq. (Kıyamet Alametleri, səh. 200)***

*O gəlmədən əvvəl, **şərqdən işıq verən quyruqlu ulduz** görünəcək. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 53)*

*O ulduzun çıxması, **Günəş və Ay tutulmasından sonra** olacaq. (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 32)*

*...Nə vaxt ki, məliklər səyahət, zənginlər ticarət, kasıblar istirahət, hafizlər nümayiş etmək üçün həccə gedərlər; məhz o zaman, **quyruğu olan bir ulduz zühur edəcək.** (Kıyamet Alametleri, səh.123)*

Hədislərdə ifadə edildiyi kimi:

- 1986-ci ildə (hicri 1406-cı ildə) yəni 14-cü əsrin əvvəllərində "Halley" quyruqlu ulduzu Yer kürəsinin yaxınlığından keçmişdir. Bu quyruqlu ulduz, parlaq işıqlı ulduzdur.

- Hərəkət istiqaməti şərqdən qərbə doğrudur.

- 1981 və 1982-ci (hicri 1401-1402-ci illərdə) illərdə baş verən Ay və Günəş tutulmaları hadisəsindən sonra ortaya çıxmışdır.

Bu ulduzun çıxışının da digər çıxış əlamətləri ilə eyni zamanda baş verməsi, Halley quyruqlu ulduzunun hədisdə işarə edilən ulduz olduğunu təsdiqləyir.

Tarix boyu bu quyruqlu ulduzun keçdiyi zamanlarda müsəlmanlar baxımından çox mühüm, hətta dönüş nöqtəsi sayıla biləcək hadisələr baş vermişdir. Bunlardan bir hissəsi Peyğəmbərimiz (s.ə.v)-dən nəql edilən rəvayətlərdə də bildirilmişdir:

*Bu ulduz ilk çıxdığı zaman;*

*Hz. Nuh (ə.s)-ın qövmü həlak olmuşdur.*

*Hz. İbrahim (ə.s) oda atılmışdır.*

*Hz. Musa (ə.s) ilə mübarizə aparan Firon və qövmü məhv edilmişdir.*

*Hz. Yəhya (ə.s) öldürüldüyü zaman da görülmüşdür.*

*Siz o ulduzu gördüyünüz zaman fitnənin şərindən Allaha sığının. (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 32)*

Bu ulduz keçdiyi zaman baş verdiyi rəvayət edilən digər mühüm hadisələr isə bunlardır:

Hz. İsa (ə.s) dünyaya gəlmişdir.

Peyğəmbərimiz (s.ə.v)-ə ilk vəhy gəlməyə başlamışdır.

Osmanlı dövləti tarix səhnəsində yer almağa başlamışdır.

İstanbul Fateh Sultan Mehmed tərəfindən fəth edildikdə də bu ulduz görülmüşdür.

## Halley quyruqlu ulduzu barəsində bəzi maraqlı ədədlər

Halley quyruqlu ulduzu ilə əlaqədar bəzi ədədlərin "19" rəqəminin tam misilləri olması da olduqca diqqətçəkəndir:

Halley quyruqıu ulduzu 76 ildən bir keçir

76 = 19 x 4

Bu ulduz ən son hicri 1406-cı ildə göründü

1406 = 19 x 74

Bu mövzuyla əlaqədar digər bir maraqlı vəziyyət də budur: Yuxarıda da hesabladığımız kimi Halley ulduzunun keçmiş olduğu hicri 1406-ci il 19 ədədinin tam 74 mislidir. "74" ədədi isə eyni zamanda Qurani Kərimdə 19 möcüzəsinə işarə edilən MÜDDƏSSİR surəsinin sıra nömrəsidir.

Quranın Müddəssir surəsinin (74-cü surə) 30-cu ayəsində "19" ədədinin möminlər üçün bir rəhmət, inkar edənlər üçün isə bir fitnə vəsiləsi olduğu bildirilir.

Halley quyruqlu ulduzunun 19 ilə olan bu diqqətçəkən əlaqəsi də, inkar edənlər üçün bir fitnə, möminlərə üçünsə bir rəhmət müjdələdiyinə işarə edə bilər.

Müddəssir surəsinin 1-ci və 2-ci ayələrində hz. Məhəmməd (s.ə.v)-ə **"EY ÖRTÜNƏN! QALX VƏ QORXUT"** deyə buyurulur. Bu, ayələrin açıq mənasıdır. Lakin bu ayələrin Axırzamana istiqamətli ikinci bir örtülü, gizli işarələri də ola bilər. Bəlkə də **"EY GİZLƏNƏN"** deyilərək Rəsulullah (s.ə.v)-in nəslindən gələcək olan və hicri 1406-cı ildə çıxış əlamətlərindən biri (quyruqlu ulduzun çıxış hadisəsi) baş verəcək olan hz. Mehdi (ə.s)-a işarə edilə bilər.

**Muddəssir surəsi**

**1) Ey örtüyünə bürünən**

**2) Qalx və qorxut (xəbərdar et)**

<u>Muddəssir</u>: örtünən-bürünən-gizlənən deməkdir.

Digər bir möcüzəvi işarə isə, Halley ulduzunun, 1986-cı ildəki (hicri 1406-cı ildəki) keçişinin, hz. Məhəmməd (s.ə.v)-ə peyğəmbərlik vəzifəsinin verildiyi 607-ci ildən indiyədək 19-cu dəfə keçməsidir.

## 8) Buynuzu xatırladan ikibaşlı ulduzun çıxması

Mükərrər olaraq (təkrarən), **ŞƏRQ CƏNİBİNDƏN (TƏRƏFİNDƏN) ÇIXAN ƏMUD-U NURANİDƏN** (nurlu sütundan) soruşursunuz. Biləsən ki, səhabələrin verdiyi xəbərə görə, Rəsulullah (s.ə.v) belə buyurmuşdur: "Vəd edilən Mehdinin zühur müqəddimələri olan (zühur əlamətləri olan) Abbasi Məlik Xorasana çatdığı zaman, **ŞƏRQ TƏRƏFİNDƏN İKİBAŞLI (1) MÜNƏVVƏR (2) BİR BUYNUZ (3) ÇIXAR".**

Hər kim onu görsə, fitnələrin şərindən Allaha sığınsın. Şərq tərəfindən meydana çıxan o ağlıq; əvvəllər nurlu bir sütun halında idi. Sonra, ona bir əyrilik gəldi; buynuz formasını aldı. Ehtimaldır ki, onun üçün; ikibaşlı, adının verilməsi, bu məqbula görə olsun: Hər iki tərəfində də incəlik olub dişə bənzəyər; buna görə də, hər iki tərəfi də baş

adlandırmaq məqbul görülüb. Necə ki, bir süngünün də hər iki tərəfi incə olsa, onun üçün də, ikibaşlı, ifadəsindən istifadə edər.

Qardaşım Şeyx Məhəmməd Tahir Bedahşi Confordan gəldi. Belə izah edir:

-O sütunun üst tərəfində də iki başı var; iki dişə bənzəyir. İkisi arasında da qısa bir məsafə var.

Bu mənanın diaqnozu səhrada baş tutdu. Eyni xəbəri, digər bir topluluq da verdi. Halbuki bu zühur, hz. Mehdi (ə.s)-ın zühuru dövründə olacaq zühur deyil. Çünki, onun zühuru, əsrin əvvəllərində olacaq. Hazırda belə, əsrin əvvəlindən, on səkkiz il keçmişdir. Hədisdə, hz. Mehdi (ə.s)-ın əlamətləri barəsində belə deyilmişdir:

***"ŞƏRQ TƏRƏFİNDƏ QUYRUQLU BİR ULDUZ ÇIXIB İŞIQ VERƏCƏK".***

*Bu ulduz belə çıxmışdır. Lakin odurmu, yoxsa onun bənzəridirmi? Bu ulduza, quyruqlu ulduz, adının verilməsi, ehtimal ki, bu izahatlara əsaslanır; sabitlərin hərəkəti,* ***MƏĞRİBDƏN (QƏRBDƏN) MƏŞRİQƏDİR (ŞƏRQƏDİR)*** *(4)... Bu ulduzun vəziyyəti də, onun hərəkətinə görədir. Yəni üzü məşriqə (şərqə) doğru, arxası da məğrib (qərb) tərəfinədir. Bu uzun ağlıq belə, onun arxa tərəfindədir. Bu məna zərurəti olaraq, ona; Quyruq... adının verilməsi yerindədir. Onun hərgünkü irtifı (hərəkət istiqaməti) isə, məşriqdən məğribədir (şərqdən qərbədir). Lakin o, qısri (özünəməxsus vəziyyətində ağırlıq daşıyan) hərəkəti ilə fələki-azamın (ərşin) hərəkətinə bağlıdır. Həqiqəti-halı (işin əsil yönünü), ən yaxşı bilən Sübhən Allahdır". (İmam-ı Rabbani, Mektubat-ı Rabbani, 381-ci məktub, səh. 1184)*

İmam Rəbbaninin də təfsilatlı şəkildə təfsir etdiyi "ikidişli münəvvər (parlaq) bir buynuz çıxar" ifadəsi 24 fevral 2009-cu ildə dünyaya ən yaxın nöqtədən keçən Lulin quyruqlu ulduzuna işarə edir. Hədisdəki bütün ifadələr Lulin quyruqlu ulduzunun xüsusiyyətləriylə tam uyğunluq təşkil etməsi çox böyük möcüzədir və hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın gəlişini gözləyən bütün möminlər üçün də çox böyük müjdədir.

**(1) ...ikidişli...:**

Lulin quyruqlu ulduzunun arxa hissəsindəki quyruğun şaxəli olması, hədisdəki ikidişli ifadəsinə tam uyğun gəlir.

**(2) ...münəvvər (parlaq)...:**

Hədisdə bəhs olunan münəvvər (parlaq) sifəti, Lulin quyruqlu ulduzunun dünyaya yaxınlaşdıqca 6 ulduz parlaqlığı qədər artan parlaqlığına işarə edir.

**(3) ...bir buynuz...:**

Lulin quyruqlu ulduzunu digər quyruqlu ulduzlardan fərqləndirən ən mühüm fərqi, ulduzun nüvəsinin arxa hissəsində yerləşən quyruğunun qarşısında, nüvənin ön hissəsində, yəni hərəkət istiqamətində də bir quyruğunun olmasıdır. Lulin quyruqlu

ulduzunun çəkilmiş fotoşəkillərinə baxıldığı zaman da əks istiqamətdəki iki quyruğun forma etibarilə bir buynuzu xatırlatdığı ilk baxışda nəzərə çarpır.

(4) ...məğribdən (qərbdən) məşriqədir (şərqədir)...:

Hədisin davamında qeyd olunan; "sabitlərin hərəkəti, məğribdən (qərbdən) məşriqədir (şərqədir)..." ifadəsi hədisdə hərəkət edən bir cismə, quyruqlu bir ulduza diqqət çəkildiyini təsdiqləyən mahiyyətdədir. Necə ki, digər göy cisimləri məşriqdən (şərqdən) məğribə (qərbə) doğru saat istiqamətinin əksi istiqamətdə hərəkət etdiyi halda, Lulin quyruqlu ulduzunun hərəkəti saat istiqamətində, yəni məğribdən (QƏRBDƏN) məşriqədir (ŞƏRQƏDİR). Başqa heç bir göy cismində görülməyən bu xüsusiyyətin Lulin quyruqlu ulduzunda olması və bunun təxminən 1400 il əvvəl Peyğəmbərimiz (s.ə.v) tərəfindən hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın çıxışının xəbərçisi olaraq bildirilmiş olması, şübhəsiz ki, çox böyük möcüzədir.

## 9) Kəbə basqını və Kəbədə qan axıdılması

***Onun (hz. Mehdi (ə.s)-ın) çıxacağı il insanlar həccə, başlarında bir əmir olmadan gedəcəklər... Birlikdə Beyti Şərifi təvaf edəcəklər, sonra Minaya endikləri zaman, itlər kimi bir-birinə hücum edəcəklər, hacılar qarət ediləcək, qanlar əqabə cəmrəsinin üstünə axacaq. (Kıyamet Alametleri, səh. 168-169)***

*İnsanlar başlarında bir imam olmadan həccə gedərlər. Minaya endikləri zaman, ətrafları, itlərin mühasirəyə alması kimi mühasirəyə alınıb, qəbilələrin bir-birinə girməsi ilə böyük döyüşlər olar. Belə ki, ayaqlar qan gölü içində qalar. (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 35)*

Yuxarıdakı hədislərdə "onun çıxacağı il" cümləsi ilə, hz. Mehdi (ə.s)-ın çıxış tarixində Həcc vaxtı baş verəcək bir qətliama diqqət çəkilir. 1979-cu ildə, Həcc vaxtı baş verən Kəbə basqınında eynilə belə bir qətliam yaşanmışdır. Bu qanlı Kəbə basqını da Axırzamanın başlanğıcının və hz. Mehdi (ə.s)-ın çıxışının digər əlamətlərinin gerçəkləşdiyi dövrün əvvəlində, yəni hicri 1400-cü ilin ilk günündə, 1 məhərrəm 1400-cü ildə (21 noyabr 1979-cu ildə) baş vermişdir.

Yenə hədisdə qanların axacağından bəhs edilərək öldürülmə hadisələrinə diqqət çəkilmişdir. Basqın vaxtə Səudiyyə əsgərləri ilə döyüşçülər arasında baş verən döyüşdə 30 nəfərin öldürülməsi bu rəvayətin qalan hissəsini də təsdiqləyir.

1979-cu ildə (hicri 1400-cü ildə) baş verən bu Kəbə basqınından 7 il sonra hicri 1407-ci ildə, Həcc vaxtı olduqca böyük qanlı bir hadisə baş vermişdir. Bu hadisədə küçələrdə nümayiş keçirən hacılara hücum edilərək 402 nəfər qətlə yetirilmiş, çox qan axıdılmışdır. Beytül Muazzamanın yanında, müsəlmanların (Səudiyyə Ərəbistanı əsgərləri ilə İranlı hacıların) bir-birlərini öldürmələri ilə bir hədisdə xəbər verildiyi kimi, "böyük

günahlar işlənmişdir". Bu qanlı hadisələr əlaqədar hədislərdə təsvir edilən mühitlə çox böyük bənzərliklər daşıyır:

*Rəsulullah (s.ə.v) buyurdu: Ramazanda bir səda, şəvvalda bir səs, zilqədədə qəbilələr arasında döyüş olar. Hacılar qarət edilər. Minada ölülərin çox olacağı bir döyüş olar, belə ki, orada daşları qan gölü içində buraxacaq qədər qan axar. (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 31)*

*Ramazanda bir səda olar. Şəvvalda da bir səda olar. Zilqədədə qəbilələr bir-biriylə vuruşar. Zilhiccədə hacılar qarət edilər. Məhərrəmdə göydən belə nida eşidilər: "Diqqət yetirin. Filan kimsə Allahın xalqının xeyirlilərindəndir. Onu dinləyin və ona tabe olun". (Ramuz El Hadis, 2/518-5)*

*Şəvval ayında qiyam, zilqədədə hərbi danışıqlar, zilhiccədə isə müharibə baş verəcək. Hacılar qarət ediləcək, qanları (əqabə cəmrəsinin) üstünə axacaq. (Kıyamet Alametleri, səh. 166)*

*Zilqədə ayında qəbilələr döyüşər, hacılar qaçırılar, məlhəmələr (qanlı müharibələr) olar. (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 34)*

*Şəvvalda döyüş nərələri, zilhiccədə müharibə və qital (müharibə, döyüş) olar, yenə zilhiccədə hacı qarət edilər, hətta küçələr qandan keçilməz və haramlar çeynənər. Beytül Muazzamanın yanında böyük günahlar işlənər. (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 37)*

Hədislərdə işlənən ifadələri araşdırdığımız zaman da, eyni dövrlə əlaqədar mühüm hadisələrə işarələr olduğu görüləcək:

***Beytül Muazzamanın yanında böyük günahlar işlənər.***

Yuxarıdakı hədisdə, Beytül Muazzamanın içində deyil, yanında baş verəcək hadisələrə diqqət çəkilir. 1407-ci ilin zilhiccə ayında (həcc mövsümündə) baş verən hadisələr də ilkindən fərqli olaraq Kəbənin içində deyil, yanında baş vermişdir. Ən başda bəhs etdiyimiz hadisə isə, 1 məhərrəm 1400-cü ildə Beytül Muazzamanın bilavasitə içərisində yaşanmışdır. Hər iki hadisə də rəvayətlərin işarəsinə uyğun şəkildə gerçəkləşmişdir.

Kəbədə qan axıdılması, hacıların qətlə yetirilməsi kimi, hədislərdə xəbər verilən belə mühüm iki böyük hadisənin hz. Mehdi (ə.s) barəsində bildirilən bütün əlamətlərin baş verdiyi dövrdə bir-birinin ardınca gerçəkləşməsinin çox xüsusi vəziyyət olduğu aydındır.

***...Zilhiccədə döyüş və qital (müharibə, döyüş) olar.***

Hədislərdə, bu döyüş və qarşıdurmalardan, hacıların öldürülməsi mövzusu ilə birlikdə bəhs edilməsi, bəhs edilən hadisələrin eyni zaman kəsiyində baş verəcəklərini göstərir. Eyni dövr, İran-İraq müharibəsinin baş verdiyi, Yaxın Və Orta Şərq ölkələrində qarşıdurma və qarışıqlıqların ən sıx yaşandığı dövr idi.

## 10) Şərq tərəfdən bir odun görünməsi

***Şərqdən üç və ya yeddi gün arxa-arxaya böyük bir od zühur edəcək, göydə qaranlıq görüləcək, göydə adi qırmızılığın əksinə tam fərqli bir qırmızılıq yayılacaq. Yer üzünün eşidib anlaya biləcəyi bir dillə nida ediləcək. (Kıyamet Alametleri, səh. 166)***

*"İkdiddurer" adlı kitabda hz. Mehdi (ə.s)-ın zühur əlamətləri bəhsində keçir: Şərqdə, səmada üç gecə görünən böyük bir alovun çıxması. Mutad (qeyri-adi) şəfəq qırmızılığı kimi olmayan bir qırmızılığın səmada görülüb üfüqdə yayılması. (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 32)*

*Əbu Cəfər ibn Məhəmməd ibn Əli (r.ə.)-dən rəvayət edildi. Siz üç və ya yeddi gün, Şərq tərəfdən alovu gördüyünüz zaman Ali Məhəmmədin çıxmasını gözləyin, uca Allahın icazəsi ilə, bir carçı hz. Mehdi (ə.s)-ın adı ilə səmadan nida edəcək ki, şərqdə və qərbdə olan hər kəs bu səsi eşidəcək. (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 32)*

*And içirəm ki, bir od sizi bürüyəcək. Bu od bu gün Bərəhut adlı vadidə sönük vəziyyətdədir. Bu od möhtəşəm əzab olduğu halda insanları bürüyər. Bu od insanları, malları yandırıb yox edər. Səkkiz gün ərzində küləklə bulud kimi uçaraq dünyanın hər tərəfinə yayılar. Gecədəki hərarəti, gündüzdəki hərarətindən daha şiddətlidir. Bu od insanların başının üstündən ərşin altına qədər yaxınlaşaraq yer üzü ilə səma arasında göy gurultusu kimi qorxunc gurultusu olar" deyə buyurdu. (Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, səh. 461)*

Hz. Mehdi (ə.s)-ın çıxışından əvvəl baş verəcək əlamətlərindən olan bu do barəsində qısa açıqlama vermək yerində olacaq.

Bəziləri bu odu; səbəbsiz yerə birdən-birə ortaya çıxan, sönmək nədir bilməyən, hətta hər kəsin olduğu yerdən mütləq görəcəyi tərzdə bir əlamət kimi gözləyir. Halbuki qiyamət əlamətlərinin baş verdiyi əsnada imtahan davam etdiyindən onların başa düşülməsi, hər kəsin məcburən qəbul edəcəyi açıqlıqda olmaz. Beləliklə də, insanlar ağıllarından, vicdanlarından və iradələrindən istifadə edərək qərar verərlər. Əgər qiyamət əlamətləri ilə əlaqədar hədislər ən incə nöqtəsinə qədər (məsələn; hansı şəhərdə hansı tarixdə, nə cür gerçəkləşəcəyi) anladılsaydı, daha əvvəl də ifadə etdiyimiz kimi, hər kəs məcburən qəbul edər, insanlar arasında dərəcə fərqi qalmazdı. Buna görə də, qiyamət əlamətləri ilə əlaqədar hədislər xüsusilə yarı örtülü şəkildə bildirilmişdir.

Od əlamətini də bu cür qiymətləndirmək lazımdır. Bir od səbəbsiz yerə çıxmaz; ya bir qəza ilə ehmal nəticəsində və ya qəsdli hadisə ilə çıxar. Mehdinin çıxış əlaməti olaraq deyilməsi, onun çox qəribə və qeyri-adi əlamət şəklində çıxmasını tələb etməz. Mühüm məsələ bu odun, hədisdə təsvir edilən odun xüsusiyyətlərinə və ortaya çıxış vaxtına

uyğun olmasıdır. Bu odu tanımaq və müəyyənləşdirə bilmək üçün görüləcək ilk iş, xüsusiyyətlərinin ortaya çıxardılmasıdır.

Məlum olduğu kimi, 1991-ci ilin iyul ayında İraqın, Küveyti işğal etməsindən sonra, Küveytə məxsus neft quyularını oda verməsi nəticəsində Küveyt və Bəsrə körfəzini çox böyük bir od bürümüşdü. Bu odla əlaqədar həmin dövrdəki yazılı mənbələrdə yer verilən bəzi açıqlamalar belədir:

- Küveytin yanan neft, insan və heyvanlar arasında ölümə səbəb oldu. Mütəxəssislərə görə gündə yarım milyon ton neft tüstü şəklində atmosferə qarışdı. Hər gün 10 min tondan çox his, kükürd, karbon və böyük miqdarda xərçəngtörədici xüsusiyyətə sahib karbohidrogenlər bulud kimi körfəz üzərində asılı vəziyyətdə dayandılar... Təkcə körfəz deyil, onun timsalında dünya yandı. *(M. Necati Özfatura, Kurtlar Sofrasında Ortadoğu, səh. 175)*

- Oda verilən iki quyu, Türkiyənin bir gündə istehsal edə bildiyi qədər neft verirdi və tüstü 55 km. uzaqlıqdakı Səudiyyə Ərəbistanından belə görünürdü. *(Hürriyyet, 23 yanvar 1991-ci il)*

- Küveytdə oda verilən yüzlərlə neft quyusu alovlanıb yandı. Mütəxəssislərin "söndürmək olduqca çətindir" dedikləri neft quyularındakı yanğının Türkiyədən Hindistana qədər olan geniş bölgəyə ən azı 10 il müddətində təsir edəcəyi bildirildi.

Oda verilən neft quyularında çıxan alov və tüstü atmosferi fasiləsiz çirkləndirdi. Küveyt gündüzləri gecə mənzərəsi nümayiş etdirirdi. Alovlarla birlikdə yüksələn hisə verilmiş rəngdəki tüstü, Küveyt səmasında payızdan qış fəslinə keçişi xatırlatdı... Küveytin yaşanılası hala gəlməsi üçün ən azı bir illik müddətə ehtiyac olduğu açıqlandı. Kilometrlərlə uzaqdan görülən alovlarla birlikdə yüksələn tüstü, Küveyt səmasını tamamilə bürüyərək ölkəni yaşanmaz hala gətirdi və zənginlər Küveyti tərk etdilər.

Dəhrandakı araşdırma mərkəzinin müdiri Abdulla Dabbaqın (Abdullah Dabbag) *"Nyu-York Tayms"da* dərc olunan açıqlamasına görə, Bəsrə körfəzindəki çirklənmə nəticəsində 106 növ balıq, 180 növ molyusk və bölgədə yaşayan 450 növ heyvan həyat mübarəziəsi verdi. 600 neft quyusundan yüksələn tüstülərin qonşu ölkələrə yayıldığı, həmçinin kükürd kimi tərkibində xərçəng əmələ gətirən maddələr olan tüstülərin turşu yağışına çevrilərək əkinçilikdə məhsuldarlığı azaltdığı açıqlandı. *(M. Necati Özfatura, Kurtlar Sofrasında Ortadoğu, səh. 171)*

*And içirəm ki, bir od sizi bürüyəcək. Bu od bu gün Bərəhut adlı vadidə sönük vəziyyətdədir... (Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, səh. 461)*

* Bərəhut: Bir vadi və ya bir quyu adıdır. *(Kamus Tercemesi, 1/550)*

Əvvəlki səhifələrdə qeyd etdiyimiz hədisin yuxarıdakı ilk hissəsində, od üçün "sönük vəziyyətdədir" deyilir. Od, alışan bir maddənin yanmasıyla meydana gəldiyinə görə burada sönük vəziyyətdə gözləyən odun özü deyil, odun yandıracağı xammaldır. O zaman burada torpaq altından çıxardılan neftə işarə edilə bilər. Necə ki, hədisdəki

Bərəhut adlı yer, bir quyunun adıdır. Bu quyu neft quyusu kimi düşünülə bilər. Zamanı gəldikdə bu quyulardan çıxardılan neft, yanmağa hazır bir od halına gəlir.

*"Bu od möhtəşəm əzab olduğu halda insanları bürüyər".* Bu od, yalnız yanan bir od deyil, eyni zamanda insanlarının canlarını və mallarını əllərindən alaraq əzab içində, ələm-kədərə düçar edəcək və bütün təbiəti çirklədəcək bir oddur.

*"Bu od insanları, malları yandırıb yox edər".* Bu od bəzi insanların ölümünə səbəb olur. Bununla yanaşı malları yandıraraq, maddi zərərə səbəb olduğu kimi, bütün ətrafı və təbiəti çirklədərək də insanların dolanışıq mənbələrini yox edir.

*"Səkkiz gün ərzində küləklə bulud kimi uçaraq dünyanın hər tərəfinə yayılar".* Bu odun, "küləklə bulud kimi uçan" özü deyil, tüstüsüdür. Burada bənzətmə edilərək tüstünün buludlara qədər yüksələcəyi də izah edilmişdir. Bu tüstü küləyin təsiriylə bütün istiqamətlərə doğru yayılar.

*"Gecədəki hərarəti, gündüzdəki hərarətindən daha şiddətlidir".* Bu odun həm gündüz, həm də gecə davamlı yandığı aydın olur.

*"Bu od insanların başının üstündən ərşin altına qədər yaxınlaşaraq yer üzü ilə səma arasında göy gurultusu kimi qorxunc gurultusu olar".* Bu odun çox hündürlüyə çatdığına və bu oddan göy gurultusu kimi çox şiddətli gurultu ilə partlayışlar baş verdiyinə işarə edilir.

*"Göydə adi qırmızılığın əksinə tam fərqli bir qırmızılıq yayılacaq".* Hədisin bu hissəsində, hadisənin gecə vaxtlarında baş verəcəyinə işarə edilmişdir. Gecə vaxtı baş verən böyük partlayışın alovları çox kəskin işıqlandırar. Bu qırmızı alovların yaratdığı qırmızı işıqlanma, xalqa məlum olan qırmızı "dan yeri" işıqlanmasından çox fərqlidir. Çünki gecə vaxtı bu cür gündüz kimi işıqlanma fövqəladə hadisədir.

## 11) Böyük bir hadisənin meydana gəlməsi

**"(1) Hz. Mehdi (ə.s) çıxmadan əvvəl (2) Mədinədə (3) qapqara daşların belə (4) qan içində itəcəyi (5) böyük bir hadisə olacaq. Bu hadisədə bir qadının öldürülməsi (6) bir qamçının yellənməsi qədər asan olacaq. Həmçinin bu hadisə 2 km. qədər yayılacaq".** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 41)*

**(1) Hz. Mehdi (ə.s) çıxmadan əvvəl...** Hədisin belə başlaması bu hadisənin eyni zamanda hz. Mehdi (ə.s)-ın çıxışından əvvəlki əlamətlərindən olduğunu göstərir. Hədislər və böyük İslam alimlərinin izahlarına görə, hz. Mehdi (ə.s) hicri 1400-cü ilin (miladi 1979-80-ci ilin) əvvəllərində çıxmalıdır. Hədisdə işlənən; "hz. Mehdi (ə.s) çıxmadan

əvvəl" ifadəsi, hz. Mehdi (ə.s)-ın ortaya çıxışından qısa müddət əvvəl bu böyük hadisənin baş verəcəyinə işarə edir.

**(2) ...Mədinədə...** Ərəb dilində Mədinə sözü eyni zamanda böyük şəhər mənasında da işlədilir. Aşağıdakı hədis buna nümunədir.

Hz. İbni Əmrdən rəvayət edilmişdir. Rəsulullah (s.ə.v) buyurdu:

Ey Ümmət! Altı şey vardır ki, onlar olmadan qiyamət qopmaz... Altıncısı da mədinənin fəthidir.

Deyildi: Hansı mədinə? Buyurdu: Konstantinopol. (İstanbul)

(Bu İstanbulun hz. Mehdi (ə.s) tərəfindən ediləcək mənəvi fəthidir.)

*(Kıyamet Alametleri, səh. 204 Ramuz El Ehadis 1/296)*

**(3) ...Qapqara daşların belə qan içində itəcəyi...** Hədisin bu hissəsində də qanlı hadisənin üzərində baş verəcəyi zəmin səthi təsvir edilir. Qara daş, yəni asfalt yol üzərində qanlı bir hadisə olacağına işarə edilir.

- 1 may Taksim hadisəsində 34 ölü və 200 nəfərin yaralanmasından axan qanlar, qara daşlar (yəni asfalt yol) üzərinə tökülmüş və bu qanlar küçələrə yayılmışdır.

**Asfalt yol:** Kiçik çaqıl daşlarının asfalt materialı ilə qarışdırılmasından əmələ gəlir.

Bu qarışıq yola töküldüyü zaman bütün qara daş halını alır.

**(4) ...qan içində itəcəyi...** Qarşıdurmalar nəticəsində axan qan, bəzi hissələrdə asfaltı bir örtük kimi örtmüş və asfalt bəzi yerlərdə görünməz hala gəlmişdir.

**(5) ...böyük bir hadisə olacaq...** 1 may Taksim hadisəsi anarxiya dövründə çox sayda insanın qətlə yetirildiyi və xeyli qanın axıdıldığı böyük hadisədir.

**(6) ...Bir qamçının yellənməsi qədər asan olacaq...** Burada bir bənzətmə edilərək öldürmənin çox asan şəkildə ediləcəyinə diqqət çəkilir. Necə ki, bir qamçını, sadə əl hərəkətləriylə hər tərəfə doğru asanlıqla yelləmək mümkün olursa, eyni asanlıqla qamçı kimi qulpundan tutulan və hər tərəfə yönəldilə bilinən tapança da yalnız tətiyinin çəkilməsiylə hədəfdəki şəxsi öldürə bilər.

## 12) 1979-cu ildə İstanbulda baş verən güclü gəmi partlayışı

Hüseyin ibn Əli (r.ə)-dən belə rəvayət olunmuşdur:

**"GÖY ÜZÜNDƏ ŞƏRQ TƏRƏFİNDƏN, GECƏNİ İŞIQLANDIRAN BÖYÜK BİR OD GÖRDÜYÜNÜZ VAXT, MƏHZ O AN, HZ. MEHDİ (Ə.S)-IN GƏLİŞ VAXTIDIR".**

*(Mer'iy b. Yusuf b. Ebi bekir b. Ahmet b. Yusuf el-Makdi'si "Feraidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar)*

Əbu Cəfər ibn Məhəmməd ibn Əli (r.ə)-dən rəvayət edildi.

Siz üç və ya yeddi gün **ŞƏRQDƏN BİR ODU GÖRDÜYÜNÜZ ZAMAN AL-İ MƏHƏMMƏDİN (HZ. MEHDİ (Ə.S)-IN) ÇIXMASINI GÖZLƏYİN,** uca Allahın icazəsi ilə, bir carçı (göydən bir mələk) hz. Mehdi (ə.s)-ın adı ilə səmadan (göydən) nida edəcək ki, şərqdə və qərbdə olan hər kəs bu səsi eşidəcək. Belə ki, qorxudan **YUXUDA OLANLAR OYANACAQ, AYAQDA OLAN ÇÖKƏCƏK, OTURAN İSƏ YERİNDƏN ATILACAQ.** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 32)*

Hədisdə Peyğəmbərimiz (s.ə.v)-in bildirdiyi bu böyük partlayış və ardından ortaya çıxan böyük od 1979-cu ildə, yəni hicri 1400-cü ildə Kadıköy sahillərində meydana gələn **İndependenta** adlı neft yüklü tankerin güclü partlayışını xəbər verir.

15 noyabr 1979-cu ildə dünyanın 4-cü böyük tankeri olan 150 min qros tonluq **İndependenta** adlı Ruminiya tankeri İslam aləminin son mərkəzi olan İstanbula gəldiyi bir vaxtda, bir qəza nəticəsində sahilə çıxmışdır. Bu vaxt istanbullular bu böyük partlayışın səsiylə böyük qorxu və dəhşət yaşadılar. Günlərlə böyük od çıxardaraq yanan bu tanker nəticədə Heydərpaşa önlərində batdı. Hədisdə verilən məlumatlardan bu hadisənin hz. Mehdi (ə.s)-ın, çıxış yeri olan İstanbula ayaq basdığı günlər içərisində baş verəcəyi bildirilmişdir. Göy gurultusu kimi çox uca səslə günlərlə davam edən nəhəng od, işıq və tüstü buludu və hərdənbir baş verən partlayışlarla, hz. Mehdi (ə.s)-ın İstanbula gəldiyi insanlara xəbər verilmişdir.

Peyğəmbərimiz (s.ə.v), İstanbulda baş verən bu böyük hadisə anının hz. Mehdi (ə.s)-ın İstanbula gəliş vaxtı olduğunu; **"...MƏHZ O AN, HZ. MEHDİ (Ə.S)-IN GƏLİŞ VAXTIDIR"** ifadəsiylə açıq şəkildə bildirmişdir.

Həmçinin son 1000 ilin ən böyük mücəddidi olan Ustad Səid Nursi həzrətlərinin külliyatında da, hz. Mehdi (ə.s)-ın hicri 1400-cü il, miladi 1979-cu ildə zühur edəcəyi;

**"İSTİQBAL-İ DÜNYƏVİYYƏDƏ** (dünyanın gələcəyində) **1400 İL SONRA GƏLƏCƏK BİR HƏQİQƏTİ ..."** *(Sözler, səh. 318)* sözləriylə bildirilmişdir.

## 13) Günəşdə bir əlamətin meydana çıxması

***O, (hz. Mehdi (ə.s)), Günəşdə bir əlamət görünənə qədər gəlməyəcək. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 47)***

*Günəş əlamət kimi doğulmadıqca hz. Mehdi (ə.s) çıxmayacaq. (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 33)*

Qiyamətin əlamətlərindən biri də Günəşdə baş verəcək fövqəladəliklərdir. 20-ci əsrdə Günəşdə böyük bir partlayış baş vermiş və dünya bu partlayışdan çox təsirlənmişdir. Hədisdə bəhs edilən Günəşdə meydana çıxacaq əlamət, 20-ci əsrdə görülən bu böyük partlayış ola bilər.

## 14) Günəş tutulması

*Günəş əlamət kimi doğmadıqca hz. Mehdi (ə.s) çıxmayacaq. (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 33)*

Günəşdə yaranacaq əlamət, 20-ci əsrdə yaşanan partlayışla bərabər, ötən illərdə baş verən böyük Günəş tutulmasına da işarə edə bilər. 11 avqust 1999-cu ildə baş verən Günəş tutulması 20-ci əsrin son tam Günəş tutulmasıdır. İlk dəfə bu qədər çox insan Günəş tutulmasını, həm də bu qədər uzun müddət izləyə bilmiş, nəzər yetirmə fürsəti əldə etmişdir. Bu tutulmada diqqətçəkən bir xüsus da Türkiyənin də bu tam tutulmanın ən yaxşı izlənildiyi ölkələrdən biri olmasıdır. Bartından Silopiyə qədər, təxminən 12 şəhər və 100 rayon tutulmanı müşahidə edə bilmişdir.

11 avqust 1999-cu ildə baş verən Günəş tutulması 20-ci əsrin son tam Günəş tutulmasıdır. Bu əsrin ən böyük Günəş tutulması isə 22 iyul 2009-cu ildə baş vermişdir. 2009-cu ildə baş verən və 6 dəqiqə 39 saniyə davam edən günəş tutulması, 11 iyul 1991-ci ildə Havay və Cənubi Amerikadan izlənilən 6 dəqiqə 53 saniyəlik günəş tutulmasından sonrakı ən uzun günəş tutulmasıdır. Aparılan hesablamalar 2132-ci ilə qədər bugünkündən daha uzun bir günəş tutulması olmayacağını göstərir.

Bu qədər əlamətin bir yerdə və çox qısa zaman kəsiyi çərçivəsində ardıcıl gerçəkləşmiş olması, əlbəttə, çox mühüm hadisədir. Bu əlamətlər Allahın iman gətirən qullarına bir müjdəsidir.

## 15) Sistemlərin dəyişməsi

*Zamanın inqitaa uğradığı (zamanın kəsildiyi) bir dövrdə hz. Mehdi (ə.s) adlı bir şəxs gələcək... (Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 14)*

Bu hədisdə Peyğəmbərimiz (s.ə.v), hz. Mehdi (ə.s)-ın "zamanın kəsildiyi", yəni bir çox hədis təfsirçisinin də ifadə etdiyi kimi; "zamanın fərqliləşdiyi", "sistemlərin dəyişdiyi" bir dövrdə gələcəyini bildirmişdir. Bu hədisdə işarə edilən "sistem dəyişikliyi" ilə, 20-ci əsrdə dünyanın hər tərəfinə hakim olan kommunist rejimlərin əsrin sonlarına doğru süquta uğramasının nəzərdə tutulması mümkün ehtimaldır.

20-ci əsrə damğasını vuran qanlı müharibələrin və qətliamların ən böyük səbəblərindən biri, materialist fəlsəfənin məhsulu olan kommunist ideologiyanın hakimiyyətidir. Bu ideologiya, Avropadan Asiyaya, Cənubi Amerikadan Afrikaya qədər

dünyanın böyük hissəsində təsirli olmuş, bir çox ölkə on illər boyu kommunist rejimlər tərəfindən idarə olunmuş və ya kommunist təşkilatlar tərəfindən hədəf alınmışdır. 1990-cı illərə qədər davam edən soyuq müharibənin və ən qəddar qətliamların səbəbi kommunizm olmuşdur.

Kommunist rejimlər digər ölkələrlə vuruşaraq ideologiyalarını yaymağa çalışmaqla bərabər, öz xalqlarına da böyük zülm tətbiq etmiş, çox geniş kütlələri edamlar, kütləvi qırğınlar, toplama düşərgələrindəki ağır şərtlər və qıtlıqlar kimi üsullarla öldürmüşlər.

Kommunist rejimlər, tarixçilərin hesablamalarına görə, 20-ci əsr boyunca 120 milyon insanın ölümünə səbəb olmuşdur. Bunların əksəriyyəti müharibə zamanı cəbhədə ölən əsgərlər deyil, kommunist dövlətlərin öz xalqlarının içindən öldürdükləri mülki vətəndaşlardır. On milyonlarla kişi, qadın, yaşlı, kiçik uşaq, körpə, yalnız kommunist rejimlərin, qatı və vəhşi xüsusiyyətlərindən ötrü həyatını itirmişdir. Bundan savayı milyonlarla insan kommunistlərin zülmünə uğramış, bundan ötrü köç etməyə məcbur edilmiş, əllərindən malları, tarlaları alınmış və hər an öldürülmə, günahsız yerə həbs olunma və ya zülm görmə qorxusu altında yaşadılmışlar.

Lakin 20-ci əsrin sonlarına doğru, çox güclü və sarsılmaz sanılan bu ideologiyaya sahib rejimlər bir-bir çökməyə, zəifləməyə başlamışlar. Bu çöküşün ən nəzərəçarpan simvolu, 1989-cu ildə Berlin divarının dağılmasıdır. İki il sonra, dünyanın ən böyük və ən güclü kommunist dövləti olan Sovet İttifaqı dağılmış və Şərq Bloku tamamilə parçalanmışdır. Afrikadan Hind-Çinə qədər uzanan bir bölgədə fərqli kommunist rejimlər bir-birinin ardınca çökmüş, 1945-ci ildən dünyanın sabit beynəlxalq sistemi olan "ikiqütblü dünya sistemi" ləğv olunmuş, siyasi şərhçilərin deyimi ilə yeni bir dünya sistemi qurulmuşdur. Olduqca təəccüblü şəkildə nəticələnən bu hadisə ilə, hədisdə diqqət çəkilən "sistem dəyişikliyi" baş vermişdir.

Dövrümüzdə isə, kommunizmin son fikri və siyasi qalıqları da yox olur, dünya bu qanlı ideologiyadan tamamilə təmizlənir. İslam əxlaqının dünyaya yayılması ilə bu sistemlərin dünyanın hər tərəfinə gətirdiyi zülm, ağrı, qaranlıq və yoxluq yer üzündən həqiqi mənada silinəcək, insanlar gözəlliyə, zənginliyə, rifaha və dincliyə qovuşacaqlar. Allah, çətinliklərin, qaranlıqların, müharibə, qətliam və ağrıların ardından, rəhmətinin və böyüklüyünün təcəllisi olaraq insanlara bənzərsiz nemətlər bəxş edəcək.

## 16) Tozlu dumanlı fitnə

***Tozlu dumanlı, qaranlıq fitnə görüləcək, bunu digərləri izləyəcək ... (Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 26)***

Bu hədisdə isə, hz. Mehdi (ə.s)-ın çıxışından əvvəl, tozlu və dumanlı, qaranlıq fitnənin olacağından bəhs edilir. Fitnə, "insanın ağıl və qəlbini bilavasitə haqq və

həqiqətdən uzaqlaşdıracaq şey, müharibə, azdırma, qarışıqlıq, ixtilaf, döyüş" kimi mənalara gələn bir kəlimədir.(22) Hədisdə bu fitnənin arxasında toz və duman qoyacağı bildirilir. Həmçinin bu fitnənin "qaranlıq" kimi xarakterizə edilməsi, haradan gəldiyi bəlli olmayan, gözlənilməz bir hadisə olduğuna işarə kimi qəbul edilə bilər.

Bu istiqamətlərdən baxıldığı zaman bəhs edilən hədisin, 11 sentyabr 2001-ci ildə Amerika Birləşmiş Ştatlarının Nyu-York və Vaşinqton şəhərlərində baş verən, dünya tarixinin ən böyük terror hadisəsi kimi xarakterizə edilən hücuma işarə etməsi mümkün ehtimaldır. Televiziya ekranlarında və qəzetlərdə də şahid olunduğu kimi, bu iki böyük terror hadisəsindən sonra böyük toz buludu və duman ətrafı bürümüşdü.

Nyu-Yorkda Dünya Ticarət Mərkəzinə və Vaşinqtonda Pentaqon binasına çırpılan təyyarələrin yanacağının səbəb olduğu partlayışlar nəticəsində böyük duman yaranmış və bu duman bütün şəhərdən və hətta ətraf şəhərlərdən görülə biləcək qədər yüksəlmiş və yayılmışdır. Partlayışlar nəticəsində çökən binalar isə, daha böyük toz buludunun yaranmasına səbəb olmuş, hətta ətrafdakı insanların üstləri tamamilə bu tozla örtülmüşdür.

Bu hadisə, həm dünya tarixinin ən böyük terror hücumlarından biri olması, həm digər əlamətlərlə yaxın dövrlərdə baş verməsi, həm də hədisdə bəhs edilən tərifə bənzər xüsusiyyətlərə sahib olmasından ötrü olduqca əhəmiyyətlidir. Dolayısilə minlərlə günahsız insanın ölümünə və yaralanmasına səbəb olan, bəşəriyyət tarixinin bu ən acınacaqlı terror hadisələrindən biri, hədisdə xəbər verilən və hz. Mehdi (ə.s)-ın çıxışının bir əlaməti kimi bildirilən "tozlu dumanlı, qaranlıq fitnə" ola bilər.

## 17) Geniş yayılmış qətliamların baş verməsi

***Hz. Mehdi (ə.s)-dan əvvəl, geniş yayılmış qətliamların baş verəcəyi böyük fitnə görüləcək. (El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 37)***

*Çox kədərli vəziyyətlər və acınacaqlı mənzərələr görülər. Fitnələr arxa-arxaya davam edər... Ana, ata, qız, kişi hər kəsi öldürər... Bunların arasında fitnə, zorakılıq, həlak və qaçmalar olar. Nə vaxt bitdi deyilər, yenə də davam edər. (Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 36)*

Peyğəmbərimiz (s.ə.v)-in hz. Mehdi (ə.s)-ın gəlişi ilə əlaqədar bildirdiyi hədislərin böyük hissəsində, hz. Mehdi (ə.s) gəlmədən əvvəl dünyada qarışıqlıq, etibarsızlıq və narahatlığın hakim olacağı üzərində dayanılır. Müharibələr və qarşıdurmalarla yanaşı, kütləvi qətliamların yaşanacaq olması da bu dövrün nəzərəçarpan xüsusiyyətləri arasındadır. Həmçinin hədisdə qətliamların geniş yayılacağına, yəni bütün dünya səviyyəsində yaşanacağına diqqət çəkilir.

Ötən əsrdə iki böyük dünya müharibəsi baş vermiş və sırf bu müharibələrdə 65 milyon insan həyatını itirmişdir. 20-ci əsr boyunca siyasi səbəblərlə qətlə yetirilən mülki vətəndaşların sayının 180 milyonu keçdiyi təxmin edilir. Bu, daha əvvəlki əsrlərlə müqayisədə fövqəladə dərəcədə böyük ədəddir. Əslində 20-ci əsrə qədər dünyadakı müharibələr çox vaxt bir cəbhə vuruşması şəklində yaşanır, yəni müəyyən xətt üzərində döyüşən ordular arasında baş verirdi. Halbuki 20-ci əsrdəki silah texnologiyası və buna bağlı yaradılan hərbi strategiyalar, "bütünlüklə müharibə" anlayışını ortaya çıxartmış, müharibələr yalnız cəbhədəki əsgərləri deyil, cəbhə arxasındakı mülki vətəndaşları da böyük ölçüdə hədəf almışdır. Şəhərlərin bombalanması, kimyəvi, bioloji və nüvə silahları, soyqırım, toplama düşərgələri kimi anlayışlar, ilk dəfə 20-ci əsrdə ortaya çıxmışdır.

Həmin bu vəhşilik davam edir, bu gün 21-ci əsrdə hələ də dünyanın hər yerində qanlı müharibələr və qarşıdurmalar davam edir. Bu müharibələrin ortaq xüsusiyyəti isə, yuxarıdakı hədisdə də bildirildiyi kimi, kütləvi qətliamların yaşandığı müharibələr olmasıdır. Bir tərəfdən kütləvi qırğın silahlarından istifadə edilməyə başlanması, digər tərəfdən də qarşıdurmanı və qan tökməyi təşviq edən ideologiyaların fikri hakimiyyəti, qətliamların çox genişmiqyaslı olmasına səbəb olur.

Yaxın tarixə baxıldığı zaman, bir çox insanın həyatını itirdiyi müxtəlif qətliam nümunələri görüləcək. Məsələn, Bosniya müharibsi, əsasən mülki əhalinin hədəf alındığı, qadın, uşaq, yaşlı deyimədən minlərlə insanın qətlə yetirildiyi bir müharibə kimi tarixə keçmişdir. Müharibədən sonra ortaya çıxarılan kütləvi məzarlar isə qətliamın ölçülərini göz qabağına gətirən təəccüblü dəlil olmuşdur.

Afrika qitəsində də tez-tez müxtəlif etnik qruplar arasında şiddətli qarşıdurmalar yaşanır və minlərlə insan həyatını itirir. 1997-ci ilin yayında 5 böyük ölkəni, Zair, Ruanda, Uqanda, Burundi və Tanzaniyanı əhatə edən bir bölgəyə təsir edən bir müharibə, iki böyük qəbilə arasında yaşandı: Hutu və Tutsi qəbilələri. Bu etnik müharibədə yarım milyona yaxın insan həyatını itirdi. On minlərlə insan meşələrdə aclıq, yoxsulluq, epidemik xəstəliklərlə mübarizə apardı və çox böyük hissəsi öldü. Kiçik uşaq və körpələr belə sırf başqa bir qəbilədən olduqları üçün vəhşicəsinə öldürüldülər.

## 18) Şam və Misir məliklərinin öldürülməsi

***Ondan əvvəl Şam və Misir məlikləri (hökmdar, məmləkət sahibi) öldürüləcək... (El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 49)***

Bu hədisdə hz. Mehdi (ə.s)-ın gəlişindən əvvəl Şam və Misir rəhbərlərinin öldürüləcəklərinə diqqət çəkilir.

Misirin yaxın tarixi araşdırıldığı zaman hədisdə də bildirildiyi kimi, bir "məlikin" öldürüldüyü görülür: 1970-ci ildə Misirin prezidenti olan və 11 il hakimiyyətdə qalan Ənvər Sədat.

Ənvər Sədat 1981-ci ildə bir rəsmi parad zamanı müxalifləri tərəfindən təşkil edilən bir sui-qəsd nəticəsində həyatını itirmişdir. Misir tarixində öldürülən rəhbərlərdən digərləri də, 1910-cu ildə sui-qəsdə məruz qalan baş nazir Butros Qali, 1945-ci ildə öldürülən Misirin baş naziri Əhməd Maher Paşa və 1948-ci ildə yenə bir sui-qəsd nəticəsində öldürülən Misirin baş naziri Mahmud Nukraşi (Mahmoud Nukrashy) Paşadır.

Şam sözü isə, təkcə Suriyadakı Şam şəhəri üçün işlədilməz. Şam, ərəb dilində "sol" mənasını verər və qədimdən bəri Hicaz bölgəsinin (Məkkə və Mədinə şəhərlərinin olduğu bölgə) sol tərəfində qalan ölkələri ifadə edər.[23] Şam bölgəsi rəhbərlərindən də sui-qəsdə mərzu qalan çox sayda insan olmuşdur. Bunlardan bir neçə nümunə belədir;

1920-ci ildə öldürülən Suriyanın keçmiş prezidenti Salah əl-Din Bitar (Salah Al-Deen Beetar),

1921-ci ildə öldürülən Suriyanın baş naziri Drobi (Droubi) Paşa,

1949-cu ildə sui-qəsdə məruz qalan Suriyanın baş naziri Muhsin əl-Barazi (Muhsin al-Barazi),

1951-ci ildə öldürülən İordaniya kralı Abdullah,

1982-ci ildə bombalı sui-qəsdə məruz qalan Livanda falangist lideri Bəşir Camayel (Bachir Gemayel)...[24]

## 19) Keçmiş İordaniya kralı Abdullahın öldürülməsi

***Hz. Mehdi (ə.s)-ın çıxış əlamətlərindən biri də, Haşimilərdən yüksək səviyyəli birinin öldürülməsidir. (Risalet-ül Huruc-ül Mehdi, səh. 12)***

Məlum olduğu kimi İordaniya, Haşimilər krallığı kimi adlanır. İordaniya, Osmanlıdan ayrıldıqdan sonra bir müddət İngiltərənin idarəsi altında idi. İngiltərə 1946-cı il London müqaviləsinin tələbinə görə İordaniyanın müstəqilliyini tanıdı. Həmçinin İordaniya əmirliyinin başındakı Abdullaha da İordaniya krallığı rütbəsi verildi. Kral Abdullah, daha sonra, 1951-ci ildə yenə ingilislər tərəfindən öldürtdüldü. Hədisdə diqqət çəkilən hadisə də beləliklə gerçəkləşmiş oldu.

## 20) Misirlilərin əsir alınması

***"Şam əhli, Misirli qəbilələri əsir alacaq". (El Kavl-ul Muhtasar Fi Alamat-il Mehdiyy-il Muntazar, səh. 49)***

Daha əvvəl də ifadə etdiyimiz kimi, Şam bölgəsi, Hicazın (Məkkə və Mədinənin yerləşdiyi bölgənin) sol tərəfində qalan bölgədir. Bu gün bu bölgədə mövcud olan dövlətlər arasında İsrail də var. Dolayısilə bu hədislə İsrail dövlətinin Misirlə olan müharibələrinə və Misir torpaqlarının işğal etməsinə işarə edilə bilər.

26 oktyabr 1956-cı ildə İsrail Misirə hücum etdi və Sina yarımadasını işğal etməyə başladı. Birləşmiş Millətlər Təşkilatının araya girməsiylə qızğın vuruşmalar bir müddət dayandı və İsrail sərhəddinə BMT Sülhməramlı Qüvvələri yerləşdi. 1967-ci ildəki altıgünlük müharibə isə İsrail-Misir arasındakı başqa bir müharibə idi. 5 iyunda İsrail hava qüvvələri, Misirin bəzi hava bazalarına hücum etdi. Bu hücumlardan ötrü çox böyük zərər görən Misir hava qüvvələri 5 iyundan sonrakı günlərdə qarşıdurmalarda heç bir fəaliyyət göstərə bilmədi. Sinadakı Misir qüvvələri geri çəkildi. 9 iyunda İsrail, Qolan təpələrinə hücum etdi və bölgəyə hakim oldu. Həmçinin İordan çayının qərb sahili və Qüdsü də yavaş-yavaş ələ keçirirdilər. Bu müharibənin sonunda İsrail, Qəzza zolağı ilə bütün Sina yarımadasını, İordan çayının qərb sahilini, Qüds şəhərini və Qolan təpələrini ələ keçirdi. Daha sonra bağlanılan müqavilələrlə İsrail Sinadan tamamilə çəkildi. Lakin bu gün hələ də İordan çayının qərb sahili, Qolan təpələri və Qüds İsrail işğalı altındadır.

Bu müharibələr zamanı olduqca çox sayda misirli, İsrail əsgərləri tərəfindən əsir alındı. Bir çox misirli də həyatını itirdi.

## 21) Şəhərlərin yox olması

***"Böyük şəhərlər dünən sanki yoxmuş kimi həlak olar". (Kitabül Burhan Fi Alametil Mehdiyyil Ahir Zaman, səh. 38)***

*Gözəl şəhərlər viran ediləndə... qiyamətlə sənin aranda bu iki barmaq arası qədər məsafə qalmış deməkdir. (Kıyamet Alametleri, səh. 143)*

*Yer üzü viran olmağa başlayacaq. Nəhayət Misir də viran olacaq, lakin Bəsrə viran olana qədər Misir viran olmadan əmin olacaq. Bəsrənin viran qalması İraqın viran qalmasından olacaq. Necə ki, Misirin viran qalması da, Nilin qurumasından qaynaqlanacaq... (Ölüm Kıyamet ve Diriliş, səh. 530)*

Hədislərdə bildirilən böyük şəhərlərin, gözəl diyarların həlak olması və viranə qalması, müharibələr və müxtəlif təbii fəlakətlər nəticəsində baş verən dağıntıları ağla gətirir. Bunlarla yanaşı, yaxın keçmişdə yaradılan nüvə silahları, təyyarələr, bombalar, raketlər və bənzəri silahların müharibələrdə istifadə edilməsi də böyük təxribata səbəb olmuşdur. Bu təxribat gücü yüksək silahlar tarixdəki bənzərləri ilə müqayisə edilməyəcək səviyyədə dağıntılara səbəb olmuşdur. Əlbəttə, hədəf mövqeyindəki "böyük şəhərlər" də bu dağıntılardan birinci dərəcədə təsirlənən yerlər olmuşdur.

İkinci Dünya müharibəsinin bənzərsiz nəticələri buna nümunə kimi verilə bilər. Dünya tarixinin ən böyük müharibəsində, atom bombasından istifadə edilməsi nəticəsində Xirosima və Naqasaki şəhərləri tamamilə yerlə-yeksan olmuşdur. Avropanın paytaxt və mühüm şəhərləri də ağır bombardmanlar nəticəsində böyük ölçüdə dağılmışdır. *Britannika Ensiklopediyası* II Dünya müharibəsinin Avropa şəhərlərində səbəb olduğu ziyanı belə bildirir:

Yaranan təxribat Avropanın böyük hissəsini Ayın səthinə çevirmişdi: Şəhərlər bombardmanlar nəticəsində yerlə-yeksan oldu, kurort məkanları qovruldu və qapqara oldu, yolları bombaların açdığı çuxurlar bürüdü, dəmiryolları yarıtmaz hala gəldi, körpülər uçdu, limanlar batmış gəmilərlə doldu. Müharibədən sonra Almaniyanın, Amerikan bölgəsi hərbi qubernatoru general Lusius D. Kleyin (Lucius D. Clay) dediyi kimi; "Berlin sanki ölülərin şəhəri idi".[(25)]

Bir sözlə, II Dünya müharibəsi tarixdə bənzəri görülməyən genişlikdəki təxribatı hədisin işarə etdiyi hadisələrlə tam uyğunlaşır.

## 22) Viran qalmış ərazilərin abadlaşdırılması

***Dünyanın viran qalmış yerlərinin abadlaşdırılması, abadlaşdırılmış yerlərinin dağıdılması qiyamətin şərt və əlamətlərindəndir. (Kıyamet Alametleri, səh. 138)***

Viran qalmış yerlərin abadlaşdırılması da Axırzaman əlamətlərindəndir. Əvvəlki hissədə ələ aldığımız kimi, müharibələrlə keçən 20-ci əsrdə bir çox şəhər yerlə-yeksan olmuş və yenidən inşa edilmişdir. Berlin, Leninqrad (Sankt-Peterburq), Drezden kimi II Dünya müharibəsi vaxtı tanınmaz vəziyyətə düşən böyük Avropa şəhərləri, müharibədən sonra yenidən inşa edilmiş və bugünkü görünüşlərini almışlar.

Bənzər bir nümunə olaraq Yaponiyanın Kobe şəhəri 1995-ci ilin yanvar ayında böyük bir zəlzələ nəticəsində dağılmışdır. Yaponiya hökuməti və universitetləri, zəlzələləri əvvəlcədən xəbər verən bir üsula sahib ola bilmək üçün, apardıqları çoxsaylı tədqiqatlara 30 il ərzində bir milyard dollar (təxminən 1,5 kvadrilyon lirə) xərcləmişlər. Lakin uğur qazana bilmədilər, çünki yer qabığındakı sarsıntıları tanıyıb təsnif etmək üçün yüz faiz etibarlı modellər yaratmaq qeyri-mümkündür. Zəlzələnin baş verdiyi Kobe və Osaka şəhərlərinin yerləşdiyi bölgə, Yaponiyanın qabaqcıl sənaye və ticarət mərkəzlərindən idi. Buna görə də, zəlzələdən sonra dəyən maddi zərər milyardlarla dollar oldu.[(26)] Lakin bütün bu zərərə baxmayaraq, yaponlar qısa müddət ərzində Kobe şəhərini yenidən inşa etdilər.

## 23) Dördüncü Sülh və Ərəb-İsrail müharibəsi

***Əbu Naim, Əbu Ümamədən təxric etdi (çıxarış etdi), Rəsulullah (s.ə.v) buyurdu: Sizinlə insanlar (bir nüsxədə rumlar deyilir) arasında dörd sülh olacaq, dördüncü sülh, Herakl əhlindən bir insan vasitəsi ilə olar və bu yeddi il davam edər. Deyildi: "Ey Rəsulullah, o gün insanların imamı kimdir?" Buyurdu: "Övladımdan qırx yaşındakı Mehdidir". (Kıyamet Alametleri, Osman Çataklı, 299/8)***

Hədisdə hz. İsa (ə.s) ilə birlikdə yer üzündə olacaq hz. Mehdi (ə.s)-ın çıxış əlamətlərindən biri xəbər verilmişdir. Bu əlamətə görə müsəlmanlarla qeyri-müsəlmanlar arasında 4-cü dəfə bir sülh müqaviləsi bağlanacaq və bu müqavilə 7 il davam edəcək. Bu prosesdən sonra isə hz. Mehdi (ə.s) gələcək. İslam aləmindən bir çox insanın qənaəti, hədisdə keçən "4-cü Sülh"ün, 1979-cu ildə ABŞ-İsrail və Misir arasında Amerikada Kemp Deviddə (Camp David) bağlanan müqavilə olmasıdır (doğrusunu Allah bilər).

## 24) Bir ordunun itməsi

***Hz. Mehdi (ə.s)-ın beş əlaməti var. Bunlar Süfyani, Yəməni, səmadan bir səyhə (çağırış, nərə), Bəydada bir ordunun batması və günahsız insanların öldürülməsidir. (Nuaym Bin Hammad)***

*...Özünə bir ordu göndəriləcək. Bunlar yerin bir səhrasında olarkən yerə batırılacaq. (Müslim'den; Geleceğin Tarihi 4, səh. 31)*

*Bir ordu vuruşmaq üçün gələr, səhraya daxil olduğu zaman, baş və sondakıları batar, ortadakılar da xilas olmaz. (Hanbel, Tirmizi, İbni Mace, Ebu Davud'dan; Geleceğin Tarihi 4, səh. 30)*

2003-ci ildə baş verən İraq müharibəsi vaxtı İraq ordusunun böyük hissəsinin birdən-birə ortadan yox olması müharibənin ən diqqətçəkən hadisələrindən biriydi. Bir çox qəzet və televiziyada, respublika gözətçiləri kimi tanına təxminən 60 000 nəfərlik ordunun və fədailər kimi tanınan təxminən 15 000 İraqlı əsgərin itməsi xəbər kimi yayılmışdı. Yuxarıdakı hədislərdə bu mövzuya diqqət çəkilməsi, hz. Mehdi (ə.s)-ın və hz. İsa (ə.s)-ın çıxış əlamətlərindən biri olan "bir ordunun batması" hadisəsinin baş vermiş olduğunu göstərir (doğrusunu Allah bilər). Necə ki, irəliləyən günlərdə də döyüş təyyarələrinin bir hissəsinin səhra qumları altında basdırılmış vəziyyətdə tapılması, hədisdə bəhs edilən, səhrada bir ordunun batması hadisəsinin İraq ordusu ilə əlaqədar olma ehtimalını gücləndirir.

## 25) İraqlıların pulu qalmayacaq

*"İraqlıların əlində ölçə biləcəkləri bir çəki aləti və alış-veriş edə biləcəkləri bir pul demək olar ki, qalmayacaq". (Kenzul Ummal, Kitab-ul kıyame kısm-ul efal, 5-ci cild, səh. 45)*

Axırzaman və hz. İsa (ə.s)-ın çıxış əlamətlərindən biri də İraqlıların pulunun dəyərini itirməsidir. Bu hədis iki ayrı vəziyyətə işarə edə bilər. Bunlardan birincisi, İran-İraq və Fars körfəzindən müharibələrindən sonra İraqda baş verən iqtisadi tənəzzül ola bilər. Müharibədən ötrü böyük zərər çəkən İraq iqtisadiyyatı, müharibədən sonra davam edən embarqolar nəticəsində heç cür düzəlməmişdir. Xalqın alıcılıq qabiliyyəti azalmış, yoxluq və kasıblıq ən mühüm problemlərdən birinə çevrilmişdir.

Hədisin işarə etdiyi digər bir vəziyyət də, İraq müharibəsindən sonra İraq dinarının tədavüldən çıxardılması ola bilər. Son müharibə ilə birlikdə İraq dinarının sürətlə dəyər itirməsi və tədavüldən qalxması ehtimalından, 2003-cü il tarixli qəzet xəbərlərində geniş bəhs edilmişdi.

## 26) Bağdadın alovlarla yox edilməsi

*Axırzamanda Bağdad alovlarla yox edilər... (Risalet-ül Huruc-ül Mehdi, 3-cü cild, səh. 177)*

2003-cü il İraq müharibəsində, müharibənin ilk günündən etibarən Bağdad, ən çox bombardmana tutulan şəhərlərdən biri olmuşdur. Ağır bombardman, gecələri Bağdadın eynilə hədisdə xəbər verildiyi kimi, alovlanıb yanmasına səbəb olmuşdur. Bağdadın qəzet və televiziya xəbərlərinə əks olunan görünüşləri, yuxarıdakı hədisdə diqqət çəkilən hadisə ilə tam uyğundur. Bu da Axırzamanda olduğumuzu göstərən açıq əlamətlərdən biridir.

## 27) İsrail-Fələstin sülh danışıqları

*Beytül-Məqdisdə sülh müqaviləsi bağlanacaq. (Risalet-ül Huruc-ül Mehdi, 3-cü cild, səh. 184)*

Beytül-Məqdis, Məscidül-Əqsanın digər adıdır. Bu hədisdə də Beytül-Məqdis deyilərək Qüdsdə baş tutacaq bir sülh müqaviləsindən bəhs edilə bilər. Necə ki, Fələstin torpaqlarında qarşıdurma və gərginlik əlli ildən uzun müddətdir ki, davam edir. Lakin

1993-cü ildə Osloda aparılan sülh danışıqları bu torpaqlara dinclik və təhlükəsizliyin gəlməsi üçün mühüm bir addım olmuşdur. Hər nə qədər Osloda alınan qərarların bəziləri ədalətli olmasa və bəziləri də tam mənasıyla tətbiq edilməsə də, iki tərəfin müəyyən mövzular üzərində razılığa gəlməsi mühüm irəliləyiş idi. 2003-cü ildə də başda "Yol xəritəsi" cəhdi olmaqla, iki tərəf arasında sülh danışıqları davam etmişdir.

## 28) İraq və Şama embarqo

***Əbu Nadrə (r.ə) dedi; Cabir (r.ə)-in yanında idik, belə dedi: "Elə bir zaman yaxınlaşır ki, İraq əhalisinə bir kafiz (qab), bir dirhəm (kütlə vahididir) gətirilməyəcək".***

***Dedik ki; "Bu kimdən ötrü olar". Dedi: "Əcəmlər (qeyri-ərəblər) bunu qadağan edərlər". Sonra dedi: "Şam əhalisinə bir dinar, bir müdi (ölçü vahididir) gətirilməyəcək". "Bu kimdən ötrü olar?" dedik. "Rumlardan ötrü" dedi. (Et-Tac, Ali Nâsıf el-Hüseyni)***

*Hz. Əbu Hüreyrə (r.ə) belə deyir: "Rəsulullah əleyhissalatu vəssalam: "İraqa ölçəyi və dirhəmi verilməyəcək. Şama da ölçəyi və dinarı verilməyəcək. Misirə ölçəyi və dinarı verilməyəcək. Başladığınız yerə qayıdacaqsınız" deyə buyurdu və üç dəfə təkrarladı". (Müslim, Fiten: 33, (2896); Ebu Davud, Harac: 29, (3035))*

İraq və Şama embarqo tətbiq olunması qiyamətdən əvvəl yaşanan hadisələrdən, yəni hz. İsa (ə.s)-ın gəliş əlamətlərdən biridir. İraqa, hədisdə xəbər verildiyi kimi, on ildən uzun müddətdir ki, embarqo tətbiq olunması diqqətçəkəndir. Bununla yanaşı, Suriyaya da embarqo tətbiq olunması ehtimalı tez-tez gündəmə gəlir.

## 29) İraqın yenidən qurulması

***...İraqa hücum etmədikcə qiyamət qopmaz. Həmçinin İraqdakı günahsız insanlar Şama doğru sığınacaq yerləri axtararlar. Şam yenidən qurular, İraq da yenidən qurular. (Kenzul Ummal, Kitab-ul kıyame kısm-ul efal, 5-ci cild, səh. 254)***

Hədisdə İraqın yenidən inşa ediləcəyinə diqqət çəkilir. Əvvəlcə İran-İraq müharibəsi, daha sonra Fars körfəzi müharibəsi, son olaraq da 2003-cü ildəki İraq müharibəsindən sonra, İraqda bir çox şəhər yerlə-yeksan olmuşdur. Bu müharibədən sonra yaşanan qarət hallarının da təsiriylə böyük xarabalığa çevrilən İraqın yenidən inşa edilməsi məcburi hal almışdır. Bu vəziyyətdən qəzet xəbərlərində də çox geniş bəhs edilmişdir.

## 30) İraq xalqı Şama, şimala qaçar

*Günahsız və təmiz İraq xalqı Şama qaçar. (Risalet-ül Huruc-ül Mehdi, səh. 210)*

2003-cü ildə İraq müharibəsi başlamadan dərhal əvvəl on minlərlə İraqlının, Suriya başda olmaqla müxtəlif ölkələrə köç etmə səyləri bu hədisdəki hadisə ilə böyük bənzərlik təşkil edir. Bu mövzuyla əlaqədar də müxtəlif xəbər və şəkillərə mediada yer verilmişdir.

## 31) Şamda fitnələr

*Şamda fitnələr bir tərəfdən sakitləşdikcə, digər tərəfdən alovlanar. Göydən çağırıcı bir mələk; "hz. Mehdi (ə.s) əmirinizdir. Hz. Mehdi (ə.s) xəlifənizdir (mənəvi liderinizdir)" demədən də fitnələr bitməz. (Risalet-ül Huruc-ül Mehdi, səh. 63)*

Hz. İsa (ə.s) ilə birlikdə yer üzündə olacaq hz. Mehdi (ə.s)-ın çıxışından əvvəl Şam bölgəsində böyük qarışıqlıqlar olacağı hədisdən aydın olur. Bu hədisdə də Suriyada baş verən qarışıqlıqlara diqqət çəkilə bilər.

Lakin məlum olduğu kimi, Şam bölgəsi təkcə Suriyanın paytaxtı olan Şam şəhəri ilə məhdudlaşmır. Daha əvvəl də bəhs edildiyi kimi, Şam, ərəb dilində söz mənası etibarilə "sol" mənasını verir və qədimdən bəri Hicaz bölgəsinin (Məkkə və Mədinə şəhərlərinin yerləşdiyi bölgə) sol tərəfində qalan ölkələri ifadə edir.

Ötən əsrin əvvəlindən etibarən bu bölgədə tez-tez vətəndaş müharibələri, qiyamlar, qarşıdurmalar və böyük müharibələr yaşanmışdır. Bu qarışıqlıqların biri digərini alovlandırmışdır, bu torpaqlarda yaşayan demək olar ki, bütün insanlar bu vəziyyətdən təsirlənmişlər. Hədisdə bildirilən; "fitnələr bir tərəfdən sakitləşdikcə, digər tərəfdən alovlanar" ifadəsi də bu baxımdan diqqətçəkəndir. Təxminən əlli il ərzində, bu bölgədə yaşanan müəyyən böyük hadisələri belə sıralaya bilərik:

Süveyş müharibəsi

Altıgünlük müharibə

1973-cü il Ərəb-İsrail müharibəsi

Livan vətəndaş müharibəsi

Fələstin torpaqlarında hələ də davam edən qarşıdurma və gərginliklər...

## 32) Şam, İraq, Ərəbistanda qarğaşalıq

*Rəsulullah (s.ə.v) belə buyurmuşdur: "...Elə bəla və müsibətlər olacaq ki, heç kim, sığına biləcəyi bir yer tapa bilməyəcək. Bu bəlalar Şamın ətrafında dolanacaq, İraqın üstünə çökəcək. Ərəbistan yarımadasının əl-ayağını bağlayacaq... Onlar bəlanı bir tərəfdən dəf etməyə çalışarkən, digər tərəfdən o yenə ortaya çıxacaq". (Kenzul Ummal, Kitab-ul kıyame kısm-ul efal, 5-ci cild, səh. 38-39)*

Hədisdə bildirilən "müsibətlərin Şamın ətrafında dolanıb, İraqın üstünə çökəcək olması", son dövrdə yaşanan İraq müharibəsinə işarə edə bilər. Bu müharibədən əvvəl və müharibə vaxtı, müharibənin Suriyaya sıçraması ehtimalı gündəmdə olmuş, lakin müharibə İraqla məhdudlaşmışdır.

## 33) İraqın üç hissəyə bölünməsi

*İraq xalqı üç firqəyə ayrılar. Bir hisəsi soyğunçulara qoşular. Bir hissəsi ailələrini geridə qoyub qaçar. Bir hissəsi vuruşar və öldürülər. Siz bunları gördüyünüz vaxt qiyamətə hazırlanın. (Fera İdu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar)*

Axırzaman əlamətlərindən biri də İraq xalqının üç hissəyə bölünməsidir. Hədisdə xəbər verildiyinə görə, xalqın bir qrupu "soyğunçulara" qoşulacaq. Müharibədən sonra yaranan hakimiyyət boşluğundan faydalanaraq, İraqda böyük talançılıq hadisələri yaşanmışdır. Həqiqətən də xalqın bir hissəsi, oğurluq, qəsbkarlıq, talançılıq kimi "soyğunçuluq" olaraq xarakterizə edilə biləcək fəaliyyətlər göstərənlərə qoşulmuşdur.

Hədisdə xalqın bir hissəsinin də, olduqları yerdən tezliklə qaçmağa cəhd edəcəkləri, hətta geridə qoyduqları ailələrini belə düşünə bilməyəcək mövqedə olacaqları xəbər verilmişdir. Qəzetlərdə bu istiqamətdə yer alan xəbərlər diqqətçəkəndir.

Xalqın bir qisminin isə, müharibəyə qoşulacağı və öldürüləcəyi bildirilir. İraq müharibəsi zamanı da, bəzi insanlar müxtəlif bölgələrdə yaşanan qarşıdurmalara qoşulmuş və həyatlarını itirmişlər.

Həmçinin hədisin ilk hissəsində diqqət çəkilən, "İraqın üç hissəyə bölünməsi" mövzusu fiziki cəhətdən də baş tutmuşdur. Fars körfəzi müharibəsindən sonra, İraq ərazi cəhətdən üç bölgəyə ayrılmışdır. 32-ci və 36-cı paralellər arası, 32-ci paralelin cənubu və 36-cı paralelin şimalı kimi xarakterizə edilən bu üç bölgənin yaradılması, hədisin işarə etdiyi hadisələrdən biri ola bilər.

## 34) Böyük iqtisadi böhran yaşanması

***Bazarların təkarübü qiyamət əlamətlərindəndir. Dedim: "bazarların təkarübü nə deməkdir?" Bunlardır: "Hər kəsin az qazancdan gileylənməsi..." (İbn Mərduveyh Əbu Hüreyrə (r.ə)-dən...) (Kıyamet Alametleri, Pamuk nəşriyyatı, səh. 146)***

Nuaym ibn Hammad, İbni Məsuddan rəvayət edilən bir hədisdə, Hz. Mehdi (ə.s)-ın ortaya çıxmasının lap əvvəlini izah edildiyi dövr, **"TİCARƏT və yolların KƏSİLDİYİ və fitnələrin çoxaldığı zaman"** şəklində təsvir edilir. Hədisin davamında isə hz. Mehdi (ə.s) dövründə bu fitnələrin bitəcəyi xəbər verilir: "...Biz O (hz. Mehdi (ə.s.)) şəxsi axtarmaq üçün gəldik ki, **FİTNƏLƏR ONUN ƏLİYLƏ BİTƏ BİLƏR. KONSTANTİNOPOL (İSTANBUL) ONUNLA FƏTH EDİLƏ BİLƏR** (yəni hz. Mehdi (ə.s) mənəvi cəhətdən könülləri fəth edəcək, böyük mədəni elmi təsir yaradacaq). Biz onu adı ilə və anasının, atasının adıyla və ordusu ilə tanıyarıq... " *(Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 52)*

(Hz. Mehdi (ə.s)-ın zühurundan (ortaya çıxmasından) əvvəl) **BAZAR DURĞUN OLACAQ, QAZANCLAR AZALACAQ.** *(Kıyamet Alametleri, səh. 148)*

Hər kəs **AZ QAZANCDAN GİLEYLƏNƏCƏK**, zənginlər pullarına görə hörmət görəcək. *(Kıyamet Alametleri, səh. 146)*

Ticarət və yolların kəsildiyi və fitnələrin çoxaldığı zaman... *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 39-40)*

2007-ci ildə başlayan və 2008-ci ildə bütün dünyanı təsiri altına alan böyük iqtisadi böhran, hədislərdə xəbər verildiyi kimi, hz. Mehdi (ə.s)-ın çıxış, dolayısilə hz. İsa (ə.s)-ın gəliş əlamətlərindəndir. 2014-cü ilə qədər davam etməsi gözlənilən bu böhran, təkcə ABŞ-ı deyil, bütün dünyaya dərindən təsir etmiş, hətta bəzi Avropa ölkələrinin belə iflas etməsinə səbəb olmuşdur.

## 35) Məhəlləarası döyüşlərin baş verməsi

***Fərat və Dəclə çayı arasında bir şəhər salınacaq ki, orada Abbasilərin səltənətləri qurulacaq. Ora Zəvra (yəni Bağdad şəhəri) adlandırılıb... Ey möminlərin əmiri, Rəsuli-Əkrəm oranı nə üçün Zəvra adlandırmışdır? Çünki müharibə hər tərəfini əhatə etdiyi və ən kənar bölgələrə qədər yayıldığı üçün Zəvra adlandırılar. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 426, no. 776)***

*"Mənim görməkdə olduğum həlak yerlərini siz də görə bilirsinizmi? Mən* ***evlərinizin aralarında fitnə və fəlakət məhəllələrini****, şiddətli yağış sellərinin açdığı yarğanlar kimi*

*görürəm" deyə buyurdu. (Sahih-i Müslim, 4/2221; Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, səh. 368, no. 671)*

Partizan müharibəsi üsulu 20-ci əsrdə yayılmış bir müharibə üsuludur. Bu üsulun işlədildiyi qarşıdurmalar, həmişə məhəllə aralarında davam edər. Ötən əsr bu müharibə üsulunun nümunələriylə doludur. Lakin bu üsulun yaşandığı ən yaxın nümunələrdən biri 2003-cü ildəki İraq-ABŞ müharibəsidir. Necə ki, yuxarıdakı ilk hədisdə də Bağdad şəhərinin ən kənar bölgələrinə qədər çatan bir müharibədən bəhs edilmişdir. Müharibə vaxtı baş verən hadisələr və qəzetlərdə qeyd olunan xəbərlər hədislərdə verilən xəbərin gerçəkləşdiyini göstərir (doğrusunu Allah bilər).

## 36) 20-ci əsrin əvvəlində baş verən Ərəb-İsrail müharibələri

***Müsəlmanlarla yəhudilər müharibə etmədikcə qiyamət qopmaz... (Müslim, Tirmizi)***

Peyğəmbərimiz (s.ə.v)-in yuxarıdakı hədisində xəbər verdiyi kimi, 20-ci əsrin əvvəllərində müsəlmanlarla yəhudilər arasında bir sıra müharibələr baş vermişdir.

Birinci Dünya müharibəsi ilə birlikdə Osmanlı hakimiyyətindən çıxan Fələstin torpaqları, bu dövrdən sonra bir daha sülh və dincliyə qovuşa bilmədi. 1947-ci ildə İngiltərənin Fələstindən çəkilərək ölkənin gələcəyini Birləşmiş Millətlər Təşkilatına həvalə etməsindən sonra, ölkənin ərəblərlə-yəhudilər arasında yarıbayarı bölüşdürülməsini nəzərdə tutan BMT planı həyata keçirildi. 19 əsr aradan sonra dünyada ilk dəfə bir "yəhudi dövləti" yaradılmışdı.

1948-ci ildə iki tərəf arasında qanlı müharibə baş verdi. İsraillilər, "müstəqillik müharibəsi" adlandırdıqları mübarizədə qalib gəldilər və ərəblərə verilən torpaqların da bir hissəsini ələ keçirərək BMT-nin özlərinə verdiyindən daha da böyük ərazini ələ keçirdilər. Fələstin; İordan çayının qərb hissəsi (sonradan "İordan çayının qərb sahili" kimi adlanmağa başlandı) və Aralıq dənizi sahilindəki Qəzza şəhərinin ətrafındakı balaca sahə (sonradan "Qəzza zolağı" kimi adlanmağa başlandı) istisna olmaqla, tamamilə İsrailin hakimiyyəti altına daxil oldu.

Bundan təxminən 20 il sonra 1967-ci ilin iyununda İsrail böyük bir işğal həyata keçirdi. Misir, Suriya və İordaniya, aylardır İsrailə qarşı böyük hücum başlatmağa hazırlaşırdılar ki, İsrail ani bir əks-hücum ilə 5 iyunun səhəri müharibəni başlatdı. Bazalarından havalanıb əvvəlcə uzun müddət Aralıq dənizi üzərində Qərbə doğru uçan İsrailin reaktiv təyyarələri, daha sonra ani dönüşlə Misirə yönəldilər. İsraildən gələcək bir hava hücumunu şimaldan deyil, şərqdən gözləyən Misir "qəflətən" yaxalandı və Nasirin bütün hava qüvvələri hələ havalanmadan yerdə yox edildi. İsrail ordusu, sonrakı 5 gün ərzində də özünə hücum etmək üçün hazır vəziyyətdə gözləyən ərəb ordularını bir-birinin ardınca məğlubiyyətə uğratdı. Yəhudi dövləti, 6 gün ərzində torpaqlarını təxminən

üç mislinə çıxartmışdı. İşğal etdiyi torpaqlara; İordan çayının qərb sahili və Qəzza, yəni Fələstinin 1948-ci ildəki işğalı vaxtı "əskik qalan" son iki hissəsi, Suriyaya məxsus Qolan təpələri və Misirə məxsus nəhəng Sina yarımadası daxil idi.

Həmçinin, İordan çayının qərb sahili ilə birlikdə Şərqi Qüds də yəhudi dövləti tərəfindən ələ keçirildi. Müqəddəs şəhər, 1948-ci il müharibəsindən sonra Şərq və Qərb olmaqla iki hissəyə bölünmüş vəziyyətdə idi. Qərbi Qüds, şəhərin müasir hissəsi olub İsrailin əlində idi. Antik dini məbədlərə sahib Şərqi Qüds, yəni müəyyən mənada "əsil Qüds" isə, ərəblərin tərəfində qalmışdı. İsrail, 1967-ci il müharibəsi ilə şəhərin bu şərq hissəsini də ələ keçirmiş, yəhudi xalqının simvoluna çevrilmiş “ağlama divarı”, 19 əsrdən sonra yenidən yəhudilərin hakimiyyəti altına keçmişdi.

Sovet silahları ilə ordusunu təhkim edən Nasir, 1968-ci ilin aprel ayında itirdiyi torpaqları Misirə qaytarmaq üçün, 1969-cu ilin martında altıgünlük müharibəyə son qoyan atəşkəsi qəbul etmədiyini açıqladı və aylarla davam edəcək aşağı səviyyəli "əldən salma müharibəsi"nə başladı. İsrailin hədəflərinə aylarla təşkil edilən kiçik miqyaslı hücumlar, təkcə Misirin kanal sahilindəki şəhərlərinin İsrail təyyarələri və ağır artilleriyaları tərəfindən bombalanması ilə sona çatdı. Misir, İsraillə yenidən atəşkəs imzalamaq məcburiyyətində qaldı.

1973-cü ilə qədər bu atəşkəs davam etdi. Yəhudilərin Yom-Küpür bayramı əsnasında, 1973-cü il 6 oktyabr günü, Misir və Suriya orduları ani hücum etdilər. Misir ordusu, kanalı keçib İsrailin rəhbərliyi altındakı Sina yarımadasına daxil olaraq, altıgünlük müharibədən sonra yaradılmış və "keçilməz" sayılan Bar-Lev xəttini keçməyə başladı. Suriya isə müvəffəqiyyətli bir əməliyyatla Qolan təpələrində ciddi irəliləyiş əldə etdi. İsraillilər, bir anda böyük şok yaşadılar. Əsgərlər, müqəddəs Yom-Küpürü qeyd etmək üçün toplandıqları sinaqoqlardan tələm-tələsik cəbhəyə yollandılar, İsrail radiosu isə Yom-Küpürdə ənənəvi olaraq qoruduğu səssizliyini pozaraq həyəcan siqnalı verdi.

Lakin Zahal (İsrail ordusu), böyük itkilər verərək də olsa, 9 oktyabr günü ərəblərin hərəkətini adi silahlarla dayandırdı. Bir müddət sonra isə, Suriya ordusu Qolanda dayandırıldı. Buna baxmayaraq, olduqca güclü və strateji mövqeyi daha üstün olan Misir ordusu ilə aparılan müharibə uzun müddət davam etdi. İki tərəf arasında Sina yarımadasında aparılan və çox qanlı keçən tank döyüşünü İsrailin lehinə döndərən ən böyük faktor isə, ümumi qəbula görə, müharibənin ikinci günündən etibarən Vaşinqtonun İsrailə külli miqdarda silah göndərməsiydi.

İsrail, 26 oktyabr günü faktiki cəhətdən bitən müharibə ilə birlikdə dərin nəfəs aldı. Ərəblər, geri aldıqları torpaqlardan yenidən çıxardılmış və "dənizə tökülmə" təhlükəsi sovuşdurulmuşdu. Lakin bu belə israillilər üçün kafi ola bilmədi. Ərəb ordularının bir neçə gün davam edən irəliləyişi belə böyük psixoloji şok yaratmışdı. Bununla yanaşı, 2 700 İsrail hərbçisi həyatını itirmişdi, 3 milyondan bir qədər artıq əhaliyə sahib bir ölkə üçün bu, çox böyük rəqəmdi.

Bu psixoloji şokdan sonra İsrail Sina yarımadasını geri qaytarmağı qəbul etdi və 1979-cu ildə Kemp Devid sülhü imzalandı.

## 37) Günahsız uşaqların öldürülməsi

***...Məhəmməd ümmətindən günahsız bir uşaq öldürüldüyü zaman, göydən bir mələk; "haqq onda (hz. Mehdi (ə.s)-da) və onun yanında olandadır" deyə hayqırar. (Sabban İsafur Ragibin, səh. 154)***

Axırzamanın mühüm əlamətlərindən biri də günahsız uşaqların öldürülməsidir. Bu vəziyyətin nümunələri xüsusilə son illərdə yaşanan müharibə və qarşıdurmalarda tez-tez görülür. Afrika ölkələrində yaşanan bəzi vətəndaş müharibələrində vuruşmalarda kiçik uşaqların döyüşməyə məcbur edilmələri və qəddarcasına qətlə yetirilmələri bu nümunələrdən biridir. Uşaqların sıx hədəf alındığı yerlərdən biri də Fələstin torpaqlarıdır. 2002-2003-cü illərdə Fələstində 500-dən artıq uşaq həyatını itirmişdir. İraq müharibəsi zamanı da doğum evləri vurulmuş, bir çox uşaq ölmüşdür.

## 38) Fitnələrin çoxalması

İnsanların həyat şərtlərinin çətinləşdiyi, Allahın və dinin müxtəlif şəkillərdə inkar edilərək insanların imanlarının zəiflədilməyə, yox edilməyə çalışıldığı şiddətli imtahan şəraitləri İslami mənbələrdə "fitnə" mühiti kimi xarakterizə olunar.

Peyğəmbərimiz (s.ə.v)-in bir hədisində Axırzamanda bəzi möminlərin imanlarının zəifləyəcəyi və buna səbəb olacaq hadisələr xəbər verilir:

***Qiyamət yaxınlaşdığı zaman və möminlərin qəlbi; ölüm, aclıq, fitnələr, sünnələrin yox olması, bidətlərin ortaya çıxması, yaxşı əməlləri əmr edib pis əməlləri qadağan etmə imkanlarının itməsi kimi, səbəblərlə zəiflədiyi zaman, Allah mənim övladlarımdan hz. Mehdi (ə.s) ilə sünnəni canlandırar. Onun ədalət və bərəkəti ilə möminlərin qəlbi fərəhlənər, əcəmlər (qeyri-ərəblər) və ərəb millətləri arasında ülfət və məhəbbət yerləşər. (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 66)***

Hədisdə bəhs edilən məlumatlara görə, əgər qısa şəkildə yekunlaşdırmalı olsaq, Axırzamanda, hz. Mehdi (ə.s) və dərhal sonra da hz. İsa (ə.s) gəlmədən əvvəl bu hadisələr baş verəcək:

1- Ölüm: Anarxiya və yayılmış qətliamlar nəticəsində xalqın can təhlükəsizliyinin qalmaması və bunun yaratdığı narahatlıq mühiti.

2- Aclıq: Həyat bahalılığından ötrü yaranan dolanışıq çətinliyi. Fəlakətlər və təbii fəlakətlər nəticəsində qıtlıqların, aclığın artması.

3- Fitnələr: Haramların kiçik-böyük hər kəsin arasında, mümkün qədər yayılması və təşviq görməsi. Hər cür əxlaqsızlığın insanların gözləri qarşısında edilməsi.

4- Bidətlərin ortaya çıxması: İslam dinində olmadığı halda sonradan ortaya çıxarılan adətlərin dinin əsaslarıymış kimi qəbul edilməsi.

5- Din əxlaqından bəhs etmə imkanlarının yox olması: Yaxşı əməllərin əmr edilməsi və pis əməllərə maneə törədilməsi, bir sözlə, təbliğ imkanının yox olması ilə yaranan mənəvi boşluq.

Fitnə mühitləri güclü imana sahib möminlər üçün imanlarının güclənməsinə, səbirlərinin və axirətdəki dərəcələrinin artmasına vəsilə olduğu halda, zəif və səthi imana sahib insanların imanlarını itirmələrinə və ya imanlarının daha da zəifləməsinə gətirib çıxardar. Hz. Mehdi (ə.s) belə bir fitnə mühitinin ən sıx və şiddətli şəkildə yaşandığı bir dövrdə ortaya çıxacaq.

Başqa hədislərdə və İslam alimlərinin açıqlamalarında da Axırzamanda hz. Mehdi (ə.s)-ın, hər yerə çatmış çox yayılmış bir fitnə olarkən ortaya çıxacağı bildirilir:

***Hz. Mehdi (ə.s), fitnələrin zühur etdiyi bir zaman intervalında gələcək. (Mektubat-ı Rabbani, 2-258)***

***Məğribdə (qərbdə) qarışıqlıqlar, fitnələr və qorxu olacaq. Aclıq və həyat bahalılığı mümkün olduğu qədər yayılacaq. Fitnələr çoxalacaq. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 440)***

## 39) Hər yerə çatan bir fitnə

***Heç bir tərəfin ondan qoruna bilməyəcəyi bir fitnə zühur edəcək, bu fitnə qaldığı yerdən dərhal başqa bir tərəfə yayılacaq və bu vəziyyət bir carçının səmadan səslənərək: "Ey insanlar, əmiriniz artıq hz. Mehdi (ə.s)-dır" deməsinə qədər davam edəcək. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)***

Hədislərdə hər kəsə çatacaq, sürətlə yayılacaq bir fitnədən bəhs edilir. Yəni hər kəsin xəbərdar olacağı, dinə və Allaha qarşı ortaya atılan bir fitnə insanların imanlarını hədəf alacaq. Dövrümüzdə, Allahın varlığına və dinin yaşanmasına qarşı irəli sürülən ən irimiqyaslı fikri cərəyan materialist fəlsəfədir. Bu fəlsəfənin özünə dayaq qəbul etdiyi guya elmi təməl isə "təkamül nəzəriyyəsi"dir. Heç bir elmi və məntiqi dəlilə əsaslanmadığı, tamamilə ağıl və elmdən kənar olduğu halda, güclü təbliğat, aldatma və göz boyama üsullarıyla bu cəfəngiyat dünya səviyyəsində müəyyən materialist mərkəzlər tərəfindən kütlələrə təlqin edilməyə çalışılır.

Bu gün təkamül nəzəriyyəsinin istər mətbuat, istərsə də televiziya vasitəsilə demək olar ki, girmədiyi heç bir ev, bu nəzəriyyəni eşitməyən heç kim yoxdur. Bu vəziyyət, bütün Qərb dünyası üçün etibarlı olduğu kimi, müsəlman ölkələr üçün də etibarlıdır. Belə

ki, dərsliklərdə belə yer verilən bu nəzəriyyə, ortaya atdığı çoxsaylı yalan və göz boyamalarla hələ uşaq yaşlarından etibarən insanlara təlqin edilir; təsadüflər nəticəsində meydana gəldikləri, meymundan törədikləri kimi gülünc cəfəngiyatlarla insanlar yanıldılırlar. Gənclərin ibtidai siniflərdən universitetlərə qədər təkamülçü yalanlarla beyinləri zəhərlənir (təkamül nəzəriyyəsi ilə əlaqədar təbliğat cəhdlərinə verdiyimiz elmi cavablar üçün baxın: Harun Yəhya, "Təkamül yalanı", Araştırma nəşriyyatı).

Diqqətçəkən bir nöqtə daha var: Peyğəmbərimiz (s.ə.v)-in hədisində bildirdiyi kimi, bir fitnənin dünyanın hər yerinə nüfuz etməsi və sürətlə yayılması, təkcə dövrümüzdəki texnologiya imkanlarıyla (mətbuat, nəşriyyat, internet, peyk rabitəsi...) reallaşa bilər. Keçmiş şərtlərdə, bir fitnənin dünya səviyyəsində qısa müddətdə bu qədər geniş sahəyə yayılması qeyri-mümkündür. Necə ki, bu günə qədər Allahın varlığına, yaradılışa və din əxlaqına qarşı mübarizə aparan dünya səviyyəsində geniş yayılmış başqa fitnə, hələ görünməmişdir. Bütün bunlar hz. Mehdi (ə.s)-ın çıxış zamanının və dolayısilə hz. İsa (ə.s)-ın təkrar yer üzünə qayıtmasının içində yaşadığımız dövrdə olacağına dair əhəmiyyətli işarələrdir (doğrusunu Allah bilər). Lakin bunu da xatırlatmalıyıq ki, hədislərdə hz. İsa (ə.s)-ın gəlişi və hz. Mehdi (ə.s)-ın çıxışıyla bu fitnənin bitəcəyi də müjdələnilir.

## 40) Haramların halal sayılması

***Bir fitnə görülər, bunu digər fitnələr izləyər... bundan sonra bütün haramların halal sayılacağı bir fitnə gələr... (Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, səh. 26)***

*Hz. Hüzeyfənin dediyinə görə, Rəsulullah (s.ə.v) belə buyurmuşdur: "Ey Hüzeyfə! O gündə onlar riddə (dindən çıxmaq) üzrə olacaqlar. Şərabın halal olduğunu zənn edəcək və namaz da qılmayacaqlar". (Ukayli, En-Necmu's-sakıb fi Beyanı Enne'l Mehdi min Evladı Ali b. Ebi Talib Ale't-Temam ve'l kamal)*

Dövrümüzdə fahişəlik, qumar, içki, rüşvət kimi bir çox hərəkət, haram olmalarına baxmayaraq, dünyanın bir çox ölkəsində getdikcə artan ölçüdə işlənir. Bəzi Qərbli qəzet və televiziyalarda bu haramları işləyənlər tez-tez təriflənir və təşviq edilir, hətta işləməyənlər tənqid edilir. Aparılan statistic hesablamalar isə bu mövzudakı sayın getdikcə artdığını göstərir. Getdikcə daha yayılan bu sərhəd tanımaz, halal-haramı görməzlikdən gələn, hər cür azğınlığı normal sayan həyat tərzi hədislərdə təsvir edilən mühiti çox açıq şəkildə əks etdirir. Mehdinin çıxış xəbərçisi olan bu qaranlıq mühit, eyni zamanda hz. İsa (ə.s)-ın gəlişinin də yaxınlaşdığına işarə edir. Bu mövzuyla əlaqədar digər bəzi hədislər və İslam alimlərinin açıqlamaları belədir:

*Küfür hər yanı zəbt edib hökmünə cəmiyyət içində açıq şəkildə əməl olunmadıqca Mehdi zühur etməz. Bu vaxtda baş verən isə... küfrün zəbtidir. Onun gücüdür. (Mektubat-ı Rabbani, 2-259)*

*Hz. Mehdi (ə.s), bütün haramların halal sayıldığı böyük bir fitnədən sonra çıxacaq. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)*

## 41) Allahın açıqca inkar edilməsi

***Allah açıq-aydın inkar edilmədikcə qiyamət qopmaz. (Kitabül Burhan Fi Alametil Mehdiyyil Ahir Zaman, səh. 27)***

Allahı inkaretmə azğınlığı olan ateizm, 19-cu əsrin sonundan etibarən yayılmışdır. Materializm və darvinizmin yayılmasıyla özlərinə fəlsəfi və guya elmi dayaq tapdıqları yanılmasına qapılan ateistlərin sayı 20-ci əsrdə artmışdır. Ateistlər bu dövrdə azğın fikirlərini təbliğ etmə imkanı qazanıblar. Ateizm, səmimi iman gətirənlərin aparacağı fikri mübarizə ilə Allahın icazəsi ilə yox olmağa məhkumdur (ateizmin süqutu mövzusu üçün baxın: Harun Yəhya, *"İslamın yüksəlişi"*, Araştırma nəşriyyatı)

## 42) Allahdan başqa ilahlar qəbul edilməsi

***Lat-Uzzaya yenidən Allahdan başqa ilah qəbul edilərək sitayiş edilmədikcə qiyamət qopmaz... (Kıyamet Alametleri, səh. 281)***

*Ümmətimdən bir çox qəbilələr müşriklərə qoşulacaqlar, qiyamətdən əvvəl hamısı küfrə girəcəklər... (Kıyamet Alametleri, səh. 287)*

*Ümmətimdən bəzi insanlar bütlərə qayıdıb sitayiş edənə qədər qiyamət qopmaz. (Kıyamet Alametleri, səh. 241)*

Allahdan başqasını ilah qəbul etmək, şübhəsiz ki, çox böyük azğınlıq və günahdır. Bəzi insanlar, bütlərə tapınmaqdan bəhs edildiyi zaman, təkcə keçmiş cəmiyyətlərin etdiyi kimi taxtadan və ya daşdan yonulmuş heykəllərə sitayiş etməkdən bəhs edildiyini zənn edərlər. Halbuki bu yanılmadır. Şirk qoşan bir insan, yalnız insanların düzəltdiyi bütlərə sitayiş edən insan demək deyil. Allahın Quranda bildirdiyi kimi, şirk qoşmadan iman gətirmək; "dini yalnız Allaha məxsus edərək (yəni yalnız Allahın rizasını və rəhmətini umaraq) iman gətirmək" deməkdir. Axırzamanda isə, şirk qoşmadan, səmimi iman gətirən insanların sayı azalacaq, göstəriş üçün ibadət edən, Allahın haqq dinindən uzaqlaşaraq bəzi batil inanclar qəbul edən insanların sayı artacaq.

## 43) Materialist fəlsəfənin yayılmasına işarə

*"Bismillah hərflərinin dəyəri itirildiyi zaman, Mehdi zühur edər". (Risalet-ül huruc-ül Mehdi, səh. 29)*

Hədisdə "bəsmələ" deyilərkən, insanların din əxlaqına olan aspekti və imani vəziyyətləri nəzərdə tutula bilər. Necə ki, insanların imanlarının zəiflədiyi bir dövrdə hz. Mehdi (ə.s) zühur edəcək və bu cərəyanları fikrən ortadan qaldıracaq. Bu cəhətdən düşünüldüyü zaman, hədisdə işlənən ifadə, materialist və darvinist fəlsəfənin insanlar üzərindəki təsirinin çox olacağına işarə ola bilər. Hz. İsa (ə.s)-dan əvvəl gələcək olan hz. Mehdi (ə.s)-ın vəzifələrindən biri, (bəlkə də ən önəmlisi) bu fəlsəfə və fikir cərəyanlarını yox edərək hz. İsa (ə.s)-a zəmin hazırlamasıdır.

## 44) Anarxiya və qarğaşalıq günləri

*Qiyamətin tam yaxınlığında anarxiya və qarğaşalıq günlər var. (Suyuti, Cami'üs Sagir, 3/211)*

Anarxiya və qarşıdurma, geridə qoyduğumuz əsrin ən nəzərəçarpan xüsusiyyətlərindən biridir. Vətəndaş müharibələri və qiyamlar minlərlə insanın həyatı bahasına gəlmiş, təhlükəsizlik və dinclik insanların ən böyük həsrətlərindən birinə çevrilmişdir. Bəzi Afrika ölkələrində heç cür bitməyən vətəndaş müharibələri, başda Cənubi Amerika olmaqla, bəzi ölkələrdə baş verən qiyamlar, Cənubi Asiyada yaşanan qarşıdurma və müharibələr, Yaxın və Orta Şərqdə yaşanan gərginliklər bu qarğaşalığın təkcə bilinən müəyyən nümunələridir.

Bununla yanaşı, xüsusilə son on ildə terror yayılmış, Amerikadan Asiyaya qədər uzanan geniş bir ərazidə, bir çox ölkə terrorist hücumlardan zərər çəkmişdir. Vətəndaş və günahsız insanları hədəf alan terror, insanların qorxulu yuxusuna çevrilir, anarxiya və qarğaşalıq insanlarda narahatlığa səbəb olur.

## 45) Sülhün aradan qalxması

***Bütün qəlblərə fəsad düşdüyü üçün xalqın bir hissəsi digər hissəsiylə danışaraq sülh və ittifaq nümayiş etdirərlər. Lakin qəlblərində sülh və ittifaqa müxalif vəziyyət olduğu bir dövr gəlmədikcə qiyamət qopmaz. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 382, no. 701)***

Yuxarıdakı hədis dövrümüzdə açıqca yaşanır. Xüsusilə İsrail-Fələstin arasında istənilən təşəbbüs və səyə baxmayaraq, heç cür baş tutmayan sülh, hədisin işarə etdiyi hadisələrdən biri ola bilər (doğrusunu Allah bilər). Həmçinin dövrümüzdə yer üzündə sülhün hakim olması üçün, döyüş və müharibələrin bitməsi üçün, dünyanın hər tərəfində sülh tərəfdarları tərəfindən nümayişlər keçirilir. Lakin bütün bu nümayişlər yalnız Orta və Yaxın Şərqdə deyil, dünyanın bir çox bölgəsində davam edən qarşıdurma, müharibə və qətliamların qarşısını ala bilmir.

## 46) Qiyamların olması

*...(O əsnada) fitnələr, qarışıqlıqlar, qiyamlar çox olar insanlar bir-birlərini öldürərlər. İnsanlar öz canlarına qıyarlar və yer üzünü bəlalar bürüyər. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 482, no. 901; Kitabü'n-Nihaye, İbn-i Kesir, 1/131)*

Daxili çəkişmələr və qiyamların çoxalması, Peyğəmbərimiz (s.ə.v)-in Axırzamanla əlaqədar verdiyi mühüm məlumatlardandır. 20-ci əsrin sonlarından etibarən başda Salvador, Nikaraqua kimi Mərkəzi və Cənubi Amerika ölkələri olmaqla, dünyanın hər tərəfində qiyamlar, çevrilişlər və əks-çevrilişlər yaşanmışdır. 1980-ci illərin əvvəlində Mərkəzi Amerikada, bir qrup idarəçi heyət ilə hərbi liderlər arasında baş verən mənfəət qarşıdurmaları, çöllərdə təşkilatlanan partizan hərəkatlarının da güclənməsiylə təxminən 22 milyon insanı təsiri altına alan böyük qarşıdurma və qarğaşalıq mühitinə çevrilmişdir. Həyata keçirilən qiyamlarla Nikaraquada Somoza höküməti devrilmiş, Honduras, Saldavor və Qvatemalada böyük qiyamlar yaşanmışdır. Bütün bu hadisələr əsnasında təkcə 1982-ci ildə, həmin bu bölgədə 15 min insan həyatını itirmişdir.(27)

## 47) İnsanların bir-birindən qaçması

*"Ey Allahın Elçisi, Ahlas fitnəsi nədir?" "Qaçmaq (yəni insanlar arasındakı həddindən artıq düşmənçilikdən ötrü bir-birlərinə etibar edə bilmədikləri üçün bir-birlərindən qaçmaları) və insanların mallarının talan edilməsidir" deyə buyurdu. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 386, no. 714)*

Hədisdə, insanların etibarsızlıq və qorxudan ötrü bir-birlərindən qaçmalarına diqqət çəkilir. Bununla, yurdlarından köç etmək məcburiyyətində qalan insanlara işarə edilməsi mümkündür. Həqiqətən də qarşıdurmalardan ötrü evlərini tərk edən, müharibələr ucbatından torpaqlarından çıxardılan insanların sayı 20-ci əsrin əvvəllərindən etibarən böyük artım göstərmişdir.

Xüsusilə son 20-30 ildə bu artım diqqətçəkən göstəriciyə çatmışdır. 2001-ci ildən etibarən təxminən dünyadakı 23 milyon olan mühacir sayı, 2002-ci ildə demək olar ki, 30 milyona çatmışdır.[(28)]

## 48) Dünyanı qarışıqlıq və qarğaşalıqların bürüməsi

***Dünya hərc-mərclik[1] içində qaldığı, fitnələr zühur etdiyi, yollar kəsildiyi, bəziləri bəzilərinə hücum etdiyi, böyük kiçiyə mərhəmət etmədiyi və böyüyə təmkinli davranılmadığı zaman Allah, bu vaxt onlardan ədavəti (düşmənçiliyi) yox edərək dəlalət (iman və İslamiyyətdən ayrılmaq, azğınlıq) qalalarını fəth edəcək və əvvəlcə mənim ayaqda tutduğum kimi, Axırzamanda dini ayaqda tutacaq, əvvəllər zülmlə dolu olan dünyanı ədalətlə dolduracaq birini (hz. Mehdi (ə.s)) göndərəcək. (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 12)***

*Rəsulullah (s.ə.v) belə buyurmuşdur: "Məndən sonra fitnələr olacaq. Orada terror və müharibələr var. Sonra onlardan daha şiddətli fitnələr olacaq. Nə vaxt (fitnələrin) bitdi deyilsə, yeni bir qiyam olacaq. Ta ki, mənim nəslimdən bir şəxs (hz. Mehdi (ə.s)) çıxana qədər fitnənin daxil olmadığı bir ərəb evi və çatmadığı bir müsəlman qalmayacaq". (Mer'iy b. Yusuf b. Ebi bekir b. Ahmet b. Yusuf el-Makdi'si, Feraidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar; Beklenen Mehdi, səh. 147)*

Hədislərdə görüldüyü kimi, müəyyən bir yer bildirilməyib, qarışıqlığın dünyanın hər tərəfində yayılacağına işarə edilir. Həqiqətən də hədislərdə təsvir edildiyi şəkildə, bu gün dünyanın beş qitəsində böyük qarğaşalıq, müharibələr, qətliamlar və terror hadisələri davam edir. Hər gün yüzlərlə insan səbəbsiz yerə öldürülür, yurdlarından çıxarılır (ətraflı məlumat üçün baxın: Harun Yəhya, *"Qiyamət əlamətləri"*, Araştırma nəşriyyatı)

## 49) Böyük hadisələrin və heyrətləndirici şeylərin meydana gəlməsi

***Onun dövründə neçə-neçə heyrətamiz hallar zühur edəcək (meydana gələcək). (Mektubat-ı Rabbani, 2/258)***

*Onun dövründə böyük hadisələr baş verəcək. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 27)*

*"...Zəlzələlər, kədərlər, böyük hadisələr yaxındır. O gün qiyamət, insanlara, bu əlimin, başına olan yaxınlığından daha yaxındır" deyə buyurdu. (Ebu Davud, Cihad: 37, (2535))*

---

**[1] hərc-mərclik - insanlar arasında meydana gələn fitnə, fəsad, darmadağın, qarmaqarışıq, alt-üst mühit**

*Onun zühur məbdələri (çıxışının başlanğıcı) və müqəddimələri (çıxış əlamətləri) Rəsulullah (s.ə.v)-in irhasatına[2] bənzəyər. (Mektubat-ı Rabbani, 2/258)*

Hz. Məhəmməd (s.ə.v)-in doğumundan əvvəl böyük və fövqəladə hadisələr baş vermişdi. Doğulduğu gecə yeni bir ulduz çıxmış, oda sitayiş edən İran padşahlarının sarayının 14 bürcü dağılmış, İranda 1000 ildir ki, yanmaqda olan atəşpərəst odu sönmüş, Səmavi vadisi sel suları altında qalmış, Savə gölü qurumuşdu...

Yuxarıdakı rəvayətlərdə işarə edildiyi kimi, hz. Mehdi (ə.s)-ın ortaya çıxışı da, Peyğəmbərimiz (s.ə.v)-nin çıxışına bənzəyəcək. Onun çıxışı dövründə də böyük və möcüzəvi hadisələr olacaq. Son 100 ildir ki, dünyada baş verən böyük hadisələrin bəziləri belədir:

- Kəbə basıldı və çox sayda müsəlmanın qanı axıdıldı.

- 2500 illik İran şahlığı süqut etdi və İran Şahı Rza Pəhləvi öldü.

- Hindistanın Bombey şəhərində bir fabrikdən sızan qaz 20 000 insanın ölümünə səbəb oldu.

- İki müsəlman ölkə olan İran və İraq arasında 8 il davam edəcək bir müharibə başladı.

- Ruslar, Əfqanistanı işğal etdi.

- Mexiko şəhəri şiddətli zəlzələ nəticəsində yerlə-yeksan oldu.

- Şimali Kolumbiyadakı Ruis vulkanı 400 ildir ki, ilk dəfə partladı. Əriyən qar və buzun yaratdığı palçıq ucbatından Armero şəhəri xəritədən silindi. 20 000 insan öldü.

- Banqladeşdəki sel 25 000 insanın ölümünə səbəb oldu.

- Xristianlığın mərkəzi Romanı su basdı.

- 1986-cı ildə Çində tarixinin ən böyük meşə yanğını baş verdi.

- Hindistan prezidenti Qandi, Misirin dövlət başçısı Ənvər Sədat, İsveçin Baş naziri Ulof Palme (Olof Palme) öldürüldü.

- Papa II İohann Pavel vuruldu.

- 1980-ci ilin əvvəllərində ilk QİÇS faktları aşkar edildi. Bu ana qədər on minlərlə insanın ölümünə səbəb olan bu xəstəlik "Əsrin vəbası" adlandırıldı.

- 1986-cı ildə kosmik gəmi Çellencer buraxıldıqdan sonra partladı.

- 26 aprel 1986-cı ildə Ukraynadakı Çernobıl AES-ində indiyə qədər görülən ən böyük nüvə qəzası baş verdi. Bir çox Avropa ölkəsi yayılan radiasiyadan təsirləndi.

- Ozon təbəqəsinin dəlinməsi Dünya iqliminə çox mənfi təsir göstərdi.

---

**[2] İrhasat - hz. Məhəmməd (s.ə.v)-in peyğəmbərliyindən əvvəl yaranan fövqəladə hallardır ki, bunlar peyğəmbərliyinə dəlil təşkil edən hadisələrdəndir**

- Sovet İttifaqı süqut etdi və Qorbaçovla birlikdə Müstəqil Dövlətlər Birliyi yarandı.

- İraqın Küveyti ilhaq etməsindən sonra illərlə davam edəcək fars körfəzi müharibəsi başlandı.

- Ermənistandakı zəlzələ nəticəsində şəhər xarabalığa çevrildi. 500 000 insan evini tərk etdiyi halda, ölülərin sayı 40 000-i keçdi.

- 1989-cu ildə Çində kommunist dəstələr tanklarla tələbələrin üstünə yeridi, Tyanamen (Tiananmen) meydanında 2000 tələbə öldü.

- Soyuq müharibənin simvolu olan Berlin divarı inşasından tam 28 il sonra uçdu.

- 1990-cı ildə Kəbədəki tuneldəki izdihamda 1400-dən artıq hacı həyatını itirdi.

- 1991-ci ildə Banqladeşdə baş verən sel hadisələrindən sonra təxminən 139 000 insan öldü, on milyonlarla insan evsiz qaldı.

- Son 20 ildir ki, Amerikada fırtınalar, qasırğalar, tornadolar və sellər dayanmaq bilmədi. Minlərlə insan öldü, milyonlarla insan evini tərk etdi və zərər hər dəfə milyard dollarlarla ölçüldü.

- Bosniya və Kosovadakı qətliamlra nəticəsində yüz minlərlə müsəlman öldürüldü və yüz minlərləsi də yurdlarından sürgün edildi.

- Ebola virusu on minlərlə insanın ölümünə səbəb oldu.

- El-Nino bütün dünya ölkələrinə çox böyük fəlakətlər gətirdi.

- 19 oktyabr 1987-ci ildə London Birjası çökdü. Yaşanan böyük təşviş nəticəsində 50 milyard sterlinqlik dəyər itkisi yaşandı.

- 19 aprel 1995-ci ildə ABŞ-ın Oklahoma şəhərindəki federal binaya edilən bombalı hücum nəticəsində 168 insan öldü.

- 22 mart 1997-ci ildə Hale-Bopp quyruqlu ulduzu, saatda 160 km. sürətlə Yerin 195 milyon km. yaxınlığından keçdi. Çılpaq gözlə seyr edilə bilən Hale-Boppun keçişi, bütün dünyada milyonlarla insan tərəfindən böyük maraqla qarşılandı.

- 10 may 1997-ci ildə İrandakı 7.1 bal şiddətindəki zəlzələ nəticəsində 1500 insan öldü.

- 4 fevral 1998-ci ildə Əfqanistandakı 6.1 bal şiddətindəki zəlzələ nəticəsində 5 min insan həyatını itirdi.

- 25 yanvar 1999-cu ildə Kolumbiyadakı 6 bal şiddətindəki zəlzələ nəticəsində 1171 insan həyatını itirdi.

- 21 sentyabr 1999-cu ildə Tayvandakı 7.6 bal şiddətindəki zəlzələ nəticəsində 2100-dən artıq insan həyatını itirdi.

- 11 sentyabr 2001-ci ildə ABŞ-da, tarixin ən böyük terror hücumu təşkil edildi: İki sərnişin təyyarəsi, səhər iş rejiminin başladığı saatlarda 18 dəqiqə fasilə ilə Nyu Yorkdakı

Dünya Ticarət Mərkəzinin yerləşdiyi iki göydələni vurdu. Ardınca digər bir təyyarə Pentaqona düşdü. Hücumda beş mindən çox insan öldü.

- Hindistanda şiddəti 7.9 bal olan bir zəlzələ baş verdi və minlərlə insan həyatını itirdi.

- Avropada yaşanan həddindən artıq istilər 10 minlərlə insanın ölümünə səbəb oldu.

- 60 000 ildən bir baş verən bir hadisə meydana gəldi və Mars planeti Yerə ən yaxın mövqeyi aldı.

- 2003-cü il noyabr ayında dünyanın ən quraq bölgələrindən olan Məkkədə baş verən sel fəlakəti nəticəsində 12 insan həyatını itirdi.

## 50) Kosmosda insan əli formasında bir təsvir yaranması

***...Əsma binti Umeys dedi: "O GÜNÜN (HZ. MEHDİ (Ə.S)-IN ZÜHURUNUN) ƏLAMƏTİ SƏMADAN UZADILMIŞ VƏ İNSANLARIN ÖZÜNƏ BAXDIĞI BİR ƏLDİR". (Celalettin Suyuti'nin Tasnifinden Hadisler, Ahir Zaman Mehdisinin Alametleri, Ali Bin Hüsameddin El Muttaki, səh. 69)***

***...MƏHZ O ZAMAN (HZ. MEHDİ (Ə.S)-IN ZÜHURU ZAMANINDA) SƏMADA ÖZÜNÜ BƏLLİ EDƏN BİR ƏL GÖRÜNƏR...*** *(Celalettin Suyuti'nin Tasnifinden Hadisler, Ahir Zaman Mehdisinin Alametleri, Ali Bin Hüsameddin El Muttaki, səh. 51)*

***SƏMADA ZÜHUR EDƏN BİR ƏL*** *və "əmiriniz Mehdidir" şəklindəki bir nida eşidilənə qədər təfrqiə (ayrılıq) və ixtilaflar davam edəcək.* ***O GÜNÜN ƏLAMƏTİ: SƏMADAN BİR ƏL UZANACAQ*** *və insanlar ona baxacaq və görəcəklər. (Ahmed İbn-i Hacer-i Mekki (Heytemi), Beklenen Mehdinin Alametleri, El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 53)*

Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən bu hədislərdə göydə bir "əl"in görünəcəyi və bu əlin hz. Mehdi (ə.s)-ın gəliş əlamətlərindən olduğu bildirilir. Bu dövrə qədər ixtilafların davam edəcəyi və hz. Mehdi (ə.s)-ın səmadan, yəni radio, televiziya və internet kimi kommunikasiya vasitələrinin vəsiləsi ilə, həmişə gündəm mövzusu olacağı hədislərdən aydın olur. Milli Aeronavtika və Kosmos İdarəsinin (NASA) tabeliyində olan Çandra kosmik rentgen rəsədxanası tərəfindən çəkilən bir kosmik fotoşəkildə əl formasındakı bir neytron ulduzlar topası başqa bir ulduz topasını əllə tuturmuş kimi görünür. Hədislərdə bildirilən əl ifadəsi, NASA tərəfindən "Tanrının əli" kimi adlandırılan və kosmosda baş verən bir göy hadisəsinin vəsilə olduğu bu təsvirə işarə edə bilər (doğrusunu Allah bilər).

Bəhs edilən ulduz topasının yaratdığı əl formasının duruşu hədisdəki uzanma ifadəsinə də tam uyğun gəlir. NASA tərəfindən çəkilən fotoşəkildəki əl forması bir yerə uzanılmış görünüşündədir. Həmçinin insanların hz. Mehdi (ə.s) dövründəki təkmilləşmiş yüksək səviyyəli kosmos və astronomiya texnologiyası sayəsində kosmosda baş verən bu göy hadisəsini teleskoplar vasitəsilə baxaraq görə bilmələri də hədisdəki ifadələrlə tam uyğunluq təşkil edir. Hz. Mehdi (ə.s)-ın zühur əlamətləri, dolayısilə hz. İsa (ə.s)-ın gəliş əlamətləri; **"...köhnəlmiş ipi qopan bir boyunbağının dənələri kimi bir-birinin ardınca gələn əlamətləri gözləsinlər"** (Ebû Hureyre (ra), Tirmizî) hədisində deyildiyi kimi, son 30 illik müddət ərzində ardıcıl gerçəkləşmiş və gerçəkləşməyə də davam edir.

## 51) Bəzi müsəlmanların vəziyyəti

***"Bəli nəfsim əlində olan Allaha and içirəm ki, siz o fitnə dövründə yüksəlib bir-birinizin boyunlarını buran ilanlara dönəcəksiniz" deyə buyurdu. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 368, no. 672)***

Peyğəmbərimiz (s.ə.v) yuxarıdakı hədisində bəzi müsəlmanların öz aralarındakı ixtilafa diqqət çəkmişdir. Axırzamanda məqam, mövqe, güc əldə edib sonra birlik olmaq əvəzinə, bir-birlərinə qarşı düşməncəsinə rəftarlar göstərəcəyinə işarə edir. Peyğəmbərimiz (s.ə.v) başqa hədislərində də bəzi müsəlmanlar arasında yaşanacaq həsəd, paxıllıq, düşmənçilik kimi təhlükələrə diqqət çəkmişdir:

*Fitnə məhz buradan, şeytanın iki buynuzunun doğulacağı yerdən gələcək. Halbuki siz bir-birinizin boyunlarını vurursunuz... (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 369, no. 675)*

*...Bir-birinizlə ehtiras yarışına girərsiniz, bir-birinizə həsəd apararsanız, bir-birinizdən üz döndərib ayrılarsınız və bir-birinizə düşmən olarsınız. (Sahih-i Müslim, 4/2274)*

*Ümmətimə bir zaman gələcək ki, fiqh alimləri bir-birlərinə həsəd aparacaq. Təkələrin (erkək keçi) bir-birlərini qısqandığı kimi, bir-birlərini qısqanacaqlar. (Hatim, Hatib; Geleceğin Tarihi 1, səh. 28)*

## 52) İslam aləminin mövcud mövqeyi

*Məni haqqla göndərən Allaha and içirəm ki, məndən sonra ümmətimdə fitrət dövrü olacaq. O dövrdə hər kəs halalı axtarmadan mal tələb edəcək, qanlar axıdılacaq və şeir Qurana əvəz tutulacaq. (Deylemi; Geleceğin Tarihi I, səh. 50)*

İslam aləmi, keçmişdə tarixin ən böyük və ehtişamlı sivilizasiyalarından birini yaratmışdı. 20-ci əsrin əvvəllərində Osmanlı imperiyasının süqut etməsiylə birlikdə, İslam aləminin 20-ci əsrdəki mövqeyi dərindən təsirləndi. İslam Birliyi dağıldı. 21-ci əsrə daxil olduğumuz bu günlərdə İslam aləminin bir çox bölgəsində həllini gözləyən problemlər, razılıq əldə olunması lazım gələn müxtəlif anlaşmazlıqlar hələ də davam edir. Müsəlman ölkələrdən bəziləri elm, texnologiya, iqtisadiyyat kimi sahələrdə böyük təşəbbüslər etmələri lazım olan mövqedədirlər. Hədisdə bildirilən müsəlmanların yaşayacağı "fətrət" dövrü ilə, bəzi müsəlmanların bu gün içində olduqları bu vəziyyətə işarə edilməsi mümkündür.

Lakin unutmamaq lazımdır ki, İslam aləminin keçmişdə olduğu kimi bu gün də bütün dünya üçün əxlaqı, əmin-amanlığı, təhlükəsizliyi və bolluğu ilə nümunə təşkil edəcək ehtişamlı bir sivilizasiya yaratmaları olduqca asandır. Bunun üçün edilməsi lazım olan; Quran əxlaqının və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinin tam yaşanması və bu əxlaqın bir tələbi olan İslam Birliyinin təmin edilməsidir.

## 53) Müsəlmanların bir-birləri ilə vuruşması

***İki böyük İslam ordusu bir-birləriylə müharibə etmədikcə qiyamət qopmayacaq. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 454, no. 831)***

*O günlərdə münasibətləri pozulmuş möminlər Dəccalın hədəfi olmaqdan xilas ola bilməzlər. (Hakim, Müstedrek, 4:529-530; Mehdi ve Deccal, səh. 93)*

*Hz. Əbu Hüreyrə (r.ə) belə söyləyir: Rəsulullah əleyhissalatu vəssalam buyurdular: "Müsəlmanlardan iki qrup aralarında vuruşmadıqca qiyamət qopmaz. Bunların aralarında böyük bir müharibə apararlar, lakin davaları birdir". (Buhari, Fiten: 24, Menakıb: 25, İstitabe: 8; Müslim, İman: 248, Fiten: 17)*

Peyğəmbərimiz (s.ə.v) 1400 il əvvəl bildirdiyi bu hədislərində zəmanəmizdə yaşanacaq bəzi hadisələrə diqqət çəkmişdir. Necə ki, hədislərdə xəbər verildiyi kimi, hicri 1400-cü illərin əvvəlindən etibarən bəzi müsəlman ölkələr arasında müharibə və qarşıdurmalar yaşanmışdır. İran-İraq müharibəsi və İraqın 1990-cı ildə Küveyti işğal etməsi bu müharibələrə nümunədir.

## 54) Müsəlmanların məruz qaldığı şiddətli bəlalar

***Axırzamanda ümmətimin başına, sultanlarından şiddətli bəlalar gələr, belə ki, yerlər müsəlmanlara dar gələr. (Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 12)***

*Vay bu ümmətə, o öldürən zalım məliklərdən ötrü. Bu zalımlar, özlərinə itaət edənlər istisna olmaqla, səssiz mütiləri (itaətkar insanları) belə qorxudarlar. (Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 13)*

*Liderlərin zülm etməsi... qiyamət əlamətlərindəndir. (Kıyamet Alametleri, səh. 143)*

*...Fitnənin girmədiyi heç bir ev və toxunmadığı heç bir müsəlman qalmaz. Bu vəziyyət nəslindən bir insan (hz. Mehdi (ə.s)) çıxana qədər davam edər. (Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 25)*

*(Qiyamətin bir əlaməti) Məscidlər içərisində günahkarların səslərinin yüksəlməsi və günahkarların dinin əmr etdiklərini yerinə yetirən səmimi möminlər üzərinə qalib gəlib onlara hökm etmələridir. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 450)*

*And içirəm ki, bu ümmətə elə (şiddətli) bəlalar gələcək ki, insan zülmdən, qəddarlıqdan xilas olmaq üçün sığınacaq bir yer tapa bilməyəcək. Belə çətin bir vaxtda, Allah qohumumdan, mənim xanədanımdan bir kimsəni göndərəcək. (Ölüm-Kıyamet - Ahiret ve Ahirzaman Alametleri, səh. 437)*

Bu hədislər, hz. Mehdi (ə.s) gəlmədən əvvəl bəzi müsəlman ölkələrdə, din əxlaqından uzaq, zalım və qəddar xarakterli insanların hakimiyyətdə olacaqlarına işarə edir. Bu vəziyyət hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın gəlişinin yaxınlaşdığını göstərən əlamətlərdən biridir.

Peyğəmbərimiz (s.ə.v) digər bir hədisində isə Axırzamanda səmimi möminlərin bütün bu təzyiqlərdən ötrü inanclarını gizlətmək və ibadətlərini gizlincə davam etdirmək məcburiyyətində qala biləcəklərini belə xəbər vermişdir:

*Bu gün sizin aranızda münafiqlərin gizli yaşadıqları kimi, bir dövr gələr ki, mömin olanlar da digərlərinin arasında gizli olaraq dini həyatlarını davam etdirməyə çalışarlar. (İbni Sünni; Son Zamanlarla İlgili Hadisler, səh. 12)*

Həqiqətən də bu gün İslam aləminin bir hissəsində hakimiyyətdə olan rəhbərlər müsəlman xalqa əziyyət verir və təzyiqçi və despot rejimləri ilə insanları əzirlər. Müsəlmanların dinlərini sərbəst yaşamaları və ibadətlərini yerinə yetirmələri əngəllənir, iqtisadi çətinliklər həyatı çətinləşdirir. Bir hissəsində isə, bələd olmayan rəhbərlərdən ötrü xalq müxtəlif bəlalara məruz qalır. Bu ölkələrdən bəzilərində yaşanan hadisələrin nümunələri bunlardır:

İran ilə apardığı müharibə nəticəsində 3 milyonluq əhalisinin təxminən bir milyonunu itirən İraqda, faşist diktator Səddam Hüseyn xalqına dözülməz işgəncələr və zülm tətbiq etmişdir.

1979-cu ildə Sovet Rusiyası tərəfindən işğal edildiyi gündən etibarən Əfqanistanda, qeyri-sabitlik və qarğaşalıq hakim olmuşdur.

Suriyalı müsəlmanlar Hafiz Əsədin 30 il davam edən diktatorluğu ərzində müxtəlif işgəncələrə məruz qaldılar. Qadınlara təcavüz edildiyi, kişilərə hər cür işgəncələrin tətbiq olunduğu qətliamlarda bəzi şəhərlər tamamilə sıradan çıxdı.

Afrikanın ən kiçik ölkələrindən biri olan Cibuti, 1977-1991-ci illərdə, təxminən 2 min müsəlmanın qətlə yetirildiyi, 7 min insanın da heç bir səbəb göstərilmədən həbs olunub işgəncə gördüyü qatı bir rejimlə idarə olundu.

Somalidə 1969-cu ildən 1991-ci ilə qədər təxminən 20 il ərzində birbaşa müsəlmanları hədəf alan, general-mayor Məhəmməd Siad Barrenin (Mohamed Siad Barre) liderliyi altında təzyiqçi bir rejim tətbiq olundu.

Tunis, 31 il müddətində Həbib Burqibanın (Habib Bourguiba) diktatorluq rejimi altında idarə olundu. Özünü "həyat boyu prezident" elan edən Burqiba (Bourguiba) hakimiyyətdə olduğu müddətdə müsəlman xalqı təzyiq altında saxladı.

Bunu da qeyd etmək lazımdır ki, bəzi müsəlman ölkələrdə yaşanan bu vəziyyət əsil İslam əxlaqının tam mənasıyla bilinməməsindən qaynaqlanır. Müsəlmanlara təzyiq tətbiq edən rejimlərin ortaq istiqamətlərindən biri, bu rejimlərin təməllərinin din əxlaqına uyğun olmayan təzyiqçi, qol gücünə əsaslanan ideologiyaları mənimsəmələridir. Dolayısilə, edilməli olan bəhs edilən ideologiyalarla fikri istiqamətdə mübarizə aparmaqdır. Fikrən məğlubiyyətə uğrayan bir ideologiyanın ayaqda qalması qeyri-mümkündür. Müsəlmanların etməli olduqları şey, bir tərəfdən bu ideologiyaların nöqsanlarını və yanlış yönlərini göz qabağına gətirmək, digər tərəfdən də həqiqi din əxlaqından danışan insanları ən gözəl şəkildə doğru yola dəvət etmək olmalıdır. Quran əxlaqına və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinə uyğun olan bu üsulla, Allahın icazəsi ilə, bütün bu zülmlər bitəcək, müsəlman aləmi parlaq gələcəyə qovuşacaq.

## 55) Günahsız insanların öldürülməsi

***Günahsız insanlar qətl edilənədək hz. Mehdi (ə.s) çıxmayacaq və qətliamlara yerdə və göydəkilər, artıq təhəmmül edə bilməz hala gəldiyi zaman zühur edəcək... (El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 37)***

*Hz. Mehdi (ə.s) hər doqquzdan yeddisi öldürülənə qədər çıxmaz.* ***Günahsız insanların öldürülməsi*** *onlardandır. (Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 35)*

*Günahsız insanlar öldürülmədən hz. Mehdi (ə.s) çıxmaz.* ***Günahsızlar öldürüldüy zaman****, onları öldürənlərdən yer və göy əhli nifrət edərlər... (Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 35)*

Hz. Mehdi (ə.s)-ın çıxışı ilə əlaqədar hədislərdə qətliamların yayılmasından bəhs edilərkən, bu qətliamların günahsız insanları hədəf alacağına xüsusilə diqqət çəkilib. Daha əvvəl də vurğuladığımız kimi, bu gün demək olar ki, bütün müharibələrdə əsil hədəf mülki vətəndaşlardır. Qətliamlar da əsasən mülki və günahsız əhaliyə istiqamətli olaraq gerçəkləşdirilir, çox vaxt uşaqlar, yaşlılar və qadınlar qətlə yetirilir. Xüsusilə də özlərini müdafiə etmək imkanı olmayan bu insanların seçilmiş olması qətliamların irimiqyaslı olması, həyatlarını itirən insanların sayının isə yüksək olmasına səbəb olur.

Müharibələr və ya müxtəlif qarşıdurmalar vaxtı törədilən qətliamlarla yanaşı xüsusilə son illərdəki terrorist hərəkatlar da xalqın kütləvi şəkildə məhv edilməsi ilə nəticələnir. Terrorizmin məqsədi xalq arasında qorxu və dəhşət yaymaq olduğundan, bu cür hücumların əsil yönəldiyi təbəqə əksəriyyətlə mülki vətəndaşlardır. Alış-veriş mərkəzləri, restoranlar, kafelər, məktəblər kimi müdafiəsiz, qadınların, gənclərin və uşaqların olduğu yerləri hədəf seçən bu hərəkatlardan ötrü dünyanın müxtəlif ölkələrində bir çox insan həyatını itirir.

## 56) İnsanların səbəbsiz yerə öldürülməsi

***Əbu Hüreyrə (r.ə) belə söyləyir: Rəsulullah əleyhissalatu vəssalam buyurdular: "İnsanlar elə günlər görəcək ki, qatil nə üçün öldürdüyünü, öldürülən də nə üçün öldürüldüyünü bilməyəcək". (Müslim, Fiten: 56, (2908))***

Cinayətlərdəki artım Axırzaman əlamətlərindən biridir. Qəzetlərdə, çox kiçik bir mübahisədən ötrü və ya qarşısındakı insanın reaksiyasını xoşlamadığını, dinlədiyi musiqidən narahat olduğunu irəli sürərək, çox az miqdarda pul əldə edəcəyini düşünərək insan öldürənlərin xəbərlərinə tez-tez rast gəlinir.

## 57) Hər yerdə qarğaşalığa səbəb olan fitnələr

***Bu mütləqdir ki, yaxın gələcəkdə (bir-birini təqib edən) bəzi fitnələr olacaq. Sonra təkrar fitnələr olacaq. Sonra yenə fitnələr olacaq. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 375, no. 684)***

*...Sonunda da bəlalar, fitnələr və xoşlamayacağınız bir çox pis işlər isabət edəcək. Arxa-arxaya elə fitnələr gələr ki, sonra gələn getdikcə daha böyük olduğu üçün, əvvəl gələni asan və yüngül mövqeyində qoyar. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 394-395, no. 733)*

Yuxarıdakı hədislərdə, dünyaya davamlı yayılan və uzun müddət davam edən bir fitnədən bəhs edilir. "Fitnə" sözü isə daha əvvəl ifadə edildiyi kimi; "müharibə, qarışıqlıq, dava, ixtilaf" kimi mənalarda işlədilir. Sözün bu mənaları düşünüldüyü zaman xüsusilə son bir əsrdir ki, hədisdə də ifadə edildiyi kimi, arxa-arxaya heç bitmədən davam edən müharibələr, daxili çəkişmələr, qarışıqlıq hadisələri dünyanın hər tərəfində bitmədən davam edir. Xüsusilə geridə qoyduğumuz 20-ci əsr "Müharibələr əsri" kimi adlanır. İçində olduğumuz 21-ci əsr yenə müharibələr və terror hadisələri ilə başlamışdır və hələ də bunlar dünyanın hər tərəfində davam edir.

20-ci əsrin müharibələrində 180 milyon insan həyatını itirdi. Bəşəriyyət tarixində ilk dəfə bir əsr ərzində bu qədər çox sayda insan müharibələr ucbatından həyatını itirdi. Yenə 20-ci əsrdə, hər biri ən azı 6000 nəfərin ölümünə səbəb olan təxminən 165 müharibə və qarşıdurma baş verdi.(29)

Son dövrdə dünyanın hansı bölgələrində müharibə və daxili qarışıqlıq yaşandığına baxdığımız zaman, dünyanın bir yerdə bitib digər yerdə başlayan fitnələrdən xilas ola bilmədiyini görmək mümkündür. Bosniya-Herseqovina, Kosova, İran, İraq, Əfqanistan, Çeçenistan, Fələstin, Kamboca, Efiopiya, Somali, Yəmən, Uqanda, Əlcəzair, Ruanda, Mozambik, Angola, Konqo, Liberiya, Burundi, Sudan, Livan, Argentina, Şimali İrlandiya, Salvador, Nikaraqua müharibələrin və daxili çəkişmələrin yaşandığı ölkələrdən sadəcə bəziləridir.

Dünya tarixi müharibələr və qarşıdurmalarla doludur, lakin 20-ci əsrdə və 21-ci əsrin əvvəllərində baş verən müharibələr, terror aktları və qətliamlar, bütün dünya tarixində baş verənlərdən bir çox xüsusiyyəti ilə seçilir. Daha əvvəl də bəhs edildiyi kimi, bu müharibələrdəki ölü sayı bütün müharibələrdəkindən xeyli çoxdur. Həmçinin, tarix boyu müharibələr həmişə regional səviyyədə qalmış, bir yerdən digərinə sıçrayaraq bütün dünyaya yayılmamışdır. Lakin 20-ci əsrdən başlayaraq bu qarşıdurmalar bütün dünyaya yayılmışdır. Ötən əsrdə müharibə və ya qarşıdurma görməmiş, terror hadisələrini yaşamamış tək bir ölkə belə yox kimidir.

20-ci əsr müharibələrini digərlərindən fərqləndirən digər bir xüsusiyyət isə, istifadə edilən silahların gücüdür. Tanklar, ağır toplar, bombardman təyyarələri, bu əsrdə meydana çıxmış ölüm maşınlarıdır. Digər tərəfdən nüvə silahlarından istifadə edilməsi nəticəsində olduqca dəhşətamiz qətliamlar yaşanmış, atom bombaları ilə yox edilən Xirosima və Naqasaki şəhərlərində təkcə bu müharibəni görən nəsillər deyil, bir və ya bir neçə nəsil sonrası da böyük zərərlər görmüşdür.

Hazırda bioloji müharibə ən böyük təhlükələrdən biri hesab edilir. Necə ki, 11 sentyabr terror hücumlarından sonra ABŞ-da mühüm ünvanlara məktublarla göndərilən qarayara basilləri bunun bir nümunəsidir. 2001-ci ilin oktyabrında, ABŞ-da mətbuat təşkilatları və siyasi təşkilatlara məktubla göndərilən qarayara basilləri, ikisi ölümlə nəticələnən 10 qarayara hadisəsinə səbəb olmuşdur.(30) Nəticədə, hədisdə bəhs edilən və dünyanın bir çox yerinə yayılan fitnənin, 20-ci əsrdə başlayan və 21-ci əsrdə davam edən müharibələr, qarşıdurmalar, qarğaşalıq və terror hadisələri olması ehtimalı çox yüksəkdir.

Bütün bunlar hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) ilə birlikdə yaradılacaq Qızıl Əsr dövrünün yaxınlaşdığının və Axırzamanın yaşandığının əlamətləridir.

## 58) Hz. Mehdi (ə.s)-ın çıxışından ümid kəsilməsi

***İnsanların ümidsiz olduğu və "Mehdi filan heç yoxmuş" dediyi bir vaxtda Allah hz. Mehdi (ə.s)-ı göndərər... (Kitab-ul Burhan fi-Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 55)***

Yuxarıdakı hədisdə Axırzaman əlamətlərindən birinin, insanların "hz. Mehdi (ə.s)-ın gəlməyəcəyi istiqamətində" ümidsizliyə qapılmaları olduğu bildirilir. Bu ümidsizliyin yayılması, hz. İsa (ə.s)-ın da gəliş əlamətlərindən biridir.

Axırzamanda müharibələr, yoxluq, aclıq, ədalətsizlik, əxlaqi tənəzzül və müxtəlif epidemik xəstəliklərlə iç-içə yaşayan insanların böyük əksəriyyəti bütün bu mənfiliklərin aradan qalxacağına dair inanclarını itirərlər. Müsəlmanlar arasında da bir çox insan, Qızıl əsrin başlayıb, İslam əxlaqının dünya üzərində hakim olacağı istiqamətindəki ümidlərini itirər və fitnələrin artaraq davam edəcəyinə inanar.

Necə ki, dövrümüzdə bu ruh halının nümunələri tez-tez görünür. Peyğəmbərimiz (s.ə.v)-in hz. İsa (ə.s)-ın yer üzünə qayıtması, hz. Mehdi (ə.s)-ın zühuruyla birlikdə yaşanacaq gözəlliklərlə əlaqədar çox sayda hədisi olmasına baxmayaraq, bir çox insan belə bir dövrün olmayacağını zənn edir. Məhz bu zənn də Axırzaman əlamətlərindən biridir. Həqiqi din əxlaqının hakimiyyəti, bu ümidsizlik halının insanlar arasında yayıldığı bir vaxtda, Allahın insanlara olan rəhməti sayəsində başlayacaq.

Halbuki Allahın icazəsi ilə hz. İsa (ə.s) yaşadığımız bu əsrdə təkrar dünyaya qayıdacaq, hz. Mehdi (ə.s) zühur edəcək və həqiqi din əxlaqı bütün dünyaya hakim olacaq. Yer üzü o gəlmədən əvvəl necə zülm və haqsızlıqla doludursa, o gəldikdən sonra, Rəbbimizin icazəsi ilə, ədalət, sülh, təhlükəsizlik və bərəkətlə dolacaq.

## 59) Kasıblıq və aclıq

***Kasıblar çoxalacaq. (Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri, səh. 455)***

***Aclıq və həyat bahalılığı mümkün qədər yayılacaq. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 440)***

*Dəccalın zühurundan üç il əvvəl, olduqca böhranlı günlər olacaq, aclıq hökm sürəcək... (Kıyamet Alametleri, səh. 220)*

Hz. Mehdi (ə.s)-ın gəlişindən əvvəl yaşanılacaq aclıq və yoxsulluqla bağlı, Peyğəmbərimiz (s.ə.v)-in yuxarıdakı hədislərə bənzər bir çox hədisi var. Şübhəsiz ki, tarix boyu aclıq və səfalət həmişə olmuşdur. Lakin Axırzamanda yoxsulluq bütün dünyada böyük miqyasda artacaq. Həmçinin bu vəziyyət hz. İsa (ə.s)-ın gəlişinin xəbərçisidir.

Bu gün dünyanın hər tərəfində yeyilən və içilən şeylərdən məhrum, qeyr-sağlam şərtlər altında yaşayan, sığınacaq bir yer tapa bilməyən insanlar var. Bu vəziyyət Afrika, Asiya, Cənubi Amerika başda olmaqla, Amerika və Avropa ölkələrində də intensiv şəkildə davam edir. İnsanların kiçik bir hissəsi çox böyük rifah içində yaşadığı halda, 2 milyarda yaxın insan aclıq sərhədində yaşayır. 2000-ci illərə girərkən yazılan bir məqalədə dünyanın içində olduğu vəziyyət belə açıqlanır:

Yeni min illiyə addım atarkən, hər gün yoxsulluqla əlaqəli səbəblərdən ötrü 35 000 uşağın həyatını itirdiyi bir dünya ilə qarşı-qarşıya gəlirik. Bu da hər 2,5 saniyədə bir uşağın öldüyünü göstərir. Elə bir dünya ilə qarşılaşırıq ki, yoxsulluq sərhəddinin altındakı insan sayı gün keçdikcə artır və son zamanlarda bu göstərici 1,5 milyarddır. Bu, Çinin əhalisindən daha çox, Avropa İtifaqının ümumi əhalisinin dörd mislinə bərabərdir.

Dünyanın ən zəngin üç ailəsinin sərvətləri birləşdirildiyi zaman, ən az inkişaf etmiş ölkələrdəki 600 milyon insanın illik gəlirlərindən daha çox edir. Bununla yanaşı, dünyanın ən kasıb 80 ölkəsindən çoxunun adambaşına illik gəliri 10 il əvvəlkinə görə daha aşağıdır.(31)

Hazırda bütün dünyada kasıblıq çox ciddi ölçülərə çatmışdır. BMT Uşaq Fondunun (UNİCEF) son hesabatı nəzərə alınsa, dünya əhalisinin dörddə bir hissəsi "təsəvvüredilməz çətinlik və yoxsulluq şəraitində" yaşayır.(32) Bir milyard üç yüz milyon insan gündə 1 dollar, üç milyard insan da gündə 2 dollar ilə dolanır.(33) Təxminən bir milyard üç yüz milyon insan təmiz sudan, iki milyard altı yüz milyon insan təməl səhiyyə xidmətlərindən məhrumdur.(34)

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) 2000-ci il hesabatına görə, 826 milyon insan qeyri-kafi qidalanır. Digər bir sözlə, hər altı nəfərdən biri aclıq çəkir.(35)

Gəlir paylanmasındakı ədalətsizlik də son bir neçə on il ərzində həddindən artıq dərəcədə, təsəvür ediləndən xeyli böyümüşdür. BMT mənbələri göstərir ki, 1960-ci ildə dünya əhalisinin ən kasıb 20%-i ilə ən zəngin 20%-i arasındakı gəlir nisbəti 1-in nisbəti 30-a (1/30) olduğu halda, 1995-ci ildə 1-in nisbəti 82-yə (1/82) olmuşdur.(36) Sosial ədalətdəki tənəzzülə bir nümunə isə, dünyanın ən zəngin 225 nəfərinin sərvətinin dünya əhalisinin 47%-nin illik gəlirinə bərabər olmasıdır.(37)

Statistik məlumatların ortaya qoyduğu bu aktual məlumatlar eyni zamanda, Peyğəmbərimiz (s.ə.v)-in bəhs etdiyi kasıblığın artacağı xəbərinin də göstəriciləridir. Peyğəmbərimiz (s.ə.v)-in işarə etdiyi dövrün dövrümüzün şərtlərini təsvir etdiyi aydındır. Keçmiş əsrlərə baxıldığı zaman, quraqlıq, müharibələr və ya fəlakətlər kimi səbəblərlə sıxıntı və çətinliklər yaşandığı lakin bunların müvəqqəti və regional səviyyədə qaldığı

görülür. Halbuki yaşadığımız dövrdə yaşanılan kasıblıq və dolanışıq çətinliyi daimi, sistemli və irimiqyaslı xarakter daşıyır.

Şübhəsiz ki, Rəbbimiz sonsuz şəfqət və mərhəmət sahibidir; insanlara zülm edən deyildir. Əlbəttə ki, belə hallar dini, əxlaqi və vicdani dəyərlərdən məhrum, eqloistlik və mənfəət əlaqələri üzərində qurulmuş bir dünya sisteminin labüd nəticəsidir. Necə ki; **"insanların öz əlləri ilə etdiyi əməllərinin nəticəsi olaraq, quruda və dənizdə fəsad ortaya çıxdı. Ümid olunur ki, dönərlər deyə (Allah) onlara etdiklərinin bir hissəsini özlərinə daddırır"** (Rum surəsi, 41) ayəsində dünyadakı fitnənin səbəbinin insanların Allahın dinindən üz döndərmələri olduğu xəbər verilir.

Qızıl əsrin başlamasıyla birlikdə bütün bu çətinliklər aradan qalxacaq. Aclıq, yoxsulluq və səfalət, öz yerini bolluq, bərəkət və zənginliyə verəcək. O dövrdə ehtiyac və yoxluq içində heç bir insan qalmayacaq, din Allahın Quranda təsvir etdiyi kimi yaşanacaq və insanlar; **"onların mallarında dilənib istəyən (və iffətindən ötrü istəməyib) yoxsulun olan üçün də bir haqq vardır"** (Zəriyət surəsi, 19) ayəsində bildirildiyi kimi, mallarını ehtiyac sahiblərinə paylayacaqlar. Onsuz da İslam əxlaqının yaşandığı bir cəmiyyətdə bəzi insanların varlı, bəzi insanların isə yoxsul olması da qeyri-mümkündür. Çünki əgər bir insan iman gətiribsə, Allahın; **"yoxsula yemək verməyə dəstək olmazdı. Bundan ötrü də bu gün, özü üçün heç bir mehriban dost yoxdur"** (Haqqə surəsi, 34-35) ayələrində bildirdiyi vəziyyətə düşməkdən qorxar. Bu da cəmiyyətdə böyük ictimai ədalət, rifah və bərəkətin yaranmasına vəsilə olar.

## 60) Quraqlıq

***Dəccalın çıxmasından əvvəl, səma üç il yağışını tutar. Birinci ildə normal yağışın üçdə bir hissəsini tutub üçdə iki hissəsini yağdırar. Yer üzü bitkisinin üçdə bir hissəsini bitirməz. İkinci ildə səma normal yağışının üçdə iki hissəsini yağdırmaz. Yer üzü də bitkisinin üçdə iki hissəsini bitirməz. Üçüncü ildə isə səma bütün yağışını kəsər, yer üzü də bitkisindən heç bitirməz. (Ebu Davud, İbni Mace, Taberani; Geleceğin Tarihi 3, səh. 241)***

Hədisdə xəbər verildiyi kimi, yer üzündə yaşanılacaq quraqlıq Dəccalın çıxışından əvvəl baş verəcək hadisələrdən biridir. Necə ki, yaxın keçmişdə quraqlıq dünyanın bir çox ölkəsinə təsir etmişdir.

Quraqlıq mövzusunda son illərdə qəzetlərdə bəhs edilən xəbərlərdən bəziləri isə belədir:

**Hər il 100 milyon hektar məhsuldar sahə yox olur.**

Səhralaşmanın, 110 ölkədə bir milyarddan artıq insanı təhdid etdiyi vurğulanarkən, daha çox gecikmədən, təsirli bir mübarizə proqramının tətbiq edilməsi istənilir. (02.09.2003 ntvmsnbc)

**Ümumdünya Ətraf Mühit Gününün bu ilki mövzusu "su"**

Birləşmiş Millətlər Təşkilatı (BMT), Ümumdünya Ətraf Mühit Günündə su çətinliyinə diqqət çəkərək, su problemi ucbatından 2 milyard insanın ölümlə üz-üzə olduğunu bildirdi. (05.06.2003 ntvmsnbc)

**Dünyada quraqlıq həyəcanı**

2025-ci ilə qədər susuzluğun, dünyada hər 3 insandan birini təhdid edəcəyi ifadə bildirildi. (15.08.2001 ntvmsnbc)

Lakin Peyğəmbərimiz (s.ə.v)-in digər hədislərində bu quraqlıqdan sonra yağışlarda artım olacağı da xəbər verilmişdir. Quraqlığın yaşanması kimi, yağışlarda artım olması da, hz. İsa (ə.s)-ın gəliş əlamətlərindəndir.

## 61) Müəyyən illərdə pozulan iqtisadiyyat

*İnsanlar 95-ci ilə qədər malik olacaq, yəni işləri yaxşı gedəcək, 97-ci və ya 99-cu ildə mülkləri zay olacaq... (El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 54)*

Bu hədisdə Axırzamanda necə bir iqtisadi vəziyyət olacağı ilə əlaqədar daha təfsilatlı məlumatlar verilir.

Hədisdəki "95-ci il" şəklindəki ifadə ilə 1995-ci ilə diqqət çəkilə bilər. 1995-ci il insanların nisbətən daha firavan bir həyat yaşadıqları, həyat şərtlərinin çox çətinləşmədiyi bir dövrdür. Necə ki, hədisdə bu il ərzində "işlərin yaxşı gedəcəyi" xəbər verilir. Yəni bu dövrdə insanlar həyatlarını yaşaya biləcək gəlir səviyyəsinə sahibdirlər və hələ də mülk əldə edə biləcək qədər zəngindirlər. Lakin 1997-1999-cu illər iqtisadiyyatın çox pisləşdiyi, kasıbçılıq və yoxluğun artdığı bir dövrdür. Bu illər arasında malın və mülkün dəyəri qalmayacaq. Yaxın keçmişdə Argentina nümunəsində də göründüyü kimi, bu hadisə baş vermişdir.

## 62) Ticarət və yolların kəsilməsi

*Ticarət və yolların kəsildiyi və fitnələrin çoxaldığı zaman... (Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 52)*

*Hz. Mehdi (ə.s) çıxmadan əvvəl, millətlər arasında ticarət və yollar kəsiləcək, insanlar arasında fitnələr çoxalacaq. (El-Kavlu'l Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 39)*

Zəmanəmizdə ölkələr arasında aparılan ticarət və iqtisadi əməkdaşlıq müqavilələrinə baxmayaraq, təhlükəsizlik narahatlığı bəzi hallarda ticarət fəaliyyətlərinə mane olur. Məsələn, dünyanın bir çox bölgəsindəki yeraltı resursların digər bölgələrə daşınması mövzusunda yaşanılan problemlərin mühüm hissəsi təhlükəsizlik mahiyyətlidir. Dünyanın müxtəlif guşələrindəki qarşıdurmalar və gərginliklər iqtisadi əməkdaşlıqlara maneə törədir və cəmiyyətlər arası ticarət fəaliyyətləri çox məhdud səviyyədə baş tutur.

## 63) Qazancın azalması

*Hər kəsin az qazancdan gileylənməsi... Zənginlərə pullarına görə hörmət göstərilməsi... (Kıyamet Alametleri, səh. 146)*

*Bazarın durğun olması, qazancların azalması... (Kıyamet Alametleri, səh. 148)*

*İşlərin kasad getməsi. Hər kəs; "sata bilmirəm, ala bilmirəm, qazana bilmirəm!" deyə gileylənəcək. (Kıyamet Alametleri, səh. 152)*

İqtisadi çətinliklər bu gün bir çox ölkənin ən mühüm problemlərindən biridir. İnsanlar dolanışıqlarını təmin edəcək gəliri qazana bilmir, bəzən isə məhsullarını satacaq alıcı belə tapa bilmirlər. Yoxsulluq və gəlir bölgüsündəki bərabərsizliklə mübarizə aparmaq məcburiyyətində qalan bəzi ölkələrdə də bu vəziyyət, ictimai nizamı sarsıdır, qarğaşalığa səbəb olur. Argentinada iqtisadi tənəzzüldən ötrü yaşanan qarşıdurmalar bu vəziyyətin nümunələrindən biridir.

## 64) Milli sərvətin zənginlər arasında bölüşdürülməsi

*"...On beş şeyi etməyə başladıqda ona böyük bəlanın gəlməsi vacib olar!" deyə buyurmuşdu. (Yanındakılar:) "Ey Allahın Rəsulu! Bunlar nələrdir?" deyə soruşdular. Əleyhissalatu vəssalam saydı: "Qənimət (yəni milli sərvət, fəqir-füqəraya çatmadan yalnız zəngin və mövqe sahibi insanlar arasında) dövr edən bir əmtəə halına gəlsə". (Tirmizi, Fiten: 39, (2211))*

Peyğəmbərimiz (s.ə.v)-in qiyamət əlaməti kimi xəbər verdiyi bu vəziyyət hazırda bütün dünya intensiv şəkildə yaşanır. Bu gün dünyanın ən zəngin insanları dünyadakı

sərvətlərin böyük hissəsini nəzarətləri altında saxladıqları bir vaxtda, milyardlarla insan kasıblıq və aclıq içində yaşayır. Təkcə Afrika qitəsindəki milyonlarla insanın yaşadığı aclıq və səfalət bütün dünyanın gözləri qarşısında davam edir.

Beynəlxalq Əmək Təşkilatı 2003-cü ildə verdiyi açıqlamada, 2 milyard insanın gündə 2 dollar, 1 milyard insanın isə təxminən 1 dollarla dolanmaq məcburiyyətində qaldığını ifadə etdi. Təşkilatın mətbuat açıqlamasında, dünyanın ən yoxsul 20%-i ilə ən zəngin 20%-i arasındakı uçurumun, son 40 ildə iki qat dərinləşdiyi də vurğulandı.(38)

*"Radikal"* qəzetinin 23 sentyabr 2000-ci il tarixli sayında isə *"Forbes"* jurnalının ən zəngin 400 ABŞ-lı siyahısındakı insanların 1,2 trilyon dollara çatan sərvətlərinin, Türkiyənin milli gəlirinin altı mislinə bərabər olduğu açıqlandı. "ABŞ-ın ən zəngin insanı "ünvanını uzun müddət əlində saxlayan Microsoft şirkətinin başçısı Bill Qeytsin (Bill Gates) 63 milyard dollar olaraq təxmin edilən sərvətinin, 25 milyon əhalisi olan Perunun milli gəlirindən daha çox olduğu halda, Türkiyənin 200 milyard dollarlıq milli gəlirinin üçdə bir hissəsinə bərabər olduğu bildirildi. Xəbərdə ABŞ-ın ən zəngin dördüncü insanı Uorren Baffettin (Warren Buffet) 28 milyard dolları keçən fərdi sərvətinin, əhalisi 2 milyondan çox olan neft zəngini Küveytin milli gəlirini geridə qoyduğu halda, siyahıda 21-ci yerdə gələn Ted Törnerin (Ted Turner) 9,1 milyard dollarlıq sərvətinin 2,7 milyon əhalisi olan Panamanın milli gəlirinə bərabər böyüklükdə olduğu açıqlandı. Ortaya çıxan mənzərə, milli və beynəlxalq miqyasda yoxsulların nisbəti artdığı halda, zənginlərin getdikcə daha da zənginləşdiyini, ən zənginlər siyahısını təşkil edən 400 insanın ümumi sərvətinin bir ildə 20% artdığını göstərir.(39)

*"Akşam"* qəzetinin 2 fevral 2003-cü il tarixli sayında isə dünyadakı gəlir bölgüsündəki bərabərsizlik belə ifadə edilirdi:

Bəşəriyyətin ən əhəmiyyətli problemi: 2003-cü il Dünya İnkişaf Hesabatına görə, ölkələrarası gəlir bərabərsizliyi getdikcə daha da dərinləşir. Hesabat, dünya gündəmindəki ən mühüm inkişaf probleminin, gəliri gündə 2 dollardan aşağı olan üç milyard insana istehsala töhfə verə biləcəyi bir iş imkanı və olduqca yaxşı bir həyat keyfiyyəti təmin etmək olduğuna işarə edir. Bu gün dünya sülhünü təhdid edən faktorların başında qlobal yoxsulluq ilk cərgələrdə gəlir.

Dünyanın vəziyyəti: Bu gün ən zəngin 20 ölkədəki orta gəlir, dünyanın ən yoxsul 20 ölkəsindəki orta gəlirin 37 mislidir. Ən zənginlərin 20%-nin yaşadığı inkişaf etmiş ölkələr Dünya Ümumi Milli Məhsulunun 86%-ni, ixracat bazarlarının 82%-ni, bütün xarici investisiyaların 68%-ni, bütün telefon xətlərinin 74%-ni əllərində saxladıqları halda, bütün bu sahələrdə ən yoxsul 20%-in payı isə heç vaxt 1,5%-i keçmir.

Digər tərəfdən ən zəngin 20% ilə, ən yoxsul 10% arasında fərq 1960-cı ildə 30-a 1 olduğu halda, 1990-cı ildə 60-a 1, 1997-ci ildə 74-ə 1, 2000-ci ildə isə 79-a 1 olmuşdur. İfrat yoxsulluq içində yaşayanların, yəni gündəlik gəliri bir dollardan aşağı olanların sayı 1 milyard 200 milyonu keçmişdir.

Bu gün dünyadakı ən zəngin 3 insanın sərvətləri 600 milyon insanın yaşadığı ən yoxsul ölkələrin Ümumi Milli Məhsulundan artıqdır...

Dünyadakı təbii ehtiyatların 80%-i dünya əhalisinin 16%-i tərəfindən istehlak edildiyi halda, dünya əhalisinin beşdə bir hissəsi də təmiz su mənbələrindən belə məhrumdur. Təkcə ishaldan ölənlərin sayı ildə 50 milyonu ötür. İnkişafda olan ölkələrdə əhalinin böyük hissəsi çöllərdə yaşadığı halda, bu torpaqlardakı təbii ehtiyatların azalması nəticəsində bu ölkələr daha da yoxsulluğa gedir. O qədər ki, yoxsulluq həddindən aşağı yaşayan ölkələrdəki qadın və uşaqlar vaxtlarının 4-5 saatını yandırılası odun axtarmağa, 4-6 saatını isə su tapmaq və hərəkət üçün sərf edirlər".(40)

Bu vəziyyət Peyğəmbərimiz (s.ə.v)-in hədislərində açıqca bildirdiyi kimi, bir Axırzaman əlamətidir. Rəbbimizin icazəsi ilə bu, hz. İsa (ə.s)-ın gəlişinin və hz. Mehdi (ə.s)-ın açıqca zühur etməsinin çox yaxın olduğunun və insanların bu yoxsulluq və çətinliklərdən xilas olacağı Qızıl əsrin bir müjdəçisidir. Qızıl əsrdə dünyanın içində olduğu bu vəziyyət tamamilə dəyişəcək. Çünki bu dövrdə Quran əxlaqı tam yaşanacaq. Həmçinin Allah Quranda insanlara belə əmr etmişdir:

**...Belə ki, (bu mallar və sərvət) aranızdakı zənginlər arasında dövr edən var-dövlət olmasın. Rəsul sizə nə versə, artıq onu götürün, sizə nəyi qadağan etsə, artıq ondan çəkinin və Allahdan qorxun. Şübhəsiz ki, Allah, cəzası şiddətli olandır. (Həşr surəsi, 7)**

## 65) Zəlzələlərin çoxalması

Şübhəsiz ki, tarix boyunca çox az təbiət hadisəsi zəlzələlər qədər insanlara təsir etmişdir. Hər an, hər yerdə baş verə bilən zəlzələlər əsrlər boyu çox sayda insanın ölümünə və astronomik ölçülərdə maddi zərərə səbəb olmuş, bu xüsusiyyətlərindən ötrü insanlar üçün qorxu mənbəyi olmuşdur. 20-ci və 21-ci əsrin texnologiya şəraiti belə zəlzələlərin vurduğu ziyanın təkcə müəyyən ölçülərdə qarşısını ala bilmişdir.

Texnologiyanın, özlərinə təbiətə hökm edə biləcəyi yanılmasına qapılan bəzi insanlara isə daha əvvəl ifadə etdiyimiz kimi, 1995-ci ildəki Kobe zəlzələsi mənalı dərs vermişdir. Xatırlandığı kimi, Yaponiyanın böyük sənaye və nəqliyyat mərkəzində yaşanan zəlzələ heç gözlənilməz bir zərərə gətirib çıxartmışdır. Bu zəlzələ yalnız 20 saniyə davam etməsinə baxmayaraq, *"Time"* jurnalında ifadə edildiyinə görə, 100 milyard dollar yaxın zərərə səbəb olmuşdur.(41)

Bütün bu hadisələr Peyğəmbərimiz (s.ə.v)-in 1400 il əvvəl söylədiyi bu sözləri ağla gətirir:

***Bu hadisələr baş vermədikcə qiyamət qopmayacaq... zəlzələlər çoxalacaq... (Ramuz-El Ehadis, 476/11)***

***Qiyamətdən əvvəl iki böyük hadisə var... və sonra da zəlzələli illər. (Ramuz-El Ehadis, 187/2)***

*Sığınacaq evlər, sizi daşıyacaq heyvanlar tapa bilməyəcəyiniz günlər yaxınlaşmışdır. Çünki evlərinizi zəlzələlər dağıdacaq... (Kıyamet Alametleri, səh. 146)*

*Anlaşmazlıqlar və tez-tez zəlzələlər baş verəcək... (Kıyamet Alametleri, səh. 166)*

Son bir neçə il ərzində baş verən böyük və davamlı zəlzələlər, dünya ictimaiyyətinin gündəmində davamlı ilk cərgələrdə gəlir. ABŞ Milli Zəlzələ İnformasiya Mərkəzinin məlumatlarına görə 1999-cu ildə, yer üzündə kiçik və ya böyük gücdə 20 832 zəlzələ baş vermişdir. Bu zəlzələlər nəticəsində rəsmi açıqlamalara görə təxminən 22 711 insan həyatını itirmişdir.(42)

Keçmişə baxdığımız zaman zəlzələ sayının çox az olduğunu görərik. ABŞ Geoloji Araşdırma Təşkilatının (USGS) hesabatlarına görə 1556-1975-ci illər arasındakı təxminən 400 ildə baş verən 5 bal və daha böyük gücdəki zəlzələlərin sayı cəmi 110-dur. Eyni təşkilatın açıqlmasına görə, 1980-2003-ci illər arasında təkcə 23 il müddətində baş verən 6,5 bal və daha böyük gücdəki zəlzələlərin sayı isə 1685-dir.(43) Şübhəsiz ki, bu göstəricilər hicri 1400-cü ilin əvvəlindən etibarən zəlzələlərin sayındakı artımı çox açıq şəkildə göstərir.

Quranda da zəlzələ ilə qiyamət arasındakı əlaqəyə işarə edən ayələr var. Quranın 99-cu surəsinin adı Zəlzələ (böyük sarsıntı, zəlzələ) surəsidir. Səkkiz ayədən ibarət olan bu surədə yerin şiddətli sarsıntısı təsvir edilir, bunun ardınca da qiyamət günü insanların dirildiləcəkləri və Allahın hüzurunda hesab verəcəkləri, etdikləri əməllər zərrə ölçüsündə belə olsa onların qarşılığını alacaqları bildirilir:

**Yer, o şiddətli sarsıntı ilə sarsıldığı,**

**Yer, ağırlıqlarını çölə atıb çıxartdığı,**

**Və insan: "Buna nə olur?" dediyi zaman,**

**O gün (yer) xəbərlərindən danışacaq.**

**Çünki sənin Rəbbin ona vəhy etmişdir.**

**O gün insanlar əməllərinin özlərinə göstərilməsi üçün dəstə-dəstə atılıb çıxarlar.**

**Artıq kim zərrə qədər yaxşı iş görsə, onu görər. Artıq kim zərrə qədər şər (pislik) işləsə, onu görər. (Zəlzələ surəsi, 1-8)**

## 66) Torpaq çökmələri

*(Qiyamət) əlamətlərinin ilki torpaq çökmələridir... (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 518)*

*Bu ümmətin sonradan gələn nəsilləri öncədən gəlib keçənləri (müxtəlif ittihamlar və bəhanələrlə) təhqir etdiyi zaman artıq qırmızı küləkləri, yerə batmağı (həsfi) və ya surət dəyişdirməyi (məshi) və ya göydən daş yağmasını (kəzfi) gözləyin. (Tirmizi, Fiten: 39, səh. 2211; Kütüb-i Sitte, 14-cü cild, səh. 341)*

*Axırzamanda əyləncələrin və çəngilərin meydan aldığı və içkinin də mübah sayıldığı zaman yerə batma, daş yağma zühur edəcək və insan qılığından çıxma olacaq. (Ramuz El Ehadis, 2-ci cild, səh. 302/8)*

## 67) Evlərin məzar olması

*"İnsanlara ölüm gəlib evlər məzar olduğu zaman halın necə olar?" deyə buyurdu. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 392, no. 726)*

## 68) Külək və qasırğalar

*Qiyamətdən əvvəl on əlamət görmədən O, qopmayacaq. Onuncusu, insanları dənizə atacaq qasırğadır...*

*Onuncusu insanları dənizə atacaq küləkdir... (Kıyamet Alametleri, səh. 288)*

"Şəhərlərin yox olmasına" səbəb olan digər bir faktor da təbii fəlakətlərdir. Təbii fəlakətlərin yaşadığımız dövrdə həm say, həm də böyüklük etibarilə artdığı statistik həqiqətdir. Son on ildə baş verən iqlim dəyişikliklərinin səbəb olduğu fəlakətlər dönüş nöqtəsi kimi qəbul edilir. Amerika Milli İqlim Məlumat Mərkəzinin qeydlərinə görə 1998-ci ildə çox sayda iqlimlə əlaqədar fəlakət baş vermişdir.(44) Məsələn, müşahidəçilər, 1998 Mitch qasırğasının Mərkəzi Amerikanın tarixində baş verən ən pis fəlakətlərdən biri olduğunu müəyyənləşdiriblər.(45) 26 oktyabr 1998-ci il tarixində meydana gələn Mitç qasırğası Honduras və Nikaraquada 10 000-dən artıq insanın ölümünə səbəb olmuşdur.(46)

Ötən əsrin son illərində baş verən ən mühüm atmosfer hadisələrindən bir neçəsi belədir:

1987-ci ilin oktyabr ayında Cənub-Şərqi İngiltərə 1703-cü ildən bəri baş verən ən böyük fırtına ilə üzləşdi. Fırtınadan ötrü təxminən 15 milyon ağac devrildi və meşələrin böyük hissəsi yox oldu. Təkcə 16 insanın öldüyü fırtınada binalar böyük ziyan gördü, gəmilər sahilə sürükləndi.[47]

20 mart 1998-ci ildə Corciya ştatında baş verən tornadodan ötrü 12 insan ölmüşdür.

27 may 1997-ci ildə Texasda baş verən tornadodan ötrü ölən insan sayı 27-dir.

13 may 1996-cı ildə Banqladeşin qərbində baş verən fırtınalar nəticəsində təxminən 500-1000 ölüm halı yaşanmışdır. Eyni fırtınalar 30 000 insanın yaralanmasına və 100 000 insanın evsiz qalmasına səbəb olmuşdur.

1992-ci ildə Endryu qasırğasının vurduğu ziyan təkcə Meksika körfəzində təxminən yarım trilyon dollardır. Endryu qasırğası, Baham adalarında isə təxminən 250 milyon dollar ziyana səbəb olmuşdur. ABŞ-nın şərqində 2 milyona yaxın insan qasırğadan ötrü evlərindən evakuasiya olunmuşdur.[48]

2002-ci ilin avqust ayında Avropanın orta və şərq bölgələrində təsirli olan sellərdə ölənlərin sayı 114-ə çatmışdır. 21 sentyabr 2003-cü ildə Cənubi Koreyada, son 40 ildə baş verən ən şiddətli qasırğa nəticəsində isə 2 gündə təxminən 200 insan ölmüşdür.[49]

Son illərdəki qasırğa, fırtına, tufan və tornado kimi fəlakətlər də başda Amerika qitəsi olmaqla, dünyanın bir çox yerində dağıdıcı ziyana səbəb olmuşdur. Bunlarla yanaşı, sellər də bəzi yaşayış mərkəzlərinin su və palçıq altında qalmasına gətirib çıxartmışdır. Həmçinin zəlzələlər, vulkanlar və sunami dalğalarının törətdiyi böyük təxribatlar da unudulmamışdır. Nəticə etibarilə, bütün bu fəlakətlərin "böyük şəhərlərdə" səbəb olduğu dağıntılar mühüm işarə olmuşlar.

## 69) Şiddətli yağışın yağması

***Ev və daxma qoymayan şiddətli yağış yağana qədər qiyamət qopmaz. (Kıyamet Almetleri, səh. 253)***

***Göydən şiddətli yağış yağıb daş binalar istisna olmaqla, bütün kərpic evlər dağılmadıqca qiyamət qopmaz. (Ahmed b. Hanbel, Müsned 13/291, Hadis no. 7554)***

***İnsanlara YAĞIŞIN BOLLUĞU, lakin məhsuldarlığın azlığıyla səciyyələnən aldadıcı illər gələcək. O dövrdə yalançı insan təsdiqlənəcək, DOĞRU İNSAN YALAN SAYILACAQ; XAİN İNSANA ETİBAR EDİLƏCƏK, ETİBARLI İNSAN XAİNLİKLƏ İTTİHAM EDİLƏCƏK... (İbn-i Mace: 4036)***

İntensiv yağışlardan ötrü sel fəlakətlərinin çoxalması qiyamətdən əvvəl yaşanacaq Axırzamanın işarələrindən biridir. Ötən günlərdə dünyanın müxtəlif bölgələrindən gələn

sel fəlakəti xəbərləri də yaşadığımız dövrün Axırzaman olduğunu təsdiqləyən xüsusiyyətdədir.

Peyğəmbərimiz (s.ə.v), bundan 1400 il əvvəl yaşadığımız Axırzamanda çoxalan yağışların ciddi fəlakətlərə səbəb olacağını hədislərində bildirmişdir:

Tarixin heç bir dövründə olmadığı qədər çox sayda fəlakət xəbərini hər gün televiziyalarda izləyir, qəzetlərdə oxuyuruq. Təbii fəlakətlərin son illərdə həm say, həm də böyüklük etibarilə artdığı statistik həqiqətdir. Yaşadığımız dövrdə yaşanan təbii fəlakətlər dünyanın bir çox ölkəsində milyonlarla insana təsir etmiş və hesablana bilməyəcək böyüklükdə maddi ziyana gətirib çıxartmışdır. Son illərdə sellərdən ötrü yaşanan itkiləri araşdırmalı olsaq, Axırzamanın mühüm əlamətlərindən birinin baş verməkdə olduğunu çox açıq şəkildə görə bilərik.

2008-ci ildə Hindistanda iyun-sentyabr ayları arasındakı yağışlardan ötrü yaranan sel fəlakətində mindən artıq insan öldü. Pakistanda son dövrlərdə şiddətli yağışların səbəb olduğu sellər nəticəsində 32 insan həyatını itirdi. Çində ötən ilin may ayında baş verən şiddətli zəlzələnin mərkəzi olan Vınçüen şəhəri, intensiv yağışların təsiri altında qaldı. Bəzi bölgələrdə **ciddi sel fəlakəti** və torpaq çökməsi baş verdi. **Təxminən 1 milyon 880 min insanın həyatına təsir edən bu fəlakətlər nəticəsində 8 insan həyatını itirdi.**

Çində ötən ay şiddətli yağışlardan ötrü baş verən sel fəlakəti nəticəsində 7 nəfər öldü, 22 nəfər isə yoxa çıxdı. Vyetnamın şimalındakı bölgələrdə bu ayın əvvəlində şiddətli yağışların səbəb olduğu sel və torpaq çökmələri nəticəsində 22 insan həyatını itirdi, 14 insan itkin düşdüyü bildirildi. Sel fəlakətləri bəzi Avropa ölkələrinə də təsir göstərdi. İngiltərənin şimal bölgəsində ötən ay və bu ay öz təsirini göstərən leysan yağış və su basqınları həyata mənfi təsir göstərdi. Çexiya Respublikasında da **ötən ayın son həftəsində öz təsirini göstərən yağışların səbəb olduğu sellər nəticəsində 13 insan öldü. Şiddətli yağış,** xüsusilə ölkənin cənub hissəsini öz təsiri altına aldı.

2000-ci ildə **Mozambikdə 1 milyon insan sel ucbatından evsiz qaldı.**

2002-ci ildə Hindistan, Nepal və Banqladeşdə **mövsümi musson yağışlarının törətdiyi fəlakətlər nəticəsində təxminən 1000 insan öldü**. Çində 2003-cü ildə baş verən şiddətli yay yağışları nəticəsində 2000 insan öldü, 300 min insan evsiz qaldı. 1991-ci ildə Banqladeşdə baş verən sel hadisələrindən sonra 120 000-dən artıq insan öldü, milyonlarla insan evsiz qaldı.

2007-ci ildə Asiyada sellərdən ötrü **216 insan öldü, 20 milyon insan evsiz qaldı.** 2007-ci ildə Şimali Koreyada ifrat yağışların səbəb olduğu sel fəlakəti nəticəsində 214 insan öldü, 80 insan itkin düşdü.

2007-ci ildə Meksikada sel fəlakətindən ötrü **evləri uçan 500 min insan evsiz qaldı.**

***Hz. Mehdi (ə.s)-ın zuhuru vaxtı cüt quyruqlu bir ulduz çıxacaq və elə parlaq olacaq ki, bütöv ay kimi parlayacaq. Bu ulduzun çıxışından sonra elə çox yağış yağacaq ki, böyük ziyan olacaq. Lakin xalq bu yağışları sevinclə qarşılayacaq. Çünki bundan əvvəlki 3***

*ildə heç yağış yağmamış olacaq. (12. İmam, Murtaza Lakha, R &K Tyrell mətbəəsi, Londra, 1993)*

**CÜT QUYRUQLU ULDUZUN GÖRÜNMƏSİNDƏN 3 İL ƏVVƏL YAŞANACAQ QURAQLIQ VƏ BUNDAN SONRA YAŞANACAQ SEL HADİSƏLƏRİ:**

- "Lulin" quyruqlu ulduzu, 24 fevral 2009-cu ildə dünyaya ən yaxın məsafədən keçmişdir.
- Eyni hədisdə bildirildiyi kimi, digər ulduzlardan fərqli olaraq iki quyruğa malikdir və parlaqlığı digər ulduzlardan 6 qat daha çoxdur.
- Hədisdə deyildiyi kimi, ulduzun görünməsindən əvvəlki 3 il ərzində yağışlar dünyada olduqca azalmış və bir çox bölgədə quraqlıq yaşanmışdır. İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Paneldə, "İqlim Dəyişikliyi 2007" hesabatına görə 2007-ci il və sonrasındakı bir neçə ildə, yağış yağmayan bölgələrin daha da quraqlaşacağı və buralarda aclıq və xəstəliklərin artacağı bildirilmişdir.
- Eyni hədisdə bildirildiyi kimi, 2009-cu ilin mart ayında Dim su anbarının qapaqları ifrat dolma nəticəsində qırılmış və minlərlə insan evlərindən evakuasiya edilmək məcburiyyətində qalmışdır. Hazırda yaşanan sel fəlakətləri də bu yağış artımının nəticəsidir.
- **9 SENTYABR 1979-CU İLDƏ İSTANBULDA BÖYÜK SEL FƏLAKƏTİ YAŞANMIŞDIR.**

Hz. Mehdi (ə.s)-ın hədislərdə bildirildiyinə görə, hicri 1400-cü il, yəni miladi 1979-cu ildəki zühuruna təsadüf edir.

*"İnsanlar 1400-cü ildə hz. Mehdi ətrafında toplanacaqlar". (Risaletül Huruc-ül Mehdi, səh. 108)*

- **9 SENTYBAR 2009-CU İL - HAL-HAZIRDA YAŞANAN SEL FƏLAKƏTİ.**

## 70) İldırımların çoxalması

***Qiyamətin yaxınlaşdığı vaxtda, ildırımlar o qədər çoxalacaq ki, insanlar (bir-birlərinə belə) deyəcəklər: "Dünən kimi ildırım vurdu?" Onlar da (belə) cavab verəcəklər: "Dünən filankəsi və filan (kimsələri) ildırım vurdu". (El-Hakim, Müstedrek, 4/444)***

***Evlərinizi zəlzələlər dağıdacaq, heyvanlarınızı ildırımlar yandırıb kömürə döndərəcək. (Naim bin Hammad; Geleceğin Tarihi 4, səh. 69)***

Hədislərdə ildırımların çoxalmasının da qiyamət əlamətlərindən biri olduğu xəbər verilmişdir. Tam da hədisdə ifadə edildiyi kimi, ildırım düşməsindən ötrü can və mal itkisinin çoxalması son illərdə tez-tez rast gəlinən vəziyyət olmuşdur. Bu itkilərdən çox vaxt xəbərlərdə bəhs edilir. 1998-ci ildə Konqoda futbol meydançasına düşən ildırım nəticəsində, meydançada futbol oynayan 11 futbolçunun ölümü bu nümunələrdən biridir. Bənzər şəkildə 2001-ci ildə Meksikada futbol meydançasına düşən ildırımdan ötrü də 6 insan həyatını itirmişdir. Bunlardan başqa ildırımların düşməsi bir çox insanın həyatını itirməsinə və heyvanların tələf olmasına səbəb olur.

## 71) Haqq dinin və Quran əxlaqının tərk edilməsi

***İnsanlara bir zaman gələcək ki, Qurani Kərimin yalnız şəkli, İslamın yalnız adı qalacaq. Onlar İslamdan ən uzaq insanlar olduqları halda İslami adlarla adlanacaqlar, məscidləri görünüş cəhətdən abdalaşdırılmış olduğu halda, hidayət cəhətdən xarab olacaq. (Hakim, Deylemi; Son Zamanlarla İlgili Hadisler, səh. 27)***

***İnsanlara bir zaman gələcək ki, Qurani Kərim bir vadidə, insanlar başqa vadidə olacaqlar. (Hakim, Tirmizi; Son Zamanlarla İlgili Hadisler, səh. 25)***

*İnsanlar üzərinə elə bir zaman gələr ki, onların üzləri insan üzü, qəlbləri şeytan qəlbi olar. Qan tökərlər, çirkin hərəkətlərdən qaçmazlar. Əgər sən onlara tabe olsan, səni güdərlər. Əgər onlara güvənsən, sənə xəyanət edərlər. Onların uşaqları əxlaqsız, gəncləri arsız olar. Yaşlıları isə yaxşı əməllər işləməyi əmr etməz, pis əməllər işləməkdən çəkindirməz. (Hatib; Geleceğin Tarihi 1, səh. 23)*

*İnsanların... bidətçilərin (dindən olmayan şeyləri dindənmiş kimi göstərib qəbul etdirməyə çalışanlar) fikirlərini mənimsəyib bilmədən şirk qoşduqları, elmi dolanmaq üçün öyrəndikləri, dinlərini dünya nemətlərinə alət etdikləri bir dövr gələcək. (Deylemi; Son Zamanlarla İlgili Hadisler, səh. 68)*

Qiyamət əlamətləri ilə əlaqədar hədislər bizə, bəhs edilən əlamətlərin baş verəcəyi dövrün təfsilatlı təsvirini təqdim edir. Peyğəmbərimiz (s.ə.v)-in yuxarıdakı sözlərindən aydın olur ki, Axırzamanın birinci mərhələsi din əxlaqının görünüşdə tətbiq edildiyi, lakin əslində Allahın əmr etdiyi Quran əxlaqının demək olar ki, tamamilə tərk edildiyi bir dövrdür. Bəzi insanlar tərəfindən açıq-aydın olan Quran ayələrinin görməzlikdən gəlindiyi, Allah adından hökmlər irəli sürüldüyü, dində ixtilafa düşüldüyü, ibadətlərin göstəriş məqsədiylə yerinə yetirildiyi, dinin mənfəət təmin etmək üçün, vasitə kimi işlədildiyi bir zamandır. İmanın təqlidə əsaslanması da bu dövrün xüsusiyyətidir. Bu dövrdə yalançı müsəlmanlar çoxluq təşkil edir, həqiqi alimlər və səmimi müsəlmanlar isə az olur. Allah Quranda, Peyğəmbərimiz (s.ə.v)-in axirət günü öz qövmünün; **"Quranı tərk edilmiş (bir kitab) kimi qoyduğunu"** (Furqan surəsi, 30) söyləyəcəyini bildirir. Hz.

Məhəmməd (s.ə.v), yuxarıdakı hədislərində də Axırzamanda insanların, Quran əxlaqından uzaqlaşacaqlarını, özlərinə Qurandan başqa rəhbərlər tutacaqlarını bildirmişdir.

## 72) Quranın lazımınca düşünülməməsi

Peyğəmbərimiz (s.ə.v) Quranın oxunmasına baxmayaraq, malik olduğu məlumat və hikmət barəsində düşünülməməsinin, Axırzamanın bir xüsusiyyəti olduğunu belə bildirmişdir:

***Peyğəmbər (s.ə.v) belə dedi: "Elm insanlardan alınacaq". Ziyad belə dedi: "Ey Allahın Elçisi, biz Quranı oxuduq və oxuyuruq, qadınlarımıza və uşaqlarımıza da oxuduruq. Bu elm bizdən necə alınacaq?" Peyğəmbər belə buyurdu: "Yəhudilərin Tövratı və xristianların İncili haqqında məlumatın yoxdurmu? Onlar o qədər Tövrat və İncil oxudular, bəs onlarda bundan bir şey qaldı mı?" (Ölüm Kıyamet ve Diriliş, səh. 483)***

***Bundan sonra, bir hissəsi Quran oxuyan, lakin oxuduqları dillərində qalan qəlblərində inanmayan insanların törəyəcəyi bir zaman gələcək. (Taberani; Son Zamanlarla İlgili Hadisler, səh. 64)***

## 73) Müsəlmanların qeyri-müsəlmanlara qibtə etməsi

***(Axırzamanda) Sizdən əvvəlki millətləri qarış-qarış, arşın-arşın izləyəcəksiniz, hətta onlar (yəhudi və xristianlar) kərtənkələ dəliyinə girsələr, siz də arxalarından girəcəksiniz. (Ölüm Kıyamet ve Diriliş, səh. 470)***

***"Ümmətim, özündən əsrlər əvvəlki (adətləri) qarış-qarış və tək-tək qəbul etmədikcə qiyamət qopmaz". Deyildi: "Ey Rəsulullah! Farslar və rumlar kimi?" Buyurdu: "İnsanlar arasında onlar kimi olanlar da". (Muhtasar-ı Buhari, səh. 509, hadis no. 2216)***

***"Nəfsim qüdrət əlində olan zata and içirəm ki, siz də özünüzdən əvvəlki (yəhudi-xristian) millətlərin yoluna mütləq düşəcəksiniz". (Tirmizi)***

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində, Axırzamanda müsəlman cəmiyyətlərin qeyri-müsəlman cəmiyyətlərə qibtə edəcəkləri, onlara bənzəməyə çalışacaqları bildirilmişdir. Bu hədisin, bəzi müsəlman cəmiyyətlər arasında din əxlaqına uyğun olmayan ideologiya və cərəyanların yayılmasına işarə etməsi mümkündür. Osmanlı imperiyasının süqutundan sonra, başda bəzi ərəb ölkələri olmaqla, İslam aləmində radikal millətçilik cərəyanlarının yayılması bu vəziyyətin nümunələrindən biridir. Radikal millətçilik, digər millətləri sanki düşmən kimi görən, öz millətinə olan sevgisini və bağlılığını (belə ki, əslində bu olduqca qanuni duyğudur) digər millətlərə zərər vermə

həddinə gətirən və din əxlaqına uyğun olmayan bir cərəyandır. Təcavüzkar ideologiyadır. Halbuki Quran əxlaqı insanların bir-birlərinə, irqlərinə, soylarına və ya bəzi maddi imkanlarına görə deyil, imanına və Allah qorxusuna görə dəyər verməyi, sevgi bəsləməyi və hörmət göstərməyi tələb edir. İman gətirənlər, hansı irq və ya millətdən olmasından asılı olmayaraq, bir-birlərinin qardaşıdır və bu şüurla həmrəylik içində olmalıdırlar.

İslam aləminə daxil olan qərb qaynaqlı ideologiyalar radikal millətçiliklə məhdudlaşmır. 20-ci əsrin əvvəlində Qərbdə yaranan din əxlaqına uyğun olmayan başqa cərəyanlar da, İslam ölkələrindəki bəzi insanlar tərəfindən İslam aləminə daxil edilmiş, kifayət qədər savadlı olmayan bəzi müsəlmanlar kor-koranə bu cərəyanların yanlış fikirlərinə qapılmışlar. Bu vəziyyət İslam aləminin böyük hissəsində yarım əsrdən uzun müddətdir davam edən qeyri-sabitlik və qarğaşalığın da əsas səbəblərindən biridir. Allahın icazəsi ilə, hz. İsa (ə.s) ikinci dəfə dünyaya gəldiyi zaman bu mühit tamamilə dəyişəcək, bütün müsəlmanlar təkcə Quranı və sünnəni rəhbər tutacaq, həqiqi din əxlaqının tələbi olan dinclik, sabitlik və etibarı yaşayacaqlar.

## 74) Qurandan uzaqlaşdıran fitnələr

Ənam surəsinin 26-cı ayəsində insanları **"Qurandan uzaqlaşdıranlara"** diqqət çəkilir. Hədislərdən də azğın fikri cərəyanların, haqq və həqiqətdən uzaq sistemlərin qiyamətdən əvvəl, insanları Allahın yolundan azdıracaq böyük fitnələr törədəcəyi aydın olur.

***Qiyamətdən dərhal əvvəl qaranlıq gecələr kimi fitnələr var. (Ramuz-El Ehadis, 121/5)***

***Qiyamətə yaxın qaranlıq gecələrin parçaları kimi qarışıqlıqlar olacaq. İnsan bu qarışıqlıqlar arasında səhər mömin, axşam kafir olacaq, axşam mömin, səhər kafir olacaq. (Kur'an ve Sünnette Kıyamet ve Ahiret, səh. 155)***

## 75) İslam əxlaqından uzaqlaşdıran təbliğatlar

***..."O dövrdə xalqı cəhənnəm qapılarına çağıracaq bəzi dəvətçilər (təbliğatçı təşviqatçılar) olacaq. Hər kim bu dəvətçilərin dəvətini qəbul etsə onu cəhənnəmə atacaqlar". "Ey Rəsulullah, bu dəvətçilər zümrəsinin xüsusiyyətlərini bizə bəyan etsəniz", "yaxşı edim, onlar bizim millətimizdən olub bizim dilimizlə danışan bir zümrədir" deyə buyurdu. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 382, no. 698)***

*Kor və kar (yəni insanları, doğrunu görməsində kor, haqqı eşitməsində kar edən) olan böyük bir fitnə, ulu bir bəla var. Fitnənin içində də xalqı cəhənnəm qapılarına doğru*

*dəvət edən bəzi dəvətçilər (təbliğatçılar və təşviqatçılar) da var. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 380, no. 696)*

*Yaxın gələcəkdə kor, kar və dilsiz (yəni insanları kor) edib doğrunu göstərməyən, kar edib haqqı eşitdirməyən və dilsiz (edib) haqqı danışdırmayan bəzi qorxunc fitnələr olacaq... Fitnə həngaməsində dilin fitnəyə qarışması və təbliğat aparması qılınc zərbəsi kimi onun yayılmasını təmin edər. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 390, no. 720)*

Hədislərdə göründüyü kimi, Peyğəmbərimiz (s.ə.v) Axırzamanda dinsizlik və əxlaqsızlıq təbliğatını aparan insanlar olacağını xəbər vermişdir. Dövrümüzdə ölkələrin bir hissəsinin əxlaqi və ictimai vəziyyətində baxdığımız zaman, bu xəbərin gerçəkləşdiyini açıqca görərik. Xüsusilə təkmilləşən informasiya vasitələri ilə hazırkı dövrdə intensiv şəkildə həyata keçirilən bu təbliğat bir çox insanı din əxlaqından uzaqlaşdırmağı bacarır.

Həmçinin bəhs edilən fitnənin kar edib eşitməyə və görməyə mane olması bir çox ölkədə hakimiyyətdə olan təzyiqçi rejimləri də ağla gətirir. Bu rejimlər fikir və düşüncə azadlığını təzyiq altına alır, insanların düşüncələrini, inanclarını istədikləri kimi ifadə etmələrinə maneə törədir. Xüsusilə bəzi ərəb və Afrika ölkələrində, müsəlmanların düşüncələrini sərbəst şəkildə ifadə edə bilməmələri, inanclı olduqları üçün təzyiq altında saxlanılmaları bu vəziyyətin nümunələridir.

## 76) İkiüzlü və saxtakar din xadimləri

Axırzamanda alim kimi qəbul edilən bəzi insanların əslində ikiüzlü və saxtakar olduqlarını, Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) belə xəbər vermişdir:

***Axırzamanda canavar oxucular olacaq. Kim o zamana yetişsə, şərlərindən Allaha sığınsın. Onlar çox çirkli insanlardır. Riyakarlıq (ikiüzlülük) hakim olacaq, riya (ikiüzlülük) və göstərişdən utanılmayacaq. (Ölüm Kıyamet ve Diriliş, səh. 470)***

***Alimlər elmi sırf pul qazanmaq üçün öyrəndiyi zaman... dini dünya nemətləri üçün satdıqları zaman... hökmü satdıqları zaman... qiyamət yaxınlaşmış olacaq. (Ölüm Kıyamet ve Diriliş, səh. 480)***

*Axırzamanda elə insanlar çıxacaq ki, dinlərini dünya mənfəətləri qarşılığında satacaqlar. Bunlar yumşaq görünmək üçün, qoyun dərisinə bürünəcəklər, dilləri şəkərdən şirin, lakin qəlbləri canavar qəlbi kimi qatı olacaq. (Tirmizi, Zühd: 60)*

*"Məscidlərin içində fisqu-fücur əhlinin (Allaha üsyan edənlər, günah işləyənlər) səslərinin yüksəlməsi, dini yöndən qadağan olan şeyləri işləyənlərin, dinin əmr etdiklərini yerinə yetirən səmimi möminlər üzərində qələbə çalıb, onlara hökm etmələridir" deyə buyurdu. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 450, no. 828)*

*Nəhayət bəzi cahil insanlar qalar ki, özlərinə (dini məsələlər) barədə sual verildikdə, onlar elmləri olmadığı halda, öz fikirləri ilə fətva verərlər ki, həm özləri azar, həm də xalqı azdırarlar. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 463, no. 850)*

*Yazıq ümmətimə, pis üləmaya görə! Bunlar elmi ticarət vasitəsi edərlər. Zəmanələrinin əmirlərinə yaxınlaşmaq surətiylə özlərinə qazanc təmin edərlər. (Hatim; Geleceğin Tarihi 1, səh. 27)*

*İnsanlar üzərinə elə bir zaman gələr ki, onların hamısı Quran oxuyar, ibadətə edərlər və əhli-bidətlə də məşğul olarlar. Lakin bilmədikləri cəhətdən müşrik olarlar və oxumaları və elmləri əvəzində ruzi alarlar və dünyanı din qarşılığında yeyərlər. Məhz bunlar, kor dəccalın köməkçisi olacaqlar. (Deylemi; Geleceğin Tarihi 1, səh. 27)*

İslam dininə lazımi hörmət və diqqəti göstərməyən, dini, öz mənfəətləri əsasında vasitə kimi işlətməkdən çəkinməyən bəzi insanların vəziyyəti də belə bildirilmişdir:

*Ümmətimin son zamanlarında məscidlərini bəzəyib qəlblərini xarab buraxan, paltarını qoruduğu qədər dinini qorumayan, dünya işlərinin qaydasında getməsi naminə dinini vasitə etməkdən çəkinməyən bəzi insanlar törəyəcək. (Hakim; Son Zamanlarla İlgili Hadisler, səh. 27)*

## 77) Siyasət adamlarındakı degenerasiya

***Axırzamanda, zalım əmirlər, fasiq nazirlər, xain qazılar, yalançı hocalar olacaq. Bunlara hər hansı biri yetişsə onların yanında müttəfiq olmasın, köməkçi olmasın, istiqamət verən olmasın... (Risalet-ül huruc-ül Mehdi, səh. 182)***

***Xəbəriniz olsun, bu mütləqdir ki, başlarınıza bəzi amirlər və dövlət başçıları gələcək ki, onlar, (dövlət xəzinəsindən yardıma ehtiyacı olan) sizə vermədiklərinin (haqları olmadığı halda) özlərinə verilməsini qanunilədirəcəklər. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 380, no. 697)***

*Yaxında başınıza bəzi əmirlər gələcək. Ruzinizə əl qoyacaq, başınızı yalanlarla qatacaqlar. İş görəcəklər. Lakin gördükləri pis olacaq. Ən pis tərəfləri də budur ki, pis əməllərini gözəl görmədikcə və yalanlarını təsdiqləmədikcə sizdən razı olmayacaqlar... (Bagavi, Tabarani; Geleceğin Tarihi 1, səh. 43)*

*İslamın üsulları tək-tək pozulacaq və xalqı dəlalətə salan hökumət adamları çıxacaq... (Hakim; Geleceğin Tarihi 1, səh. 57)*

Axırzamanın mühüm xüsusiyyətlərindən biri də qəddar, zalım və xalqını fəlakətlərə sürükləyən liderlərin rəhbərliyə gəlməsidir. 20-ci əsr bu cür lider və rəhbərlərin nümunələri ilə doludur. Din əxlaqına uyğun olmayan ideologiyaları mənimsəyən bu insanlar, həm öz xalqlarına etdikləri zülm, həm də səbəb olduqları müharibə və

qarşıdurmalardan ötrü digər cəmiyyətlərə gətirdikləri bəlalar ilə məşhurlaşıblar. Hədisdə də bu vəziyyətə diqqət çəkilir.

Çinin kommunist diktatoru Mao, təkcə özünə müxalif olduqları üçün minlərlə vətəndaşını qətlə yetirmiş, rəhbərliyi müddətində milyonlarla insanın ölümünə səbəb olmuşdur.

Mussolini, faşist ideologiyasının təsiriylə ölkəsini II Dünya müharibəsinə sürükləyərək xalqına böyük fəlakət gətirmişdir.

Mobutu, tarixə Afrika qitəsinin ən qəddat diktatorlarından biri kimi keçmişdir.

## 78) "Yaxşı əməlləri əmr etmək, pis əməlləri qadağan etmək" ibadətinin tərk edilməsi

***Yaxşı əməllər tərk edilib əmr edilmədiyi, pis əməllər işlənib qadağan edilmədiyi zaman... qiyamət yaxınlaşmış olacaq. (Ölüm Kıyamet ve Diriliş, səh. 480)***

***Qiyamət yaxınlaşar, xeyirxah əməllər azalar. (Kıyamet Alametleri, səh. 264)***

Allah: **"Aranızdan xeyrə çağıran, yaxşı əməllər işləməyi əmr edib pis əməllər işləməyi qadağan edən bir camaat çıxsın. Məhz bunlar nicata qovuşanlardır"** (Ali İmran surəsi, 104), ayəsiylə insanlara yaxş əməllər işləməyi əmr edib, pis əməllər işləməyi qadağan etmə ibadətini fərz buyurmuşdur. Yaxşı əməllərin tövsiyə edilməsi və pis əməllərin qarşısının alınmasının Allahın mühüm bir əmri olduğu bilindiyi halda, edilməməsi də qiyamətin bir əlamətidir. Eyni zamanda qiyamətdən əvvəl baş verəcək böyük hadisələrin xəbərçisi olaraq, hz. İsa (ə.s)-ın gəlişinin yaxınlaşdığının da bir göstəricisidir.

## 79) Maruf (yaxşı əməllər, doğruluq) ilə münkərin (pis əməllərin) bir-biriylə qarışdırılması

***(Peyğəmbər (s.ə.v):) "Yaxşı əməllər işləməyi əmr etmədiyiniz, nəhyi-anil-münkər (pis əməlləri qadağan etmə) etmədiyiniz vaxt halınız nə olacaqr?" deyə soruşdu. "Yəni bu olacaqmı?" dedilər. "Bəli, hətta daha betəri!" deyə buyurdu və sual verməyə davam etdilər: "Münkəri (pis əməlləri) əmr edib, yaxşı işlər görməyi (yaxşılığı) qadağan etdiyiniz zaman halınız nə olar?" (Yanında olanlar heyrətlənərək): "ey Allahın Rəsulu! Bu mütləq olacaqmı?" dedilər. "Bəli, hətta daha betəri!" buyurdular və davam etdilər: "əmri bil-marufda (yaxşılığı əmr etmə) olmadığınız, nəhyi-anil-münkər (pis əməlləri qadağan etmə)***

*etmədiyiniz vaxt halınız nə olur?" deyə soruşdu?" (Yanındakı əshabə:) "Ey Allahın Rəsulu! Bu mütləq olacaqmı?" deyə soruşdular. "Bəli, olacaq!" deyə buyurdular. (Ebu Ya'lâ, Müsned; Taberâni, el-Mu'cemu'l-Evsat; Heysemi, Mecma'u'z-Zevaid, 7, 281)*

Hədisdə bildirildiyi kimi, dövrümüzdə din əxlaqından uzaq yaşayan cəmiyyətlərdə doğru ilə yanlış tamamilə bir-birinə qarışdırılmışdır. İnsanlar doğrunu etdikləri, gözəl əxlaq göstərdikləri üçün "saf" kimi qiymətləndirilir, öz mənfəətləri üçün başqalarının haqqlarını tapdalayanlar isə, "ağıllı və bacarıqlı" insanlar kimi qiymətləndirilirlər. Quran əxlaqına tamamilə zidd olan bu vəziyyət müasir dövrdə bir çox cəmiyyətdə qəti anlayış olaraq yerləşmişdir.

## 80) Yaxınlarının insanı pis əməllərə təşviq etməsi

*İnsanın həlakı valideyinlərim əlində, o yoxdursa arvadının əlində, o da yoxdursa qohumunun əlində olacaq. Belə ki, onu dolanışıq çətinliyi ucbatından qınayacaqlar, tab gətirə bilmədiyi işlərə təşviq edəcəklər, nəhayət o dözə bilməyib qaranlıq və təhlükəli işləri görəcək və həlak olub gedəcək. (Ebu Naim; Geleceğin Tarihi 1, səh. 29)*

## 81) Həqiqi möminlərin sayca çox az olması

Peyğəmbərimiz (s.ə.v)-in verdiyi bir xəbər də, Axırzamanda həqiqi möminlərin demək olar ki, yox deyiləcək qədər az sayda olmasıdır:

*İnsanlara bir zaman gələr ki, camelərində toplanıb namaz qılarlar. Lakin aralarında mömin olmaz. (Hakim; Son Zamanlarla İlgili Hadisler, səh. 19)*

## 82) Came və məscidlərin fərqli məqsədlərlə istifadə edilməsi

Came və məscidlərin təkcə yol kimi istifadə edilən məkanlara çevrilməsinin, Axırzamanın əlamətlərindən biri olduğu aşağıdakı hədisdə xəbər verilir:

*Məscidlər namaz qılınmayıb, gəlib keçilən yol halına gəldiyi... zaman gəlmədikcə qiyamət qopmaz. (Son Zamanlarla İlgili Hadisler, səh. 87)*

*İnsanlar məscidlərə görə öyünmədikcə qiyamət qopmaz. (Ahmet b. Hanbel, Ebu Davud, İbni Mace)*

## 83) Quranı mənfəət naminə oxuyanların çıxması

Axırzamanda Quranı Allahın rizasını qazanmaq üçün deyil, əksinə qazanc əldə etmək üçün, oxuyan bəzi insanların da ortaya çıxacağı hədisdə belə bildirilib:

***Kim Quran oxusa (mükafatını) Allahdan istəsin. Çünki son zamanlarda Quran oxuyub (mükafatını) insanlardan istəyən bəzi insanlar törəyəcək. (Tirmizi; Son Zamanlarla İlgili Hadisler, səh. 12)***

*Alimləriniz, qızıl və gümüş pullarınızı almaq üçün oxuduqları zaman, Quranı ticarət vasitəsi kimi qəbul etdiyiniz zaman qiyamət yaxınlaşmışdır. (Kıyamet Alametleri, səh. 141)*

Quranın məqsədindən fərqli şəkillərdə oxunması da bir əlamətdir:

*Qurani Kərimin mahnı kimi oxunub həzz alındığı, hətta insan alim olmadığı halda bu oxumasından ötrü etibar gördüyü zaman... (Taberani; Son Zamanlarla İlgili Hadisler, səh. 33)*

## 84) Ulduz falına inanılması və taleyin inkar edilməsi

Müsəlman kimi tanınan bəzi insanların yanlış tale anlayışına sahib olmaları, bəzilərinin də ulduzların gələcəyə dair xəbər verdiyinə inanmaları Axırzamanın göstəricilərindəndir:

***Axırzamanda ümmətim barəsində ən çox narahat olduğum: ulduzlara (inanmaq), taleyi inkar etmək... (Ramuz-El Ehadis, 1/1540)***

## 85) Həccin Allah rizası üçün deyil, başqa məqsədlər üçün yerinə yetirilməsi

Həcc ibadətinin yerinə yetirilmə məqsədinin gəzmək, ticarət etmək, göstəriş etmək və ya dilənmək olması, Axırzamanın digər əlamətidir:

***İnsanlar üzərinə bir zaman gələr ki, zənginlər səyahət üçün, orta təbəqənin insanları ticarət üçün, onları alimləri riya və göstəriş üçün, kasıbları isə dilənmək üçün həccə gedərlər. (Ramuz-El Ehadis, 503/8)***

## 86) İnsanların nəfsani ehtiraslarına önəm verməlвəri

*Bir zaman gələcək ki, insanların qayğıları qursaqları, şərəfləri malları, qiblələri qadınları olacaq. Dinləri də, qızıl və gümüş olacaq. Bunlar xalqın şərliləridir və Allah yanında onların nəsibləri yoxdur. (Sülemi; Geleceğin Tarihi 1, səh. 19)*

*Hz. Peyğəmbər (s.ə.v) buyurdu ki; "Qiyamət əlamətlərindən biri, ...nəfsinin arzularına meyletməkdir... İnsanlar namazı tərk edəcəklər və şəhvətlərinə uyacaqlar". (Feraidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar; Beklenen Mehdi, 3-cü nəşr, səh. 146-147)*

## 87) İctimai pozulma

*"...İnsanların ixtilaf və ictimai (sosial) sarsıntılar içində olduqları zaman..." (Ramuz-El Ehadis, 7/7)*

Zəmanə insanlarının üz-üzə olduqları mühüm bir problem, ictimai strukturlardakı pozulmalardır. İctimai tənəzzül özünü müxtəlif formalarda göstərir. Dağılmış ailələr, boşanmalardakı artım və qeyri-qanuni əlaqələrdən dünyaya gələn uşaqlar ailə qurumundakı təxribatın təbii nəticələridir. Stress, narahatlıq, bədbəxtlik və xaos bir çox insanın həyatını sanki kabusa çevirmişdir. Mənəvi boşluq içindəki insanlar sıxıntılarına çarə axtararkən alkoqol və narkotik bataqlığına yuvarlanır və ya qaranlıq yollara girirlər. Həll yolu qalmadığını düşünən bəziləri də intiharı qurtuluş zənn edirlər.

İctimai pozulmanın ən diqqətçəkən göstəricilərindən biri də qanunlara zidd davranışlardakı böyük artımdır. Cinayət hallarındakı artım olduqca böyük ölçülərə çatmışdır. BMT-nin Cinayətkarlığın Qarşısının Alınması üzrə Beynəlxalq Mərkəzinin hazırladığı "universal cinayətkarlıq və ədalət hesabatı" bütün dünya ölkələrini əhatə edən bu ümumiləşdirmədən ibarətdir:

Orta hesabla, cinayət hadisələri 1980-ci illərdə olduğu kimi, 1990-cı illərdə də yüksəlməyə davam edir.

Dünyanın hansı yeri olursa olsun, beş illik periodda, böyük şəhərlərin sakinlərinin üçdə ikisi ən azı bir dəfə cinayət sayılan hərəkətlərin hədəfi olur.

Universal səviyyədə ciddi cinayətlərə hədəf olma ehtimalı (soyğun, cinsi cinayətlər, hücum) beşdə birdir.

Bölgə ayrı-seçkiliyi olmadan, gənclər kateqoriyasındakı mülkiyyətə istiqamətli cinayətlər və zorakılıq cinayətlərinin hər ikisi də iqtisadi problemlərlə əlaqəlidir.

Son illərdə qeyri-qanuni narkotik maddəsi növləri sayca artmış və xüsusiyyət etibarilə də növlərə ayrılmışdır.(50)

Belə bir sosioloji inkişafın səbəbləri Qurandakı keçmiş cəmiyyətlərin hekayələrində açıqca bildirilir. İctimai pozulma və buna bağlı olaraq ortaya çıxan hər cür problem, insanların Allahı və yaradılış məqsədlərini unutmalarının, haqq dindən və mənəvi dəyərlərdən uzaqlaşmalarının labüd nəticəsidir.

İctimai pozulmanın ünsürləri eyni zamanda Peyğəmbərimiz (s.ə.v)-in on dörd əsr əvvəl xəbər verdiyi, hazırda isə bir-bir ortaya çıxan hadisələrdir. Hz. Məhəmməd (s.ə.v) Axırzamanı, ***"insanların ixtilaf və ictimai (sosial) sarsıntılar içində olduqları zaman"*** *(Ramuz-El Ehadis, 7/7)* kimi xarakterizə etmişdir.

## 88) Xainlərə etimad edilməsi, dürüstlərin xain sayılması

***İnsanlar üzərinə aldadıcı illər gələcək. O illərdə... xainə etimad ediləcək, dürüst insan xain sayılacaq. (Ölüm Kıyamet ve Diriliş, səh. 476)***

*Pislərin çoxaldıqca çoxalması, yalançıların dürsüt qəbul edilib... qiyamət əlamətlərindəndir. (Beyhaki, İbn-i Neccar; Son Zamanlarla İlgili Hadisler, səh. 107)*

*Dünyada əclaf oğlu əclaf insanlar, insanların ən xoşbəxti olana qədər qiyamət qopmayacaq. (Tirmizi, Fiten: 37)*

*Yalançının təsdiqlənməsi, doğru danışanın yalanlanması qiyamət əlamətlərindəndir. (Kıyamet Alametleri, səh. 137)*

*Yalançı, doğru danışan qəbul ediləcək və doğru danışan isə, təkzib olunacaq. Xainə etibar ediləcək və etibarlı olanla isə, xainmiş kimi rəftar göstəriləcək... Məhz o zaman yalan yayılacaq... (Feraidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar; Beklenen Mehdi, 3-cü nəşr, səh. 146-147)*

*Qiyamətdən dərhal əvvəl hiyləgər illər var. O zamanlarda etibarlı insanlara məzəmmət, xainə etibar edilər. Həmçinin etibarlı insan susdurular. Yalançıya etibarlı insan gözü ilə baxılar. (İbni Asakir; Geleceğin Tarihi 1, səh. 40)*

*Bələd olmayanın malik olması, yaramayanın vəzifəyə gətirilməsi, yarayanın təcrid edilməsi də qiyamət əlamətlərindəndir. (Naim bin Hammad; Geleceğin Tarihi 1, səh. 41)*

Hədislərdən aydın olur ki, cəmiyyətdə pis insanların çoxalması, etibarlı qəbul edilən bəzi insanların əslində yalançı, yalançı olduğu iddia edilən bəzilərinin də əslində etibarlı insanlar olması, Axırzamanın bir xüsusiyyətidir.

## 89) Etibarlı insanların azalması

Hz. İsa (ə.s)-ın gəlişindən əvvəlki dövrdə Quran əxlaqına və qanunlara uyğun şəkildə əldə edilmiş qazanc ilə etibarlı insanların az olacağı hədisdə belə bildirilmişdir:

***Axırzamanda ümmətim içərisində ən az tapılacaq şey halal pul və özünə etibar edilən yoldaşdır. (Suyuti, Camiü's-Sagir, 2/71)***

***Yaxşı insanlar bir-bir gedəcək, geriyə arpa və xurmanın yaramazı kimi yaramaz insanlar qalacaq. (Kıyamet Alametleri, səh. 137)***

## 90) Əmanət əhli insanların azalması

Qiyamətə yaxın dövrdə əmanət əhli insanların azalacağı, insanların özlərinə əmanət kimi verilənlərə əl qoyub xərcləyəcəkləri də hədislərlə xəbər verilmişdir:

***Qənimət müəyyən insanların idarəsində olduğu, əmanətin qənimət sayıldığı, zəkat ağır yük kimi qəbul edildiyi zaman... (Kıyamet Alametleri, səh. 114)***

***Əmanətin qənimət, zəkatın da (içindən çətinliklə çıxılacaq) bir borc kimi qəbul edilməsi... (Kıyamet Alametleri, səh. 139)***

*İnsanları, sözlərindən və vədlərindən dönmüş, əmanətləri ciddi qəbul etməyən vəziyyətdə gördüyün zaman... (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 378, no. 690)*

## 91) Zəkatın tərk edilməsi

***Zəkat (ödəməyi ibadət hesab etməyib biyar və) cəza hesab etdikləri zaman. (Tirmizi, Fiten: 39, 2211)***

***O zaman, zəkat, cəza olaraq və xərac da, qənimət olaraq zorla alınacaq. (Feraidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar; Beklenen Mehdi, 3-cü nəşr, səh. 146-147)***

Kasıbların və ehtiyac içində olanların qorunub himayə edilməsi din əxlaqının tələblərindən biridir. Allah iman gətirənlərə, ehtiyac içində olanlara sədəqə verməyi, onların ehtiyaclarını ödəyib aradan qaldırmağı və onları qoruyub himayə etməyi əmr etmişdir. Din əxlaqının yaşandığı cəmiyyətlərdə, bu əxlaqın tələbi olan ictimai yardımlaşma yaşandığı üçün, kasıblıq problemi normal olaraq ortadan qalxar. Axırzamanda isə, insanların din əxlaqından uzaqlaşmalarının nəticələrindən biri olaraq, zəkat və sədəqə vermək demək olar ki, tamamilə ortadan qalxacaq.

## 92) Namaz ibadətinin tərk edilməsi

***Hz. Hüzeyfənin dediyinə görə, Peyğəmbərimiz (s.ə.v) belə buyurmuşdur: "Ey Hüzeyfə! O gündə onlar riddə (dindən çıxmaq) üzrə olacaqlar... namaz da qılmayacaqlar". (Ukayli, En-Necmu's-sakıb fi Beyanı Enne'l Mehdi min Evladı Ali b. Ebi Talib Ale't-Temam ve'l kamal)***

*Hz. Peyğəmbər (s.ə.v) buyurdu ki; "Qiyamət əlamətlərindən biri, namazın tərk edilməsidir... Məhz o zaman ey Səlman! Dinsizliyin ən pisi və günahların ən pisi meydana gələcək. İnsanlar namazı tərk edəcəklər və şəhvətlərinə uyacaqlar. Əgər siz onlara çatsanız, namazlarınızı vaxtında qılın". (Feraidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar; Beklenen Mehdi, 3-cü nəşr, səh. 146-147)*

*İnsanlar elə bir zamanla üz-üzə qalacaqlar ki, namaz tərk ediləcək, strukturlar uzanacaq, andiçmə və lənətləşmələr çox olacaq, rüşvət və zina mümkün qədər yayılacaq, axirətə qarşılıq dünya alınacaq... (Kıyamet Alametleri, səh. 157)*

## 93) Yalançı şahidlik və iftiranın yayılması

Əsil şahidliyin gizlənməsi, yalançı şahidliyin və iftiranın isə yayılması mühüm qiyamət əlamətlərindən biridir. Əslində bu vəziyyət, insanların din əxlaqından uzaqlaşmalarının nəticəsidir. Din əxlaqı insanların şərtlər nə olursa olsun, dürüst olmalarını, öz əleyhlərinə belə olsa ədalətli davranmalarını tələb edir. Din əxlaqından uzaq, axirətdə sorğu-sual ediləcəyini dərk etməyən insanlar isə, mənfəətləri tələb etdiyi zaman, asanlıqla yalan söyləyə bilər, başqası barəsində yalançı şahidlik edə bilərlər. Belə insanların sayının çoxalması isə, hz. İsa (ə.s)-ın gəlməsindən əvvəlki dövrün xüsusiyyətlərindəndir:

***Qiyamətdən dərhal əvvəl... yalançı şahidlik geniş yayılar, haqqa şahidlik isə gizlədilər. (Ramuz-El Ehadis, 1/121)***

***İftiranın geniş yayılması qiyamət əlamətlərindəndir. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 450)***

## 94) Bələd olmayan insanlara məsuliyyət verilməsi

Məsuliyyətin bələd olmayan insanlara verilməsinin nəticələri də aşağıdakı hədisdə belə vurğulanır:

***İş bələd olmayana verildikdə, artıq qiyaməti gözlə! (Zebidi, Tecridi Sarih, 12/201)***

## 95) Üstünlüyün təqvada deyil, zənginlikdə axtarılması

Cəmiyyətdəki tək üstünlük meyarının zənginlik olması və insanlara zənginliklərinə görə hörmət göstərilməsi də qiyamət əlaməti kimi bildirilmişdir:

***Zənginə etibar edilib özündən daha üstün insanlar onun üçün ayağa qalxdıqları və ona salam verdikləri zaman... qiyamət yaxınlaşmış deməkdir. (Ölüm Kıyamet ve Diriliş, səh. 480-481)***

*Qiyamət əlamətlərindən biri, ... mal sahibinə (malından ötrü) təzim etməkdir (hörmət göstərməkdir). (Feraidu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar; Beklenen Mehdi, 3-cü nəşr, səh. 146-147)*

## 96) İnsani münasibətlərin pozulması

İnsanlar arasındakı ictimai əlaqələrin pozulmasının da bir əlamət olduğu hədislərdəki təsvirlərdən aydın olur:

*İnsanın yalnız tanışlarına salam verməsi... qiyamət əlamətlərindəndir. (Ramuz-El Ehadis, 121/4)*

***Qəlblər bir-birinə yadlaşmadan, sözlər bir-birindən ayrılmadan, ana-ata bir, bacı-qardaşlar fərqli dinlərdən olmadan qiyamət qopmaz. (Deylemi; Geleceğin Tarihi 1, səh. 32)***

*Salam xalqa deyil, xüsusi insanlara verilənə... qədər qiyamət qopmaz. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 470)*

*Qohumlarla əlaqələri kəsmək və pis qonşuluq qiyamət əlamətlərindəndir. (Ahmed b. Hanbel, Müsned, 11/90, Hadis no: 6872)*

## 97) Heyvanlara insanlardan çox dəyər verən insanlar

***Qiyamət yaxınlaşdıqda insan it balası bəsləyəcək. Bu işi ona, öz övladını böyütməkdən daha yaxşı gələcək. (Taberani, Hakim)***

Heyvanları sevmək, Allahın onlarda yaratdığı gözəlliklərə qarşı heyranlıq və şəfqət duymaq, əlbəttə, gözəl xüsusiyyətdir. Lakin Peyğəmbərimiz (s.ə.v)-in yuxarıdakı hədisdə xəbər verdiyi hadisə, Axırzamanda insan sevgisinin unudulub yerini heyvan sevgisinin tutmasıdır. Əlbəttə, bu olduqca yanlış dünyagörüşüdür.

## 98) Ailəvi münasibətlərin pozulması

Ailə, qohum və qonşuluq münasibətlərinin pozulması, fərdlər arasındakı sosial və mənəvi dəyərlərin yox olması, bu dövrün başqa bir xüsusiyyətidir:

***İnsanın anasına asi olması, atasına çətinlik törətməsi... (Tirmizi, Fiten: 38)***

***Qiyamətdən dərhal əvvəl... qohumlarla əlaqələr kəsilər. (Ramuz-El Ehadis, 448/7)***

*Qiyamət əlamətləri, bir-birlərinə çirkin sözlər söyləmək, qohumla əlaqəni kəsmək, etibarlı insanı xain saymaq, xainə güvənmək (dən ibarətdir)". (Kıyamet Alametleri, səh. 136-137)*

## 99) İnsanlar arasında sevgi və hörmətin azalması

Gənclərin əsəbi olmaları, uşaqlar ilə yetkinlər arasındakı sevgi və hörmət əlaqələrinin pozulması hədislərdə belə bildirilmişdir:

***Böyüklər kiçiklərə mərhəmət etmədikləri, kiçiklər də böyüklərinə hörmət göstərmədikləri... uşaqlar hirsli olduqları zaman... qiyamət yaxınlaşmış olacaq. (Ölüm Kıyamet ve Diriliş, səh. 480)***

***Böyüyə hörmət, kiçiyə mərhəmət yox olacaq. (Kıyamet Alametleri, səh. 140)***

## 100) Ailə qurumunun zəifləməsi

Hədislər göstərir ki, ailə qurumundakı pozulma ilə əlaqədar boşanmaların və evlilikdən kənar uşaqların çoxalması Axırzaman cəmiyyətlərinin bir xüsusiyyətidir.

***Boşanmaların çoxalması... qiyamət əlamətlərindəndir. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 455)***

***Qiyamət yaxınlaşdıqda... qeyri-qanuni cinsi əlaqədən dünyaya gələn uşaqlar çoxalar. (Ramuz-El Ehadis, 33/7)***

## 101) Dünya ehtirasının çoxalması

Materialist fəlsəfə və dünyagörüşlərinin təsiri ilə insanların axirəti unutmaları, dünyaya böyük ehtirasla bağlanmaları qiyamətdən əvvəlki dövrün bir xüsusiyyətidir:

***İnsanlarda xəsislik və ehtiras çoxalacaq. (Müslim, İmare: 176)***

***Qiyamət yaxınlaşdı. Halbuki insanlar dünyaya qarşı təkcə ehtiraslarını artırırlar, Allahdan da uzaqlaşırlar. (Suyuti, Camiü's-Sagir, 2/57)***

## 102) Riyakarlıq və göstərişin hakim olması

*...O gündə riyakarlıqdan utanılmayacaq və çəkinilməyəcək. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 458, no. 835)*

***Riyakarlıq (ikiüzlülük) hakim olacaq, riya (ikiüzlülük) və göstərişdən utanılmayacaq. (Ölüm Kıyamet ve Diriliş, səh. 470)***

## 103) Kobud söz və söyüşlərin yayılması

Axırzaman, bir-birlərinə kobud söz və söyüşlərlə xitab edən insanların sayca artacağı dövrdür. Bu vəziyyət hədislərdə belə bildirilmişdir:

***Son zamanlarda törəyən, bir-birləriylə qarşılaşdıqları zaman salamları lənətləşmədən ibarət olan sərxoş və asi bir nəsil... (Ahmed bin Hanbel, Hakim; Son Zamanlarla İlgili Hadisler, səh. 54)***

*Bu üç şeylə qarşılaşmayanadək ümmət gözəl bir yol üzərində olacaq: Xeyirxahlıq yox olmadıqca, əxlaqsız uşaqlar çoxalmadıqca, aralarında Əssəkkarun zahir olmadıqca... Dedilər: "Əssəkkarun nədir?" Cavab verdilər: "Axırzamanda gələcək bir nəsildir ki, aralarındakı salamları bir-birini söymək olacaq". (Kıyamet Alametleri, səh. 141-142)*

## 104) Saxtakarlıq və rüşvətin çoxalması

Axırzamanda tez-tez qarşılaşılan bir vəziyyət də ticarət həyatında saxtakarlıq və rüşvətin adi hal almasıdır:

***Məndən sonra ümmətimdə fitrət dövrü olacaq. O dövrdə hər kəs halalı axtarmadan mal tələb edəcək, qanlar axıdılacaq və şeir Qurana əvəz tutulacaq. (Deylemi; Geleceğin Tarihi 1, səh. 50)***

*Qiyamət yaxınlaşdıqda... ölçü və çəkilərdə hiyləyə əl atılacaq. (Ramuz-El Ehadis, 33/7)*

*Çəki və ölçülərdə hiyləyə əl atıldığı zaman. (Kıyamet Alametleri, səh. 139)*

*Rüşvət alınması... qiyamət əlamətlərindəndir. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 454)*

## 105) Dedi-qodu və lağlağanın çoxalması

Bu dövrün başqa bir xüsusiyyəti də dedi-qodu və lağlağanın böyük rəğbətlə qarşılanmasıdır:

***Qiyamət yaxınlaşdıqda... o dövrün ən etibarlı insanları yaltaqlıq edənlər olacaq. (Taberani, Deylemi; Son Zamanlarla İlgili Hadisler, səh. 111)***

***...Dedi-qodu, qeybət və lağ edənlərin çoxalması qiyamət əlamətlərindəndir. (Beyhaki, İbn-i Neccar; Son Zamanlarla İlgili Hadisler, səh. 107)***

*İnsanlar üzərinə elə bir zaman gələcək, insan bir qövmün içində oturacaq ki, özünü dilə tutacaqlar qorxusuyla qalxa bilməyəcək. (Deylemi; Geleceğin Tarihi 1, səh. 30)*

Halbuki Allah, dedi-qodu və lağlağanın pis əxlaq xüsusiyyətləri olduğunu bildirmiş və iman gətirənlərə bunlardan çəkinmələrini əmr etmişdir. Ayələrdə belə buyurulur:

**Ey iman gətirənlər, bir qövm (digər bir) qövmü lağa qoymasın, bəlkə özlərindən daha yaxşıdırlar; qadınlar da qadınları (lağa qoymasınlar), bəlkə özlərindən daha yaxşıdırlar. ...bir-birinizin qeybətini etməyin! (dalınca danışmayaın). Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Məhz bundan iyrəndiniz. Allahdan qorxun çəkinin!... (Hucurat surəsi, 11-12)**

## 106) Bəzi gənclərin din əxlaqından uzaqlaşması

***Hz. Əli (r.ə) deyir: "Rəsulullah əleyhissalatu vəssalam (bir gün):" Gənclərinizin günaha düşdüyü, qadınlarınızın azdığı zaman halınız necə olar?" deyə soruşmuşdu. (Kütüb-ü Sitte, hadis no: 4752; Heysemi, Mecma'u'z-Zevaid'de qeyd etmişdir (7, 281))***

Gənclərin din əxlaqından uzaqlaşmaları Axırzaman xüsusiyyətlərindəndir. Təlqinə və istiqamətləndirilməyə daha əlverişli olan gənclər, asanlıqla din əxlaqına uyğun olmayan cərəyanların təsiri altına girə bilir və ya olduqca degenerasiya olunmuş bir həyata yönələ bilirlər. Bunun təməlində həqiqi din əxlaqının insanlara lazımınca

öyrədilməməsi yatır. Bəzi Qərb ölkələrində və ya uzun illər kommunist rejimlə idarə edilmiş ölkələrdə bu vəziyyət daha aydın görünür.

## 107) Əxlaqi tənəzzül

Yaşadığımız dövrdə cəmiyyətlərin ictimai strukturlarını təhdid edən çox böyük bir təhlükə var. Bu təhlükə insan bədənini ölümə aparan viruslara bənzər şəkildə hiyləgər bir fəaliyyət göstərərək cəmiyyətləri məhvə sürükləyir. Bu, bir insan cəmiyyətini ayaqda tutan əxlaqi dəyərlərin pozulmasıdır.

Axırzamanda əxlaqi tənəzzülün genişlənəcəyi Peyğəmbərimiz (s.ə.v)-in hədislərindən aydın olur. Fahişəliyin açıqca edilməsinin bir qiyamət əlaməti olduğunu Peyğəmbərimiz (s.ə.v) bir hədisdə belə ifadə etmişdir:

***Fahişəlik açıqca edilmədən... qiyamət qopmaz. (Ramuz-El Ehadis, 91/7)***

Dövrümüzdə də homoseksuallığın, fahişəlik ticarətinin, qeyri-qanuni cinsi əlaqənin, cinsi cinayətlərin, təcavüz hadisələrinin və cinsi xəstəliklərin çoxalması əxlaqi tənəzzüllün bəzi mühüm göstəriciləridir.

Bəhs olunan mövzular davamlı dünya ictimaiyyətinin gündəmindədir. Bəzi insanlar ətraflarında baş verənlərin, təhlükənin ölçülərindən xəbərsizdirlər və ya bu hadisələri ictimai həyatın bir parçası kimi qiymətləndirmə qəflətinə düşürlər. Lakin statistik göstəricilər təhlükənin ölçülərinin görünməmiş dərəcədə hər keçən gün böyüdüyünü göstərir.

Cinsi xəstəliyin yayılma dərəcəsi insanların önündəki problemlərin böyüklüyünü göz qabağına gətirən mühüm meyardır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) qeydlərinə görə, cinsi yolla yayılan xəstəliklər ən çox rast gəlinən xəstəlik qruplarından birini meydana gətirir; 1997-ci ilin hesabatları hər il təxminən 333 milyon yeni hadisənin meydana gəldiyini göstərirdi.[(51)] Bunlarla yanaşı, QİÇS böyük problem olma mövqeyini qoruyur. ÜST-nin 2000-ci il statistikası o dövrə qədər 18,8 milyon insanın bu xəstəlikdən həyatını itirdiyi həqiqətini göstərir.[(52)] Ümumdünya Səhiyyə Təşkilatının QİÇS ilə əlaqədar 2000-ci il hesabatındakı bu ifadələr mövzunu belə yekunlaşdırdı: "QİÇS sosial, iqtisadi və demoqrafik strukturlar üzərindəki dağıdıcı təsiriylə bənzərsizdir".[(53)]

Düşündürücü hadisələr arasında homoseksuallığın yayılması da olduqca diqqətçəkəndir. Homoseksualların bəzi ölkələrdə rəsmi şəkildə evlənə bilməsi, evliliyin gətirmiş olduğu ictimai hüquqlardan istifadə edə bilmələri, dərnək və partiyalar qurmaları, dünya səviyyəsində təşkilatlanmaları, müqəddəs inanclara qarşı çıxmaları, dini dəyərlərə müharibə başlatmaları, Peyğəmbərimiz (s.ə.v)-in dövründən indiyədək keçən on dörd əsrlik müddət ərzində təkcə dövrümüzə məxsus hadisələrdir.

Axırzaman cəmiyyətlərindəki əxlaqi degenerasiyanı təsvir edən hədislərin yaşadığımız dövrdə tam mənasıyla ortaya çıxdığı aydın həqiqətdir. Bu da bizə bir daha,

Allahın icazəsi ilə, hz. İsa (ə.s)-ın yenidən dünyaya gəlişinin olduqca yaxın olduğunu xatırladır.

## 108) Zinanın çoxalması

Cəmiyyətdə qeyri-qanuni cinsi əlaqələrin yayılmasının da qiyamətin, yəni hz. İsa (ə.s)-ın gəlişinin bir əlaməti olduğu Peyğəmbərimiz (s.ə.v) tərəfindən belə bildirilmişdir:

***Zinanın çoxalması qiyamət əlamətlərindəndir. (Buhari, Tecrid: 1/16)***

Əxlaqi dəyərlərin, utanma hissinin zəifləməsi isə hədislərdə belə təsvir edilmişdir:

*Qiyamət yaxınlaşdıqda... qadınlar yolun ortasında cinsi əlaqədə olacaq qədər həya yox olar. (Taberani, Hakim; Son Zamanlarla İlgili Hadisler, səh. 111)*

*Zina uşaqları çoxalacaq. O qədər ki, kişi küçənin ortasında qadınla zina edəcək. (Kıyamet Alametleri, səh. 140)*

*Bir zaman gələcək qadınla yolun ortasında zina ediləcək. Heç kim buna etiraz etməyəcək. (Kıyamet Alametleri, səh. 142)*

Son dövrdə hər kəsin gözü qabağında açıqca yol ortasında fahişəlik edən insanlara, qəzet və televiziya xəbərlərində tez-tez rast gəlinir. Burada, hədisdə qiyamət əlaməti kimi bildirilən bir hadisə daha tam diqqət çəkildiyi şəkildə ortaya çıxır və bir çox insan bu həqiqətə şahid olur.

## 109) Homoseksuallığın qəbul edilməsi

Hədislər göstərir ki, homoseksuallığın normal həyat tərzi kimi qəbul edilməsi qiyamətdən əvvəlki dövrün mühüm əlamətidir:

***Kişilər qadınlara bənzəyəcək, qadınlar da kişilərə bənzəyəcək. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 451)***

***Kişilər kişilərlə, qadınlar qadınlarla kifayətləndiyi vaxt... qiyamət yaxınlaşmış olacaq. (Ramuz-El Ehadis, 448/8; Ölüm Kıyamet ve Diriliş, səh. 480)***

## 110) Epidemik xəstəliklər

***Vəba kimi epidemik xəstəliklər, yəni qoyun (davar) qıran deyilən heyvan xəstəliyi ki var, o sizi tutacaq... (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 417, no. 761)***

*"Ey Malik oğlu Əvf! Qiyamətdən əvvəl altı (əlamət) sayımmı?" Dedim ki; "Onlar nələrdir ey Rəsulullah?" O da belə buyurdu: "...Sizin aranızda vəba və qarayara kimi ölümcül iki xəstəlik yayılacaq". (Sahih-i Buhari; Beklenen Mehdi, 3-cü nəşr, səh. 147)*

Epidemik xəstəliklər müxtəlif dövrlərdə bütün dünyada insanlar arasında öz təsirini göstərmişdir. Lakin dövrümüzdəki xəstəliklərin, keçmişdəkilərlə müqayisə olunduqda olduqca sürətlə yayıdıqları görünür. Keçmişdə yalnız müəyyən bölgələrdə öz təsirini göstərən xəstəliklər, hazırda nəqliyyatın qazandığı sürət nisbətində bir çox ölkəyə bir anda yayıla bilirlər.

Həmçinin dövrümüzdə tez-tez yeni və məlum olmayan epidemik xəstəliklər ortaya çıxır. Son 20-30 il ərzində ən çox eşidilən epidemik xəstəliklərdən bir neçəsi QİÇS, SARS, Ebola, Dəli Dana kimi xəstəliklərdir. Bunların insanlar üçün nə qədər böyük təhlükə meydana gətirdikləri çox yaxşı bilinir.

2002-2003-cü illərdə epidemik xəstəliklərin təhlükələri ilə əlaqədar mətbuat-nəşriyyat orqanlarında bəhs edilən xəbərlərdən yalnız bir neçəsi belədir:

**Efiopiyada malyariya epidemiyası: 4200 ölü**

Yerli orqanlar, may-avqust ayları arasında bataqlıqlarda ağcaqanadların çoxalması ilə ortaya çıxan malyariya epidemiyasında 4200 insanın öldüyünü bildiriblər. (10.09.2003, www.ntvmsnbc.com)

**QİÇS-dən ölənlərin sayı 70 milyona çata bilər.**

Tədqiqatçılar, QİÇS xəstəliyindən ölənlərin sayının 2020-ci ildə 70 milyon insana çatacağı xəbərdarlığını verdi. (27.06.2003 www.ntvmsnbc.com)

**SARS-ın xronoloji gedişatı.**

SARS-ın, bəzi ölkələrdə nəzarət altına alına bildiyi, bəzi ölkələrdə isə yavaşladığı xəbərləri gəlməsinə baxmayaraq, SARS hələ də qorxuducu olmağa davam edir. (29.04.2003 www.ntv-msnbc.com)

**İranda epidemik xəstəlik**

İranda ölümcül bir virusun malların 30%-nə yoluxduğu bildirilərək, xalqa, virusun səbəb olduğu "Krım-Konqo qızdırma xəstəliyi" kimi tanınan epidemik xəstəliyə qarşı xəbərdarlıq verildi. İRNA-nın xəbərinə görə, Səhiyyə Nazirliyi Xəstəlik İdarəsi Mərkəzinin rəhbəri Məhəmməd Mehdi Quya (Muhammed Mehdi Guya), virusun ötən ildən indiyədək 140-dan artıq insana yoluxduğunun müəyyənləşdirildiyini, bu insanlardan 20-sinin öldüyünü söylədi. (25.05.2002, www.hürriyetim.com.tr)

## 111) Quş qripi və donuz qripi

Peyğəmbərimiz (s.ə.v) bundan 1400 il əvvəl, Axırzamanda insanlar arasında iki epidemik xəstəliyin yayılacağını bildirmişdir. Həmçinin Peyğəmbərimiz (s.ə.v)-in bu xəstəliklər barəsində verdiyi təfsilatlı məlumatlar, bunları daha asan müəyyənləşdirə bilməyimizi mümkün edir. Bəhs etdiyimiz xəstəliklər, Axırzaman əlamətlərinin sıx şəkildə yaşandığı son illərdə bir-birinin ardınca ortaya çıxan; hər ikisi də ölümcül və epidemik xəstəliklər olan quş və donuz qripləridir (doğrusunu Allah bilər). Bu mövzudakı bəzi hədislər belədir:

*"Altı şey qiyamətdən əvvəl olar: ...Sonra çox ölən olar. Sizin aranızda qoyunların burunlarından axan və qəflətən öldürən xəstəlik kimi, ölümcül iki xəstəlik yayılacaq". (Sahih-i Buhari, cizye (2/278 fethul bari))*

*"İnsanlarda şiddətli qorxmadıqca, Hz. Mehdi (ə.s) zühur etməz. Ondan əvvəl zəlzələlər, fitnələr, insanların başına gələn bəlalar və taun (vəba) xəstəliyi zühur edəcək... Məhz həmin vaxt (hz. Mehdi (ə.s)) zühur edəcək. Ona yetişənə və onun köməkçilərindən olanlara müjdələr olsun. Ona (hz. Mehdi (ə.s)-a) müxalifət edənlərə və əmrinə qarşı çıxanlara ayıb olsun". (Fera idu Fevaidi'l Fikr Fi'l İmam el-Mehdi el-Muhtazar)*

A (H1N1) donuz qripi ilə A (H5N1) quş qripi virusları, bu heyvanların tənəffüs yollarındakı hüceyrələrin reseptorlarına yerləşir. Həm quşlar, həm də donuzların milyonlarla ildir mövcud olan canlılar olmalarına baxmayaraq, Peyğəmbərimiz (s.ə.v)-in bildirdiyi kimi, bu zamanda epidemik xəstəliklərə səbəb olmaları, Axırzamanda yaşadığımıza digər bir dəlilidir. Bəhs edilən vəziyyət, tam da hz. Mehdi (ə.s)-ın zühur dövründə, Allahın əmri ilə insanlar arasında yayılmışdır.

## 112) Ani ölümlərin çoxalması

*Qiyamətdən əvvəl altı (şey) say: Ölümüm, Məscidül-Əqsanın fəthi, sonra qoyunun kuası (sinədə meydana gələn öldürücü sancı) kimi, saysız ölüm hadisələri... (Kıyamet Alametleri, səh. 123)*

*Ani ölümlər də qiyamət əlamətlərindəndir. (Kıyamet Alametleri, səh. 147)*

Hazırda ani ölümlərə səbəb olan xəstəliklərin sayında artım var. Xüsusilə müxtəlif qidalanma və həyat tərzi pozuntularından ötrü, ürək infarktı nisbətlərinin yüksəlməsi bu ani ölüm səbəblərindən biridir.

## 113) Cinayətlərin çoxalması

*"Cinayətlər çoxalmadıqca... qiyamət qopmaz". (Ölüm, Kıyamet ve Diriliş, səh. 468)*

***...Fitnələr, qorxulu hallar və cinayətlərin görünməsi. (Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 39)***

*Rəsulullah: "Hərc çoxalmadıqca qiyamət qopmaz!" deyə buyurmuşdu. (Yanındakılar:) "Hərc nədir ey Allahın Rəsulu?" deyə soruşdular. "Öldürmək! Öldürmək!" deyə buyurdu". (Müslim, Fiten: 18, 157)*

*"...Qan tökülməsi... qiyamət əlamətlərindəndir". (Kıyamet Alametleri, səh. 142)*

*"Qiyamət qopmasından əvvəl mütləq bəzi hərc hadisələri var" deyə buyurdu. Mən də: "Ey Allahın Rəsulu, hərc nədir" deyə soruşdum. Rəsulu-Əkrəm; "öldürməkdir, yəni cinayətlərdir" deyə buyurdu... "Bu öldürməkdəki məqsəd, müşrikləri öldürmək deyil. Lakin bir-birinizi öldürmənizdir. Hətta o dərəcə də ki, insanın qonşusunu, əmisinin oğlunu və yaxın qohumunu öldürməsidir" deyə buyurdu. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 385, no. 711)*

Cinayət hadisələrindəki artım Axırzamanın əlamətlərindəndir. Hazırda bəzi insanların adam öldürtmək üçün qatil tutduqları, bəzi insanların qeyri-qanuni təşkilatlanmalarla cinayət şəbəkələri yaratdıqları nəzərə alınsa, bu hədisin xəbər verdiyi hadisələrin gerçəkləşdiyi də görüləcək.

## 114) İntihar hadisələrinin çoxalması

***İnsanlar öz canlarına qıyarlar və yer üzünü bəlalar bürüyər. (Kitabü'n-Nihaye, İbn-i Kesir, 1/131)***

## 115) Vətəndaş müharibələri-ixtilaflar

***Bu mütləqdir ki, yaxın gələcəkdə fitnə, təfriqə və ixtilaf (lar törədən bəzi insan) lar olacaq. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 376, no. 685)***

***İnsan, qardaşını öldürmədikcə qiyamət qopmaz. (Kıyamet alametleri, səh. 141)***

***Qəlblər bir-birindən nifrət etmədikcə, fikirlər ayrılmadıqca, doğma qardaşlar dində ixtilafa düşmədikcə qiyamət qopmaz. (Kıyamet alametleri, səh. 142-143)***

Zairdə Hutu və Tutsi qəbilələri arasında baş verən vətəndaş müharibəsi, 20-ci əsrdə baş verən vətəndaş müharibələrinə çox mühüm nümunədir. 1964-cü ildə hakimiyyətə gələn polkovnik Cozef Mobutu (Joseph Mobutu) ölkəsinin əlindəki bütün mineral resursları qərbli ölkələrə açdı. Ölkənin ictimai nizamı üçün heç nə etməyən

Mobutu illərlə öz sərvətini artırdı. Bununla da başlayan qəbilə vuruşmaları çox böyük soyqırıma da səhnə oldu. Yarım milyona yaxın insan öldü.

Etnik irqlər arasında yaşanan müharibələr, yəni "soy qoruyuculuğu", təkcə Zairdə deyil, bir çox ölkədə vəhşi səhnələrin yaşanması ilə nəticələndi. Allah Quranda din əxlaqından uzaq cahil insanların bu nifrət dolu soy qoruyuculuqlarına belə diqqət çəkmişdir:

**Bir zaman o inkar edənlər, öz qəlblərində, "qəzəbli soy qoruyuculuğu"nu (təəssübünü), cahillərin "qəzəbli soy qoruyuculuğunu" qızışdırdıqları zaman, dərhal Allah; elçisinin və möminlərin üzərinə "(qəlbi təskin edən) güvən və sakitləşmə duyğusunu" endirdi və onları "təqva sözü" üzərində "qətiyyətlə ayaqda tutdu". Onsuz da onlar da buna layiq və əhl idilər. Allah hər şeyi layiqincə biləndir. (Fəth surəsi, 26)**

Allahın qadağan etdiyi bu düşmənçilik və kin, Axırzamanın ilk dövründə də görüləcək. Hz. İsa (ə.s)-ın təkrar yer üzünə qayıtması isə, bütün bu düşmənçiliyin, müharibələrin, qarşıdurmaların bitdiyi, dünyaya sülh və əmin-amanlığın hakim olduğu mübarək bir dövr olacaq.

## 116) Savadlıların çoxalması

*Qiyamətin yaxınlaşmasına doğru... savadlılar çoxalar. (Müslim, Ahmed bin Hanbel; Son Zamanlarla İlgili Hadisler, səh. 98; Ramuz-El Ehadis, 1/121)*

20-ci və 21-ci əsri ötən əsrlərdən fərqləndirən mühüm bir xüsusiyyət də savadlıların nisbətində baş verən artımdır. Keçmiş dövrlərdə təhsil, cəmiyyətin müəyyən seqmentinin sahib olduğu imtiyaz statusunda qalmışdır. 20-ci əsrin sonlarına doğru isə başda YUNESKO olmaqla, hökumətlər və qeyri-hökumət təşkilatları dünya səviyyəsində kampaniyalar təşkil ediblər. Bu təhsil səfərbərliyi, texnoloji yeniliklərin də insanların xidməti üçün istifadə edilməsi ilə birlikdə dövrümüzdə bəhrəsini verir. YUNESKO-nun 2003-cü ildə dərc olunan hesabatına görə, dünya əhalisinin 84%-i savadlıdır.[(54)]

Şübhəsiz ki, bu göstərici ötən on dörd əsr ərzindəki ən yüksək göstəricidir.

## 117) Zamanın qısalması

*Bu hadisələr baş vermədikcə qiyamət qopmayacaq... Zaman qısalacaq və vasitələrlə gedilən məsafələr qısalacaq. (Buhari, Fiten: 25; Ahmed bin Hanbel, Müsned, 2/313)*

*Minik vasitəsinə minmiş kimsə, İraqla Məkkə arasında yolu azma narahatlığından başqa heç bir qorxu yaşamadan səyahət etmədikcə qiyamət qopmaz. (Müntehab-ı Kenzu'l-Ummal, 2/370-371)*

*Onun dövründə dəvələrə ehtiyac qalmaz. (Geleceğin Tarihi 3, səh. 183)*

Yaşadığımız əsrin səsdən sürətli təyyarələri, qatarları və digər təkmilləşmiş nəqliyyat vasitələriylə, keçmiş dövrlərdə aylarla davam edən səfərlər indi bir neçə saat ərzində, üstəlik, olduqca etibarlı, rahat və komfortlu şəkildə edilir. Hədisin işarəsi də bu yolla gerçəkləşir.

Dövrümüzün qabaqcıl texnologiya məhsulu olan nəqliyyat vasitələrinə Allah Quranda belə işarə etmişdir:

**Onlara minməyiniz və bəzək üçün atları, qatırları və eşşəkləri (yaratdı). Eləcə də, hələ sizin bilmədiyiniz nələri yaratmaqdadır. (Nəhl surəsi, 8)**

Peyğəmbərimiz (s.ə.v) başqa hədislərində isə zamanın qısalması barəsində bu məlumatları verib:

*Zaman təqarub edərək (yaxınlaşaraq) gecə ilə gündüz bir-birinə yaxınlaşar... (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 374, no. 681)*

*Zaman qısalıb il ay, ay həftə, həftə gün, gün saat, saat da od yandıracaq qədər az zaman olmadıqca qiyamət qopmaz. (Tirmizi, İbn-i Mace, Ahmed bin Hanbel; Son Zamanlarla İlgili Hadisler, səh. 109)*

*Hz. Ənəs (r.ə) deyir: "Rəsulullah əleyhissalatu vəssalam buyurdular ki; zaman yaxınlaşmadıqca qiyamət qopmaz. Bu yaxınlaşma elə olar ki, bir il bir ay kimi, ay bir həftə kimi, həftə də bir gün kimi, gün saat kimi, saat da bir çırağın yanması kimi (qısa) olar. (Tirmizi, Zühd: 24, 2333)*

Bu hədislərdə də göründüyü kimi, Axırzamanda keçmişə görə böyük zaman qazancı olacaq. Necə ki, əsrlər əvvəl qitələr arasında həftələrlə zaman tələb edən xəbərləşmə dövrümüzdə internet və rabitə texnologiyaları sayəsində saniyələr ərzində tamamlanır. Keçmişdəki karvanlarla aylarla davam edən səyahətlər nəticəsində əldə edilən əşyaları, zəmanəmizdə qısa müddətdə təmin etmək mümkündür. Çox deyil, hələ bir neçə əsr əvvəl tək bir kitabın yazılması üçün keçən müddətdə, bu gün milyonlarla kitab nəşr oluna bilir. Bütün bunlarla yanaşı, təmizlik, yemək bişirmə, uşaq baxımı kimi gündəlik işlər, təkmilləşmiş texnologiya məhsullarının köməyi ilə vaxt almaqdan kənara çıxmışdır.

Bu nümunələr asanlıqla çoxaldıla bilər. Əlbəttə, burada üzərində dayanılması lazım olan Peyğəmbərimiz (s.ə.v)-in 7-ci əsrdə xəbər verdiyi qiyamət əlamətlərinin dövrümüzdə eynilə gerçəkləşməsidir.

## 118) Şəhərləşmənin sürətlənməsi

*"Ey Ənəs! İnsanlar şəhərləşəcəklər, o şəhərlərdən bəzilərinə: "Bəsrə və Qüseyr" deyiləcək". (Ölüm, Kıyamet ve Diriliş, İmam Şarani, səh. 490)*

Xüsusilə 19-cu əsrin ikinci yarısından etibarən təsirini göstərən sənaye inqilabı ilə birlikdə, insanlar çöllük əraziləri tərk edib şəhərlərə yerləşməyə başlayıblar. O dövrdən bəri də şəhərlərdəki əhali hər ötən il getdikcə artır. Aparılan araşdırmalar təkcə ölkəmizdə (Türkiyə) 2020-ci ildə şəhərlərdə yaşayacaq əhalinin, ölkə əhalisinin 80%-ni təşkil edəcəyini göstərir.(55) Əvvəlki əsrlərdə görülməyən bu vəziyyətin, hədisdə bəhs olunan Axırzaman əlaməti olduğu olduqca dəqiqdir.

## 119) Hündür binaların inşa edilməsi

*Hündür-hündür binalar inşa edilmədikcə... qiyamət qopmaz. (Ölüm, Kıyamet ve Diriliş, səh. 468)*

***Bu hadisələr baş vermədikcə qiyamət qopmayacaq... Hündür binalar inşa etməkdə insanlar bir-birləriylə yarışacaq. (Buhari, Fiten: 25; Ahmed bin Hanbel, Müsned, 2/313)***

***Binaların göydələnlər halına gəlməsi... (Kıyamet Alametleri, səh. 146)***

Hündür mərtəbəli binalar 19-cu əsrin sonlarında inşa edilməyə başlanmışdır. Texnologiyanın inkişafı, poladdan istifadənin genişlənməsi və elektrik liftlərin istifadə edilməsi göydələnlərin inşasını sürətləndirmişdir. Göydələnlər 20-ci və 21-ci əsr memarlığının mühüm parçası olmuş, hazırda da bəziləri üçün sanki etibar simvoluna çevrilmişdir. Bu gün dünyanın ən hündür tikililərindən bəziləri və hündürlükləri müvafiq olaraq belədir(56):

CNN Tower (Kanada) - 555 m.

Oriental Pearl TV Tower (Çin) - 467 m.

Petronas Tower 1 və 2 (Malayziya) - 449 m.

Sears Tower (Çikaqo) - 443 m.

Hədisdə bildirilən, insanların hündür binalar inşa etmə yarışı da, ölkələrin daha hündür göydələnlər inşa edə bilmək üçün böyük rəqabət və yarış içərisinə girmələri ilə tam gerçəkləşmişdir. Bundan 1400 il əvvəl belə bir hadisənin xəbər verilmiş olması, əlbəttə, möcüzədir. Eyni zamanda da Peyğəmbərimiz (s.ə.v)-in xəbər verdiyi qiyamətdən əvvəlki Axırzaman dövrünün hazırda yaşandığının da mühüm əlamətlərindən biridir.

## 120) Bazarların yaxınlaşması

*...Bazarlar yaxınlaşmadıqça qiyamət qopmaz. (Mecmeu'z-Zevaid, 7/327)*

Dövrümüzdəki alış-veriş imkanları keçmişdəkiylə müqayisə olunmayacaq qədər inkişaf etmişdir. Həm kənd və qəsəbələrə qədər hər yerdə insanların istədikləri kimi, alış-veriş edə biləcəkləri marketlər, alış-veriş mərkəzləri var, həm də nəqliyyatdakı sürət sayəsində insanlar keçmişdə çatma imkanı əldə edə bilmədikləri yerlərə çatıb alış-veriş etmə imkanına malikdir.

Həmçinin dövrümüzdə internet vasitəsilə alış-veriş imkanları da çox inkişaf etmişdir. Bir insan evində oturarkən alış-veriş edə bilir və dünyanın istədiyi bölgəsindəki istədiyi hər məhsulu satın ala bilir. Bu istiqamətiylə düşünüldüyü zaman, bazarlar insanların evlərinin içində kimidir.

## 121) İnsanın qamçısının ucuyla danışması

*İnsana qamçısının ucu danışmadıqca... qiyamət qopmaz. (Ölüm, Kıyamet ve Diriliş, səh. 471)*

Qamçı məlum olduğu kimi, keçmiş dövrlərdə xüsusilə at, dəvə kimi minik heyvanlarını sürərkən geniş istifadə olunmuş vasitədir. Yuxarıdakı hədis araşdırıldığı zaman Peyğəmbərimiz (s.ə.v)-in bu sözləriylə bənzətmə etdiyi aydın olur. Dövrümüzdə "qamçının formasına bənzədə biləcəyimiz və danışan cisim nədir?" deyə sual versək, bu sualın ən məntiqli cavabı, antenaları ilə diqqət çəkən radioqəbuledici, mobil telefon və ya bənzəri rabitə vasitələri olacaq. Təkmilləşmiş texnologiyanın məhsulu olan bu cihazlar sahib olduqları qamçıya bənzər antenalarla diqqət çəkirlər. Mobil telefon və ya peyk telefonu kimi kabelsiz rabitə vasitələrinin çox qısa keçmişi olduğunu nəzərə alsaq, Peyğəmbərimiz (s.ə.v)-in 1400 il əvvəl etdiyi təsvirin də nə qədər hikmətli olduğu anlaşılacaq. Qiyamətdən əvvəlki zaman kəsiyində olduğumuza dair bir xəbər daha, beləliklə təcəlli etmişdir.

## 122) İnsana öz səsinin danışması

*İnsana (öz) səsi danışmadıqca... qiyamət qopmaz. (Ölüm, Kıyamet ve Diriliş, səh. 471)*

Hədisdəki mesaj olduqca aydındır: İnsanın öz səsini eşitməsinin Axırzamanın bir xüsusiyyəti olduğu bildirilir. Şübhəsiz ki, insanın öz səsini eşidə bilməsi üçün əvvəlcə səsini qeydə almalı və sonra da dinləməlidir. Səs qeydəalma və köçürmə texnologiyası da 20-ci əsrin bir məhsuludur; bu inkişaf elmi dönüş nöqtəsi olmuş, rabitə və media sektorlarının yaranmasına gətirib çıxartmışdır. Səs qeydəalma prosesi xüsusilə kompüter və lazer texnologiyalarındakı son inkişaflarla mükəmməl səviyyəyə çatmışdır.

Bir sözlə, dövrümüzün elektron alətləri, mikrofonları və dinamikləri səsin qeydə alınması və dinlənilməsinə imkan verir və bizə yuxarıdakı hədisin verdiyi xəbərin təcəlli etdiyini göstərir.

## 123) Məhsul artımı

***İnsanlar bir qab buğda əkdikləri vaxt, qarşılığında yeddi yüz qab götürəcəklər... İnsan bir neçə ovuc toxum atacaq, 700 ovuc toplayacaq... Çox yağış yağmasına baxmayaraq, bir damlası belə hədər getməyəcək. (El Kavlul Muhtasar Fi Alamatil Mehdiyyil Muntazar, səh. 43)***

Peyğəmbərimiz (s.ə.v) Axırzamanda yaşanacaq texnoloji inkişaflarla əlaqədar, daha bir çox məlumat vermişdir. Hədislərdə müasir əkinçiliyə keçilməsi, yeni istehsal texnikalarının yaradılması, toxum yetişdirilməsi işləri və yağış sularının yeni anbarlar, gölməçələr yaradılaraq dəyərləndirilməsi nəticəsində yaranacaq istehsal artımına işarə edilir.

Hal-hazırda texnologiya çox böyük sürətlə inkişaf edir, məhsulların həm keyfiyyətində, həm də istehsal miqdarında artım əldə edilə bilir. Xüsusilə də genetika elmində yaşanan sürətli inkişaf, texnologiyanın bəzi növlərində olduğu kimi, kənd təsərrüfatı texnologiyasında da böyük inqilab yaşadır.

## 124) Səhraların yaşıllaşdırılması

***Ərəbistanda da çaylar və bağçalar meydana gəlmədikcə qiyamət qopmaz. (Ahmed b. Hanbel, Müsned, 17/22, hadis no: 8819)***

***Ərəb torpaqlarından çaylar və dərələr axmadıqca qiyamət qopmaz. (Ölüm, Kıyamet ve Diriliş, İmam Şarani, səh. 471)***

Axırzamanda məhsullarda yaşanacaq bolluğa işarə edən başqa bir texnoloji inkişaf da səhraların yaşıllaşdırılmasıdır. Dünyada quraq sahələrin 43%-ni səhraların təşkil etdiyi düşünülsə, bu mövzunun kənd təsərrüfatı texnologiyası üçün nə qədər böyük əhəmiyyət daşıdığı daha asan aydın olar. Dövrümüzdə suyun səmərəsiz səhra torpaqlarına qədər çatdırılmasıyla, ən quraq torpaqlarda belə istehsal prosesi həyata keçirilə bilir. Əgər bu yüksək texnologiya bütün səhralarda tətbiq olunsa, qıtlığın astanasında olan bir çox ölkə çox məhsuldar əkin sahələrinə qovuşacaq. Əlbəttə ki, bunun üçün çox böyük texnologiya lazımdır.

Səhra bölgələrində əkinçiliyin həyata keçirilə bilməsi üçün, suvarma məsələsi həll edilməli və əkinəyararlı torpaqlar təmin edilməlidir. Bunun üçün üzərində çalışılan texnologiyalardan biri kompüterin nəzarəti altında aparılan suvarmadır. Bu texnologiya ilə su axını bilavasitə bitkilərin kök nahiyələrinə istiqamətləndirilir və tək bir damla suyun belə israf edilməsinin qarşısı alınır. Hər cür suyun təmizlənərək istifadəyə verilməsi də səhra əkinçiliyində çox mühüm yer tutar. Bunun üçün sel və dəniz sularının çox sürətli şəkildə istifadəyə verilməsi də, kənd təsərrüfatı texnologiyasının əsasını təşkil edir. Bu yolla çox böyük su mənbəyi təmin edilmiş olacaq və ölkə iqtisadiyyatlarına böyük dəstək təmin ediləcək. Peyğəmbərimiz (s.ə.v) hədislərində suyun səmərəli şəkildə istifadə edilməsinə də işarə etmişdir:

*...Ümmətin istər yaxşıları, istərsə də pisləri, misli heç vaxt görünməmiş şəkildə, bir çox nemətlərə sahib olacaq.* ***Çox yağış yağmasına baxmayaraq, bir damlası belə hədər getməyəcək, torpaq tək bir toxum istəmədən məhsuldar və bərəkətli olacaq.*** *(El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)*

## 125) Ömürlərin uzanması

***Onun dövründə... ömürlər uzanacaq. (El Kavlul Muhtasar Fi Alamatil Mehdiyyil Muntazar səh. 43)***

Peyğəmbərimiz (s.ə.v)-in verdiyi bu xəbərin üstündən on dörd əsr keçmişdir. Qeydlər, orta ömür müddətinin, yaşadığımız bu dövrdə digər bütün dövrlərdən daha çox olduğunu açıqca göstərir. Hətta 20-ci əsrin əvvəli ilə sonları arasında belə böyük fərq var. Məsələn, 1995-ci ildə dünyaya gəlmiş bir uşağın 1900-cü ildə dünyaya gəlmiş bir uşağa görə orta hesabla 35 il daha uzun yaşayacağı təxmin edilir.(57) Bu mövzudakı diqqətçəkən digər bir nümunə də, keçmişdə 100 ildən artıq yaşayan insanların olduqca nadir, dövrümüzdə isə çox sayda olmasıdır.

BMT-nin əhali fondunun qaynaqlarına görə, son bir neçə ildə dünya əhalisi yüksək ölüm göstəricisindən aşağı ölüm göstəricisinə doğru diqqətəlayiq keçid mərhələsindədir. Demoqrafik inqilab kimi xarakterizə edilən bu hadisənin mərkəzində də yaşlıların sayı və

nisbət etibarilə artımı yer alır. Bu cür sürətli və irimiqyaslı inkişafın sivilizasiya tarixinin heç bir dövründə görülmədiyi də həmin mənbədə vurğulanır.(58)

Şübhəsiz ki, ömür müddətindəki bu artım səbəbsiz deyil. Tibb texnologiyasının inkişafına bağlı olaraq səhiyyə xidmətlərindəki yüksəlmə insanların belə bir nemətə qovuşmasına imkan yaratmışdır. Bunlarla yanaşı, genetika elmindəki inkişaflar və hələ də böyük sürətlə irəliləməkdə olan İnsan Genomu Layihəsi səhiyyə sahəsində yepyeni bir dövr başlatmaq üzrədir. Bu irəliləyişlər keçmiş dövrlərdə yaşayan insanların xəyal belə edə bilməyəcəyi ölçüdədir. Bütün bu inkişaflara əsaslanaraq, bunu söyləmək mümkündür: Yaşadığımız dövrün insanları yuxarıdakı hədisin xəbər verdiyi uzun və sağlam həyat standartına nail olmuşdur. Həmçinin bu standart, yaxın gələcəkdə daha da yüksələcəkmiş kimi görünür.

## 126) Saxta məsihlərin ortaya çıxması hz. İsa (ə.s)-ın gəlişinin xəbərçisidir

Allahın şərəfli elçisinin gəlişi üçün hazırlıq görmək istəyən iman sahiblərini tənbəlliyə aparmaq istəyənlər ola bilər. Bu insanlar müxtəlif bəhanələrlə hz. İsa (ə.s) üçün hazırlıq görməyi lüzumsuz göstərməyə çalışa bilərlər. Bunun üçün istifadə edəcəkləri bəhanələrdən biri də saxta məsihlərin ortaya çıxması olacaq. Hərdənbir əqli cəhətdən sağlam olmayan və ya müxtəlif mənfəətlər ardınca qaçan bəzi insanlar hz. İsa (ə.s) olduqlarını iddia ediblər. Bəzi ətraflar isə, bu cəhalət içindəki insanların etdiklərini öz mənfəətləri üçün istifadə etməyə çalışmış; "hz. İsa (ə.s) gələcək şəklindəki şərhlər, saxta məsihlərin ortaya çıxmasına səbəb olur" şəklində açıqlamalar veriblər. Bu açıqlamalarla hz. İsa (ə.s)-ın yer üzünə yenidən gəlişi üçün görüləcək hazırlıqları ləngitmək və hətta dayandırmaq istəyiblər. Lakin Allahın vəd etdiyi bu mübarək dövrün gəlişini heç kim gecikdirə bilməyəcək. Çünki bu cür insanlar çox mühüm bir həqiqəti görə bilmirlər: "saxta məsihlərin ortaya çıxması, hz. İsa (ə.s)-ın gəlişinin bir əlamətidir, müjdəsidir". Peyğəmbərimiz (s.ə.v) hədislərində belə bir xəbər vermişdir:

***Hər biri Allahın Rəsulu olduğunu iddia edən otuza yaxın yalançı göndərilmədikcə qiyamət qopmayacaq. (Tirmizi, Fiten: 43; Ebu Davud, Melahim: 16)***

*Hər biri özünün tək məbud olan Allahdan Rəsul olaraq göndərildiyini iddia edən altmış yalançının çıxması. (Kitab-ül Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 36)*

Yuxarıdakı hədislər bizə dövrümüzdəki hadisələri xatırladır. Bəzi saxtakarlar müsəlmanların və xristianların gözləntilərindən sui-istifadə edərək peyğəmbərlik iddiaları ilə ortaya çıxarır və bəzən də böyük fəlakətlərə səbəb olurlar.

Mütəxəssislər saxta məsih axınlarının 1970-ci illərdə ortaya çıxmağa başladığını, o tarixdən indiyə qədər də sürətli artım içində olduqlarını ifadə edir. Mütəxəssislərə görə, bu artıma səbəb olan başlıca iki təməl xüsus var. Bunlardan biri kommunizmin süqut

etməsi, digəri isə internet texnologiyasının təmin etdiyi imkanlardır.(59) Aşağıdakı sitatlar mövzu ilə əlaqədar seçilmiş bir neçə nümunədir:

Federal agentlər və məzhəb üzvləri arasındakı 51 günlük gərginlik faciə ilə nəticələndi. Məzhəbin Uako, Texas yaxınlarındakı tikililəri tamamilə yandı. 33 yaşı olan "Branch Davidians" hərəkatının lideri və məsihi David Koreş (David Koresh) digər 74 insanla birlikdə öldü.(60)

Keçən həftə İsveçrə və Kanadada, saxta Məsih Luk Juret (Luc Jouret)-in tərəfdarlarından və onların uşaqlarından ibarət olan 53 insan öldü. Bu iki ölkənin polisləri ölümlərin səbəbinin kütləvi intihar, kütləvi qətliam və ya ikisinin qarışığı olub olmadığını araşdırır.(61)

Ən pis məzhəb qətliamının qorxunc dəlili... Uqandada yeni məzarlar tapıldıqca, liderləri tərəfindən aldadılan fanatik bir məzhəbin 1000-ə yaxın tərəfdarının öldüyündən narahatlıq duyulur...(62)

Elə bir hadisə idi ki, səbəb olduğu şok dalğaları dünyanın hər yanına yayıldı: Müasir tarixin ən pis kütləvi intiharı. Bir məzhəbin üzvləri olan 900-dən artıq insan Cənubi Amerika meşələrində tapıldı. Ölülər Cim Conun (Jim Jonesin) tərəfdarları idi.(63)

Saxta peyğəmbərlərə Quran ayələrində də diqqət çəkilmişdir. Bu mövzudakı bir ayə belədir:

**Allaha qarşı yalan uydurandan və ya özünə heç nə vəhy olunmadığı halda: "Mənə də vəhy gəldi" deyən və "Allahın nazil etdiyinin bənzərini də mən endirəcəyəm" deyəndən daha zalım kim ola bilər? Sən bu zalımları, ölümün "şiddətli sarsıntısı" zamanında mələklərin əllərini uzadaraq onlara: "Canlarınızı (bu qıs-qıvraq yaxalanışdan) çıxardın, bu gün Allaha qarşı nahaq sözlər söylədiyinizə və Onun ayələrindən təkəbbürlənərək (üz döndərdiyinizdən) ötrü alçaldıcı əzabla qarşılıq görəcəksiniz" (dedikləri vaxt) bir görsən... (Ənam surəsi, 93)**

Ayənin davamında bildirildiyi kimi, bu insanlar ayənin hökmünü girə bilər və uydurduqları yalanın qarşılığını görə bilərlər.

Şübhəsiz ki, saxta məsihlərin yalanlarının tamamilə ortaya çıxacağı günlər yaxındır. Çünki Peyğəmbərimiz (s.ə.v) yalançıların ardından hz. İsa (ə.s)-ın geri dönüşünü də müjdələmişdir.

Həqiqi iman sahibləri, hz. İsa (ə.s)-ı, əlamətlərindən dərhal tanıyacaqlar. Etdiyi hər hərəkət hikmətli və bənzərsiz olacaq, bu əlamətlərlə digər insanlardan seçiləcək və heç bir isbata ehtiyac duymadan dərhal tanına biləcək. Saxta məsihlərin özlərini isbat etməyə çalışmaları isə onların saxta olduqlarının ən bariz dəlilidir.

Hz. İsa (ə.s)-ın dəlilləri, etdikləri olacaq. O, dinsiz cərəyanları, inkarın və əxlaqsızlığın insanlar arasında yayılması üçün səy göstərənlərin sistemlərini çox böyük

təxribata uğradacaq. Allahın vəhyi ilə hərəkət etdiyi üçün inkar edənlərin tələlərini puç etməsi, din əxlaqını insanlar arasında yayması, küfrün səylərini təsirsiz hala gətirməsi onun üçün çox asan olacaq. Möcüzələriylə Allahın dininin haqq olduğunu və iman gətirənlərin mütləq üstün gələcəklərini isbat edəcək. Rəbbimiz iman gətirənləri Quranda belə müjdələyir:

**Onlar, Allahın nurunu ağızları ilə söndürmək istəyirlər. Halbuki Allah Öz nurunu tamamlayandır; kafirlərin xoşuna gəlməsə də. Elçilərini hidayət və haqq din üzrə göndərən Odur. Belə ki, onu (haqq din olan İslamı) bütün dinlərdən üstün edəcək; müşriklərin xoşuna gəlməsə də. (Saff surəsi, 8-9)**

# İncildə Məsihin qayıdış əlamətləri

Həzrəti İsa (ə.s)-ın ikinci dəfə yer üzünə gələcək olması xristianlığın təməl inanc əsaslarındandır. İncilin bir çox yerində hz. İsa (ə.s)-ın ikinci dəfə yer üzünə gələcəyi bildirilmiş və səmimi iman gətirən xristianların bu mübarək gün üçün ən gözəl şəkildə hazırlanmalarının lazım olduğu bildirilmişdir: Bunlardan bəziləri belədir:

İsa bunları söylədikdən sonra, onların gözləri qarşısında yuxarı alındı. Bir bulud Onu alıb gözlərinin qarşısından uzaqlaşdırdı. "Ey Qalileyalılar, niyə göyə baxırsınız?" deyə soruşdular. "Sizdən göyə alınan bu İsa, göyə çıxdığını necə gördünüzsə, eyni şəkildə geri gələcək". (Elçilerin İşleri, 1:9-11)

Həmçinin, mübarək ümidimizin gerçəkləşməsini, İsa Məsihin izzət içində gəlməsini gözləyirik. (Pavlus'un Titus'a Mektubu, 2:13)

Bütün bunlar, İsa göydən gəlib göründüyü zaman olacaq. İsa, Allahı tanımayanları və özüylə əlaqədar müjdəyə uymayanları cəzalandıracaq. (2. Selaniklilere, 1:7-8)

İkinci dəfə, ... qurtuluş gətirmək üçün özünü gözləyənlərə görünəcək. (İbranilere, 9:28)

Budur buludlarla gəlir! Hər göz Onu görəcək... (Esinleme, 1:7)

Həmçinin İncildə hz. İsa (ə.s)-ın gəliş əlamətlərinin nələr olduğu da açıqlanmışdır. İncildə hz. İsa (ə.s)-ın ikinci dəfə gəlişinin əlamətlərini, tələbələrinə belə çatdırdığı bildirilir:

İsa Zeytun dağı üzərində oturarkən, tələbələri həmçinin gəlib ona dedilər; "bizə söylə bu şeylər nə vaxt olacaq? Həmçinin sənin gəlişinə və dünyanın sonuna, əlamət nə olacaq?" İsa cavab verib onlara dedi; "qətiyyən sizi heç kim azdırmasın, çünki bir çoxları, “Məsih mənəm” deyə mənim adımla gəlib bir çoxlarını azdıracaq". (Matta, 24: 3-6)

Sizə indidən, bunlar olmadan əvvəl deyirəm ki, bunlar olunca mənim O olduğuma inanasınız. (Yuhanna, 13:19)

Bu hissədə İncildə qeyd olunan Məsihin gəliş əlamətlərini araşdıracağıq.

## 127) Saxta məsihlərin çıxması

İsa onlara bu cavabı verdi: "<u>Qətiyyən heç kim sizi azdırmasın! Çünki bir çoxları; “Məsih mənəm” deyərək mənim adımla gələcək, bir çox insanı azdıracaq</u>". (Matta, 24: 3-5)

Əgər o zaman biri sizə, “budur Məsih buradadır”, və ya “budur buradadır” desə, inanmayın. Çünki saxta məsihlər, saxta peyğəmbərlər törəyəcək... (Matta, 24: 23-25)

Bir çox saxta peyğəmbər törəyəcək və bunlar bir çox insanı azdıracaq. (Matta, 24: 11)

İsa; "qətiyyən sizi azdırmasınlar" dedi. Bir çoxları; “mən oyam” və “zaman yaxınlaşdı” deyərək mənim adımla gələcəklər. Onların ardınca getməyin. (Luka, 21: 8)

## 128) Bəzi insanların Məsihin gəlişindən ümid kəsməsi

Əvvəla bunu bilirsiniz ki, son günlərdə lağlağaçılar öz istəklərinə görə yeriyərək və "Onun zühurunun vədi haradadır? Çünki ataların yatdıqları gündən bəri hər şey xilqətin başlanğıcından olduğu kimi qalır" deyərək istehza ilə gələcəklər. (Petrus'a II. Mektup, 3: 3-4)

"Bunun üçün siz də hazır olun! Çünki bəşər oğlu, ümid etmədiyiniz bir saatda gələcək". (Matta, 24: 44)

## 129) Zəlzələlərin çoxalması

Sizin gördüyünüz bu şeylərə gəlincə, günlər gələcək ki, o vaxt burada dağılmayan daş üstündə daş qalmayacaq. (Luka, 21: 6)

Qətiyyən qorxmayın! Bunlar olmalıdır, lakin bu daha son demək deyil. Millət millətə, dövlət dövlətə müharibə başladacaq; bir çox yerdə qıtlıqlar, zəlzələlər olacaq. Bütün bunlar, doğum sancılarının başlanğıcıdır. (Matta, 24: 7)

Şiddətli zəlzələlər, bir çox yerdə qıtlıqlar və epidemik xəstəliklər, qorxunc hadisələr və göydə fövqəladə əlamətlər olacaq. (Luka, 21: 11)

## 130) Qıtlığın olması

...Bir çox yerdə qıtlıqlar, zəlzələlər olacaq. Bütün bunlar, doğum sancılarının başlanğıcıdır. (Matta, 24: 7)

...Bir çox yerdə qıtlıqlar və epidemik xəstəliklər, qorxunc hadisələr və göydə fövqəladə əlamətlər olacaq. (Luka, 21: 11)

## 131) Böyük müharibələrin yaşanması

...Müharibə səs-küyləri, müharibə xəbərləri eşidəcəksiniz. Qətiyyən qorxmayın! Bunlar olmalıdır, lakin bu daha son demək deyil. Millət millətə, dövlət dövlətə müharibə başladacaq... (Matta, 24: 6-7)

Müharibə və üsyan xəbərləri eşitdikdə təşvişə qapılmayın. Əvvəla bunlar olmalıdır. Lakin sonu dərhal gəlməz. "Sonra onlara belə dedi: "millət millətə, dövlət dövlətə müharibə başladacaq". (Luka, 21: 9-10)

## 132) Sevginin azalması, kin və qəzəbin artması

O zaman bir çox insan imandan azacaq, bir-birlərini satacaq və bir-birlərindən nifrət edəcəklər... Pisliklərin çoxalmasından ötrü bir çoxlarının sevgisi soyuyacaq. (Matta 24: 10, 12)

...Müqəddəslikdən və sevgidən məhrum, uzlaşmayan, iftiraçı, özünə nəzarət edə bilməyən, azğın və xeyirxahlıq düşməni olacaqlar. Xain, tələskən, özünü bəyənmiş, Allahdan çox əyləncəni sevən, Allah yolundaymış kimi görünüb bu yolun gücünü inkar edənlər olacaqlar. Belələrindən uzaq dur. (Timoteasa II. Mektup, 3: 2-5)

## 133) İnsanların din əxlaqından uzaqlaşması

Çünki elə bir zaman gələcək ki, sağlam təlimə dözə bilməyəcəklər. Qulaqlarını oxşayan sözlər dinləyə bilmək üçün, ətraflarına, öz arzularına uyğun müəllimlər toplayacaqlar. Qulaqlarını həqiqətin səsi qarşsında tıxayacaq, dönüb əfsanələrə dalacaqlar. (Timoteasa II. Mektup, 4: 3-4)

...Sonrakı zamanlarda bəziləri imandan dönəcək. (Timoteosa I. Mektup, 4: 1)

Allahdan çox əyləncəni sevən, Allah yolundaymış kimi görünüb bu yolun gücünü inkar edənlər olacaqlar. Belələrindən uzaq dur.

## 134) İnsanlara dəhşət verən fəlakətlərin yaşanması

Dünyanın üzərinə gələcək fəlakətləri gözləyən insanlar qorxudan bayılacaq... (Luka, 21: 26)

...Yer üzündəki bütün xalqlar ağlayıb fəryad qoparacaq, bəşər oğlunun göydəki buludlar üzərində böyük güc və izzətlə gəldiyini görəcək. (Matta, 24: 30)

## 135) Epidemik xəstəliklərin yayılması

Şiddətli zəlzələlər, bir çox yerdə qıtlıqlar və epidemik xəstəliklər, qorxunc hadisələr və göydə fövqəladə əlamətlər olacaq. (Luka 21: 11)

## 136) Dini mənfəətlərinə alət edən insanların ortaya çıxması

Çünki elə bir zaman gələcək ki, sağlam təlimə dözə bilməyəcəklər. Qulaqlarını oxşayan sözlər dinləyə bilmək üçün, ətraflarına, öz arzularına uyğun müəllimlər toplayacaqlar. Qulaqlarını həqiqətin səsi qarşsında tıxayacaq, dönüb əfsanələrə dalacaqlar. (Timoteasa II. Mektup, 4: 3-4)

Allah yolundaymış kimi görünüb bu yolun gücünü inkar edənlər olacaqlar. Belələrindən uzaq dur. (II. Timoteas 3: 5)

## 137) Göy üzündə fövqəladə hadisələrin yaşanması

Şiddətli zəlzələlər, bir çox yerdə qıtlıqlar və epidemik xəstəliklər, qorxunc hadisələr və göydə fövqəladə əlamətlər olacaq. (Luka, 21: 11)

O zaman bəşər oğlunun əlaməti göydə görünəcək. Yer üzündəki bütün xalqlar ağlayıb fəryad qoparacaq, bəşər oğlunun göydəki buludlar üzərində böyük güc və görkəmlə gəldiyini görəcəklər. (Matta, 24: 30)

## 138) Əxlaqi pozulma

İnsanlar, özlərini sevən, pul düşkünü, özündənrazı, kibrli, söyüşkən, ana-ata sözü dinləməyən, nankor, müqəddəslikdən və sevgidən məhrum, uzlaşmayan, iftiraçı, özünə nəzarət edə bilməyən, azğın və xeyirxahlıq düşməni olacaqlar. Xain, tələskən, özünü bəyənmiş, Allahdan çox əyləncəni sevən, Allah yolundaymış kimi görünüb bu yolun gücünü inkar edənlər olacaqlar. Belələrindən uzaq dur. (Timoteasa II. Mektup, 3: 1-5)

Sonrakı dövrlərdə bəziləri imandan irtidad edib (uzaqlaşıb, çıxıb), aldatıcı ruhları və cinlərin təlimini dinləyəcəklər. Yalan danışanların ikiüzlülüyü ilə vicdanları dağlanacaq. (Timoteosa I. Mektup, 4: 1-2)

## 139) Səmimi iman gətirənlərin təzyiqə məruz qalması

Mənim adımdan ötrü kralların və valilərin qarşısına çıxarılacaqsınız... Ana-atalarınız, qardaşlarınız, qohum və dostlarınız belə sizi satacaq və bəzilərinizi öldürəcəklər... dayanmaqla canlarınızı qazanacaqsınız. (Luka 21: 12, 16, 19)

## 140) İman gətirənlərin çəkinməli olduqları fitnələrin ortaya çıxması

Daniel peyğəmbərin bəhs etdiyi dağıdıcı iyrənc şeyin müqəddəs yerdə tikildiyini gördüyünüz zaman, Yəhudeyada olanlar dağlara qaçsın. Çünki o günlərdə elə qorxunc bir sıxıntı olacaq ki, dünyanın başlanğıcından indiyədək beləsi olmamış, ondan sonra da olmayacaq. (Matta, 24:15, 21)

O vaxt, Yəhudeyada olanlar dağlara qaçsınlar və onun içində olanlar çıxsınlar, çöldə olanlar oraya girməsinlər. (Luka, 21: 20-21)

O gündə özü damın üstündə və əşyası evin içində olan insan, onları götürmək üçün aşağı enməsin, beləcə tarlada olan da geri qayıtmasın. (Luka, 17: 31)

## 141) İnsanlara əzab və sıxıntı verən hadisələrin yaşanması

O zaman bəşər oğlunun əlaməti göydə görünəcək. <u>Yer üzündəki bütün xalqlar ağlayıb fəryad qoparacaq</u>, bəşər oğlunun göydəki buludlar üzərində böyük güc və görkəmlə gəldiyini görəcəklər. (Matta, 24: 30)

<u>Çünki o günlərdə elə qorxunc bir sıxıntı olacaq ki</u>, dünyanın başlanğıcından indiyədək beləsi olmamış, ondan sonra da olmayacaq. O günlər qısaldılmamış olsaydı, heç kim xilas ola bilməzdi. Lakin seçilmişlər üçün o günlər qısaldılacaq. (Matta, 24: 6, 21-22)

O günlərdə hamilə və əmzikli olanların vay başına! Çünki <u>məmləkət üzərinə böyük sıxıntı</u> və bu qövmə əzab gələcək. (Luka, 21: 23)

O günlərdə <u>elə sıxıntı olacaq ki</u>, onun kimisi Allahın xəlq etdiyi xilqətin (yaradılışın) başlanğıcından <u>indiyə qədər nə olmuşdur, nə də olacaq</u>. (Markos, 13: 19)

## 142) Dəccalın çıxması

<u>Qətiyyən heç kim sizi aldatmasın. Çünki əvvəlcə irtidad (dindən dönmə) gəlmədikcə və İlah deyilən, yaxud ibadət edilən hər şeyə qarşı duran və Allahın məbədində oturub</u>

özünün Allah olduğunu göstərmək surətiylə özünü yüksəldən, fəsad adamı, həlak oğlu, izhar olmadıqca (meydana çıxarılmadıqca) o gün gəlməz. (Selaniklilere II. Mektup, 2: 3-4)

# Hz. İsa (ə.s) bu əsrdə gələcək

Kitabın buraya qədər olan hissələrində hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gəlişinin əlamətlərini gördük. Bütün bu əlamətlərin bir-birinin ardınca gerçəkləşdiyinə, hər birinin hədislərdə və Bibliya açıqlamalarında bildirildiyi şəkildə baş verdiyinə şahid olduq. Bu əlamətlərin ardıcıl və tam gerçəkləşmiş olmasının, yaşadığımız dövrün Allahın böyük müjdəsinin gerçəkləşəcəyi dövr olduğunu göstərir. Lakin bütün bu əlamətlərdən başqa Peyğəmbərimiz (s.ə.v)-in və böyük İslam alimlərinin Axırzaman ilə əlaqədar qəti tarixlər verdikləri açıqlamalar da mövcuddur.

İrəliləyən səhifələrdə görəcəyimiz kimi, hicri 1400-cü illər, Allahın icazəsi ilə hz. İsa (ə.s)-ın təkrar yer üzünə qayıdışı, hz. Mehdi (ə.s)-ın zühuru, Dəccalın zühuru və hz. İsa (ə.s)-a məğlub olması, bütün dünyada insanların dəstə-dəstə İslama yönəlməsi kimi, böyük hadisələrin gerçəkləşəcəyi fövqəladə bir dövrdür.

Xüsusilə də hz. Mehdi (ə.s)-ın gəlişi ilə əlaqədar hədislərdə və alimlərin açıqlamalarında bildirilən müxtəlif tarix və dövrlər var.

Hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) eyni dövrdə birlikdə olacaqlarına görə bu tarixlər əslində hz. İsa (ə.s)-ın da yer üzünə ikinci dəfə gəlişinin zamanını bizə bildirir. Bu mövzuyla əlaqədar məlumatları irəliləyən səhifələrdə maddələr halında açıqlayacağıq.

## 1) Hər əsrdə bir mücəddid göndərilər

Mücəddid sözünün lüğəvi mənası; "dini canlandıran, yeniləyən" deməkdir. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hər əsrin əvvəlində dini həqiqətləri dövrün ehtiyaclarına görə açıqlamaq üçün göndərilən bir şəxsdən bəhs edilmişdir. Bu şəxs eyni zamanda Peyğəmbərimiz (s.ə.v)-in varisidir:

*Əbu Hüreyrənin rəvayətinə görə; Rəsulullah (s.ə.v) belə buyurub: Həqiqətən Əziz və Cəlil olan* ***Allah hər əsrin əvvəlində bu ümmətin dinini bidətdən ayıracaq, yeniləyəcək (elm sahibi) bir şəxsi göndərər. (Sünen-i Ebu Davud, 5/100)***

Böyük İslam alimi İmam Rəbbaninin bu mövzudakı açıqlaması belədir:

*Hər əsrin əvvəlində bu ümmətin üləması arasından bir mücəddid gələcək və şəriəti əhya edəcək. (Mektubat-ı Rabbani, 1/520)*

Bədiüzzaman Səid Nursi də bu mövzu barəsində bunları söyləyir:

Əshabi Kutubu Sittədəki İmam Hakimin "Müstədrək"-də və Əbu Davudun "Kitabi Sünən"-də, Beyhaki "Şuabı İman"-da təxric edərək buyurdular (meydana qoydular): **"Hər əsrdən bir, Allah bir mücəddidi-din (dini yeniləyən) göndərir... "** (Barla Lahikası, səh. 119)

Bədiüzzaman hicri 12-ci əsrin "mücəddidi"nin həzrəti Mövlana Xalid olduğunu söyləyir. (Barla Lahikası, səh. 120) Risale-i Nurların da hicri 13-cü əsr üçün bir "mücəddid" hökmündə olduğunu belə ifadə edir:

"Madam ki, tam yüz il sonra, eynilə dörd cəhətdə təvafüq edərək (uyğun gələrək) Risale-i Nur əczaları (cüzləri) eyni vəzifəni yerinə yetirib... Qənaət verir ki, (nassı-hədis ilə - hədisin açıq ifadəsi ilə -) Risale-i Nur təcdidi-din (dini yeniləmə, canlandırma) barəsində bir mücəddid hökmündədir". (Barla Lahikası, səh. 121)

Bədiüzzaman Səid Nursi isə hicri 13-cü əsrin mücəddidir. Bədiüzzaman hicri 14-cü əsrin "mücəddidi"nin də hz. Mehdi (ə.s) olacağını müjdələmişdir:

"İndi İslamlar arasında Nuru-Qurana müxalif halətlərin (halların) əksəriyyəti o sui-qəsdlərin və Sevr müahədəsi (müqaviləsi) kimi qəddaranə müahədələrin (müqavilələrin) dəhşətli nəticələridir. Əgər şəddəli (mim) də şəddəli "ləmlər" kimi bir sayılsa, o zaman min iki yüz səksən dörd edər. Bu tarixdə Avropa kafirləri dövləti-İslamiyənin (İslam dövlətinin) nurunu söndürməyə niyyət edərək on il sonra rusları təhrik edib rusun "doxsan üç" müharibəi-məşuməsiylə (pis müharibəsiylə) aləmi-İslamın (İslam aləminin) parlaq nuruna müvəqqət (müvəqqəti) pərdə çəkdilər. Lakin bunda Rəsailin-Nur (Risale-i Nur) şagirdləri (tələbələri) yerinə Mövlana Xalidin (r.h) şagirdləri (tələbələri) bu bulud zulümatını dağıtdıqlarından bu ayə bu cəhətdə onların başlarına rəmzən (işarə ilə) barmaq basır.

"İndi xatirə gəldi ki, əgər şəddəli "ləmlər" və (mim) iki-iki sayılsa, **bundan bir əsr sonra** zulümatı (zülm dövrünü, qaranlığı) aradan qaldıracaq zatlar (şəxslər) isə, həzrəti Mehdinin şagirdləri (tələbələri) ola bilər". *(Şualar, birinci şua, səh. 85)*

Yuxarıdakı açıqlamada göründüyü kimi Bədiüzzaman, İslam aləminin üzərindəki zülm mühitinin özündən "bir əsr sonra" təkcə hz. Mehdi (ə.s) vəsiləsi ilə dağıdılacağını söyləmişdir. Özündən sonrakı əsrdə, yəni hicri 1400-cü illərdə hz. Mehdi (ə.s)-ın görəcəyi işlər sayəsində, müsəlmanların böyük çətinliklərdən xilas olub rahatlığa qovuşacaqlarını açıqlamışdır.

## 2) Hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) ikinci minillikdə gələcək

İmam Rəbbani hz. Mehdi (ə.s)-ın Peyğəmbərimiz (s.ə.v)-in vəfatından 1000 (min) il keçdikdən sonra ikinci minillikdə gələcəyini bildirir:

*"Lakin gözlənilən budur ki; **aradan min il keçdikdən sonra** bu gizli dövlət təcid edilə (yenilənə). Ona bir üstünlük verilib suyu tapması, artırıla... Beləcə kəmalatın (fəzilətin, yaxşılığın) əsli zühur edib onun zillətini örtə... Həmçinin nisbəti-aliyyənin mürəvvici (böyük insanlar arasında etibarlı olan) **hz. Mehdi (ə.s) gəlsin**. Allah ondan razı olsun". (Mektubat-ı Rabbani, 1/569)*

*Şəriətin təyid haslətləri (təsdiq xüsusiyyətləri), milləti təcdidi bu **ikinci minillikdədir.** Bu iddianın doğruluğuna ədalətli şahid: **Hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın bu minillikdə mövcud olmalarıdır.** (Mektubat-ı Rabbani, 1/611)*

*Rəsulullah (s.ə.v)-in ümməti arasından çıxanlar çox kamildirlər. Yəni Rəsulullah (s.ə.v)-ın **irtihali (vəfatı) üstündən min il keçdikdən sonra** istəsə az olsunlar. Onların çox kamallı olmaları bunun üçündür ki; şəriətin möhkəmlətməsi, tamam təkliyə hasil ola.*

***Aradan min il keçdikdən sonra, hz. Mehdi (ə.s)-ın gəlişi də bunun üçündür.** Onun mübarək qudümünü (gəlişini), Hatem'ür-rüsül Rəsulullah (s.ə.v) müjdələyib. Hz. İsa (ə.s) belə aradan min il keçdikdən sonra nüzul edəcək. (Mektubat-ı Rabbani, 1/440)*

*Rəsulullah (s.ə.v)-in bu aləmdən köçməsindən **min neçə il keçdikdən sonra** bir zaman gələr ki; ondakı həqiqəti-Məhəmmədiyə (hz. Məhəmməd (s.ə.v)-in mənəvi şəxsiyyəti) öz mövqeyindən yüksələr, Kəbənin həqiqəti ilə müttəhid olar (birləşər). Məhz o zaman həqiqəti-Məhəmmədiyə (hz. Məhəmməd (s.ə.v)-in həqiqəti, mənəvi şəxsiyyəti) adına Hakikatı Əhmədiyə adı hasil olar, uca Sultan Əhad zatın belə məzhəri (çıxış yeri) olar. Hər iki addan, bir müsəmma (ad verilən) gerçəkləşər ki, əvvəlcə mövqe, həqiqəti-Məhəmmədiyədən (hz. Məhəmməd (s.ə.v)-in mənəvi şəxsiyyətindən) ötrü boş qalar; ta hz. İsa (ə.s)-ın nüzuluna qədər belə gedər. Nəhayət **hz. İsa (ə.s) gələr;** şəriəti-Məhəmmədiyə (Peyğəmbərimiz (s.ə.v)-in şəriəti) ilə əməl edər. O zaman belə həqiqəti-İsəviyə öz mövqeyindən yüksələr, boş qalan həqiqəti-Məhəmmədiyədə (hz. Məhəmməd (s.ə.v)-in mənəvi şəxsiyyətində) hökm edər. (Mektubat-ı Rabbani, 1-ci cild, səh. 470)*

Peyğəmbərimiz (s.ə.v)-in vəfatından min il keçdikdən sonra ikinci minilliyə daxil olunur. İmam Rəbbaninin yuxarıdakı izahlarına görə ikinci minillikdə hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) gələcək.

Cəlaləddin Süyutinin bu mövzudakı açıqlaması isə belədir:

*Bu ümmətin ömrü min (1000) ili keçəcək, lakin min beş yüz (1500) ili aşmayacaq. (Kıyamet Alametleri, səh. 299; Cəlaləddin Süyutinin "El-Keşfu Fi Mücazeveti Hazin el-Ümmeti El Elfe Ellezi Dellet Aleyh el-Asar" adlı kitabından nəql)*

Bu açıqlamada da göründüyü kimi, Süyuti, hicri 1000-1500 illərinə diqqət çəkmişdir. O zaman bu illər hz. İsa (ə.s)-ın yer üzünə təkrar qayıdışı, hz. Mehdi (ə.s)-ın zühur etməsi, İslam əxlaqının hakimiyyəti kimi müjdələrin gerçəkləşəcəyi dövrdür.

Bədiüzaman Səid Nursi də, bu müjdəni təsdiqləyir və hicri 1506-cı ilə qədər yaşanacaq hadisələrə diqqət çəkir:

"...Birinci cümlə, min beş yüz (1500) məqamıyla Axırzamanda bir taifəyi-mücahidinin (din üçün çalışanların, mübarizə aparanların) son zamanlarına və ikinci cümlə, min beş yüz altı (1506) mövqe ilə qalibanə mübarizənin tarixinə işarə edər.

(...) Bu tarixə qədər (1506) zahir və aşkaranə, bəlkə qalibanə davam edəcəyinə rəmzə (işarəyə) yaxın işarə edər. *(Sikke-i Tasdik-i Gaybi, səh. 46)*

### 3) Peyğəmbərimiz (s.ə.v) hz. Mehdi (ə.s)-ın, hicri 1400-cü illərdə gələcəyini açıqca xəbər vermişdir

Peyğəmbərimiz (s.ə.v) bir hədisində hər əsrin əvvəllinin əhəmiyyətinə belə diqqət çəkmişdir:

*Dünya yaradılandan bəri **hər əsrin əvvəlində mühüm bir hadisə olmuşdur.** Bir əsrin əvvəlində də **Dəccal çıxar və İsa ibn Məryəm (ə.s) enərək onu yox edər.** (İbn-i Ebi Hatem; Geleceğin Tarihi 3, səh. 153)*

Yuxarıdakı hədisdə göründüyü kimi, hz. İsa (ə.s)-ın əsrin əvvəlində çıxacağı xəbər verilmişdir. Həmçinin Peyğəmbərimiz (s.ə.v) bəzi hədislərində hz. Mehdi (ə.s)-ın zühur tarixi olaraq da açıqca 1400-cü ili vermişdir. Bu hədislərdən biri belədir:

*İnsanlar 1400-cü ildə Mehdinin yanında toplanacaqlar. (Risaletül Huruc-ül Mehdi, sf. 108)*

Digər bir hədisdə isə hz. Məhəmməd (s.ə.v) belə bildirmişdir:

*Hicrətdən 1400 il sonrakı əqidlərdən[3] iki və ya üç əqid say. O zaman Mehdi Əmin çıxar... (Esme-l Mesalik Lieyyam-il Mehdiyy-il Meliki Li Küll-id Dünya Biemrillah-il Malik, Kelde bin Zeyd, 216)*

Kitabın əvvəlki hissələrində göründüyü kimi, Peyğəmbərimiz (s.ə.v), hədisləri ilə Axırzaman əlamətləri barəsində bizə bir çox məlumat vermişdir. Hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın gəlişindən əvvəl yaşanacaq hadisələri çox təfsilatlı şəkildə təsvir etmişdir. Bu mövzuyla əlaqədar olaraq Buxari və Müslim, Ömər Ibnül Hattab və Huzeyfedən, İmam Əhməd və Müslim Əbu Zeyd ibn Amr ibn Axtab Əl Ənsaridən belə rəvayət etmişlər:

*"Rəsulu-Əkrəm (s.ə.v)... Bu xütbələrində tam olmuş və bundan sonra olacaq hadisələri xəbər verdi, onları bizə öyrətdi və əzbərlətdi". (Buhari, Müslim)*

Hz. Hüzeyfə ibn Yəman (r.ə) da bu mövzuda bunları söyləmişdir:

*"Allaha and içirəm ki, Rəsulu-Əkrəm (s.ə.v) dünyanın sonuna qədər gələcək fitnələri və bu fitnələri törədən rəisləri ta üç yüzdən daha artıq kəsləri bizə adları, atalarının adları və qəbilələrinin adları ilə xəbər verdi". (Ebu Davud)*

Peyğəmbərimiz (s.ə.v)-dən bizə çatan bu xəbərlərin hər birinin bir-biri ardınca gerçəkləşmiş olması və hələ də gerçəkləşməyə avam etməsi, yaşadığımız dövrün Axırzaman olduğu mövzusunu qətiləşdirir. Necə ki, Peyğəmbərimiz (s.ə.v)-in hz. Mehdi (ə.s)-ın çıxış tarixi olaraq hədislərində açıqca 1400-cü il tarixini verməsi də bu əlamətləri bir daha təsdiqləyir. O zaman hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə qayıdışı da Allahın icazəsi ilə çox yaxındır.

---

[3] **Bir əqid 10 ildir**

## 4) Bədiüzzamana görə hz. Mehdi (ə.s) 1400-cü illərdə fəaliyyət göstərəcək

Bədiüzzamanın da, fərqli tarixlərdə verdiyi bütün açıqlamalarda, hz. Mehdi (ə.s)-ın gəliş zamanı olaraq hicri 14-cü əsrin əvvəllərinə işarə edilmişdir. Ustad bir sözündə, hz. Mehdi (ə.s)-ın əsri-səadət dövründən 1400 il sonra çıxacağını belə bildirib:

"İstiqbali-dünyəviyədə (dünyanın gələcəyində) **1400 il sonra gələcək bir həqiqəti** əsrlərində karib (yaxın) zənn ediblər". *(Sözler, səh. 318)*

Ustadın ifadəsində bildirdiyi; "səhabə dövründən **1400** il sonrası" hicri 14-cü əsrin əvvəllərinə, yəni miladi təqvimlə 1979-1980-ci illərə təsadüf edir.

Bədiüzzaman, hicri **1327**-ci ildə Şamda Əməvi məscidində on min insana verdiyi xütbəsində, hicri **1371**-ci ildən sonrakı İslam aləminin gələcəyinə istiqamətli izahlar etmiş, Axırzamandan müxtəlif tarixlər vermis və gözlənilən hz. Mehdi (ə.s)-ın mübarizə dövrlərinə diqqət çəkmişdir. Bədiüzzaman, hz. Mehdi (ə.s)-ın vəzifəyə başlaması və inkarçı zehniyyəti fikrən məğlub etməsi ilə əlaqədar bu tarixləri bildirir:

"Ta 1371-ci ildən sonrakı aləmi-İslamın (İslam aləminin) müqəddaratına (taleyinə) nəzər salan Şam xütbəsindəki həqiqətlər... Bəli, indi olmasa da **30-40 il sonra** fən və həqiqi mərifət və mədəniyyətin məhasini o üç qüvvəni tam təchiz edib, cihazatını verib o doqquz maniləri məğlub edib dağıtmaq üçün, təhərriyi-həqiqət meyelanını və insaf və məhəbbəti-insaniyəyi o doqquz düşmən taifəsinin cəbhəsinə göndərmiş, inşallah **yarım əsr sonra** onları darmadağın edəcək". *(Hutbe-i Şamiye, 25)*

Şamda etdiyi bu çıxışında, hicri **1371**-ci ildən sonra yaşanacaq hadisələrə diqqət çəkərək, hz. Mehdi (ə.s)-ın vəzifəyə başlamasının bu tarixdən 30-40 il sonra baş tutacağını bildirmişdir. Bu tarix isə hicri **1401-1411**-ci, miladi təqvimlə isə **1980-1990**-ci illər arasıdır.

Ustad həmçinin eyni çıxışın davamında, hz. Mehdi (ə.s)-ın, inkarçı fikir sistemini fən, elm və mədəniyyətin imkanları sayəsində fikrən susduracağını xəbər vermişdir. Bu fikri üstünlüyün tarixi olaraq da **1371**-ci il tarixindən yarım əsr sonrasını bildirmişdir. Bu da hicri **1421**-ci, yəni miladi **2001**-ci il deməkdir.

"Bəli, indi (1371-ci il) olmasa da otuz-qırx (30-40) il sonra...

**Fənn**: Müsbət elmlər, biologiya, fizika, kimya və s.

**Həqiqi bacarıq**: Hünər, sənət, elm və fənlərlə öyrənilən məlumat.

**Mədəniyyətin məhasini**: Mədəniyyətin yaxşılıqlarını

O üç qüvvə ilə təchiz edib lazımi ehtiyacını ödəyib o doqquz əngəlləri məğlub edib, dağıtmaq üçün,

**Təhərriyi-həqiqət meyelanını**: Həqiqəti araşdırma meyli

**Məhəbbəti-insaniyəyi:** İnsan sevgisini.

O doqquz düşmən sinfinin cəbhəsinə göndərmiş, inşaAllah yarım əsr sonra (50 il) onları darmadağın edəcək".

**1371 + 50 = 1421 (miladi 2001)**

Bədiüzzaman hicri 1400-cü ilin əvvəllərində hz. Mehdi (ə.s)-ın inkarçı fəlsəfə ilə mübarizəyə başlaması zamanına, 1401-1411=1981-1991-ci illər arası fən, hünər, sənət və mədəniyyətin yaxşılıqlarını birləşdirib bunlarla mübarizəsinə və inkarçı fəlsəfəni fikrən darmadağın edəcəyi tarix olaraq da hicri **1421 = miladi 2001**-ci ilə diqqət çəkir. Bədiüzzamanın Axırzamanla əlaqədar digər bir açıqlaması isə belədir:

**"Yetmiş birdə** fəcri-sadiq başladı və ya başlayacaq. Əgər bu, fəcri-kazib də olsa, **otuz-qırx il sonra fəcri-sadiq çıxacaq".** *(Hutbe-i Şamiye, 23)*

**Fəcr:** Dan yerinin ağarması, günəş doğulmadan əvvəlki qırmızılıq, səhər vaxtı

**Fəcri-kazib:** Səhərə qarşı üfüqdə yayılmağa başlayan birinci qırmızılıq.

**Fəcri-sadiq:** Fəcri-kazibdən sonra yayılmağa başlayan ikinci işıqlanma.

**1371 + 30 = 1401 = 1981**

**1371 + 40 = 1411 = 1991**

Bədiüzzaman İslam əxlaqının dünyaya təkrar hakim olmasını Günəşin doğuşuna bənzədir. Günəşin batdıqdan sonra ertəsi gün yenidən doğması kimi, İslam əxlaqının da dünya üzərində təkrar doğub parlayacağına bu bənzətmə ilə işarə edər. Fəcri-kazib və fəcri-sadiq ifadələriylə isə bu doğuşun başlanğıc illərinə diqqət çəkilmişdir.

Buna görə haqqın qarşısında batili təmsil edən düşüncə olan ateizm və materialist fəlsəfənin məhv olmağa başlamasının 1981-1991-ci illərdə, fikrən tam mənası ilə susdurulub məhv edilməsinin isə 2001-ci ildə olacağına işarə etmişdir.

"Bu zamanda elə fövqəladə hakim cərəyanlar vardır ki, hər şeyi öz hesabına aldığı üçün, fərəzə (tutaq ki,) həqiqi gözlənilən və **bir əsr sonra gələcək** o zat (şəxs) belə bu zamanda gəlsə... *(Kastamonu Lahikası, səh. 57)*

Bədiüzzaman Səid Nursi, "həqiqi gözlənilən və bir əsr sonra gələcək o zat (şəxs)" deyərək hz. Mehdi (ə.s)-ın öz dövründə hələ gəlmədiyini, müsəlmanlar tərəfindən gözlənildiyini və öz yaşadığı dövrdən bir əsr sonra gələcəyini bildirir. Bədiüzzaman hicri 13-cü əsrdə yaşamışdır. Özündən sonra gələcək əsr olan hicri 14-cü əsr hz. Mehdi (ə.s)-ın çıxış zamanıdır.

Bədiüzzamanın *Risale-i Nur Külliyyatında* Mehdinin mübarizə və hakimiyyət dövrləri ilə bağlı tarix verdiyi başqa açıqlamaları da mövcuddur:

**"Ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Halbuki kafirlər istəməsə də, Allah Öz nurunu tamamlamaqdan başqasını istəmir"** (Tövbə surəsi, 32) ayəsindəki

**"...Allah, Öz nurunu tamamlamaqdan başqasını istəmir"** cümləsi barəsində Bədiüzzaman belə deyir:

"İndi xatirə gəldi ki, əgər şəddəli "ləmlər" və (mim) iki-iki sayılsa, bundan bir əsr sonra zulümatı (zülm dövrünü, qaranlığı) aradan qaldıracaq zatlar (şəxslər) isə, həzrəti Mehdinin şagirdləri (tələbələri) ola bilər". *(Şualar, səh. 605)*

Bu ayənin əbcəd dəyəri isə **hicri 1424-cü, yəni miladi 2004-cü ildir**. Bu tarix də, hz. Mehdi (ə.s)-ın darvinizmə və materializmə qarşı apardığı fikri mübarizəsində üstün gəldiyi illərə işarə edir.

Bədiüzzaman **"...inkar edənlərin vəliləri isə tağutdur..."** (Bəqərə surəsi, 257) ayəsindəki "tağut" (batil fikir sistemi) sözünün əbcəd dəyərini 1417 (miladi təqvimlə 1997-ci il) olaraq veriri və bu tarixdə **"tağut"**un öz daxilində çökəcəyini bildirir.

## 5) Peyğəmbərimiz (s.ə.v) dünyanın ömrünün 7000 il olduğunu bildirib

Hər əsrdə din əxlaqını bidətlərdən qurtarmaq və yeniləmək üçün Allah tərəfindən bir insanın göndərildiyi, böyük və mötəbər əhli-sünnə alimlərinin "Sünəni-Əbu Davud", "Məktubatı-Rəbbani" kimi əsərlərində açıqca bildirilmişdir. Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən hədislərdə Axırzamanda zühur edəcəyi müjdələnən hz. Mehdi (ə.s)-ın zühur vaxtı olaraq isə hicri 1400-cü il verilmişdir. Bu 100 illik müddətdə İslam əxlaqı müəyyən müddət ərzində bütün dünyaya hakim olacaq, din əxlaqına qarşı mübarizə aparan dəccal sistemi isə tamamilə ortadan qalxacaq. Lakin təxminən 100 il qədər davam edəcək bu yüksəlmə dövrünün ardınca, yəni hicri 1500-cü illərlə birlikdə dünya yenidən pozulma mərhələsinə daxil olacaq. Əhli-sünnənin böyük hədis və fiqh alimlərindən biri olan İmam Əhməd İbn Hənbəl kimi bir çox alimin bir-birlərindən nəql etdikləri bir hədisdə Peyğəmbərimiz (s.ə.v) özünə qədər dünyada keçən zamanın 5600 il olduğunu bildirərək bəşəriyyət tarixinin başlanğıcı barəsində mühüm bir məlumat vermişdir:

*Əhməd İbn Hənbəl əsasında nəql etdi. İsmayıl ibn Əbdülkərim, Əbdüssaməddən O da Vəhbdən rəvayət etdi; **DÜNYADAN BEŞ MİN ALTI YÜZ İL KEÇMİŞDİR.** (Ali B. Hüsameddin el-Muttaki, Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir zaman, səh. 89)*

Digər tərəfdən başqa bir çox hədisdə də dünyanın ömrünün 7000 il olduğuna dair açıq izahlar var:

*Ənəs Malikdən təxric etdi (çıxarış etdi). O dedi ki, Rəsulullah (s.ə.v) buyurdu: **DÜNYANIN ÖMRÜ, AXİRƏT GÜNLƏRİNDƏN YEDDİ GÜNDÜR.** Allah buyurdu ki; **"SƏNİN RƏBBİNİN YANINDAKI BİR GÜN, SİZİN SAYDIĞINIZ MİN İL KİMİDİR" RƏBBİN QATINDA BİR GÜN SİZİN SAYDIQLARINIZDAN MİN İL KİMİDİR.** Kim bir din qardaşının Allah yolunda bir ehtiyacını qarşılasa, Allah onun üçün, gündüzlərini orucla, gecələrini də ibadətlə keçirmişcəsinə **BU DÜNYANIN YEDDİ MİN İLLİK ÖMRÜ MÜDDƏTİNCƏ SAVAB YAZAR.** (Ali B. Hüsameddin el-Muttaki, Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 88)*

*Dakka ibn Zeyd əl-Cühənidən rəvayət etdilər. Mən gördüyüm bir yuxunu Rəsulullah (s.ə.v)-ə danışdım. Bu yuxuda Peyğəmbər (s.ə.v) yeddi pilləli bir minbərin ən üst pilləsində idi. O buyurdu ki;* ***GÖRDÜYÜN BU YEDDİ PİLLƏLİ MİNBƏR DÜNYANIN ÖMRÜ OLAN YEDDİ MİN İLDİR.*** *(Ali B. Hüsameddin el-Muttaki, Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 89)*

Əhli-sünnə alimlərindən Hüsaməddin əl-Müttəqinin əsəri olan *"Kitabül bürhan fi əlamətil Mehdiyyil Axırzaman"* kitabında qeyd olunan bu hədislərə görə Peyğəmbərimiz (s.ə.v) dünyanın ömrünün 7000 il olduğunu bildirir. Eləcə də, bir çox əhli-sünnə alimlərinin əsərlərində, məsələn, Müttəqi həzrətlərinin, Kenzul-Ümmal, hədis №: 16459-da, Muhəmməd Tahir ibn Əli əl-Hindinin əsəri Tezkiretul-mevduat, I/223-də, İmam Sahavi, əl-Makasidul-həsənə (Deylemidən rəvayət edilib), I/693, hədis №: 1243-de, əl Munavinin Feyzul-Qədr, III/547; hədis №: 4278 (Deylemidən rəvayət edilib), Bəyazid Bistami Həzrətlərinin Miftahul-cifr adlı əsərində dünyanın ömrünün 7000 il olduğu mövzusuyla əlaqədar hədislərə yer verilmişdir. Bu da əhli-sünnə alimlərinin həmfikirliklə bu mövzunu qəbul etdiklərini göstərən çox aydın bir dəlildir.

Hicri 1300-cü ilin və son min ilin ən böyük mücəddidi olan Ustad Səid Nursi həzrətləri isə İslam əxlaqının hakimiyyət dövrü üçün hicri 1500-cü ili göstərmişdir. Ustad bu tarixlərə qədərki dövrün müsəlmanların açıq və aşkar qalibiyyət dövrləri olacağını bildirmişdir. Bundan sonrakı illərdə isə İslam əxlaqının dünya üzərindəki yüksəliş dövrünün bitəcəyi və kafirlər üçün qiyamət qopmasının hicri 1545-ci il etibarilə mümkün ola biləcəyimi söyləmişdir (doğrusunu Allah bilər).

*"Ümmətimdən bir taifə (tayfa) Allahın əmri gələnə qədər (qiyamətə qədər) haqq üzərində olacaq".*

*"Ümmətimdən bir taifə (tayfa).." fıqrasının (hissəsinin) məqamı-cifrisi (cifr hesabına görə nəticəsi, ədədi qiyməti)* ***1542 (2117) edərək nəhayəti-davamına (varlığının sonuna) işarə edər. "Haqq üzərində olacaq" (şəddə sayılır) fıqrası (hissəsi) belə; məqamı-cifrisi (cifr hesabına görə nəticəsi, ədədi qiyməti) 1506 (2082), bu tarixə qədər zahir və aşkaranə (açıq və ortada), bəlkə qalibanə****; sonra da 1542-yə (2117) qədər, gizli və məğlubiyyət içində vəzifəyi-tənviriyəsinə (işıqlandırma vəzifəsinə) davam edəcəyinə rəmzə (işarəyə) yaxın işarə edər.* ***"Allahın əmri gələnə qədər" (şəddə sayılır) fıqrası (hissəsi) belə; məqamı-cifrisi (cifr hesabına görə nəticəsi, ədədi qiyməti) 1545 (2120), kafirin başında QİYAMƏT QOPMASINA işarət edər****. (Kastamonu Lahikası, səh. 33)*

Peyğəmbərimiz (s.ə.v) başqa bir çox səhih hədisində isə dünyanın yalnız 1 günlük ömrü qalmış olsa da, Allahın bu ömrü uzadıb hz. Mehdi (ə.s)-ı mütləq zühur etdirəcəyini bildirmişdir. Bu olduqca mühüm açıqlamadır. Çünki hz. Mehdi (ə.s)-ın Peyğəmbərimiz (s.ə.v)-in rəvayətinə baxmayaraq, hicri 1400-cü ildə çıxmayacağı kimi hədislərə müxalif açıqlamalar verən, bəhs olunan insanların bu hədisləri də görməzlikdən gəldiyi son dərəcə ortadadır. Halbuki Peyğəmbərimiz (s.ə.v) bu hədisləri, hz. Mehdi (ə.s)-ın zühurunun və onun vəsiləsi ilə İslam əxlaqının hakim olmasının insanlar üçün nə qədər mühüm olduğuna çox açıq şəkildə diqqət çəkmişdir.

*Abdullah (r.ə)-dən rəvayət edilmişdir: Rəsulullah (s.ə.v) buyurdu ki; əhli-beytimdən adı adıma uyğun olan bir insan başa keçəcək...* ***DÜNYANIN TƏKCƏ BİR GÜNLÜK ÖMRÜ QALMIŞ OLSA, ONUN (HZ. MEHDİ (Ə.S)-IN) BAŞA KEÇMƏSİ ÜÇÜN ALLAH O GÜNÜ MÜTLƏQ UZADAR.*** *(Sünen-i Tirmizi 4/92)*

*Hz. Əlidən rəvayət olunduğuna görə Rəsulullah (s.ə.v) belə buyurdu:* ***QİYAMƏTİN QOPMASI ÜÇÜN ZAMANDA TƏKCƏ BİR GÜNDƏN BAŞQA VAXT QALMAMIŞ DA OLSA, ALLAH (C.C) MƏNİM ƏHLİ-BEYTİMDƏN BİR ZATI (ŞƏXSİ) GÖNDƏRƏCƏK.*** *(Sünen-i Ebu Davud, 5/92)*

*İbn Macə və Əbu Naim, Əbu Hüreyrədən təxric etdilər (çıxarış etdilər), o dedi, Peyğəmbər (s.ə.v) buyurdu:* ***ƏGƏR DÜNYADAN BİR GÜN QALSA, ALLAH O GÜNÜ UZADAR VƏ ƏHLİ-BEYTİMDƏN BİRİNİ MƏLİK (HÖKMDAR) EDƏR.*** *(Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Muntazar, 10 El-Kavlu-l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, 27 Ölüm-Kıyamet -Ahiret ve Ahir Zaman Alametleri, səh. 437)*

Allahın, **"dünyadan bir gün qalsa da, o günü uzadıb hz. Mehdi (ə.s)-ı zühur etdirəcəyini"** bildirən Peyğəmbərimiz (s.ə.v)-in sözləri, hz. Mehdi (ə.s)-ın zühuru üçün lazım gəlsə zamanın uzadılacağı istiqamətindədir. Demək ki, belə olan halda, hz. Mehdi (ə.s)-ın zühuru yüz il sonraya təxirə salınıb bu əsrdə gözlənilməkdən imtina edilməyəcək, əksinə hz. Mehdi (ə.s)-ın zühuru yenə hicri 1400 içində gözlənilməyə davam ediləcək. Bu çox əhəmiyyətlidir ki, hicri 1499-cu ilin son gününə qədər hicri 1400-cü illərin içində olunar. Hz. Mehdi (ə.s)-ın zühuru üçün Allahın lazım gəlsə zamanı uzatması da, yenə hicri 1500-cü illərə qədər olacaq. Hz. Mehdi (ə.s) bu dövr ərzində İslam əxlaqını, fəzilətini və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini dünyaya yayma fəaliyyətlərinə müxtəlif formalarda davam edəcək. Lakin bəhs edilən uzatma dünyanın 7000 illik ömrünü keçməyəcək uzatma olacaq, sonrasında isə Peyğəmbərimiz (s.ə.v)-in bildirdiyi; İslam əxlaqının dünya üzərindəki təsirinin qalxmağa başlaması ani geriləmə şəklində deyil, ağlın ixtiyarını qaldırmadan yavaş-yavaş meydana gələcək. Ardından dünyanın 7000 illik ömrünün sonu olan qiyamətin qopma hadisəsi də, Ustad Səid Nursi həzrətlərinin bildirdiyi kimi, inşaAllah hicri 1500-cü il etibarilə gözləniləcək (doğrusunu Allah bilər).

Böyük əhli-sünnə alimi Bərzənci həzrətləri də dünyanın ömrünün hicri 1600-cü ilə çatmayacağını, yəni hicri 1500-cü illər içində qiyamətin qopmasının Allahın icazəsi ilə gözlənildiyini bildirir (doğrusunu Allah bilər).

***BU ÜMMƏTİN ÖMRÜ MİN İLİ KEÇƏCƏK, LAKİN MİN BEŞ YÜZ İLİ AŞMAYACAQ...*** *(Kıyamet Alametleri, Medineli Allame Muhammed b. Resul el-Hüseyni el-Berzenci, Pamuk nəşriyyatı, İstanbul, 2002, səh. 299)*

Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən hədisə əsaslanaraq, Süyuti həzrətləri isə verdiyi açıqlamada belə bildirir:

***"MƏNİM ÜMMƏTİMİN ÖMRÜ 1500 İLİ ÇOX KEÇMƏYƏCƏK".*** *(Suyuti, el-Keşfu an Mücavezeti Hazihil Ümmeti el-Elfu, el-havi lil Fetavi, Suyuti. 2/248, tefsiri Ruhul Beyan. Bursevi. (Arapça) 4/262, Ahmed bin Hanbel, Kitâbu'l-İlel, səh. 89)*

## 6) Quranda Axırzaman ilə bağlı digər bəzi məlumatlar

Quran möminlərin həyatlarının bütün sahələrini əhatə edən, hər hökmün tam qeyd olunduğu Allahın bənzərsiz kitabıdır. Quranın ən böyük möcüzələrindən biri, ilk vəhyin enməsindən indiyədək, hər əsrdə yaşayan bütün müsəlmanların, Quranın öz əsrlərinin bütün ehtiyaclarını həll etdiyini görmələridir.

Quranda, xüsusilə peyğəmbər hekayələrində Axırzamana işarə edən ayələr var. Bu hekayələr üzərində düşünüldüyü zaman, dövrümüzdəki hadisələrə işarə edən çox mühüm sirlər tapmaq mümkündür. Allah Quranda möminləri hekayələr barəsində düşünməyə təşviq edir:

**And olsun ki, onların hekayələrində təmiz ağıl sahibləri üçün ibrətlər var. (Bu Quran) uydurulacaq bir söz deyil, lakin özündən əvvəlkilərin təsdiqləyicisi, hər şeyin müxtəlif formalarda açıqlaması və iman gətirəcək cəmiyyət üçün hidayət və rəhmətdir. (Yusif surəsi, 111)**

Quran hər əsrə hökm edən bir kitabdır və ayələrin çoxunda birdən çox məna var. Ayələrdəki işarələr də bunun açıq dəlillərindəndir. Quranda, Peyğəmbərimiz (s.ə.v) dövründə yaşanan hadisələr bildirildiyi kimi, Axırzamandakı hadisələr də işari şəkildə bildirilir. Ayələrdə Peyğəmbərimiz (s.ə.v) dövründə möminlərin apardıqları mübarizə, ədalətli tətbiqləri və yaşayışları bildirilərkən, eyni zamanda bütün əsrlərə istiqamətli nəsihətlər də var. Hər bir ayədə, diqqətli oxuyanlar üçün bir neçə mənalar var. Həmçinin ayələrdə insanların ehtiyac duyduqları hər şey açıqlanır.

Bir ayədə Quranın bu xüsusiyyəti; **"...Biz Kitabı sənə hər şeyin açıqlayıcısı, müsəlmanlara da bir hidayət, rəhmət və müjdə olaraq nazil etdik"** (Nəhl surəsi, 89) şəklində bildirilir. Bir çox ayədə isə, Qurandakı nümunələr üzərində düşünməyimiz və onlardan ibrət çıxarmağımız nəsihət edilir. Allah, Quran ayələri barəsində düşünməyi əmr etdiyi ayələrdən bir neçəsində belə buyurur:

**And olsun ki, bu Quranda hər nümunədən insanlar üçün müxtəlif açıqlamalar verdik. İnsanların əksəriyyəti isə, ancaq inkarda müqavimət göstərdilər. (İsra surəsi, 89)**

**And olsun ki, Biz bu Quranda, bəlkə öyüd alıb düşünərlər deyə, insanlar üçün hər bir nümunədən verdik. (Zumər surəsi, 27)**

İslam əxlaqının dünyaya hakim olması, Peyğəmbərimiz (s.ə.v)-in vəfatından sonra qiyamətə qədər gerçəkləşəcək Axırzaman əlamətlərinin ən əhəmiyyətlilərindən biridir.

Qurani Kərimdə, hz. İsa (ə.s)-ın yer üzünə təkrar qayıdacağına dair dəlilləri əvvəlki hissələrdə təfsilatlı şəkildə gördük. Bu aydın dəlillərlə yanaşı, Quranda Axırzaman, hz. Mehdi (ə.s) və Quran əxlaqının dünyada hakim olması barəsində də bir çox işari mənada ayələr var. Quranda müsəlmanların İslam əxlaqını yer üzünə hakim edəcəklərinin xəbər verildiyi ayələrdən biri Nur surəsindədir:

**Allah aranızdan iman gətirənlərə və saleh əməllər işləyənlərə vəd etmişdir: şübhəsiz ki, özlərindən əvvəlkiləri necə "güc və iqtidar sahibi" etdisə, onları da yer üzündə "güc və iqtidar sahibi" edəcək, özləri üçün seçib bəyəndiyi dinlərini özlərində hakim edib möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcək. Onlar yalnız Mənə ibadət edər və heç nəyi Mənə şərik qoşmazlar. Kim bundan sonra inkar etsə – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

Peyğəmbərimiz (s.ə.v)-in də, Axırzaman mövzusuna Quranda işarə olduğunu bildirən müxtəlif hədisləri var:

*Mehdi eynilə Zülqərneyn və Süleyman kimi dünyaya hökm edəcək. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 29)*

Göründüyü kimi bu hədis, Quranda qeyd olunan hz. Zülqərneyn (ə.s) və hz. Süleyman (ə.s) hekayələrini, hz. Mehdi (ə.s) mövzusuyla əlaqəli şəkildə araşdırmağımıza işarə edir.

Aşağıdakı hədislərlə də Kəhf və Talut hekayələrində Axırzamana işarə edən çox mühüm işarələr olduğu xəbər verilir. Peyğəmbərimiz (s.ə.v)-in, Axırzaman və hz. Mehdi (ə.s) ilə əlaqədar hədislərini burada verilən nümunələrdə də göründüyü kimi, xüsusilə Qurandakı hekayələrlə əlaqə yaradaraq izah etməsi, söylədiyimiz məsələyə çox güclü dəlildir. Peyğəmbərimiz (s.ə.v) belə buyurub:

*Əshabi-Kəhf, Mehdinin köməkçiləri olacaq. (Kitab ul Burhan Fi Alamet-il Mehdiyy il Ahir Zaman, səh. 59)*

*Mehdinin köməkçilərinin sayı Talut ilə çayı keçənlər qədərdir. (Kitab ul Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 57)*

Bu nöqteyi-nəzərdən araşdırıldığı zaman, Quranda İslam əxlaqının yer üzünə hakim olacağı bir dövrün varlığına işarə edən bir çox ayə olduğu görünür. Ayələrdəki gerçəkləşəcək hadisələrlə əlaqədar işarələrlə yanaşı, bu hadisələrin tarixlərinə istiqamətli işarələr də var.

Bu tarixlər müxtəlif hesablama üsullarıyla müəyyənləşdirilir. Bu üsulların başında isə əbcəd hesabı gəlir. Bu hesablama üsulu, çox keçmiş tarixlərə qədər uzanan və hələ

Quran nazil olmamışdan əvvəl geniş istifadə olunan bir yazı formasıdır. Qədim dövrlərdən bəri, bütün hadisələr, hərflərə rəqəm dəyəri verilərək yazılır və beləliklə də, hər hadisənin tarixi də qeydə alınmış olardı. Bu tarixlər, istifadə edilən hər hərfin xüsusi rəqəm dəyərlərinin cəmlənməsi ilə əldə edilirdi.

Keçmişdəki bəzi İslam alimləri, əbcəd üsulu ilə ayələrə baxaraq bir çox hadisənin tarixini əvvəlcədən təxmin ediblər. Bu gün də Quranda işlənən bəzi ayələrə baxıldığı zaman, bu ayələrin mənalarına uyğun bəzi tarixlərə uyğun gəldiyini görərik. Həmçinin bu ayələrdə bəhs edilən hadisələrin əbcəd hesablarıyla əldə edilən tarixlərdə gerçəkləşdiyini gördükdə isə, həmin ayələrdə hadisə ilə bağlı gizli işarə ola biləcəyini anlayarıq (doğrusunu Allah bilər).

İrəliləyən səhifələrdə bəzi ayələrin içindəki əlaqədar hissələrinin əbcəd hesablarını verəcəyik. Əbcədləri hesablanmış bu ayələrin məna cəhətdən məzmunlarına baxıldığı zaman, müəyyən tarixlərə istiqamətli mühüm işarələr olduğu görülə bilər.

**And olsun Kitab əhlindən ölmədən əvvəl ona iman gətirməyəcək heç kim yoxdur. Qiyamət günü o da onların əleyhinə şahid olacaq. (Nisa surəsi, 159)**

"...Kitab əhlindən ölmədən əvvəl ona iman gətirməyəcək heç kim yoxdur..."

HİCRİ: 1439, MİLADİ: 2017

Yuxarıdakı ayədə hz. İsa (ə.s)-ın ölümündən əvvəl bütün Kitab əhlinin ona inanacağı xəbər verilir. Bu hadisənin təkcə Axırzamanda, hz. İsa (ə.s)-ın ikinci dəfə yer üzünə gəldiyi zaman gerçəkləşəcəyini kitabın əvvəlində bildirmişdik. Eyni ayənin yuxarıda ifadə edilən hissəsinin əbcəd dəyərinin bizə göstərdiyi tarix isə 2017-ci ildir. Bu rəqəmin, hz. İsa (ə.s)-ın yer üzünə təkrar gələcəyi və ya yer üzündə olacağı bir tarixə işarə etməsi mümkündür (doğrusunu Allah bilər). Aşağıdakı əbcəd dəyərlərinin də bənzər şəkildə hz. İsa (ə.s)-ın yer üzündə olacağı dövrün tarixlərinə işarə olması mümkündür.

**Şübhəsiz ki, O (İsa) qiyamət saatı üçün bir elmdir (əlamətdir). Elə isə ondan yana heç bir şübhəyə qapılmayın və Mənə tabe olun. Dosdoğru yol budur. (Zuxruf surəsi, 61)**

"Şübhəsiz ki, O qiyamət saatı üçün bir elmdir (əlamətdir). Elə isə ondan yana heç bir şübhəyə qapılmayın..."

MİLADİ: 2026

**"Qorxma!" dedik. "Mütləq sən üstün gələcəksən". (Taha surəsi, 68)**

MİLADİ: 1956

**Bir zaman Allah peyğəmbərlərdən: "And olsun, sizə Kitab və hikmət verdikdən sonra, sizə özünüzdəkini təsdiqləyən bir elçi gəldikdə (1) ona qəti iman gətirəcək və yardım edəcəksiniz" deyə qəti əhd almış və: "Razısınızmı və verdiyim bu ağır məsuliyyəti qəbul edirsinizmi?" demişdi. Onlar: "Razıyıq!" demişdilər. Allah da: "Elə isə, şahid olun, Mən də sizinlə bərabər şahid olanlardanam (2)" demişdir.**

(1) MİLADİ: 1956

(2) HİCRİ: 1416, MİLADİ: 1994

**Biz isə, yer üzündə gücdən salınanlara (1) lütf etmək, onları öndərlər və varislər etmək (2) istəyirik. (Qəsas surəsi, 5)**

(1) MİLADİ: 1996

(2) ... öndərlər ... və varislər etmək - MİLADİ: 2021

**Biz səni yalnız müjdə verən və xəbərdar edib qorxudan kimi göndərdik. (Furqan surəsi, 56)**

MİLADİ: 1981

(həmçinin surə nömrəsi (25) x ayə nömrəsi (56) = 1400 (miladi 1981)

**Məhz beləliklə Biz yer üzündə Yusifə güc və imkan (iqtidar) verdik. Belə ki, orada (Misirdə) istədiyi yerdə qaldı. Biz istədiyimizə mərhəmətimizi nəsib edər və yaxşı işlər görənlərin mükafatını puç etmərik. (Yusif surəsi, 56)**

MİLADİ: 2017

**Dedi: "Bir-birinizə düşmən olaraq hamınız oradan enin. Artıq sizə Məndən bir yol göstərən gələcək; kim Mənim hidayətimə tabe olsa artıq o azmaz və bədbəxt olmaz. (Taha surəsi, 123)**

MİLADİ: 1982

De: "Hər kəs gözləyir, siz də gözləyin. Sonunda, dümdüz (dosdoğru) yolun sahibləri kimlərmiş və doğru yola gələn kimlərmiş, çox yaxında öyrənəcəksiniz". (Taha surəsi, 135)

MİLADİ: 2023

Və onları, öz əmrimizlə hidayətə yönəldən öndərlər etdik və onlara yaxşı işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar Bizə ibadət edənlərdi. (Ənbiya surəsi, 73)

MİLADİ: 1984

Əlif, Ləm, Mim. Rum (orduları) məğlubiyyətə uğradı. (Rum surəsi, 1-2)

MİLADİ: 1980

Bir neçə il ərzində. Bundan əvvəl də, sonra da əmr Allahındır və o gün möminlər sevinəcəklər. (Rum surəsi, 4)

MİLADİ: 2010

And olsun, Biz Zikrdən sonra Zəburda: "Şübhəsiz ki, yer üzünə Mənim saleh qullarım varis olacaqlar" deyə yazdıq. (Ənbiya surəsi, 105)

MİLADİ: 2051

İstəsək, onların üzərinə göydən bir ayə (möcüzə) endirərik ki, ona boyunları əyilmiş qalarlar. (Şuəra surəsi, 4)

MİLADİ: 2022

Bu əvvəlki xəbərdarlıq edənlərdən bir xəbərdar edəndir. (Nəcm surəsi, 56)

MİLADİ: 2031

Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salat edərlər (salam verərlər). Ey iman gətirənlər, siz də ona salat edin (salam verin) və tam təslimiyyətlə ona salam verin. (Əhzab surəsi, 56)

MİLADİ: 1986

Şübhəsiz ki, Biz səni haqla müjdə verən və xəbərdar edən biri olaraq göndərdik. Heç bir ümmət yoxdur ki, içində bir xəbardar edən gəlib-keçmiş olmasın. (Fatir surəsi, 24)

MİLADİ: 1983

Özləriylə, içlərində bərəkətlər yaratdığımız məmləkətlər arasında (biri digərindən) görünə bilən şəhərlər yaratdıq və orada yerimə (imkanlarını) təqdir etdik: "Oralarda gecələr və gündüzlər təhlükəsizlik içində gəzib dolaşın" (dedik). (Səba surəsi, 18)

MİLADİ: 2023

Özlərinə Kitab verdiyimiz kəslər onu (peyğəmbəri) övladlarını tanıdıqları kimi tanıyırlar. Buna baxmayaraq onların bir qismi, bildikləri halda həqiqəti gizlədirlər. (Bəqərə surəsi, 146)

MİLADİ: 1959

Biz ayələrimizi həm afaqda, həm də onların özlərində mütləq göstərəcəyik; belə ki, şübhəsiz, onun haqq olduğu özlərinə açıqca bəlli olsun. Hər şeyin üzərində Rəbbinin şahid olması kifayət deyil? (Fussilət surəsi, 53)

MİLADİ: 1990

Və insanların Allahın dininə dəstə-dəstə girdiklərini gördüyün zaman, dərhal Rəbbini həmd ilə təqdis et və Ondan bağışlanma dilə. Çünki O, tövbələri çox qəbul edəndir! (Nəsr surəsi, 2-3)

MİLADİ: 2016

Sənin zikrini (şənini) ucaltmadıqmı? (İnşirah surəsi, 4)

MİLADİ: 2009

Və heç ŞÜBHƏSİZ; BİZİM ORDULARIMIZ, ÜSTÜN GƏLƏCƏK OLANLAR ONLARDIR. (Saffat surəsi, 173)

MİLADİ: 1994

"Elçilərini hidayət və haqq dinlə göndərən Odur. Belə ki, onu (haqq din olan İslamı) bütün dinlərdən üstün edəcək; müşriklər xoşlamasa da". (Saff surəsi, 9)

MİLADİ: 1980 və şəddəsiz 2021

Onu satın alan Misirli (Əziz) arvadına: "Onun yerini üstün tut (ona yaxşı bax), ümid edilir ki, bizə bir faydası toxunar və ya onu övladlığa götürərik!" dedi. Beləliklə biz, Yusifi yer üzündə (Misirdə) məskun etdik. Ona sözlərin şərhindən (olan məlumatı) öyrətdik. ALLAH, ƏMRİNİ QƏLƏBƏ İLƏ BAŞA ÇATDIRANDIR, lakin insanların çoxu bilmir. (Yusif surəsi, 21)

MİLADİ: 2014

Kim Allahı, Rəsulunu və iman gətirənləri dost (vəli) tutsa, şübhəsiz ki, qalib gələcək olanlar, Allahın tərəfdarlarıdır. (Maidə surəsi, 56)

MİLADİ: 2055

Allah göylərin və yerin nurudur (1). Onun möminlərin qəlbində olan nuru, içində çıraq olan bir taxça kimidir; çıraq bir şüşə içərisindədir; şüşə, sanki inci kimi bir ulduzdur ki (2), şərqə və qərbə aid olmayan daim günəş şüaları altında qalan mübarək zeytun ağacından yandırılır. Onun yağı özünə od toxunmasa da, sanki işıq saçır. Bu, nur üstündə nurdur. Allah istədiyini Öz nuruna yönəldər (3). Allah insanlar üçün nümunələr verər. Allah hər şeyi Biləndir. (Nur surəsi, 35)

(1) MİLADİ: 1959

(2) MİLADİ: 2037

(3) MİLADİ: 1980

Rəbbinin nemətindən dayanmadan danış. (Duha surəsi, 11)

HİCRİ: 1376, MİLADİ: 1956

De: "Hər kəs gözləyir, siz də gözləyin. Sonunda, dümdüz (dosdoğru) yolun sahibləri kimlərmiş və doğru yola gələn kimlərmiş, çox yaxında öyrənəcəksiniz". (Taha surəsi, 135)

MİLADİ: 2023

And olsun, onlara öz aralarından bir elçi gəlmişdi, lakin onu yalançı hesab etdilər; beləcə onlar, zülmlərinə davam etdikləri zaman əzab onları yaxaladı. (Nəhl surəsi, 113)

MİLADİ: 2007

Şübhəsiz ki, sənə beyət edənlər Allaha beyət etmişlər. Allahın əli onların əllərinin üstündədir. Bu halda, kim əhdini pozsa, artıq o, ancaq öz əleyhinə pozmuş olar. Kim Allahla etdiyi əhdi yerinə yetirsə, artıq O da, ona böyük mükafat verəcək. (Fəth surəsi, 10)

MİLADİ: 2025

"Çəkinib rəhmətə qovuşmağınız üçün, aranızdan sizi xəbərdar edib qorxudacaq bir insan vasitəsi ilə bir zikr (kitab) gəlməsinə təəccübləndiniz?" (Əraf surəsi, 63)

HİCRİ: 1433, MİLADİ: 2011

"...Doğrusu, Allah sizin üçün onu seçdi və onun məlumat və bədən gücünü artırdı..." (Bəqərə surəsi, 247)

HİCRİ: 1418, MİLADİ: 1996

Sonra onların ardınca sizi yer üzündə xələflər etdik ki, görək necə davranacaqsınız. (Yunis surəsi, 14)

MİLADİ: 2048

ƏLBƏTTƏ, RƏBBİN SƏNƏ RAZI OLDUĞUN NEMƏTİ VERƏCƏK, beləcə sən məmnun qalacaqsan. (Duha surəsi, 5)

Miladi vav ilə 2015, vav-sız 2009

Əgər yaxşılıq etsəniz, özünüzə yaxşılıq etmiş olarsınız və əgər pislik etsəniz o da (öz) əleyhinizədir. Sonunda vəd gəldiyi zaman (yenə elə qullar göndərərik ki,) üzünüzü "pis vəziyyətə salsınlar" birincisində ona girdikləri kimi məscidə (Qüdsə) girsinlər və ələ keçirtdiklərini "darmadağın edib məhv etsinlər". (İsra surəsi, 7)

MİLADİ: 2019

Və heç şübhəsiz; bizim ordularımız üstün gələcək olanlar onlardır. (Saffat Surəsi, 173)

HİCRİ: 1410, MİLADİ: 1988 (şəddəli)

Elə isə kafirlərə itaət etmə və onlarla (Quranla) böyük MÜBARİZƏ apar. (Furqan surəsi, 52)

HİCRİ: 1400, MİLADİ: 1979

Rəbbimiz, içlərindən onlara bir elçi göndər, onlara ayələrini oxusun, Kitabı və hikməti öyrətsin və onları təmizləsin!... (Bəqərə surəsi, 129)

MİLADİ: 1980

Məhz qəlblərində xəstəlik olanları: "Zamanın, fəlakətləriylə əleyhimizə dönüb bizə toxunmasından qorxuruq" deyərək aralarında səy göstərdiklərini görərsən. Ümid edilir ki, Allah bir qələbə və ya dərgahından bir əmir gətirəcək ki, onlar nəfslərində gizlətdiklərindən ötrü peşman olacaqlar. (Maidə surəsi, 52)

MİLADİ: 1996

Və sevəcəyiniz başqa bir (nemət) daha var: Allahdan "kömək və zəfər (nüsrət)" və yaxın bir qələbə. Möminlərə müjdə ver! (Saff surəsi, 13)

HİCRİ: 1402, MİLADİ: 1981

Allah aranızdan iman gətirənlərə və saleh əməllər işləyənlərə vəd etmişdir: şübhəsiz ki, özlərindən əvvəlkiləri necə "güc və iqtidar sahibi" etdisə, onları da yer üzündə "güc və iqtidar sahibi" edəcək, özləri üçün seçib bəyəndiyi dinlərini özlərində hakim edib möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcək. Onlar yalnız Mənə ibadət edər və heç nəyi Mənə şərik qoşmazlar. Kim bundan sonra inkar etsə – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)

MİLADİ: 2013

Beləcə, Rəbbin səni seçəcək, sözlərin şərhindən sənə öyrədəcək və daha əvvəl ataların İbrahimə və İshaqa tamamladığı kimi, sənin və Yaqub ailəsi üzərindəki nemətini tamamlayacaq... (Yusif surəsi, 6)

HİCRİ: 1443, MİLADİ: 2020 (şəddəsiz)

Peyğəmbərləri onlara dedi ki: Allah sizə Talutu (məlik olaraq) göndərdi... (Bəqərə surəsi, 247)

HİCRİ: 1420, MİLADİ: 1998

Həqiqətən, biz ona yer üzündə çox möhkəm iqtidar verdik və ona hər şeydən bir yol (səbəb) verdik. (Kəhf surəsi, 84)

HİCRİ: 1440, MİLADİ: 2017 (şəddəli)

Beləcə ikisi, iki dənizin birləşdiyi yerə çatdıqda balığı unutdular; (balıq) dənizdə axına doğru öz yolunu tutdu. (Kəhf surəsi, 61)

HİCRİ: 1405, MİLADİ: 1984

Dedi: Rəbbimin məni möhkəm iqtidarla hakim qıldığı (güc, nemət və imkan) daha xeyirlidir. Madam ki, elədir, mənə (insani) güclə kömək edin ki, sizinlə onlar arasında möhkəm bir maneə yaradım. (Kəhf surəsi, 95)

HİCRİ: 1409, MİLADİ: 1987 (şəddəsiz)

Ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Halbuki kafirlər istəməsə də, Allah Öz nurunu tamamlamaqdan başqasını istəmir. (Tövbə surəsi, 32)

HİCRİ: 1423, MİLADİ: 2002

Yoxsa onlar: "Allaha qarşı yalan uydurmuşdur!" deyirlər? Halbuki əgər Allah istəsə, sənin qəlbinə möhür vurar. Allah, batili yox edib ortadan qaldırar və öz sözləri ilə haqqı haqq olaraq gücləndirər (gerçəkləşdirər). Çünki O, kökslərdə olanı biləndir. (Şura surəsi, 24)

MİLADİ: 2014

Bir zaman Məryəm oğlu İsa da: "Ey İsrail oğulları! Həqiqətən, mən sizin üçün Allahdan göndərilmiş bir elçiyəm. Məndən əvvəlki Tövratı təsdiqləyən və məndən sonra adı "Əhməd" olan bir elçinin də müldələyicisiyəm" demişdi. Lakin o, onlara açıq-aydın dəlillər gəldikdə: "Bu, açıqca sehrdir!" dedilər. (Saff surəsi, 6)

MİLADİ: 2011

Şübhəsiz ki, O (İsa) qiyamət saatı üçün bir elmdir (əlamətdir). Elə isə ondan yana heç bir şübhəyə qapılmayın və Mənə tabe olun. Dosdoğru yol budur. (Zuxruf surəsi, 61)

MİLADİ: 2026

Onlar ki, onları yer üzündə yerləşdirsək, iqtidar sahibi etsək, namazı dosdoğru qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin sonu Allaha aiddir. (Həcc surəsi, 41)

HİCRİ: 1400, MİLADİ: 1979

Yaratdıqlarımızdan haqqa yönəldən və onunla ədaləti tətbiq edən bir ümmət var. (Əraf surəsi, 181)

MİLADİ: 1987

Artıq xeyr; and içirəm (gündüz) yox olub (gecə) dönən (planet) lərə, müəyyən axın içində yerini tutanlara... (Təkvir surəsi, 15-16)

HİCRİ: 1459, MİLADİ: 2036

(Peyğəmbərlər) qələbə istədilər. Sonunda hər inadkar dikbaş məğlubiyyətə uğrayaraq (yox olub) getdi. (İbrahim surəsi, 15)

MİLADİ: 1993

Onlar ki, yanlarındakı Tövrat və İncildə (gələcəyinin) yazılmış olduğunu görəcəkləri ümmi xəbər gətirən (Nəbi) olan elçiyə (Rəsula) itaət edərlər; o, onlara marufu (yaxşılığı) əmr edir, münkəri (pisliyi) qadağan edir, təmiz şeyləri halal, murdar şeyləri isə haram edir və onların ağır yüklərini, üzərlərindəki zəncirləri endirir. Ona iman gətirənlər, dəstək olub müdafiə edənlər, kömək edənlər və onunla birlikdə endirilən nuru izləyənlər; məhz onlar nicat tapanlardır. (Əraf surəsi, 157)

MİLADİ: 2025

Allah üçün lazımınca cihad edin. O, sizi seçmiş və din mövzusunda sizə çətinlik yaratmamışdır, atanız İbrahimin dinində olduğu kimi, (1). O (Allah) bundan daha əvvəl də, bunda (Quranda) da sizi "müsəlmanlar" adlandırdı (2); elçi sizin üzərinizdə şahid olsun, siz də insanlar üzərində şahid olasınız deyə (3). Artıq dosdoğru namazı qılın, zəkatı verin və Allaha sarılın, sizin mövlanız Odur. Budur, O necə də gözəl Mövla, necə də gözəl Yardımçıdır. (Həcc surəsi, 78)

(1) MİLADİ: 1911

(2) MİLADİ: 2034

(3) MİLADİ: 2026

Bir də deyirlər ki; "Rəbbindən üzərinə bir ayə (möcüzə) endirilsin görək!.." De: "Qeyb ancaq Allaha məxsusdur, siz gözləyin; mən də sizinlə birlikdə gözləyənlərdənəm". (Yunis surəsi, 20)

MİLADİ: 2002 (şəddəsiz)

Məhz göyün və yerin Rəbbinə and olsun ki, şübhəsiz ki, o (sizə vəd edilən) sizin (aranızda) danışdıqlarınız qədər, əlbəttə, qəti həqiqətdir. (Zariyat surəsi, 23)

HİCRİ: 1459, MİLADİ: 2036

Sonunda onlar özlərinə vəd ediləni gördükləri zaman, köməkçi olmaq baxımından kimin daha zəif və say baxımından kimin daha az olduğunu artıq öyrənmiş olacaqlar. (Cin surəsi, 24)

MİLADİ: 1995 (şəddəli və tənvinli)

Onları mərhəmətimizə qovuşdurduq, şübhəsiz ki, onlar saleh kimsələr idi. (Ənbiya surəsi, 86)

MİLADİ: 2066

(Uşağın doğulub böyüməsindən sonra ona dedik:) "Ey Yəhya, Kitabdan möhkəm yapış". Hələ uşaq ikən ona hikmət verdik. (Məryəm surəsi, 12)

MİLADİ: 2067

Bu halda sən səbr et. Həqiqətən, Allahın vədi haqdır. Günahın üçün bağışlanma dilə; axşam və səhər Rəbbini həmd ilə təqdis et. (Mümin surəsi, 55)

MİLADİ: 2001

"Ey Davud! Həqiqət budur ki, Biz səni yer üzündə xəlifə təyin etdik (1). Elə isə insanlar arasında ədalətlə hökm et, arzu və ehtiraslara (nəfsə) uyma (2); sonra səni Allahın yolundan azdırar. Şübhəsiz ki, Allah yolundan azanlara, haqq-hesab gününü unutduqları üçün şiddətli əzab var". (Sad surəsi, 26)

(1) MİLADİ: 2021

(2) HİCRİ: 1446, MİLADİ: 2023

Onun mülkünü möhkəmləndirmişdik. Ona hikmət və valehedici izahat qabiliyyəti bəxş etmişdik. (Sad surəsi, 20)

HİCRİ: 1426, MİLADİ: 2004

Biz də ona həlim xasiyyətli bir uşaqla müjdə verdik. (Saffat surəsi, 101)

MİLADİ: 2019 (şəddəli)

Deyərlər: "Əgər doğru deyirsinizsə, bu qələbə nə vaxtdır?" (Səcdə surəsi, 28)

MİLADİ: 2041

Yaxud: "Onda divanəlik var" deyirlər? Xeyr, o, onlara haqq ilə gəlmişdir və onların əksəriyyəti haqqı çirkin qarşılayır. (Muminun surəsi, 70)

MİLADİ: 2022 (şəddəsiz)

Onlardan əvvəlkilər də hiylə qurmuşdular; lakin hiylə qurmağın (tədbirlərin, qarşılıq verməyin) hamısı Allaha məxsusdur (1). Hər bir nəfsin nə qazandığını O bilir. Bu yurdun sonu kimindir, inkar edənlər çox yaxında biləcəklər (2). (Rad surəsi, 42)

(1) MİLADİ: 1988

(2) MİLADİ: 1990 (şəddəsiz), 2974 (şəddəli)

Onlar özlərinə mələklərin, yaxud Rəbbinin yaxud da Rəbbinin bəzi ayələrinin (əlamətlərinin) gəlməsini gözləyirlər? Rəbbinin bəzi ayələri (əlamətləri) gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış insana iman gətirməsi fayda verməyəcək. De: “Gözləyin, şübhəsiz ki, Biz də gözləyirik”. (Ənam surəsi, 158)

MİLADİ: 1983

Özlərinə haqq gəldikdə onu yalan saydılar (1); lakin lağa qoyduqlarının xəbərləri onlara gələcək (2). (Ənam surəsi, 5)

(1) MİLADİ: 2015, (2) MİLADİ: 1990

Ey insanlar, şübhəsiz elçi sizə Rəbbinizdən haqqla gəldi. Elə isə iman gətirin, sizin üçün xeyirlidir. Əgər inkar etsəniz, şübhəsiz ki, göylərdə və yerdə olanların hamısı Allahındır. Allah biləndir, hökm və hikmət sahibidir. (Nisa surəsi, 170)

MİLADİ: 2014

# Nəticə:
# Hz. İsa (ə.s)-ın mübarək dövrü

Kitab boyunca hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gələcəyini və bu gəlişin yaxın olduğunun əlamətlərini, Quran ayələri, Peyğəmbərimiz (s.ə.v)-in hədisləri, İslam alimlərinin açıqlamaları, həmçinin İncildən müxtəlif izahlarla təfsilatlı şəkildə açıqladıq.

Quran ayələrində hz. İsa (ə.s)-ın Allah qatına alınması xəbər verilir və yer üzünə ikinci dəfə gəlişi müxtəlif əlamətlərlə bizə bildirilir. Peyğəmbərimiz (s.ə.v)-in də; **"...vallah mütləq və mütləq Məryəm oğlu İsa enəcək, həm ədalətli bir hakim, ədalətli bir hökmdar olaraq enəcək..."** *(Sahih-i Müslim bi Şerhin-Nevevi, 2-ci cild, səh. 192)* kimi bir çox hədisində hz. İsa (ə.s)-ın gəldiyi zaman görəcəyi işlər və o dövrün xüsusiyyətləri müxtəlif nümunələrlə izah edilir. Bu açıqlamalar heç bir şübhəyə yer verməyəcək qədər açıq, ətraflı və yaşadığımız dövrdə baş verən hadisələrlə uyğundur. Necə ki, əsrlər boyunca İslam alimləri də əsərlərində hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gəlişi ilə əlaqədar çox önəmli şərhlər vermiş, Axırzamanda necə bir mühit yaranacağını insanlara çatdırmışlar. İncildə də hz. İsa (ə.s)-ın yer üzünə gəlişinə dair çox açıq izahlar var.

Məhz kitab boyunca təfsilatlı şəkildə araşdırdığımız bütün bu dəlillər və dünyada yaşanan hadisələr diqqətlə cəm edildikdə hz. İsa (ə.s)-ın gəlişinə ən çox 15-20 il qaldığı, bəlkə də, hz. İsa (ə.s)-ın gəlmiş belə ola biləcəyi ortaya çıxır. Bu, yer üzündəki bütün insanlar üçün çox böyük müjdədir, sevinc və şövq mənbəyidir.

Unudulmamalıdır ki, hz. İsa (ə.s), Allahın, dünyaya gəlməsindən etibarən möcüzəvi həyatla nemət bəxş etdiyi və peyğəmbərlik məqamı ilə şərəfləndirdiyi mübarək bir elçisidir. Allah bu mübarək peyğəmbərin; **"dünyada və axirətdə "seçilən, şərəfli və hörmətli" və (Allaha) yaxın edilənlərdən"** (Ali İmran surəsi, 45) olduğunu bildirərək onu cənnətlə müjdələmişdir. Məhz buna görə də, yer üzünə ikinci dəfə gələcək bu mübarək peyğəmbəri, bütün insanlar mümkün qədər ən gözəl şəkildə qarşılamalıdırlar. Məhdud imkanlı bir insan belə, evinə adi bir qonaq gələcəyi zaman, neçə gün əvvəldən hazırlıq görər, bu qonağı ən təmiz və ən gözəl şəkildə qonaq qəbul etməyə, qulluqda qüsur etməməyə diqqət göstərər. Halbuki hz. İsa (ə.s) bütün dünya insanları üçün, heç bir qonaqla müqayisə edilməyəcək qədər üstün xüsusiyyətlərə sahib, çox qiymətli bir qonaqdır. Buna görə də, bütün insanlar yaxın zamanda yer üzünü şərəfləndirəcək bu ulul-əzm peyğəmbəri ən gözəl şəkildə qarşılamalıdırlar.

Hz. İsa (ə.s)-ın gəlişi bütün insanlar üçün çox böyük bir nemət, Allahdan çox böyük bir lütfdür. Bu qiymətli peyğəmbərlə qarşılaşmaq Rəbbimizdən gələn çox böyük nemətdir. Hz. İsa (ə.s) gəldiyi zaman məsum, tərtəmiz və nurlu üzü, hikmətli, ağıllı və məqsədəuyğun danışıqları ilə dərhal diqqəti çəkəcək, dünyadakı bütün insanlar həyatlarında ilk dəfə ən yüksək insani xüsusiyyətlərə sahib mübarək bir peyğəmbər görəcəklər. Onun doğumu, həyatı, Allah qatına alınması və yer üzünə ikinci dəfə gəlişi

kimi, bu gəlişdən sonrakı həyatı da Allahın icazəsi ilə möcüzələrlə dolu olacaq. Bütün insanlar onun üstün əxlaqına və bənzərsiz ağlına heyran olacaqlar. Onun söylədiyi hər söz, etdiyi hər hərəkət hikmətli, aldığı hər qərar məqsədəuyğun və Allahın ilhamı ilə olacaq.

Bütün insanların, xüsusilə də İncilə iman gətirən isəvilərin və Quran ayələrinə iman gətirən müsəlmanların hz. İsa (ə.s)-ın gəlişi üçün həyəcanla, şövqlə və çox böyük coşğuyla hazırlıq görmələri lazımdır. Bu insanların arasında, Allahın cənnətlə müjdələdiyi bu qiymətli peyğəmbərin gəlişi üçün hazırlıq görməyənlər isə çox böyük səhv edirlər.

Çünki gəlişi İlahi kitablar və elçilərin sözləri ilə xəbər verilmiş bu cür mühüm bir qonağı qarşılama məsələsində ediləcək zəiflik və tənbəllik çox böyük vicdansızlıqdır. Allahın ayələrinə iman gətirən, dünyada baş verən hadisələri və Axırzamanın əlamətlərini ağlı və vicdanı ilə qiymətləndirən heç bir insan bu mübarək qonaq üçün hazırlıq görmədən gözləyə bilməz. Yaxud; "hz. İsa (ə.s)-ın yer üzünə ikinci dəfə gələcəyinə iman edirəm" dedikdən sonra; "lakin indi hazırlıq görməyim, daha sonra əvəzini verərəm" deyə bir düşüncəsi də ola ilməz. Hansı vicdan sahibi, səmimi bir insan bu müjdəli dövr gəldiyi zaman; "biz hz. İsa (ə.s)-ı gözləyirdik, lakin bunun üçün hazırlıq görməyi lazım bilmədik" deyə bir açıqlama verə biləcək? Əgər bu insanlar hələ də hazırlıq görməmələrini, 15-20 ili uzun müddət kimi görmələriylə açıqlayırlarsa bu çox yanlış düşüncədir. Çünki onlar da 15-20 ilin, 15-20 gün kimi sürətlə keçib gedəcəyini görəcək, hz. İsa (ə.s)-ın gəlişinə biganə qaldıqları üçün çox böyük peşmançılıq yaşayacaqlar. Heç kim unutmamalıdır ki, 1970-ci illərdə yaşayan insanlar da 1980-ci illəri, 90-cı illəri çox uzaq görürdülər. Lakin zaman sürətlə gəlib keçdi və 2000-ci illər bir anda gəldi. Eynilə bu şəkildə, hz. İsa (ə.s) ilə qarşılaşacağımız gün də Allahın icazəsi ilə çox sürətlə gələcək.

Hz. İsa (ə.s) gəlmədən əvvəl görülməsi lazım hazırlığın necə olmasının lazım olduğunu həm Quran ayələrindən, həm Peyğəmbərimiz (s.ə.v)-in hədislərindən, həm də Bədiüzzaman Səid Nursi kimi böyük İslam alimlərinin hikmətli şərhlərindən anlayırıq. Bu hazırlığın ən mühüm mərhələsi isə, yer üzündəki din əleyhdarı sistemlərlə aparılacaq fikri mübarizədir.

Bədiüzzamanın da diqqət çəkdiyi kimi, bütün iman sahibləri darvinizm və materializm kimi insanları din əxlaqından uzaqlaşdıran ateist ideologiyalarla fikri mübarizədə ittifaq yaratmalı; bu kimi cərəyanların dünyadan silinmələrində birlik olmalıdırlar. Bunun üçün bütün imkanlarıyla, hz. İsa (ə.s)-ın dinsizliklə aparacağı mübarizədən əvvəl dünya səviyyəsində böyük hazırlıq görməlidirlər. Necə ki, hədislərdə bildirildiyi kimi, hz. İsa (ə.s) gəldiyi zaman bəhs olunan dinsiz cərəyanlarla mübarizə aparacaq. Bədiüzzaman Səid Nursinin də bir sözündə ifadə etdiyi kimi, əlində "səmavi qılınc" ilə, yəni Allahın vəhyi ilə hərəkət edəcək, bu sayədə hər qərarı məqsədəuyğun olacaq və bütün dinsiz sistemləri ortadan qaldıracaq. *(Mektubat, səh. 6)*

Qəti unutmamaq lazımdır ki, hz. İsa (ə.s)-ın gəlişi dünyanın yalnız müəyyən bölgələrinə təsir edəcək bir hadisə deyil. Onun gəlişi bütün dünyaya təsir edəcək gücdə, möcüzəvi və metafizik hadisədir. Bu mübarək peyğəmbərin gəlişi ilə dünya səviyyəsində

ictimai və siyasi sahələrdə köklü dəyişiklər olacaq, bütün dünya hz. İsa (ə.s)-ın ətrafında toplanıb birləşəcək. Məhz buna görə də, bütün xristianlar və müsəlmanlar tezliklə hərəkətə keçməli və birlik içində hz. İsa (ə.s)-ı ən gözəl şəkildə qarşılamaq üçün əllərindəki bütün imkanları səfərbər etməlidirlər. Tək bir Allaha iman gətirən, Onun rəğbətini qazanmağa çalışan, Ona tam təslim olmuş, Ona qəlbən bağlı olan, Onu ucaldan, təməldə eyni dəyərləri müdafiə edən xristian və müsəlmanların ortaq hərəkət etmələri ən doğrusudur. Həm xristianların, həm də müsəlmanların bir-birlərinə tolerantlıq, sevgi, anlayış və sülhlə yaxınlaşmalarının lazım olduğu aydındır. Əsrlərdir davam edən çəkişmələrə, ön mühakimələrə, yanlış anlaşılmalara artıq son qoyulmalıdır. Çünki itiriləcək vaxt yoxdur.

## Hz. İsa (ə.s)-ı necə tanıya bilərik?

Səmimi iman sahiblərinin hz. İsa (ə.s)-ı tanıması olduqca asan olacaq. Daha əvvəl də ifadə etdiyimiz kimi, hz. İsa (ə.s), peyğəmbər əlamətlərindən dərhal tanınacaq. Sahib olduğu üstün ağıl və hikmətlə digər insanlardan fərqlənəcək.

Həmçinin yer üzünə ilk gəlişində olduğu kimi, ikinci dəfə gəlişində də Allahın icazəsi ilə bir çox möcüzəsi olacaq. Bütün insanlara Allahın dininin haqq olduğunu göstərəcək, üstün gələcək olanların həmişə Allahın tərəfdarları olduğunu sübut edəcək. Rəbbimizin; **"kim Allahı, Rəsulunu və iman gətirənləri dost (vəli) tutsa, şübhəsiz ki, qalib gələcək olanlar, Allahın tərəfdarlarıdır"** (Maidə surəsi, 56) ayəsinin təcəlli etməsinə vəsilə olacaq.

Həmçinin hz. İsa (ə.s), yer üzündə heç bir qohumu və tanıyanı olmamasıyla tanınacaq. Onu, Məsih olduğunu iddia edən saxta insanlardan fərqləndirən ən mühüm fərqlərdən biri dünyada anası, atası, hər hansı qohumu, dostu, tanıyanı olmaması olacaq.

Kitabın əvvəlki hissələrində də açıqladığımız kimi, hz. İsa (ə.s) Allahın "ol" əmri ilə atasız dünyaya gəlmişdir. Allah, hz. İsa (ə.s)-ın bu vəziyyətini Quranda hz. Adəm (ə.s)-ın yaradılışına bənzədir və belə buyurur:

**Şübhəsiz ki, Allah qatında İsanın vəziyyəti Adəmin vəziyyəti kimidir. Onu torpaqdan yaratdı, sonra ona "ol" deməsiylə o da dərhal oldu. (Ali İmran surəsi, 59)**

Ayədə də bildirildiyi kimi, Allah hz. Adəm (ə.s)-a "ol" demişdir və hz. Adəm (ə.s) yaradılmışdır. Məhz hz. İsa (ə.s)-ın ilk yaradılışı da Allahın "ol" deməsi ilə gerçəkləşmişdir. Hz. Adəm (ə.s)-ın ana və atası yoxdur, hz. İsa (ə.s)-ın ilk dünyaya gəlişində isə təkcə anası hz. Məryəm vardır; lakin yer üzünə yenidən gələcəyi ikinci dəfə də onun anası da həyatda olmayacaq. Aradan əsrlər keçdikdən sonra tanınan heç bir qohumu olmadan yer üzündə olacaq.

Şübhəsiz ki, bu sayədə hz. İsa (ə.s)-ın yer üzünə yenidən gəlişində, onun hz. İsa (ə.s) olduğundan şübhə edilə biləcək vəziyyət yaranmayacaq. Buna görə də, hz. İsa (ə.s)-ı saxta məsihlik iddia edənlərdən fərqləndirmək olduqca asan olacaq. Çünki bütün uşaqlığı insanlar arasında keçmiş, çox sayda uşaqlıq şəklinə sahib, özünü kiçikliyindən etibarən tanıyan çoxsaylı insanı sahib bir insanın hz. İsa (ə.s) olduğunu iddia etməsi olduqca məntiqsizdir.

## Qızıl əsr müjdəsi

Peyğəmbərimiz (s.ə.v)-dən nəql edilən bir çox hədisdə, yer üzündə İslam əxlaqının hakim olacağı bir dövrün yaşanacağına diqqət çəkilir. Məhz bu dövr hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın yer üzündə olacağı, Quran əxlaqının hakim olacağı dövrdür. "Qızıl əsr" adıyla da bilinən bu dövr, hədislərdən də aydın olacağı kimi "əsri-səadət" dövrünə bənzər bir dövr olacaq. Peyğəmbərimiz (s.ə.v)-in bu dövrü təsvir edərkən cənnətə bənzər xüsusiyyətlərlə bəhs etməsindən ötrü bu dövrə "Qızıl əsr" adı verilmişdir.

Kitabın əvvəlki hissələrində Axırzamanın ilk mərhələsində insanların yaşayacağı sıxıntı və çətinliklərdən təfsilatlı şəkildə danışdıq. Hz. İsa (ə.s)-ın gəlişinin də əlamətləri olan bu hadisələrin dərhal ardından insanları Qızıl əsr kimi bənzərsiz bir dövr gözləyir. Bu, insanlar üçün böyük müjdədir. Hər növ məhsul və mal bolluğu, təhlükəsizlik, güvən və ədalətin təmini, dinclik və səadət, hər cür texnoloji yenilikdən insanların rahatlığı, komfortu, sevinci və xoşbəxtliyi üçün istifadə edilməsi, ehtiyac içində olan kimsənin qalmaması, istəyənə istədiyindən sayılmadan, qat-qat çox verilməsi, Qızıl əsrin müəyyən xüsusiyyətlərindəndir. Hədislərdə bu dövrdə "silahların susacağı"nın bildirilməsi, bu dövrdə yer üzünün sülhlə dolacağının da müjdəsidir. Qızıl əsrdə, əvvəllər aralarında düşmənçilik olan xalqlar arasında çox böyük qardaşlıq yaşanacaq, hər cür döyüşün yerini sülh, dostluq və sevgi tutacaq.

Texnoloji yeniliklər Axırzamanın bu mərhələsində yüksək həddə çatacaq, insanlar texnologiyanın bütün nemətlərindən mümkün qədər istifadə edə biləcəklər. Təbabətdə, kənd təsərrüfatında, rabitədə, sənaye texnologiyasında və nəqliyyatda çox böyük inkişaflar yaşanacaq, davamlı yeni ixtiralar ediləcək. Hər yeni ixtira başqasına liderlik edəcək, inkişaflar çox böyük sürət qazanacaq.

Sənətdə çox böyük irəliləyişlər olacaq, bir-birindən gözəl əsərlər ortaya çıxacaq, Allaha olan imanın insanlara qazandırdığı geniş üfüq və dərin düşüncə bütün sənət sahələrinə öncülük edəcək. İnsanlar Qızıl əsrdə həyatlarından o qədər məmnun olacaqlar ki; bir hədisin ifadəsinə görə "zamanın necə keçdiyini bilməyəcək, bu gözəlliklərdən daha çox istifadə etmək üçün Allahdan ömürlərinin uzadılmasını istəyəcəklər". Peyğəmbərimiz (s.ə.v)-in digər bir sözündə Axırzamandakı mühit belə təsvir edilir:

*...Kiçiklər; kaş ki, mən böyük olsaydım, böyüklər də; kaş ki mən kiçik olsaydım deyə təmənni edərlər... Yaxşı insanların yaxşılığı artar, pislərə qarşı belə yaxşılıq edilər". (Kitab-ul Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 17)*

Hz. İsa (ə.s)-ın yer üzündə olacağı Qızıl əsr ilə əlaqədar Peyğəmbərimiz (s.ə.v)-in digər müjdələrinin bəziləri isə belədir:

## Qızıl əsrdə görünməmiş bolluq olacaq

*"Ümmətimin sonunda elə bir dövlət rəisi olacaq ki, ovuc-ovuc mal və pul toplayacaq və bu malı adəti üzrə tək-tək saymayacaq". (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 433)*

*Hz. Mehdi (ə.s) insanlara malı və əşyanı paylayarkən, saymadan bol-bol verəcək. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 24)*

*...Yer üzü içindəki xəzinələri çölə atacaq. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 45)*

*...Yer, içərisində gizlətdiyi bütün zənginliklərini, qızıldan və gümüşdən sütunlar halında çölə atacaq. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 464)*

*Məryəm oğlu (İsa) enər və Dəccalı yox edər. Ondan sonra qırx il bol nemət içində yaşayarsınız. (Kitab-ul Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 90)*

*Hər tərəfdə yemək qazanları qaynayacaq, misli görünməmiş bolluq yaşanacaq, mala rəğbət olmayacaq. (El-Kavlul Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 66)*

*Hz. İsa (ə.s)-ın zəkatı tərk etməsi də, malın bolluğu və zəkata möhtac olan kasıbın qalmamasından ötrüdür. (Sünen-i İbn-i Mace, 10/339)*

*İnsan bir qab buğdanı öküzsüz və sapandsız əkəcək, qarşılığında yeddi yüz qab buğda götürəcək. (İmam Suyuti, Kıyamet Alametleri, Ölüm ve Diriliş, səh. 184)*

*Artıq o gün (elə bolluq olar ki, 10-la 40 insan arasında) bir camaat tək bir nar meyvəsindən yeyib doyarlar və o nar qabığı ilə də kölgələnər. Südlərə də Allah tərəfindən o qədər bərəkət verilər ki, təkcə bir süd verən dəvənin südü böyük bir insan cəmiyyətinə mütləq kifayət edər. Bir süd verən inəyin südü insanlardan bir qəbiləyə mütləq kifayət edər. Bir süd verən qoyunun südü qohumlardan ibarət bir nəslə mütləq kifayət edər. (Ölüm-Kıyamet-Ahiret, səh. 493)*

## Həyat bahalılığı və darlıq illəri bitəcək

*...Mal da o qədər çoxalacaq ki, heç kim mal qəbul etməyəcək. (Sünen-i İbn-i Mace, 10/340)*

*...Elə bir zaman gələcək ki, o zamanda insan (ayırdığı) qızıl sədəqəsiylə (tərəf-tərəf) gəzəcək, sonra əlindən sədəqəsini alacaq heç bir (kasıb) kimsə tapa bilməyəcək. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 462)*

*...O zaman ümmətimə nemət veriləcək, heyvanlar bolluq içində olacaq və yerin nəbatatı həddən çox olacaq... (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 26)*

*...Şübhəsiz ki, o zamanda mal çoxalıb su kimi axacaq ki, onu heç kim (tənəzzül edib) qəbul etməyəcək. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 464)*

## Yer üzü sülhlə dolacaq, qarğaşalıq və çətinliklər aradan qalxacaq

*Qab su ilə dolduğu kimi yer üzü sülhlə dolacaq. Heç bir insan arasında düşmənçilik qalmayacaq. Həmçinin bütün düşmənçiliklər, boğuşmalar, həsədləşmələr mütləq bitəcək. (Sahih-i Müslim, 1/136)*

*Döyüş (ərbabı) da ağırlıqlarını (silah və vəsaitlərini) yerə qoyacaq. (Sünen-i İbn-i Mace, 10/334)*

*Döyüş (ərbabı) ağırlıqlarını (yəni silah və sairəni) yerə qoyar. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 496)*

*Düşmənçilik, küsüşmə və qısqanclıq ortadan qalxacaq. (Ebu Hureyre r.a, Büyük Hadis Külliyatı, Rudani, 5-ci cild, səh. 379)*

*İslamdan başqa (heç bir dini) qəbul etməyəcək... Din müttəhid (birləşmiş) olacaq... Allahdan başqa heç kimə və heç nəyə ibadət edilməyəcək... Zəkat qəbul edəcək heç kim olmayacağından zəkat və sədəqəni tərk edəcək... Zamanında xəzinələr və dəfinələr meydana çıxacaq. Qiyamətin yaxınlaşdığını bildiyi üçün, çox mal qazanmağa rəğbət etməyəcək... İnsanlar arasında səbəbləri ortadan qalxdığı üçün kin və düşmənçiliyə yer verməyəcək...*

*Zəhərli həşərat və heyvanlardan zəhəri aradan qaldıracaq, uşaqlar ilan və əqrəblərlə oynayacaq... Onların uşaqlara zərəri toxunmayacaq. Qurd qoyunla otlayacaq da qoyuna zərəri toxunmayacaq... Yer üzü sülh və salamatlıqla dolacaq, mübarizə və döyüşlər, müharibə və hücumlar aradan qalxacaq... yer üzü nəbatatını eynilə Adəm (ə.s) zamanında olduğu kimi bitirəcək. Bir salxım üzümlə bir güruh (dəstə) insan doyacaq. Atlar sərbəst buraxılacaq, öküzlərə ehtiyac görüləməyəcək... Çünki yer üzü öz-özünə əkiləcək... (Kıyamet Alametleri, səh. 242-243)*

*İsa (ə.s) ümmətim içində, ədalətli bir hakim, tam ədalətli bir imam (hökmdar) kimi mövcud olar. (Xristianların) xaçını sındırar (xristianlıqdakı hz. İsanın öldürüldüyünə dair inancı dəyişdirər), donuzu öldürər (donuzun zərərli bir yemək olduğu mövzusunda insanları xəbərdar edərək insanlardakı donuza olan marağı yox edər), cizyə vergisini ləğv edər, sədəqəni tərk edər də, nə qoyuna, nə də dəvəyə qarşı etibar edilməz. Bütün düşmənçiliklər, nifrətlənmələr zail olar, yox olar... Yer üzü gümüş qab kimi olar və həzrəti Adəm zamanındakı kimi (bol) bitkilərini bitirər... (Ölüm-Kıyamet-Ahiret, səh. 496)*

*Sonra İsa, ümmətimin içində ədalətlə hökm edəcək; xaçı sındıracaq (xristianlıqdakı hz. İsanın öldürüldüyünə dair inancı dəyişdirəcək), donuzu öldürəcək (donuzun zərərli yemək olduğu mövzusunda insanları xəbərdar edərək insanlardakı donuza olan marağı yox edəcək), cizyəni ləğv edəcək, zəkatı tərk edəcək. Nə qoyuna, nə də dəvəyə zəkat məmuru göndərilməyəcək. İnsanlar arasındakı düşmənçiliklər və kin yox olacaq. Əqrəb və ilanların zəhərləri olmayacaq, hətta bir uşaq əliylə ilanla oynayacaq, lakin ilan onu sancmayacaq. Qız uşağı şiri qaçmağa məcbur edəcək, lakin aslan ona dəyməyəcək. Qurd, qoyunlar arasında sanki bir çoban iti imiş kimi gəzəcək. Qabın su ilə dolduğu kimi, yer üzü din birliyi ilə dolacaq. Allahdan başqa heç kimə sitayiş edilməyəcək. Müharibə, döyüş adlı heç nə qalmayacaq. Qureyş qəbiləsindən hökmdarlığı alınacaq. Yer üzü gümüş süfrəsi kimi olacaq. Bitkisini Adəmin zamanındakı kimi bitirəcək. Bir salxım üzümlə bir nəfər doyacaq. Bir qrup insan tək narla doyacaq. Bir öküzün qiyməti bu qədər olacaq, bir neçə dirhəmlə bir at satın alınacaq". Deyildi ki; "Ey Allahın Rəsulu! Niyə at bu qədər ucuz olacaq?" "Müharibə olmayacağı üçün ona lüzum qalmayacaq". "Niyə öküz bu qədər bahalı olacaq?" "Yer üzünün hər yeri əkiləcəyi üçün o, çox lazım olacaq. (İbn Macə bənzərini Əbu Ümamədən nəql etdi, Büyük Hadis Külliyatı, Rudani, 5-ci cild, səh. 370-371-372)*

*Sonra qırx il ömür sürəcək. Onun zamanında heç kim ölməyəcək. İnsan, qoyun və heyvanlarına (haydi gedin, otlayın) deyəcək; onlar gedəcəklər, əkinin ortasından keçdikləri halda bir sünbül belə ağızlarına almayacaqlar. İlan və əqrəblər heç kimə əziyyət verməyəcəklər. Yırtıcı heyvanlar qapılarının qarşısında dayanacaq, lakin heç kimə zərərləri toxunmayacaq. (İmam Suyuti, Kıyamet Alametleri, Ölüm ve Diriliş, səh. 184)*

*Hz. İsa (ə.s) zamanında Dəccal həlak olacaq. Yer üzünə güvən gələcək. Belə ki, şirlər dəvələrlə, pələnglər inəklərlə, qurdlar qoyunlarla birlikdə yayılacaq. Uşaqlar ilanlarla oynayacaq və ilanlar uşaqlara zərər verməyəcək. (Risaletül Meşreb elverdi fi mezhebil Mehdi)*

## Hz. İsa (ə.s) yeni bir din gətirməyəcək

*Qırx (40) il Allahın kitabı və mənim sünnəmlə hökm edər, vəfat edər. (Kitab-ul Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 92)*

*Hz. İsa ümməti-Məhəmmədə (Məhəmməd ümmətinə) peyğəmbər kimi deyil; şəriəti-Məhəmmədiyəyi (Məhəmməd (s.ə.v)-in şəriətini) tətbiq etmək üçün gələcəkdir, deyir. (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 68)*

*Hz. İsa (ə.s) enəcək və Rəsulullah (s.ə.v)-in şəriətinə tabe olacaq. (Mektubat-ı Rabbani, 2/1309)*

*Həzrəti Məhəmməd (s.ə.v)-in şəriəti əsasında hökm verəcək, özü Peyğəmbər olduğu halda, Peyğəmbərə tabe olacaq və Məhəmməd (s.ə.v)-in ümmətindən olacaq.*

*Peyğəmbərin ümməti və səhabəsi olacaq... Elə isə o, səhabələrin ən üstünü olacaq... (Kıyamet Alametleri, səh. 243)*

*Onunla (İsa ilə) mənim aramda heç bir peyğəmbər yoxdur. O, şübhəsiz ki, enəcək. Onu gördüyünüz zaman tanıyın! O, ortaboylu, ağaçalar qırmızı rəngdədir. Sarıya boyanmış iki paltar içində olacaq. Yağış yağmasa da saçından su damlayacaq. İnsanlarla İslam üçün vuruşacaq. Məsih-Dəccalı yox edəcək, sonra yer üzündə tam qırx il qalacaq. Sonra öləcək və namazını müsəlmanlar qılacaq. (Buhari, Müslim, Ebu Davud ve Tırmizi, Büyük Hadis Külliyatı, Rudani, 5-ci cild, səh. 380)*

# Qeydlər


1) *The Messianic Legacy* (Mesihsel Miras), Michael Baigent, Richard Leigh ve Henry Lincoln, Gorgi Books, London: 1991, səh. 171-172

2) *The Messianic Legacy* (Mesihsel Miras), Michael Baigent, Richard Leigh ve Henry Lincoln, səh. 172

3) *The Messianic Legacy* (Mesihsel Miras), Michael Baigent, Richard Leigh ve Henry Lincoln, səh. 451

4) *Yüce Kur'an'ın Çağdaş Tefsiri*, Prof. Dr. Süleyman Ateş, 2-ci cild, səh. 49-50

5) Elmalılı Hamdi Yazır, http://www.kuranikerim.com/telmalili/zuhruf.htm

6) *Faslu'l-Makal fi Ref'l İsa Hayyen ve Nüzulihi ve Katlihi'd-Deccal*, Muhammed Halil Herras, Mektebetü's Sünne, Kahire, 1990, səh. 20

7) *Taberi Tefsiri*, İmam Taberi, 2-ci cild, səh. 528; 1-ci cild, səh. 247

8) Osmanlıca-Türkçe Ansiklopedik Büyük Lügat, Türdav, İstanbul, 2000, səh. 997

9) *Muhtasar-ı Seyyid-i Şerif*, səh. 46; *Nüzul-i Mesih Risalesi*, Ahmed Mahmud Ünlü, Ekmel nəşriyyatı, İstanbul, 1998, səh. 167

10) *Fıkh-ı Ekber*, Ebu Hanife, Nu'man b. Sabit (150/767), tərcüməçi: H. Basri Çantay, Ankara, 1982

11) *Levamiu'l Envaril Behiyye*, es-Seffarini, 2/94-95; *Nüzul-i Mesih Risalesi*, Ahmet Mahmut Ünlü, Ekmel nəşriyyatı, İstanbul, 1998, səh. 169

12) *Ruhu'l Meani*, Seyyid Alusi, 7/60; *Nüzul-i Mesih Risalesi*, Ahmet Mahmut Ünlü, Ekmel nəşriyyatı, İstanbul, 1998, səh. 168

13) İmam-ı Kevseri, *Nazratün Abira*, səh. 44-49; *Nüzul-i Mesih Risalesi*, Ahmet Mahmut Ünlü, Ekmel nəşriyyatı, İstanbul, 1998, səh. 167-168

14) İbn-i Kesir, 1/578-582; Avnü'l Mabud, 11/457-464; *Nüzul-i Mesih Risalesi*, Ahmed Mahmud Ünlü, Ekmel nəşriyyatı, İstanbul, 1998, səh. 166

15) Sünen-i İbn-i Mace, 10/338

16) *Mukaddime*, İbni Haldun, MEB Şark Islam Klasikleri, 2-ci cild, səh. 137-139

17) http://www.ahl-ul-bayt.org/Turkish/Books/04_adlet/002.htm

18) Said Havva, A.g.e., 9: 445

19) *Nazmü'l-mütenasir fi'l-hadisi'l-mütevatir*, el-Kettani Ebu'l-Fayd Muhammed b. Ca'fer el-Hasani, Halep, səh. 147; *İslam İnancı Açısından Nüzul-i İsa Meselesi*, Dr. Zeki Sarıtoprak, Çağlayan nəşriyyatı, İzmir, 1997, səh. 108

20) *İlmü'l-Kelam*, İbn Hazm, səh. 56-57; *İslam İnancı Açısından Nüzul-i İsa Meselesi*, Dr. Zeki Sarıtoprak, Çağlayan nəşriyyatı, İzmir, 1997, səh. 53

21) Suyuti, *el-Havi*, el-Arful Verdi fi Ahbaril Mehdi risalesi, 2/161; *Nüzul-i Mesih Risalesi*, Ahmed Mahmud Ünlü, Ekmel nəşriyyatı, İstanbul, 1998, səh. 120

22) Osmanlıca-Türkçe Ansiklopedik Büyük Lügat, Türdav, İstanbul, 2000, səh. 274

23) Osmanlıca-Türkçe Ansiklopedik Büyük Lügat, Türdav, İstanbul, 2000, səh. 896

24) http://www.shrc.org/books/hr.20year/ hr6.htm

25) *Britannica Encyclopedia 2000*, "The blast of World War II"

26) *Restless Earth*, H.J.de Blij, M.H.Glantz, S.L.Harris, The National Geographic Society, 1997, səh. 8

27) *Chronicle of 20th Century*, Dorling Kindsey Publishing, New York, 1995, səh. 1214

28) http://www.ihh.org/multeciler.php

29) http://users.erols.com/mwhite28/war-1900.htm

30) *Bilim ve Teknik Dergisi*, dekabr 2001, səh. 34

31) http://www.oxfam.org.hk/english/resource/document/millennium.shtml

32) *UNICEF*, "Children and Poverty: Key Facts", 2000, http://www.unicef.org/copenhagen5/factsheets.htm

33) *Manufacturing Dissent*, "World Statistics - The Rich and the Poor", 1999, http://www.reagan.com/HotTopics.main/HotMike/document-8.13.1999.6.html

34) *UNICEF*, "Children and Poverty: Key Facts", 2000, http://www.unicef.org/copenhagen5/factsheets.htm

35) *FAO*, "The state of food insecurity in the world", 2000, http://www.fao.org/FOCUS/E/SOFI00/sofi001-e.htm

36) Human Development Report 1998, United Nations Development Programme, New York, Eylül 1998- www.oneworld.org/ni/issue310/facts.htm

37) *Manufacturing Dissent*, "World Statistics - The Rich and the Poor", 1999, http://www.reagan.com/HotTopics.main/HotMike/document-8.13.1999.6.html

38) ntvmsnbc, 7 iyun 2003; http://www.gezegenimiz.com/NewsTopic.asp?KategoriAdi=A%C3%A7l%E2%80%BAk&idKategori=2

39) *Radikal qəzeti*, 23 sentyabr 2003; http://www.radikal.com.tr/2000/09/23/ekonomi/01tur.shtml

40) *Akşam qəzeti*, 2 fevral 2003; http://www.aksam.com.tr/arsiv/aksam/2003/02/02/ozgurplatform/ozgurplatformprn4.html

41) *Time*, 6 fevral 1995, "Economic Aftershock"

42) *US Geological Survey National Earthquake Information Center*, "Earthquake Facts and Statistics", 2000, http://wwwneic.cr.usgs.gov/neis/eqlists/eqstats.html http://wwwneic.cr.usgs.gov/neis/bulletin/1999_stats.html

43) U.S. Geological Survey (ABŞ Geoloji Araşdırma Təşkilatı) http://neic.cr.usgs.gov:1711/neis/eqlists/

44) *National Climatic Data Center*, "Billion Dollar U.S. Weather Disasters", oktyabr 2000, http://www.ncdc.noaa.gov/ol/reports/billionz.html

45) M. Encarta Encyclopedia 2000, "Central America"

46) http://www.stvincent.ac.uk/Resources/Weather/Severe/index.html

47) http://www.stvincent.ac.uk/Resources/Weather/Severe/oct87.html

48) http://www.stvincent.ac.uk/Resources/Weather/Severe/index.html

49) *2003 Dünya Almanak*, Dünya nəşriyyatı, səh. 395

50) *United Nations Office for Drug Control and Crime Prevention*, Global Report on Crime and Justice, 1999, http://www.uncjin.org/Special/GlobalReport.html

51) WHO, "Young People and Sexually Transmitted Diseases", Fact sheet no: 186, dekabr 1997; http://www.who.int/inf-fs/en/fact186.html

52) *WHO*, "Report on the Global HIV/AIDS Epidemic", iyun 2000, http://www.unaids.org/epidemic_update/report/Epi_report.htm#aids

53) *WHO*, "Report on the Global HIV/AIDS Epidemic", iyun 2000, http://www.unaids.org/epidemic_update/report/Epi_report.htm#aids

54) UNESCO Statistical Yearbook, 1997- http://www.education.nic.in/htmlweb/arhrne.htm

55) *21. Yüzyıla Girerken Dünyaya Yeni Bir Bakış*, Erol Yarar, Müsiad nəşriyyatı, İstanbul 1996, səh. 24; http://www.basarm.com.tr/yayin/malihukuk/bilgitoplumu/01.htm

56) *2003 Dünya Almanak*, Dünya nəşriyyatı, səh. 263

57) M. Encarta Encyclopedia 2000, "Aging"

58) United Nations Population Division, Department of Economic and Social Affairs, The Ageing of the World's Population, 2000, http://www.un.org/esa/socdev/ageing/agewpop.htm

59) *Time*, 7 aprel 1997, "The lure of the cult"

60) *Britannica CD 2000,* "From Year in Review 1993: Chronology"

61) *Time*, 17 oktyabr 1994, "In The Reign Of Fire"

62) *The Guardian*, 29 mart 2000, "Grim evidence of worst cult slaughter"

63) *CNN*, "Jonestown, 1978", http://www.cnn.com/SPECIALS/1999/century/episodes/08/timelines/headlines/infoboxes/jonestown.html

# Biblioqrafiya


– *Ahir Zaman Mehdisinin Alametleri (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman),* Ali Bin Hüsameddin El Muttaki, tərcüməçi: Müşerref Gözcü, Kahraman Neşriyyat kitab evi, İstanbul

– *Beklenen Mehdi Hakkında Tüm İslam Alimlerinin Görüşleri*, Hayrettin Gümüşel, genişləndirilmiş 3-cü nəşr, Köprü nəşriyyatı, İstanbul

–*Beklenen Mehdi'nin Alametleri (El Kavlul Muhtasar Fi Alamatil Mehdiyyil Muntazar)*, Ahmed İbn-i Hacer-i Mekki (Heytemi), tərcüməçi: Müşerref Gözcü, Kahraman Neşriyat kitab evi, İstanbul

–*Büyük Hadis Külliyatı (Cem'ul-fevaid min Cami'il-usul ve Mecma'iz-zevaid)*, İmam Muhammed bin Muhammed bin Süleyman er-Rudani, tərcüməçi: Naim Erdoğan, İz nəşriyyatı, İstanbul

–*Chronicle of 20th Century*, Dorling Kindsey Publishing, New York, 1995

–*Dünya Almanak 2003*, Dünya nəşriyyatı, İstanbul

–*El-Esas Fi's-Sünne, İslam Akaidi*, Said Havva, Aksa nəşriyyat marketinq, İstanbul, 1992

–*El-Müstedrek ale's-Sahihayn, en-Nisaburi*, Muhammed b. Muhammed el-Hakim, I-IV, Haydarabad 1334-1341/1916-1923

–*El-Müsned*, Ahmed b. Muhammed b. Hanbel, IVI, Kahire, 1313

–*Et-Tac Hadis Kitabı*, Şeyh Mansur Ali Nâsıf el-Hüseyni

–*Esme-l Mesalik Lieyyam-il Mehdiyy-il Meliki Li Küll-id Dünya Biemrillah-il Malik*, Kelde bin Zeyd (Esrarname'den, www.hamim.sayfasi.com)

–*En-Necmu's-sakıb fi Beyanı Enne'l Mehdi min Evladı Ali b. Ebi Talib Ale't-Temam ve'l kamal*, Ukayli, əl yazması, bu əsəri Süleymaniye kitabxanasında tapmaq olar. (Yeri: Laleli 679/29)

–*Faslu'l-Makal fi Ref'l İsa Hayyen ve Nüzulihi ve Katlihi'd-Deccal*, Muhammed Halil Herras, Mektebetü's Sünne, Kahire, 1990

–*Fera İdu Fevaidi'l Fikr Fi',l İmam El-Mehdi El-Muntazar*, Mer'iy b. Yusuf b. Ebi bekir b. Ahmet b. Yusuf el-Makdisi, əl yazması, bu əsəri Süleymaniye kitabxanasında tapmaq olar. (Yeri: Esad Efendi 1446/92-114)

–*Fıkh-ı Ekber*, Ebu Hanife, Nu'man b. Sabit (150/767), tərcüməçi: H. Basri Çantay, Ankara, 1982

–*Fi Zılal'il-Kur'an'da Kıyamet Alametleri*, Ahmed Faiz, tərcüməçi: Dos. Dr. Veli Ulutürk, Uysal kitab evi, Konya, 1993

-*Hadislerle Kur'an-ı Kerim Tefsiri*, İbn Kesir, tərcüməçilər: Dr. Bekir Karlığa, Dr. Bedrettin Çetiner, Çağrı nəşriyyatı, İstanbul, 1994

-*İkdud-Durer fi Ahbaril-Muntazar*, Yusuf b. Yahya b. Ali el Makdisi eş-Şafii, əl yazması, bu əsəri Süleymaniye kitabxanasında tapmaq olar. (Yeri: Laleli ktp.623)

-*İsafur Ragibin*, Muhammed Bin Ali Es-Sabban El- Mısri El-Şafi, Süleymaniye kitabxanası

-*Kenzul Ummal fi Süneni'l-Akval ve'l-Ef'al*, Ali Bin Muttaki, Süleymaniye kitabxanası

-*Kıyamet Alametleri*, Muhammed B. Resul Al-Hüseyni El Berzenci, tərcüməçi: Naim Erdoğan, Pamuk nəşriyyatı, genişləndirilmiş 7-ci nəşr, İstanbul, 1991

-*Kıyamet Alametleri*, İsmail Mutlu, Mutlu nəşriyyatı, İstanbul, 1996

-*Kitabul Fiten*, Nuaym b. Hammad, əl yazması, bu əsəri Süleymaniye kitabxanasında tapmaq olar. (Yeri: Atıf efendi kitabxanası no. 602)

-*Kurtlar Sofrasında Ortadoğu*, M. Necati Özfatura, Adım nəşriyyatı, İstanbul

-*Küçük ve Büyük Alametleriyle Kıyamet Yaklaşıyor!*, Dr. İzzeddin Hüseyin, tərcüməçi: Ömer Dönmez, Pamuk nəşriyyatı, İstanbul, 2001

-*Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi*, Prof. Dr. İbrahim Canan, Akçağ çap nəşriyyat marketinq MMC, Ankara

-*Mehdi ve Deccal*, Şaban Döğen, Gençlik nəşriyyatı, İstanbul, 1996

-*Mektubat-ı Rabbani*, İmam-I Rabbani, tərcüməçi: Abdulkadir Akçiçek, Erhan Yayım-dağıtım, İstanbul

-*Mukaddime*, İbni Haldun, MEB Şark İslam Klasikleri

-*Nazmu'l Mutenasir mine'l-Hadisi'l-Mütevatir,* El-Kettani, Muhammed b. Ebi'l-Feyz Mevlana Ca'fer el-Haseni el-idrisi, Daru'l-Kütübi'l-ilmiyye, Beyrut 1983

-*Nüzul-i Mesih Risalesi*, Ahmet Mahmut Ünlü, Ekmel nəşriyyatı, İstanbul, 1998

-Osmanlıca-Türkçe Ansiklopedik Büyük Lügat, Türdav, İstanbul, 1997

-*Ölüm Kıyamet ve Ahiret*, Sıddık Naci Eren, Demir kitab evi, İstanbul, 1995

-Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, İmam Şarani, Bedir nəşriyyatı, İstanbul

*Ölüm, Kıyamet ve Diriliş*, İmam-ı Şarani, tərcüməçi: Naim Erdoğan, Pamuk nəşriyyatı, İstanbul, 1990

-*Peygamberimiz (a.s.)'in Dilinden Geleceğin Tarihi 1-2-3-4*, Orhan Baytan, Mevsim nəşriyyatı, 5-ci nəşr, İstanbul, 2001

-*Ramuz-El Ehadis*, Ahmed Ziyaüddin Gümüşhanevi, tərcüməçi: Abdülaziz Bekkine, Gonca nəşriyyatı, İstanbul 1997

-*Restless Earth*, H.J.de Blij, M. H. Glantz, S. L. Harris, The National Geographic Society, 1997

-*Risale-i Nur Külliyatı*, Bediüzzaman Said Nursi, Nesil çap və nəşriyyat, İstanbul,1986

-*Risalet-ül Huruc-ül Mehdi*, Mustafa Reşid Filizi (mikrofilmlərdən tərcümə edilmişdir)

-*Risaletül-meşreb el-verdi fi mezhebil-Mehdi*, Ali b. Sultan Mupammed el-Kari el-hanefi, əl yazması, bu əsəri Süleymaniye kitabxanasında tapmaq olar. (Yeri: Esad Efendi 1446/71-96)

-*Riyaz'üs Salihin*, İmam Nevevi, tərcüməçi: İhsan Özkes, Kahraman nəşriyyatı, İstanbul

-*Ruhu'l-Meani fi Tefsiri'l-Kur'ani'l-Azim ve's-Seb'il-Mesani*, Alusi, Şuhabuddin es-Seyyid Mahmud, Daru ihyai't-Turasi'l-Arabi, Beyrut 1985

-*Sahih-i Buhari*, tərcüməçi: Konyalı Mehmed Vehbi, Üçdal nəşriyyatı, İstanbul, 1993

-*Sahih-i Müslim Tercüme ve Şerhi*, tərcüməçi: Ahmed Davudoğlu, Sönmez nəşriyyatı, İstanbul, 1980

-*Sahih-i Müslim ve Tercemesi*, tərcüməçi: Mehmed Sofuoğlu, İrfan nəşriyyatı, İstanbul, 1972

-*Son Zamanlarla İlgili Hadisler*, Muhammet Sevgili, Hasan Akdağ, Tekin kitab evi, Konya

-*Sünen-i İbni Mace Tercemesi ve Şerhi*, tərcüməçi: Haydar Hatipoğlu, Kahraman nəşriyyatı, İstanbul, 1983

-*Taberi Tefsiri*, İmam Taberi, İhtisar ve Tahkik: Prof. Dr. Muhammed Ali es-Sabuni, Prof. Dr. Salih Ahmed Rıza, tərcüməçi: Mehmet Keskin, Akide nəşriyyatı, İstanbul

-*Yüce Kur'an'ın Çağdaş Tefsiri,* Prof. Dr. Süleyman Ateş, Yeni Ufuklar nəşriyyatı, İstanbul, 1991

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı “Nəzəriyyənin qarşısında duran çətinliklər” başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır.

Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan

marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş verمədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi

dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə

üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər.

Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah’ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların

toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

# Arxa üz qabığı

Həzrəti İsa (ə.s)-ın qiyamətdən əvvəlki dövrdə yenidən dünyaya gələcəyi, Quranda və hədislərdə bildirilir. Həm xristian, həm də müsəlman aləmi tərəfindən inanılan və gözlənilən bu böyük möcüzə ilə, dünyadakı bütün zülm və haqsızlıqlar bitəcək, yer üzü sülh, bərəkət və ədalətlə dolacaq.

Bu kitabda, hz. İsa (ə.s)-ın yer üzünə gəlməsi mövzusunda İslami mənbələrdə qeyd olunan əlamətlər və bunların dövrümüzdə necə bir-bir reallaşdıqları araşdırılmışdır. Kitab boyu mövzu götürülən bu əlamətlərə şahidlik edənlər, Allahın icazəsi ilə, hz. İsa (ə.s)-ın gəlişinin yaxınlaşdığına ümid edə bilərlər.

Lakin bundan əvvəl, dünyanın belə böyük bir hadisəyə sosioloji səviyyədə də hazırlandığına işarə etmək lazımdır. Son iki əsrdə bəşəriyyətin üst-üstə yaşadığı hadisələr zənciri, bütün dünyada, insanların şüur altında və ya bəzən daha da aydın şəkildə, bir "xilaskar" gözləməsini artırmışdır. Materialist fəlsəfəyə əsaslanan ideologiyaların və həyat tərzlərinin insanları qurtara bilmədiyi, əksinə fəlakətlərə və mənasızlığa sürüklədiyi görülmüşdür və din əxlaqına yönəliş sürətlə artır. Bunun, hz. İsa (ə.s)-ın qayıdış əlamətlərinin bir-bir reallaşdığı bir dövrə təsadüf etməsi də, şübhəsiz ki, çox mənalıdır.

Hz. İsa (ə.s)-ın qayıdışı ilə əlaqədar əlamətlərin nələr olduğu, hədislərdə təfsilatlı şəkildə bildirilib. Həmçinin İncildə qeyd olunan hz. İsa (ə.s)-ın gəlişinin əlamətləri də hədislərdə bildirilən xəbərlərlə bənzəyir.

Kitab boyunca görüləcəyi kimi, bir çox əlamətin, ard-arda və həmişə eyni dövr içərisində reallaşması, şübhəsiz ki, hz. İsa (ə.s)-ın gəlişinin xeyli yaxınlaşmış olmasının mühüm göstəricisidir.

Unutmamaq lazımdır ki, bu kitabda araşdırdığımız hər bir əlamət bizə çox mübarək bir dövrdə yaşadığımızın xatırladıcısıdır. Əsrlərdir gözlənilən bu tarixi müjdə (Allahın icazəsi ilə) gerçəkləşmək üzrədir. Həmçinin bu vəziyyət, səmimi iman gətirən bütün insanlar üçün böyük şövq və həyəcan mənbəyidir. Rəbbimizin istəməsiylə, hz. İsa (ə.s)-ın gəlişi, həqiqi din əxlaqının bütün dünyaya yayılmasına, səmimi iman gətirənlərin təhlükəsizliyə qovuşmasına vəsilə olacaq. Bütün iman gətirənlər kimi, bizim də arzumuz, Rəbbimizin bizi hz. İsa (ə.s) ilə qarşılaşma şərəfinə nail etməsi və onun gəlişindən əvvəlki bu dövrdə, mübarək qonağımızı qarşılamaq üçün ən gözəl şəkildə hazırlıq görməyimizi bizə nəsib etməsidir.